Gəncə Dövlət Universitetinin

İnstitusional akkreditasiya qiymətləndirilməsi üzrə Akkreditasiya Komissiyasının

# YEKUN HESABATI

2024-cü il

## AKKREDİTASİYA KOMİSSİYASININ TƏRKİBİ

**Sədr**

| | |
|---|---|
| Namazov Sübhan Nadir oğlu | Azərbaycan Texniki Universiteti, Elm və innovasiyalar üzrə prorektor, texnika elmləri doktoru, professor |

**Üzvlər**

| | |
|---|---|
| Mustafayev Vüqar Sabir oğlu | Mingəçevir Dövlət Universiteti, Elm və innovasiyalar şöbəsinin müdiri, dosent, texnika üzrə fəlsəfə doktoru |
| Quliyev Samir Fikrət oğlu | Bakı Mühəndislik Universiteti, Dövlət və bələdiyyə idarəetməsi kafedrasının müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent |
| Qalib Şərifov Mövsüm oğlu | Azərbaycan Dövlət Pedaqoji Universiteti, Keyfiyyətin təminatı şöbəsinin müdiri, Fizikanın tədrisi texnologiyası kafedrasının dosenti, fizika üzrə fəlsəfə doktoru |
| Əsədova Şəbnəm Fəxrəddin qızı | Azərbaycan Dövlət Pedaqoji Universiteti, Kimya və biologiya fakültəsi, Biologiya və onun tədrisi texnologiyası kafedrasının dosenti, biologiya üzrə fəlsəfə doktoru |
| Bədəlov Bəxtiyar Laçın oğlu | Azərbaycan Texniki Universiteti, Tədqiqat və inkişaf şöbəsinin müdiri |
| Abışova Mədinə Həsən qızı | Azərbaycan Dövlət Aqrar Universiteti, Keyfiyyət təminatı və strateji inkişaf şöbəsinin müdiri, Ekologiya kafedrasının əvəzçiliklə assistenti |
| Musalı Namiq Seyfulla oğlu | Kastamonu Universiteti, Tarix bölümü, professor, tarix üzrə fəlsəfə doktoru |
| Qaçabəyova Faina Adil qızı | Xəzər Universiteti, Təhsil departamenti, saathesabı müəllim, doktorant |
| İsayeva Fərqanə Abbas qızı | Adakemik Zərifə Əliyeva adına liseyin direktoru |
| Kərimov Elcan Eldəniz oğlu | Azərbaycan Dövlət Aqrar Universiteti, Aqronomluq fakültəsi, Bitkiçilik ixtisası, magistrant. |

**Giriş**

**Qiymətləndirilən təhsil müəssisəsinə dair məlumatlar**

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Gəncə Dövlət Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 7 iyun 2016-cı il, Qeydiyyat № 008 5 il müddətinə |
| Təhsil müəssisəsinin rəhbəri | prof. Yusif Əmiralı oğlu Yusibov |
| Fakültələrin sayı | 8 |
| Kafedraların sayı | 31 |
| Bakalavriat səviyyəsi üzrə ixtisasların sayı | 44 |
| Magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 36 ixtisas (69 ixtisaslaşma) |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 12 |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | Təhsilalan sayı<br>Bakalavriat: 7301<br>Magistratura: 572<br>Doktorantura: 73<br>Elmlər doktorluğu proqramı üzrə: 18 |
| Ştatdakı professor-müəllim heyətinin sayı | 583 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | Əvəzçilik: 16<br>Saathesabı: 25 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | info@gdu.edu.az,<br>+994222667033 |
| Müəssisənin hüquqi ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |
| Müəssisənin faktiki ünvanı | Gəncə şəhəri, Heydər Əliyev prospekti, 429 |

## Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri

## Qiymətləndirmənin icmalı

Gəncə Dövlət Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) F-181 nömrəli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Qiymətləndirmənin məqsədi təhsil müəssisəsinin fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə uyğunluğunun yoxlanılması məqsədilə aparılan və təhsil müəssisəsinin statusunun, hər bir ixtisas (proqram) üzrə təhsilalanların say həddinin müəyyən edilməsi və onun fəaliyyətinin növbəti müddətə uzadılması üçün hüquqi təminat yaradan proseduru həyata keçirməkdir. Təhsil müəssisəsinin akkreditasiyasına dair müstəqil Akkreditasiya Komissiyası Agentlik tərəfindən təsdiqlənmiş ekspert seçimi proseduruna uyğun seçilmişdir. İnstitusional akkreditasiya qiymətləndirilməsi prosesi 20 may 2024-cü il tarixindən başlanmışdır. Akkreditasiya Komissiyası tərəfindən sahə baxışı 20 – 24 may 2024-cü il tarixində həyata keçirilmişdir. Akkreditasiya Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir:

**Təhsil müəssisəsinin akkreditasiya qiymətləndirilməsinin nəticələri**

# 1. STRATEJİ İNKİŞAF

## 1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri

### 1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında qeyd edilir ki, "2016-2020-ci illər üçün Strateji İnkişaf Planı" rektorun 30.12.2015-ci il tarixli əmri ilə yaradılmış komissiya tərəfindən hazırlanmış və 3 əsas istiqaməti əhatə etməklə GDU-nun Elmi Şurasında 29.02.2016-cı ildə təsdiq olunmuşdur. Pandemiya müddətində mövcud vəziyyət ilə əlaqədar olaraq 2016-2020-ci illəri əhatə edən "Strateji İnkişaf Planı"nda nəzərdə tutulan fəaliyyətlərin bir qismi icra edilməmişdir. Lakin sənədlərdə və Özünütəhlil Hesabatında real olaraq SİP-də nəzərdə tutulan hansı məqsəd və hədəflərə nail olunmadığı barədə müfəssəl məlumat verilməmişdir. Komissiyanın araşdırması zamanı müəyyən edilmişdir ki, 5 illik, yəni orta dövr üçün SİP hazırlansa da, sənədlərdə qısamüddətli dövr üçün SİP-nin hazırlanması barədə məlumatlar əksini tapmamışdır.

### 1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında SİP-də nəzərdə tutulan məqsəd və hədəflərə tam nail olmaq üçün GDU EŞ-nin 28.12.2021-ci il tarixli qərarı və rektorluğun 30.12.2021-ci il tarixli müvafiq əmrinə əsasən mövcud "Strateji Plan"ın müddəti 2022-ci ilin sonuna qədər uzadıldığı qeyd edilmişdir. Lakin EŞ-in qərarı və ya rektorluğun qeyd olunan əmrində indiyədək hansı hədəflərə nail olunmadığı və gələcəkdə hansı hədəflərə nail olunacağı barədə fəaliyyətlər və alınacaq nəticələr barədə məlumat və müddəalar göstərilməmişdir. GDU Elmi Şurasının 09.12.2022-ci il tarixli qərarı və rektorluğun 13.12.2022-müvafiq əmri ilə 2023-2028-ci illəri əhatə edən 7 əsas istiqamətdən ibarət "Strateji Plan" təsdiq edilmişdir. Komissiya tərəfindən hər iki Strateji İnkişaf Plan müqayisə edildiyi zaman universitetin bir sıra strateji fəaliyyət və hədəflərinin məzmunca demək olar ki, eyni olması müşahidə olunmuşdur. Belə ki, "2016-2020-ci illər üçün Strateji İnkişaf Planı"nda Məqsəd 2-nin Alt məqsəd və Fəaliyyətləri 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında Məqsəd 1-in Strateji hədəf və Strateji fəaliyyətləri ilə əsasən eyni olması, 2016-2020-ci illər üçün Strateji İnkişaf Planı"nda Məqsəd 1-in 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında Məqsəd 7 ilə məzmunca demək olar eynilik təşkil etməsi müşahidə edilmişdir.

### 1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu

Təqdim olunan SİP-də yeni dövr təhsil mühitini, xüsusilə pandemiyadan sonrakı dövrdə ali təhsilin, əmək bazarının və cəmiyyətin qarşısında qoyulan məqsəd və vəzifələr barədə hər hansı fəaliyyətlər və missiyalara aid müddəalar əksini tapmamışdır.

### 1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu

2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da universitetin missiyası, “Gəncə Dövlət Universiteti təlim, tədris və tədqiqat sahələrində keyfiyyətli və innovativ xidmətlər göstərir” olaraq qeyd edilmişdir. SİP-də Məqsədlər aşağıdakı kimi müəyyən edilmişdir:

- Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq;
- Elmi tədqiqatları inkişaf etdirmək;
- İnnovasiya və sahibkarlığın inkişafını dəstəkləmək;
- Beynəlmiləl universitetə çevrilmək;
- Müasir idarəetmə sistemi qurmaq və təkmilləşdirmək;
- Dayanıqlı inkişafı təşviq etmək;
- Keyfiyyətin təminatı sistemini təkmilləşdirmək və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq.

Komissiya tərəfindən yuxarıda qeyd edilən məqsədlərə çatmaq üçün SİP-də göstərilən fəaliyyətlərin qismən uyğunluq təşkil etdiyi müəyyən edilmişdir. Müsahibələr zamanı və təqdim olunan SİP-də Məqsəd 1-də verilən *“Müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrətmə mühiti yaratmaq*” fikri əsasən ağıllı lövhələrin olması və multimedia vasitələrindən istifadə kimi cavablandırılmışdır. Eyni zamanda elmi tədqiqatları inkişaf etdirmək məqsədi istiqamətində maliyyə və digər resursların inkişaf etdirilməsi ilə bağlı hər hansı məlumatlar müəyyən edilməmişdir.

Beynəlmiləl universitetə çevrilmək məqsədi ilə bağlı vacib komponentlər olan xarici müəllimlərin (cəmi 1 nəfər) və əcnəbi tələbələrin universitetə cəlb olunması üçün hər hansı fəaliyyət və mexanizmlər müəyyən edilməmişdir. Bununla bağlı yalnız Beynəlxalq layihələrə tərəfdaş olaraq qoşulmaq üçün təşəbbüslər olmuşdur. Beləliklə, Komissiyanın araşdırmaları və müsahibələr nəticəsində SİP-də qeyd edilən hədəflərə çatmaq üçün ciddi mexanizmlər müəyyən edilməmişdir.

### 1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi

GDU-nun SİP-də (2016-2020-ci illər üçün) nəzərdə tutulan gələcəyə baxışı “*təlim, tədris və tədqiqat sahələrində keyfiyyət göstəricilərinə görə beynəlxalq səviyyədə tanınan bir universitetə çevriləcək*” kimi müəyyən edilmişdir. Lakin GDU-nun SİP-nin müvafiq məqsədlərində hər hansı *beynəlxalq səviyyədə tanınan universitet məqsədi deyil*,

- *Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, keyfiyyət sistemini yaratmaq və prosesləri müasir standartlara və təlimatlara uyğunlaşdırmaq;*
- *Təhsilverənlərin peşəkarlıq səviyyəsini yüksəltmək və müasir təlim texnologiyalarının tətbiqi ilə tələbələr və müəllimlər üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq;*
- *Universiteti təhsil-tədqiqat mərkəzinə çevirmək, sahibkarlıq mədəniyyətini formalaşdırmaq, iqtisadi inkişafı sürətləndirmək və cəmiyyətə fayda vermək üçün universitetin akademik və elmi tədqiqat fəaliyyətlərini yaxşılaşdırmaq.*

kimi məqsədlərə nail olmaq müddəaları əksini tapmışdır. Beləliklə, qeyd edilən strateji baxışla, məqsəd və hədəflər arasında uyğunsuzluqların mövcud olması müşahidə edilmişdir. Bu uyğunsuzluqlar müsahibələr və sahə baxışı zamanı da Komissiya tərəfindən təsdiqlənmişdir.

### 1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması

ÖH-da qeyd edilir ki, *"2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlər Fəaliyyət Planında öz əksini tapmışdır"*. Sənədin təhlili və müsahibələr zamanı müəyyən edilmişdir ki, Fəaliyyət Planında tədbirlər ümumi şəkildə bütün dövr üçün nəzərdə tutulmuşdur. Qısa və uzunmüddətli bölgü barədə məlumatlara rast gəlinməmişdir.

### 1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi

SİP üzrə universitetdə yerinə yetirilən fəaliyyətlərin nəticələrinin müəyyən edilməsi zamanı həm müsahibələrdə, həm də universitetin akademik və inzibati strukturlarının bu istiqamətdəki fəaliyyətlərinə sahə baxışı nəticəsində Akkreditasiya Komissiyası müəyyən etmişdir ki, SİP-də keyfiyyət göstəricilərinin müəyyən edilməsi üçün bir sıra fəaliyyətlər öz əksini tapmışdır. Məsələn, 2023-2028-ci illərdə SİP-də Məqsəd 1-də 1.1-1.6 bəndlərində tədris və təlimdə keyfiyyət göstəricilərinin artırılması, Məqsəd 7-də keyfiyyət təminatı sisteminin təkmilləşdirilməsi üçün fəaliyyətlər göstərilmişdir. Lakin fəaliyyətlərin kəmiyyətcə qiymətləndirilməsi üçün ölçüləbilən indikatorlar qənaətbəxş səviyyədə nəzərdə tutulmamışdır. Belə ki, nəticə indikatorları olaraq "*mövzu ilə bağlı keçirilmiş təlimlərin sayı", "mövzu ilə bağlı yaradılmış strukturların sayı*", *"... günlərin sayı", "... işlərin sayı"* və s. kimi nəticə indikatorlarının nəzərdə tutulması müvafiq fəaliyyətin keyfiyyət göstəricilərinin müəyyən edilməsinə və hər hansı baza məlumatı ilə müqayisə olunaraq kəmiyyətcə ölçülməsinə imkan vermir.

### 1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti

Özünütəhlil Hesabatında 1.1.8 indikatoru bir cümlə *ilə "... nəzərdə tutulmuş fəaliyyətlərin icrası üçün resurslar Fəaliyyət Planında "İcraçı qurumlar" adlı başlıqda əks olunub*" kimi qeyd edilmişdir. Sahə səfəri və Komissiyanın təhlili zamanı belə qənaətə gəlinmişdir ki, 2016-2020-ci ilər üçün Strateji Planın yerinə yetirilməsi üçün Fəaliyyət Planı formal olaraq yeni dövrdə hazırlanmışdır. Möhürdə "*Elm və Təhsil Nazirliyi*" qeyd edilməsi təsdiq edir ki, bu sənəd SİP-in hazırlanması zamanı deyil, son dövrlər hazırlanaraq təqdim edilmişdir. 2023-2028-ci illər üçün olan Strateji Planın yerinə yetirilməsi üçün Fəaliyyət Planında İcraçı qurumlar və yerinə yetirilmə müddəti formal olaraq müvafiq vəzifələri göstərməklə (2023-2028-ci illər SİP-in yerinə yetirlməsi üçün FP-da cədvəlin 5-ci sütunu) tərtib edilmişdir. Lakin SİP-də nəzərədə tutulmuş fəaliyyətlərin yerinə yetirilməsi üçün maliyyə resurslarının ayrılması nəzərdə tutulmamışdır. Hər hansı ölçü indikatorları və gözlənilən nəticələr barədə müddəalar nəzərə alınmamışdır. GDU-nun SİP-də nəzərdə

tutulan fəaliyyətlərinin yerinə yetirilməsi üçün infrastruktur imkanları, universitetin bir sıra sahələrdə, xüsusilə, müəllim hazırlığı sahəsində kadr potensialı mövcuddur.

### 1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti

Sahə səfəri zamanı müəyyən edilmişdir ki, universitet büdcəsində bilavasitə SİP-də nəzərdə tutulan fəaliyyətləri dəstəkləmək üçün maliyyə vəsaitlərinin ayrılması barədə məlumatlar əksini tapmamışdır və müsahibələrdə də belə vəsaitin ayrılması barədə hər hansı təsdiqedici fikir bildirilməmişdir. GDU tərəfindən maliyyə təminatı ilə bağlı təqdim olunan sənəddə də SİP-in maliyyə təminatı barədə hər hansı müddəanın nəzərdə tutulmaması müşahidə edilmişdir.

### 1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti

Təqdim edilən SİP-də sosial məsuliyyət və elmi yeniliklərin cəmiyyətə necə transfer edilməsi barədə müddəalar əksini tapmamışdır. Lakin təqdim edilən 2023-2028-ci illər üzrə SİP-də elmi əqli potensialın artırılması üçün fəaliyyətlər nəzərdə tutulmuşdur. SİP-də Məqsəd 2-nin 2.2 bəndində - Elmi-əqli potensialın gücləndirilməsi barədə müddəa qeyd edilib. Lakin akkreditasiyanın aparıldığı dövrün 2016-2023-cü illəri üçün əqli mülkiyyətin qorunması məqsədilə fəaliyyətlər barədə Gəncə Dövlət Universitetinin 2016-2020-ci illər üçün SİP-də konkret müddəalar əksini tapmamışdır. 2023-2028-ci illər üzrə SİP-da əqli mülkiyyətin qorunmasına dəstək barədə müddəa yer almışdır.

### 1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması

Hesabat dövrünü əhatə edən mövcud iki SİP-in təhlili nəticəsində, sənədlərin məzmunca çox oxşar və eyni xüsusiyyətə malik olduğu müəyyən edilmişdir. Özünütəhlil Hesabatında əvvəlki dövrü əhatə edən SİP-də icra olunmayan müddələrın nəzərə alınması qeyd edilmişdir. Amma bu müddəaların təfsilatı göstərilməmiş və müsahibələr zamanı ciddi arqumentlər müəyyən edilməmişdir. 2023-2028-ci illəri əhatə edən SİP-də əvvəlki illərdə icra barədə fəaliyyətlər və strukturlar haqqında məlumatlar əksini tapmamışdır.

SİP-in hazırlanması zamanı SİP-in əvvəlki illərdə icra vəziyyətinə dair təhlillər və onların nəticələri barədə məlumatlar Özünütəhlil Hesabatında nəzərə alınmamışdır. Sahə səfəri zamanı müsahibələrdə bu istiqamətdə hər hansı müddəalar səsləndirilməmişdir.

### 1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması

Özünütəhlil Hesabatında “*GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ı tərtib edilən zaman GDU EŞ-nın 26.05.2021-ci il tarixli Qərarı ilə təsdiq edilmiş Avropa Təhsil Standartları (ESG) əsasında aparılmış SWOT Analizi nəzərə alınmışdır”* fikri qeyd edilmişdir. Lakin SİP-də universitetin güclü, zəif tərəfləri, imkan və təhdidlər barədə hər hansı müddəa qeyd edilməmişdir.

### 1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, *“..... 2023-2028-ci illəri əhatə edən “Strateji Plan” tərtib edilən zaman GDU EŞ-nın 26.05.2021-ci il tarixli Qərarı ilə təsdiq edilmiş “Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)” adlı sənəd əsasında maraqlı tərəflərin iştirakı təmin edilmişdir*”. Müvafiq sənədin təhlili zamanı Komissiya müəyyən etmişdir ki, “Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)” adlı sənəd mövcud olsa da, sənəddə maraqlı tərəflərin SİP-in hazırlanmasında iştirakı barədə hər hansı məlumat göstərilməmişdir. (Bax sənəd: https://gdu.edu.az/wp-content/uploads/2024/04/GSU-Stakeholder-Mapping-2021.pdf). Belə ki, adı çəkilən sənəddə müvafiq struktur və maraqlı tərəflərin fəaliyyət sahələri və rolları barədə məlumatlar əksini tapmışdır.

### 1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi

GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ı əsasında hazırlanmış “Fəaliyyət Planı”nda əks olunan hər bir məqsəd və fəaliyyətin icrası üzrə məsul olan struktur bölmələr müəyyən edilmişdir. İcraçı kimi nəzərdə tutulmuş struktur və vəzifəli şəxslər daha çox müvafiq fəaliyyət sahələri üzrə ümumi olaraq göstərilmiş, konkretləşdirilməmişdir. Belə ki, əksər icraçı qurumlar olaraq, prorektorlar, kafedralar, fakültələr, müvafiq struktur bölmələr Tədris Departamenti və s. kimi ümumi qeydlər edilmişdir (2023-2028-ci illər SİP-in yerinə yetirlməsi üçün FP-da cədvəlin 5-ci sütunu).

## 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi

### 1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında hər tədris ilinin sonunda fakültə dekanlıqları və kafedralar, həmçinin müvafiq digər sahələr üzrə fəaliyyətlər barədə hesabatların aidiyyatı üzrə departamentlərə və prorektorlara təqdim edildiyi qeyd edilmişdir. Sahə səfəri və müsahibələr zamanı həmin hesabatların ümumi fəaliyyətlər barədə hesabatları əks etdirdiyi müəyyən edilmişdir. SİP-in icrası ilə bağlı dövrü hesabatlar, məsələn yarımillik və illik hesbatların tərtib edilməsi, nəticələri və digər görüləcək işlər barədə məlumatlar təqdim edilməmişdir.

### 1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti

Sahə baxışı zamanı, SİP-də 1.2.1. və 1.2.2. bəndləri üzrə nəzərdə tutulan fəaliyyətlərin GDU-nun müvafiq struktur bölmələri tərəfindən müzakirə olunması barədə sənədlərə universitet elmi şuralarının (2019-2024-cü illər ərzində), fakültə elmi şuralarının və kafedra iclaslarının protokollarında yer verilmədiyi müəyyən edilmişdir. Bu barədə komissiya üzvlərinə təsdiqedici sənədlər təqdim edilməmişdir.

### 1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, *“GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”ının icrasının dövrü (illik) monitorinqi Keyfiyyətin Təminatı Mərkəzi tərəfindən aparılır. Buna dair məlumatlar Keyfiyyətin Təminatı Mərkəzinin illik hesabatında öz əksini*

*tapır*". Lakin ÖH-da KTM-in hesabatının məzmunu haqqında hər hansı məlumat verilməmişdir. Müvafiq hesabatın məzmunu Komissiya tərəfindən təhlil edilərkən hesabatın 5 illik dövrü əhatə etməsi müəyyən edilmişdir. Sənədin məzmunu isə SİP-in icrasını deyil, əsasən ATM-nin akkreditasiya meyarlarına aid müddəalarını əhatə etmişdir. Beləliklə, 2016-2023-cü illəri əhatə edən dövrü (illki) hesabatlar Komissiyaya təqdim edilməmişdir. Dövri (illik) monitorinq və ya hesabatın müzakirə olunması barədə Elmi Şura iclaslarının gündəliyində də müvafiq məsələlər əks olunmamşdır.

### 1.2.4 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinin müzakirəsi vəziyyəti

Özünütəhlil Hesabatında GDU-nun *"2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ının icrasının dövrü (illik) monitorinqinin nəticələri haqqında hazırlanmış hesabat maraqlı tərəflərin əlçatanlığını təmin etmək üçün struktur bölmələr arasında elektron formada və kağız daşıyıcısında paylaşılıb"* ifadəsi qeyd edilmişdir. Lakin Komissiya tərəfindən 2016-2023-cü illər ərzindəki dövrlə əlaqəli Elmi Şura sənədlərinə baxış zamanı və müsahibələr ərzində, bundan əvvəlki 1.2.1. və 1.2.2. bəndlərində göstərildiyi kimi 1.2.3.-1.2.5. bəndləri üzrə də monitorinqin nəticələrinin müzakirəsi, nəticələrin təhlili və maraqlı tərəflər üçün əlçatanlığı barədə məlumatlara rast gəlinməmişdir.

### 1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığı vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında bildirilir ki, *"Strateji Plan"ının icrasının dövrü (illik) monitorinqinin nəticələri haqqında hazırlanmış hesabat maraqlı tərəflərin əlçatanlığını təmin etmək üçün struktur bölmələr arasında elektron formada və kağız daşıyıcısında paylaşılıb.*" Lakin, 1.2.1-1.2.4 bəndlərinin tələblərinə uyğun hesabatlar, monitorinq və nəticələrin müzakirəsi barədə hər hansı ciddi fəaliyyətlər müəyyən edilmədiyi üçün müvafiq tədbirlərin görülməsi barədə müsahibələrdə və sənədlərin təhlili zamanı bu istiqamətdə ciddi faktlara rast gəlinmədi.

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1 Keyfiyyət təminatı siyasəti

#### 2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı

GDU rektorunun 03.07.2023 tarixli 5/183 saylı əmri ilə təsdiq olunmuş "Keyfiyyət Təminatı Siyasəti" sənədi mövcuddur. Bu siyasətin hazırlanmasında maraqlı tərəflərin prosesdə iştirakını təmin etmək üçün Elmi Şuranın 26.05.2021-ci il tarixli qərarı ilə, rektorun 27.05.2021-ci il tarixli əmri ilə təsdiq edilmiş "Maraqlı tərəflərin xəritəsi (Stakeholder mapping)" adlı sənədə istinad olunmuşdur. Lakin bu sənəd maraqlı tərəflər haqqında və onların bu proseslərə təsir səviyyəsi barədə məlumat vermir. “Keyfiyyət Təminatı Siyasəti" sənədinin təsdiq edildiyi EŞ protokolunda maraqlı tərəflərin iştirakını təsdiq edən məlumata rast gəlinməmişdir. Keyfiyyət təminatı siyasəti EŞ üzvlərinin iştirakı ilə qəbul edilmişdir. Prosesə effektiv töhfə vermək üçün 44 ixtisas üzrə kadr hazırlığının həyata keçirildiyini nəzərə alaraq xarici maraqlı tərəf olan işəgötürənlərin də iştirakı tövsiyə edilir.

#### 2.1.2. ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında “Keyfiyyət Təminatı Siyasəti” sənədinin sadə, anlaşılan və icrası mümkün olduğu qeyd edilmişdir. Universitetin saytında Keyfiyyətin Təminatı Mərkəzinin sənədlərinin alt başlığında yerləşdirilən Keyfiyyət Təminatı Siyasəti sənədində 30 dəyərə istinad olunmuşdur - keyfiyyət, etik dəyərlərə sadiqlik, akademik azadlıq, akademik dürüstlük, rasional və tənqidi düşüncə, tələbə oriyentasiyası, insan hüquqları, gender bərabərliyinə həssaslıq, ayrı-seçkiliyin bütün formalarının qarşısının alınması, ədalətli təcrübə və fərdi hörmət, bərabərlik, müasirlik, qərəzsizlik, dürüstlük, doğruluq, təmizlik, tolerantlıq, açıq fikirlilik, qərarlılıq, məsuliyyətlilik, məmnuniyyətlilik, çalışqanlıq, davamlılıq, şəffaflıq, cavabdehlik, həvəsləndirmə, ekoloji maarifləndirmə. Sənədin geniş təhlili zamanı, sənəddə bəzi dəyərlərin məzmun etibarı ilə - təkrarlandığı müşahidə olunur (“Keyfiyyət Təminatı Siyasəti” sənədi, səh. 4). Məsələn, “doğruluq”, “dürüstlük”, “akademik dürüstlük”, “təmizlik” dəyərləri məzmunca yaxındır, “ədalətli təcrübə və fərdi hörmət” dəyərində nəyin nəzərdə tutulduğu məzmun olaraq aydın deyil.

Keyfiyyət Təminatı Siyasəti sənədində əks olunan siyasətin həyata keçirilməsində nəzərdə tutulan fəaliyyət və hərəkətlərin necə icra olunacağı barədə konkret addımlar müəyyənləşdirilməmişdir.

Siyasətin effektiv idarə edilməsi üçün Keyfiyyət Təminatı Siyasətinin təkmilləşdirilməsi, dəyərlərin aydın və başadüşülən şəkildə qruplaşdırılması, nəzərdə tutulan fəaliyyətin icra edilməsi üçün konkret fəaliyyətlərin müəyyənləşdirilməsi tövsiyə edilir.

### 2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi

"Keyfiyyət Təminatı Siyasəti" sənədi bütün struktur vahidlərinə təqdim edilmiş və bu sənəd universitetin rəsmi internet səhifəsində (https://gdu.edu.az/ktm-s%c9%99n%c9%99dl%c9%99r/) yerləşdirilmişdir. Lakin sahə baxışı zamanı müəyyən olunmuşdur ki, GDU-nun professor-müəllim heyəti və tələbələr, habelə digər daxili maraqlı tərəflər ATM-nin keyfiyyət təminatı siyasəti sənədinin məzmunu barədə tam məlumatlı deyillər.

Siyasətlə bağlı digər sənədlər GDU-nun rəsmi internet səhifəsində "Sənədlər" bölməsinin "Siyasət" alt böməsində ardıcıl olaraq yerləşdirilmişdir. Lakin Keyfiyyət Təminatı Siyasəti sənədi isə "Şöbələr" bölməsinin "Keyfiyyət Təminatı Mərkəzi" adlı alt bölməsində "KTM sənədlər" alt başlığında yerləşdirilmişdir. Keyfiyyət Təminatı Siyasətinin ümumilikdə universitetə tətbiq edildiyini nəzərə alaraq, digər siyasət sənədləri ilə birgə, "Siyasət" bölməsində yerləşdirilməsi tövsiyə edilir.

### 2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)

Keyfiyyət Təminatı Siyasəti sənədində 45 hədəf öz əksini tapmışdır:

- Keyfiyyət standartlarına uyğun olaraq keyfiyyət təminatı sisteminin yaradılması,
- Keyfiyyət və standartlarının qorunması, inkişaf etdirilməsi ve daim təkmilləşdirilməsi,
- Keyfiyyət təminatı sistemində bütün maraqlı tərəflərin iştirakını təmin etməklə məmnunluq və sahiblik hissinin inkişaf etdirilməsi,
- Keyfiyyətə təminat prosedurları və üsullarının hazırlanması və tətbiqi üzrə məsləhətlərin verilməsi,
- Keyfiyyət təminatı sisteminin koordinasiyasını və idarə olunmasının maksimum səmərəliliklə təmin edilməsi,
- Universitetin əsas dəyərlərini qorumaq, habelə vizyon və missiyanı hayata keçirmək üçün lazım olan daxili və xarici keyfiyyət təminatı prosedurlarının və təcrübələrinin öyrənilməsi,
- Korporativ sədaqəti gücləndirən daxili və maraqlı tərəflər arasında əlaqələrin inkişaf etdirilməsi,
- Ümumi idarəçiliyin inkişafına və bu idarəçiliyə sadiqliyi təşviq edən yanaşmanın hazırlanması,
- Universitetdə özünə hörmət mədəniyyətinin davamlı olaraq yüksəldilməsinin təmin edilməsi,
- Daxili və xarici strateji fəaliyyət səylərinin keyfiyyətli təhsil, təcrübə və ictimai xidmət üzərində qurulması,
- Daxili və xarici maraqlı tərəflərin gözləntilərinə uyğun olaraq bölmənin strateji planlarının yaradılmasını təşviq etmək,
- İnnovativ təhsil infrastrukturu və texnikasının təmin edilməsi,
- Həyat boyu öyrənmənin təmin edilməsi,

- Tədrisin, öyrənmənin və tədqiqatın effektiv və səmərəli şəkildə həyata keçirilməsinin təmin edilməsi,
- Müasir inkişafları izləyərək, tələbə və müəllimlərin ən yaxşı texnoloji məlumatlardan istifadə etmələrini təmin etməklə təhsilin səmərəliliyinin və effektivliyinin artırılması və s. göstərilmişdir.

Bu hədəflərdə 10 məqsəd təhsilə (22 %), 4 məqsəd elm və tədqiqata (9 %), 12 məqsəd insan resurslarına və idarəetməyə (26 %), 7 məqsəd keyfiyyət təminatına (16%), 4 məqsəd təhsilalanlara (9 %), 4 məqsəd qiymətləndirmə və monitorinqə (9%), 4 məqsəd infrastruktura (9%) aid edilmişdir. Beləliklə, Keyfiyyət Təminatı Siyasəti sənədinin universitetin bütün sahələrini əhatə etdiyi aydın olur.

## 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri

### 2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)

GDU-nun daxili keyfiyyət təminatı sistemi mövcud qanunvericilik və beynəlxalq standartlara uyğun olaraq tənzimlənmişdir. Belə ki, rektorun 03.07.2023 tarixli 5/183 saylı əmri ilə "Keyfiyyət təminatı sistemi haqqında direktiv", "Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirməsi Təlimatı", "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi", 01.12.2023 il tarixli 5/374 saylı əmri ilə "Keyfiyyət mədəniyyəti direktivi" sənədləri təsdiq edilmişdir.

Bu sənədlər universitetin daxili keyfiyyət təminatı sisteminin tərkibini və iş prinsipini müəyyən edir. Universitetdə Keyfiyyət Komissiyası "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası" adlanır və bu komissiyanın tərkibi 3 iyul 2023-cü ildə (5/183 nömrəli əmr) təsdiqlənmişdir. Komissiyanın əsasnaməsinin mövcud olmasına baxmayaraq onun fəaliyyət planı, iş bölgüsü, hesabatları, yoxlama vərəqləri və s. mövcud deyildir. Bütün bunlara baxmayaraq, Keyfiyyət Təminatı Mərkəzinin yalnız 2022/2023-ci, 2023/2024-cü tədris ili üçün iş planı mövcuddur, iş planının yerinə yetirilməsi ilə bağlı hesabat isə iş planı formasının icra vəziyyəti sütununa "tam" yazılmaqla tərtib edilmişdir. Hesabatda qeyd olunan fəaliyyətlərin yerinə yetirilməsi ilə bağlı təsdiqləyici sənədlərə rast gəlinməmişdir.

Keyfiyyət Təminatı Mərkəzinin Əsasnaməsinin 25 sentyabr 2020-ci ildə (Protokol №5) təsdiqlənməsinə baxmayaraq 2016-2022-ci illərdə keyfiyyət təminatı sisteminin vəziyyətini qiymətləndirmək mümkün olmamışdır.

### 2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması

3 iyul 2023-cü il tarixli 5/183 nömrəli qərarla Keyfiyyət Təminatı Komissiyasının təsdiq əmri mövcud olsa da, universitet tərəfindən Akkreditasiya Komissiyasına təqdim edilmiş 25.01.2024-cü il tarixində GDU rektoru tərəfindən təsdiq edilmiş, 2019-2023-cü illər üzrə daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair hesabatda Keyfiyyət Təminatı Komissiyasının yaradılmasının nəzərdə tutulduğu lakin komissiyanın hələlik fəaliyyətə

başlamadığı qeyd edildiyi üçün təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması vəziyyətini qiymətləndirmək mümkün olmamışdır.

### 2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti

25.01.2024 tarixində GDU rektoru tərəfindən təsdiq edilmiş, 2019-2023-cü illər üzrə Daxili Keyfiyyət Təminatı üzrə universitetin fəaliyyətinə dair hesabatda Keyfiyyət təminatı Komissiyasının yaradılmasının nəzərdə tutulduğu qeyd olunmuş, lakin komissiya fəaliyyətə başlamadığı üçün daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğunun qiymətləndirilməsi mümkün olmamışdır.

### 2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması

Daxili keyfiyyət təminatı sisteminin effektiv fəaliyyətini təmin etmək üçün müxtəlif mexanizmlər tətbiq edilir. Bu məqsədlə, təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmləri, yəni planlaşdırma, icra, nəzarət və düzəlişlər prosesini əhatə edən 24 iyun 2023-cü il (EŞ Protokol 9) GDU rektoru tərəfindən təsdiq edilən "Keyfiyyət təminatı sistemi haqqında direktiv" sənədində təsvir edilmişdir. ”PİND” dövrələrinin sistemli və davamlı şəkildə izlənildiyi və təkmilləşdirildiyi 24 iyun 2023-cü il (EŞ Protokol № 9) təsdiq edilmiş "Keyfiyyət təminatı sistemi haqqında direktiv" sənədində qeyd edilmişdir. Lakin sahəyə baxış və müsahibələr zamanı Keyfiyyət Təminatı Siyasətinə və Keyfiyyət Təminatı Mərkəzinin əsasnaməsinə uyğun olaraq daxili keyfiyyət təminatına dair monitorinq yoxlama vərəqlərinə, uyğunsuzluqların qeydiyyatına, onların aradan qaldırılması üçün təkliflərin əks olunduğu təsdiqedici sənədlərə rast gəlinməmişdir.

GDU rektoru  tərəfindən 25 yanvar 2024-cü ildə təsdiqlənən və 2019-2023-cü illəri əhatə edən 5 illik “Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair hesabat” adlı sənəddə bununla bağlı məsələlər müəyyən qədər öz əksini tapmışdır. 24 iyun 2023-cü il (EŞ Protokol 9) GDU rektoru tərəfindən təsdiq edilən "Keyfiyyət təminatı sistemi haqqında direktiv" sənədində qeyd edilmiş PİNT metodu ilə hazırlanmamışdır.

Bununla yanaşı, sahə baxışı zamanı Keyfiyyətin Təminatı Mərkəzinin hazırladığı, rektorun təsdiq etdiyi “Keyfiyyətin Təminatı Mərkəzinin 2022-2023-cü tədris ili üçün hesabatı” sənədi təhlil edildiyi zaman hesabatın 2022-2023-cü il Keyfiyyətin Təminatı Mərkəzinin iş planı quruluşunda olduğu, icra vəziyyəti xanasına “tam” yazmaqla tərtib edildiyi müşahidə edilmişdir.  Bu səbəbdən hesabatların quruluşunun təkmilləşdirilməsi tövsiyə edilir.

**Cədvəl 2.2.4.1** “Keyfiyyətin Təminatı Mərkəzinin 2022-2023 cü tədris ili üçün hesabatı”ndan çıxarış.

| | | | | | |
|---|---|---|---|---|---|
| 4 | Doktoranturaya qəbul prosesinin monitorinqi | Keyfiyyətin Təminatı Mərkəzi, Elm və innovasiyalar üzrə prorektor,kafedra müdiri,fakültə dekanları | Oktyabr 2022-ci il | Nəticələr monitorinq edilmiş və qəbul göstəricilərinin aşağı olması səbəbinin xarici dil imtahanlarından keçilə bilməməsi müəyyən edilmişdir | Tam |
| 5 | Professor-müəllim heyəti tərəfindən hazırlanmış tədris ilinin sonundakı hesabatların təhlili və monitorinqi | Keyfiyyətin Təminatı Mərkəzi,Tədris məsələləri üzrə prorektor, Tədris Metodik Şura,Tədris departamenti,fakültə dekanları | Oktyabr-noyabr 2022-ci il | Görülən işlərin iş planlarına və mövcud standartlara uyğun hesabatlarda əks olunma vəziyyəti yoxlanılmış və müəyyən edilmiş problemlərin aradan qaldırılması tapşırılmışdır | Tam |

### 2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması

Universitetin daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması üçün müəyyən sənədlər nəzərdən keçirilmişdir. Universitetin iş planlarında görüləcək tədbirlər və o tədbirlərə məsul şəxslər göstərilmişdir. Universitetdə daxili keyfiyyət təminatı sistemində məsuliyyətlər və səlahiyyət bölgüsü müəyyən edilmişdir. Məsələn “2023/2024-cü tədris ili üçün Keyfiyyət Təminatı Mərkəzinin İş Planı”nda tədbirlər, məsul strukturlar, icra müddəti, gözlənilən nəticə və qiymətləndirmə göstərilmişdir.

**Cədvəl 2.2.5.1** “2023/2024-cü tədris ili üçün keyfiyyətin təminatı mərkəzinin İş Planı”ndan çıxarış

| № | Görüləcək iş və icra yolları | Məsul struktur və şəxslər | İcra müddəti | Gözlənilən nəticə | Qiymətləndirmə balı | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | 1 | 2 | 3 | 4 | 5 |
| 1.Universitetin keyfiyyət təminatı sisteminin tərkib hissəsi olaraq fənn proqramı, sillabusların və mühazirə mətnlərinin hazırlanmasına nəzarət | | | | | | | | | |
| 1.1 | Kommisiyanın yaradılması | Tədris məsələləri üzrə prorektor,Tədris-Metodik Şura,Tədris departamenti,fakültə dekanları, kafedra müdirləri və müəllimlər | Sentyabr Oktyabr 2023-cü il | Keyfiyyəti yüksəltmək və materiallara əlçatanlığı təmin etmək | | | | | |
| 1.2 | Yoxlamanın təqvim planının hazırlanması | | | | | | | | |
| 1.3 | Yoxlamanın həyata keçirilməsi | | | | | | | | |
| 1.4 | Hesabatın hazırlanması | | | | | | | | |
| 2. Universitetin Strateji İnkişaf Proqramına uyğun fəaliyyət planının hazırlanması,struktur və bölmələrin plan nüsxələri ilə təmin edilməsi | | | | | | | | | |
| 2.1 | Kommisiyanın yaradılması | Universitetin bütün bölmə və strukturları | Sentyabr Oktyabr 2023-cü il | Universitetin bütün bölmə və strukturlarının strateji plana uyğun fəaliyyətini təmin etmək | | | | | |
| 2.2 | Fəaliyyət planının hazırlanması | | | | | | | | |
| 2.3 | Fəaliyyət planının Elmi Şurada təsdiq edilməsi | | | | | | | | |
| 2.4 | Fəaliyyət planının universitetin bütün bölmə və strukturlarına paylanması | | | | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 2.5 | Tədris ilinin sonunda bölmə və strukturlardan görülən işlər haqqında hesabatların alınması | | | | |

Sahə baxışı zamanı şöbələrdə vəzifə öhdəlikləri ilə bağlı məlumatlılıq səviyyəsinin qənaətbəxş olduğu müəyyənləşdirildi. Bu istiqamətdə Keyfiyyətin təminatı mərkəzində “Keyfiyyət Təminatı Mərkəzi Əməkdaşlarının Vəzifə Öhdəlikləri” adlı sənəd mövcuddur.

**2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti**

GDU-nun daxili keyfiyyət təminatı sistemi hesabat dövründə yalnız iki il (sahəyə baxış zamanı yalnız 2022/2023-cü və 2023/2024-cü il fəaliyyət planlarının mövcudluğu qeydə alınmışdır.) üzrə təsdiq edilmiş fəaliyyət planında təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət və təhsilalanlara aid fəaliyyətlər öz əksini tapmışdır. Öncəki illərə dair iş planları mövcud deyildir.

**2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması**

GDU-da rektorun 24 iyun 2023-cü ildə əmri ilə keyfiyyət təminatına dair beş hissədən ibarət olan “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” adlı sənədi təsdiq edilmiş və universitetin saytında yerləşdirilmişdir. Sənəd aşağıdakı beş hissədən ibarətdir:

1. Məqsəd, əhatəlik, əsas və anlayışlar;
2. Keyfiyyət Təminatı Sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsinin qaydaları və prinsipləri;
3. Keyfiyyət Təminatı Sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsinə görə iş modeli, metodu və komponentlər;
4. Keyfiyyət Təminatı Sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsinə görə iş modelinin funksiyaları;
5. Keyfiyyət Təminatı Sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsində istifadə olunan "PINT" metodunun funksiyaları.

**2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi**

“Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” adlı sənəddə keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirmənin əhatəliliyi təmin olunmuşdur. Lakin müsahibələr və sahəyə baxış nəticəsində müəyyən olunmuşdur ki,

universitetdə aparılan sorğuların təhlili tədqiqat metodlarının tələblərinə uyğun deyil və proseslərin inkişaf dinamikasını özündə əks etdirmir.

Bununla yanaşı, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı”na əsasən universitetin daxili kefiyyət sisteminin fəaliyyətinə nəzarəti rektorun rəhbərliyi ilə “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası” həyata keçirir. Lakin sahə səfəri zamanı bu komissiyanın tərkibi barədə təsdiqedici sənəd əldə edilməmiş, həmçinin universitet tərəfindən Akkreditasiya Komissiyasına təqdim edilən, GDU rektoru tərəfindən 25 yanvar 2024-cü ildə təsdiqlənən “Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair hesabat” adlı 2019-2023-cü illəri əhatə edən 5 illik hesabatda “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyası”nın tərkibinin hələ formalaşmadığı qeyd edilmişdir.

### 2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti

Daxili keyfiyyət təminatı üzrə universitetdə illik özünütəhlil hesabatları hazırlanmamışdır. Beləki universitetdə keyfiyyət təminatı ilə bağlı təsdiqləyici sənədlərin əksəriyyəti 2023-cü ildə təsdiq edilmişdir. ATM tərəfindən Komissiyaya 25 yanvar 2024-cü ildə təsdiqlənmiş “Daxili keyfiyyət təminatı üzrə universitetin fəaliyyətinə dair hesabat” adlı 2019-2023-cü illəri əhatə edən hesabat təqdim edilmişdir. Hesabatda qeyd edilən illərin bir-birilə müqayisəsini nəzərə alsaq, 2023-cü ildə görülən işlərlə bağlı məlumatlar qismən öz əksini tapmışdır. Lakin sənəddə aparılan təhlillər 24 iyun 2023-cü il (EŞ Protokol 9) tarixində təsdiqlənmiş "Keyfiyyət təminatı sistemi haqqında direktiv" sənədində qeyd edildiyi kimi PİNT metoduna əsaslanmamışdır. Sənəd yalnız statistik məlumat xarakterli tərtib olunmuşdur. Prosesin effektiv idarə edilməsi üçün hesabatların tərtibinin PİNT metoduna əsaslanması tövsiyə olunur.

### 2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti

GDU Özünütəhlil Hesabatında 2020-ci ildə akkreditasiyadan keçdiyi qeyd edilsə də, universitetdə son rəsmi akkreditasiya 2015/2016-cı tədris ilində keçirilmiş və onun nəticəsi barədə Azərbaycan Respublikası Təhsil Nazirliyinin (ARTN) 20.05.2016-cı il tarixli 330 saylı əmri ilə dövlət ali təhsil müəssisəsi kimi 5 il müddətinə (Şəhadətnamə: Qeydiyyat № 008, 07.06.2016) akkreditə olunmuşdur. 26 may 2021-ci il tarixində Akkreditasiya Komissiyasının tövsiyə və göstərişləri əsasında hazırlanan Fəaliyyət Planı Elmi Şurada müzakirə olunmuş və rektorun 14.06.2021-cı il tarixli 5/195 saylı əmri ilə bu planın icrasına nəzarət baş müşavirə həvalə edilmişdir. Məsul şəxs mütəmadi olaraq hesabatları Elmi Şura üzləri ilə müzakirə etmişdir. Universitet tərəfindən Akkreditasiya Komissiyasına təqdim edilmiş Fəaliyyət Planında tövsiyələr və görülmüş işlərə dair məlumatlar addım-addım öz əksini tapmışdır.

### 2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti

GDU-da “Sorğu Siyasəti” (EŞ-nin 26.05.2021-ci il tarixli (pr. № 03) Qərarı ilə təsdiq edilmiş) mövcuddur. Bu sənəd əsasında universitetdə sorğular Keyfiyyət Təminatı Mərkəzi tərəfindən keçirilir. Sorğular tamamilə onlayn şəkildə Google Forms platforması üzərindən aparılır.

Sorğu Siyasətinin “Anket təhlili” bölməsində Excel Pivot Cədvəllərindən istifadə olunaraq sadə analizlər aparıldığı müşahidə olunmuşdur. Belə ki, universitet tərəfindən Akkreditasiya Komissiyasına təqdim edilən emal olunmuş sorğuların böyük bir qismi Google Formsdan çap edilmiş, bir qismi isə Word proqramında emal edilmişdir. Bundan başqa, təhlil xarakterli hesabatlar statistik məlumatlar məcmuəsindən ibarətdir və həmin hesabatlarda müqayisəli və analitik təhlil alətlərindən istifadə olunmamışdır. Data təhlili sahəsində dünyada kompleks təhlillər üçün istifadə edilən SPSS və digər statistik təhlil proqramlarından istifadə tövsiyə olunur.

Professor-müəllim heyəti arasında aparılan sorğuya əsasən Keyfiyyətin təminatı mərkəzi tərəfindən aparılan tələbə sorğusunun nəticələri barədə məlumatsız olduqları müəyyən olunmuşdur. Bununla bağlı olaraq sorğu nəticələrinin maraqlı tərəflərə əlçatanlığının təmin edilməsi tövsiyə olunur.

## 2.3 Keyfiyyət təminatı mədəniyyəti

### 2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzibati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması

GDU-da daxili keyfiyyət sisteminə dair məlumatlılıq səviyyəsinin müəyyənləşdirilməsi üçün sahəyə baxış və müsahibələr zamanı keyfiyyətə məsul şəxslərin ESG standartları və keyfiyyət göstəricilərinin seçilməsinə dair məsələlərdən əsasən məlumatsız olduqları müəyyən edilmişdir. Universitetin struktur vahidləri arasında qurulan kommunikasiya Vatsap sosial şəbəkəsi üzərindən qurulur. Belə ki, universitetdə akkreditasiya, kafedra müdirləri, dekan müavinləri və s. kimi Vatsap qruplar mövcuddur. Lakin strukturlararası məlumatların ötürülməsində konfidensiallıq və rəsmiyyət baxımından korporativ emaillərlə yazışmaq daxili keyfiyyət təminatından irəli gələn proseslərin idarə edilməsi üçün zəruridir.

### 2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması

Özünütəhlil Hesabatında qeyd edilir ki, universitetin keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması rektorluğun 13.12.2023-cü il tarixli 5/410 saylı əmri ilə yaradılmış İşçi Qrup tərəfindən “Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları”nda əks olunan 7 istiqamət üzrə həyata keçirilir. Lakin sahəyə baxış və müvafiq məsul şəxslərlə müsahibələr nəticəsində müəyyən olunmuşdur ki, həmin yeddi istiqamət (strateji inkişaf, keyfiyyət təminatı, təlim və tədris, elmi-tədqiqat, idarəetmə sistemi, infrastruktur, beynəlmiləlləşmə) üzrə aparılan monitorinqlər sistemli şəkildə həyata keçirilmir, alınan nəticələrin təhlilləri statistik və analitik alətlərlə dəstəklənmir və fəaliyyətin inkişaf dinamikası göstərilmir. ATM-də keyfiyyət mədəniyyətinin formalaşdırılması üçün

akademik və inzibati heyət üçün keyfiyyət mədəniyyətinin təkmilləşdirilməsi ilə bağlı sistematik olaraq təlimatlandırılması tövsiyə olunur.

### 2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər

Keyfiyyət təminatında institusional dayanıqlılığın təmin olunmasında Erasmus+ “Keyfiyyət təminatı mərkəzlərinin yaradılması və inkişafı” (EQAC), “Rektorlar Şurasının yaradılması” (ECAR) kimi layihələr çərçivəsində beynəlxalq təcrübənin öyrənilməsi Akkreditasiya Komissiyası tərəfindən müsbət hal kimi qiymətləndirilmişdir. Buna baxmayaraq keyfiyyət təminatı üzrə islahatların həyata keçirilməsi üçün maliyyə resurslarının daha çox beynəlxalq layihələrdə iştirakla təmin olunması, növbədənkənar audit və qiymətləndirmələrə marağın olmaması keyfiyyət təminatında institusional dayanaqlılığın təmin olunmasının qarşısını alan faktorlardandır.

Keyfiyyət təminatı prosedurlarının hesabat dövrünün son illərində, yəni institusional akkreditasiya qiymətləndirilməsindən əvvəl təsdiq olunması, daha öncəki illərdə sistematik yanaşma və nəticələrinin mövcud olmaması keyfiyyət təminatı istiqamətində institusional dayanaqlılığın diqqətdən kənarda qaldığını göstərir. Bununla bağlı olaraq, institusional dayanıqlılıq istiqamətində keyfiyyətin təmin olunması üçün rəhbərliyin nəzarətilə təkmilləşdirilmənin aparılması tövsiyə olunur.

### 2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-in strukturlararası fəaliyyətinin koordinasiyası vəziyyəti

Universitetdə strukturlararası əlaqələrin idarə edilməsi üçün hazırlanmış "Keyfiyyət təminatı sistemi haqqında direktiv" sənədində Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının təşkilati mexanizmin əsasında təşkil edildiyi vurğulanır. Bu sənəd 25 yanvar 2024-cü il tarixində Gəncə Dövlət Universitetinin rəhbərliyi tərəfindən təsdiq edilmişdir. 2019-2023-cü illərdə Daxili Keyfiyyət Təminatı üzrə universitetin fəaliyyətinə dair hesabatda Keyfiyyət Təminatı Komissiyasının yaradılmasının nəzərdə tutulduğu bildirilmişdir. Lakin, hələ də komissiyanın fəaliyyətə başlamadığı qeyd olunur (ATM tərəfindən Komissiyaya təqdim edilmiş 2024 cü ildə təsdiqlənmiş “GDU daxili keyfiyyət təminatı 5 illik hesabatı” (səh.9)). Bu səbəbdən, universitetin keyfiyyətin təmin olunmasında strukturlararası fəaliyyətinin koordinasiyası qismən həyata keçirilir. Sahə baxışı və müsahibələr zamanı, effektiv fəaliyyət üçün strukturlararası koordinasiyanın təkmilləşdirilməsinə ehtiyac olduğu diqqətə alınmışdır.

# 3. TƏLİM VƏ TƏDRİS

## 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması

### 3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti

GDU-da Özünütəhlil Hesabatında da bildirildiyi kimi, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 saylı əmri ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası”na müvafiq olaraq kadr hazırlığı həyata keçirilir. Lakin GDU-da pedaqoji təhsillə yanaşı, digər sahələrdə də (aqrar, ekologiya, turizm, iqtisadiyyat və s.) kadrlar hazırlandığını nəzərə aldıqda universitetdə tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı tədris planlarında olan fənlərin və onların proqramlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın tələblərinə əsasən uyğun olduğu müəyyənləşdirilmişdir.

Müsahibələr zamanı GDU-da tələbə qəbulu üzrə sifarişlərin universitet rəhbərliyinin müəyyən etdiyi qaydalara, prosedurlara görə hazırlandığı aydın olmuşdur. Özünütəhlil Hesabatında, universitetdə tədrisi təşkil edilən ixtisas və ixtisaslaşmaların təhsilalanların say həddi üzrə sifarişlər verilərkən cəmiyyətin, əmək bazarının, təhsil proqram və standartlarında qeyd olunan tələblərin nəzərə alındığı qeyd olunur, lakin bu faktı təsdiq edən protokollar universitet tərəfindən Komissiyaya təqdim olunmamışdır. Bununla yanaşı qəbul proqnozlarının şifahi müzakirələr yolu ilə müəyyən edildiyi və bu prosesdə kafedraların, professor-müəllim heyətinin bu istiqamətdəki yanaşmalarının nəzərə alındığını aydınlaşdırmaq mümkün olmamışdır. Sahə səfəri zamanı müəyyən edilmişdir ki, qəbul sifarişləri hazırlanarkən universitetin imkanları (auditoriyalar, laboratoriya imkanları, professor-müəllim heyətinin sayı, tədris resursları, infrastruktur imkanları və s.) diqqət mərkəzində saxlanılmır. Fakültələrdə yerində baxış zamanı, seçmə yolu ilə aparılan dərs dinləmələri zamanı auditoriyalarda tələbə sayının həddindən çox olduğu (bütün auditoriyalarda dərs dinləmələri ayaqüstə həyata keçirildi), auditoriyaların sahəsinin tələbə sayına uyğun olmadığı, yeni təlim texnologiyalarının tətbiq edilmədiyi müşahidə edilmişdir.

Seçmə yolu ilə fakültələrdən birinin, məsələn, Tarix-Coğrafiya fakültəsinin Elmi Şura protokollarına baxış zamanı tələbə qəbulu ilə əlaqəli proqnozlara, təhlillərə yer verilmədiyi müşahidə edilmişdir. Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı təhsil proqramlarının və təhsil standartlarının tələbləri nəzərə alınmamışdır. 2019 və 2021-ci illərin protokollarındakı müvafiq çıxarışlar tələb olunsa da, həmin illərə aid protokolların mövcud olmadığı müşahidə edilmişdir.

GDU-da tələbə qəbulu üzrə sifarişlərin faktiki qəbula nisbətini əks etdirən cədvəl aşağıda göstərilmişdir:

**Cədvəl: 3.1.1.1.** İllərə görə bakalavriat səviyyəsi üzrə qəbul planı

| Tədris illəri | 2016/ 2017 | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 | 2023/ 2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 1535 | 1545 | 1555 | 1700 | 1760 | 1740 | 1710 | 1860 |
| Faktiki qəbul | 1311 | 1424 | 1471 | 1570 | 1566 | 1491 | 1557 | 1690 |

**Cədvəl: 3.1.1.2.** Magistratura səviyyəsi üzrə qəbul planı

| Tədris illəri | 2016 /201 7 | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 | 2023/ 2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 249 | 259 | 270 | 228 | 234 | 232 | 254 | 357 |
| Faktiki qəbul | 159 | 217 | 177 | 163 | 205 | 226 | 235 | 343 |

**Cədvəl: 3.1.1.3.** Doktorantura səviyyəsi üzrə qəbul planı

| Tədris illəri | 2016/ 2017 | 2017/ 2018 | 2018/ 2019 | 2019/ 2020 | 2020/ 2021 | 2021/ 2022 | 2022/ 2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Qəbul planı | 19 | 17 | 19 | 19 | 16 | 17 | 17 | 18 |
| Faktiki qəbul | 19 | 17 | 19 | 7 | 6 | 1 | 8 | 11 |

### 3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti

GDU-da tələbə qəbulu sifarişlərinin hazırlanması prosesində tədris planlarında olan fənlərin və tədris proqramlarının Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 23 aprel tarixli 75 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsil pilləsinin dövlət standartı və proqramı”nın tələblərinə əsasən uyğun olduğu müəyyənləşdirilmişdir. Özünütəhlil Hesabatında bildirilir ki, müvafiq dövlət orqanları tərəfindən daxil olmuş proqnoz məlumatları əsasında gələcəkdə ehtiyac duyulacaq ixtisaslar üzrə (tədris dilləri də nəzərə alınmaqla), həmçinin ölkə üzrə məşğulluq imkanları da nəzərə alınaraq optimal tələbə qəbulu sifarişləri müəyyən edilir. Bakalavriat səviyyəsi üzrə Biologiya, Tarix və İqtisadiyyat ixtisaslarında Türkiyə Respublikasının 9 Eylül Universiteti ilə ikili diplom hazırlığı barədə razılaşma, eləcə də magistr səviyyəsində MBA təhsilinin aparılması haqqında qeyd edilmişdir. Bununla yanaşı, GDU-nun tələbə qəbulu üzrə sifarişlərinin illər üzrə ixtisas və ixtisaslaşmalara qəbul nəticələri təhlil edildiyində Respublikada və beynəlxalq aləmdə yeni inkişaf tendensiyalarının və əmək bazarının müasir tələbələrinin nəzərə alınmadığı müşahidə olunmuşdur. Sahə

baxışı zamanı, bakalavriat səviyyəsində xüsusilə iqtisadiyyat sahəsi üzrə sifarişlərin verilməsi zamanı, universitetin professor-müəllim heyətinin potensialının nəzərə alınmadığı müşahidə edilmişdir. Bəzi ixtisaslar üzrə bakalavriat səviyyəsində tələbə hazırlığı nəzərdə tutulmasa da, magistratura səviyyəsi üzrə həmin ixtisas və ixtisaslaşmalar üzrə (məsələn: Pedaqogika (060119), Riyaziyyat (060501), Fizika (060503) və d.) tələbə qəbulu aparılmışdır. Müsahibələr zamanı bu məsələ kafederalar və məsul şəxslər tərərfindən əsaslandırılmamışdır. Xüsusilə magistratura səviyyəsində 2017-ci ildən başlayaraq ixtisaslara görə faktiki qəbulla tanış olduqda, bəzi ixtisaslarda ixtisaslaşmalar üzrə tələbə qəbulu 1 nəfər olaraq qəbulun davam etidirildiyi müəyyən edilmişdir. Sahə baxışı zamanı GDU-da tələbə qəbulu sifarişlərinin əmək bazarının tələblərinə uyğun olaraq hazırlanmadığı, tədris prosesində rentabelliyin nəzərə alınmadığı və bu istiqamətdə optimallaşdırmaların aparılmadığı aşkar edilmişdir.

### 3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti

Universitet tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında tələbə qəbulu sifarişlərinin formalaşması prosesində işəgötürənlərlə görüşlərin keçirildiyi və onlarla müzakirələr aparıldığı qeyd olunsa da, sahə baxışı zamanı bununla bağlı hər hansı görüşün və ya müzakirələrin keçirilməsi, eləcə də işə götürənlərin rəy və təkliflərinin daxil olması barədə rəsmi sənəd təqdim edilməmiş və dekanlıqlara səfər zamanı belə görüşlərin rəsmiləşdirilmədiyi müşahidə edilmişdir. Fakültələrdə təqdim olunan sənədlərdə (sillabus və tədris planlarında) “əmək bazarının rəyi” adlı hissə yer alsa da, həmin yer boş və imzasız buraxılmışdır. Hər il GDU üzrə qəbul planı layihəsi hazırlanarkən Azərbaycan Respublikası ETN-nin müvafiq strukturları ilə müzakirələr aparılmış və nəticə olaraq qəbul planı layihəsi Nazirliyin təsdiqi ilə yekun vəziyyətə gətirilmişdir.

### 3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti:

GDU-ya sahə səfəri zamanı fakültələrdə və kafedralarda keçirilmiş görüşlərdə bildirilmişdir ki, universitetə subbakalavr səviyyəsindən qəbul olunan, hər hansı səbəbdən xaric olunmuş və sonradan bərpa olunan, eləcə də başqa universitetlərdən GDU-ya köçürülən tələbələrin əvvəlki təhsilinin və qazandıqları kreditlərin tanınması haqqında rəy kafedralarda və fakültələrdə müzakirə olunaraq formalaşdırılır. Kafedralarda və fakültələrdə fənlərin sillabusları nəzərdən keçirilərək, həmin tələbələrin əvvəlki təhsil prosesində müvəffəq olduqları fənlərin adları, auditoriya saatları, kreditləri və təlim nəticələri təhlil edilərək universitetdə tədris olunan müvafiq fənlərlə müqayisə edilir. Kreditləri, tədris saatları və sillabusları uyğunluq təşkil etdikdə, tələbələrin həmin fənlər üzrə əvvəki təhsili dövründə qazandıqları kreditlər universitet tərəfindən tanınmış olur.

Özünütəhlil Hesabatında, kreditlərin sayını, fənlərin təlim nəticələrinin uyğunluğunu və kreditlərin sayılmasını təsdiq edən rəsmi sənədləşmənin həyata keçirildiyi və bu fəaliyyətlərin GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr.№ 04) Qərarı və rektorun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş “Təlim və Tədris Siyasəti” adlı sənədə (https://gdu.edu.az/siyasət/) istinad edildiyi bildirilmişdir. Sahə baxışı zamanı kreditlərin

tanınması ilə əlaqəli proseslərin tənzimlənməsi universitetin uyğun inzibati strukturları səviyyəsində olsa da, bəzi kafedralarda və fakültələrdə (məsələn, Tarix-Coğrafiya fakültəsində əvvəlki illərin sənədləşmələri təqdim olunmamışdır) bu istiqamətdəki müvafiq sənədləşmələrə rast gəlinməmişdir.

### 3.2. Təhsil proqramları

#### 3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi

GDU-da ali təhsilin bütün səviyyələrində (bakalavriat: əyani və qiyabi; magistratura: əyani; doktorantura: əyani və qiyabi, dissertantura) 5 ixtisas qrupu üzrə mütəxəssis və elmi-pedaqoji kadr hazırlığı həyata keçirilir. Universitetdə 8 fakültədə 31 kafedra ilə bakalavriat səviyyəsində 44 ixtisas; magistratura səviyyəsində 36 ixtisas (69 ixtisaslaşma);, doktorantura səviyyəsində 12 ixtisas üzrə kadr hazırlığı aparılır. Bakalavriat səviyyəsində Biologiya ixtisası üzrə mütəxəssis hazırlığı Türkiyənin 9 Eylül Universiteti ilə birgə universitetlərarası anlaşma çərçivəsində ikili diplom proqramı vasitəsilə həyata keçirilir. Bununla yanaşı, 2023/2024-cü tədris ilində 6 ixtisaslaşma üzrə (Biznes inzibatçılığı, Biznesin idarə edilməsi, Maliyyə, Marketinq, Menecment, Mühasibat) MBA ixtisaslarına tələbə qəbulu həyata keçirilmişdir. Doktorantura səviyyəsi üzrə GDU-nun əksər ixtisasları üzrə əhatəlilik təmin olunmamışdır. Sahə baxışı zamanı GDU-da Biologiya, Kimya və Pedaqoji ixtisaslar üzrə kadr hazırlığına daha çox əhəmiyyət verildiyi müşahidə olunsa da, doktorantura səviyyəsindəki kadr hazırlığı planlamasında bu istiqamətlər əsas götürülməmişdir. Kafedralara baxış zamanı doktorantura üzrə qəbul planının hazırlanmasında kafedralardan hər hansı məlumatın alınmadığı və ixtisaslara qəbul planının yenilənmədiyi bildirilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11 fevral 2019-cu il tarixli 45 nömrəli Qərarı ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisaslarının (proqramlarının) Təsnifatı”na uyğun olaraq GDU-da (əsas (baza ali) tibb təhsili) aşağıdakı ixtisasalar üzrə kadr hazırlığı həyata keçirilir:

| № | İxtisasın şifri | İxtisasın adı |
|---|---|---|
| 1. | 050101 | Azərbaycan dili və ədəbiyyatı müəllimliyi |
| 2. | 050102 | Biologiya müəllimliyi |
| 3. | 050103 | Coğrafiya müəllimliyi |
| 4. | 050105 | Fizika müəllimliyi |
| 5. | 050106 | Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi |
| 6. | 050107 | İbtidai sinif müəllimliyi |
| 7. | 050108 | İnformatika müəllimliyi |
| 8. | 050109 | Kimya müəllimliyi |
| 9. | 050110 | Kimya və biologiya müəllimliyi (Azərbaycan və ingilis bölməsi) |

| | | |
|---|---|---|
| 10. | 050112 | Məktəbəqədər təhsil |
| 11. | 050113 | Musiqi müəllimliyi |
| 12. | 050114 | Riyaziyyat müəllimliyi |
| 13. | 050115 | Riyaziyyat və informatika müəllimliyi |
| 14. | 050116 | Tarix müəllimliyi |
| 15. | 050117 | Tarix və coğrafiya müəllimliyi |
| 16. | 050118 | Təhsildə sosial - psixoloji xidmət |
| 17. | 050119 | Təsviri incəsənət müəllimliyi |
| 18. | 050120 | Texnologiya müəllimliyi |
| 19. | 050121 | Xarici dil müəllimliyi (İngilis dili) (Azərbaycan və rus bölməsi) |
| 20. | 050121 | Xarici dil müəllimliyi (Rus dili) |
| 21. | 050121 | Xarici dil müəllimliyi (Alman dili) |
| 22. | 050121 | Xarici dil müəllimliyi (Fransız dili) |
| 23. | 050205 | Filologiya (Azərbaycan dili və ədəbiyyatı) |
| 24. | 050211 | Psixologiya |
| 25. | 050214 | Tarix |
| 26. | 050215 | Tərcümə (İngilis dili) |
| 27. | 050402 | Biznesin idarə edilməsi |
| 28. | 050404 | Dövlət və bələdiyyə idarəetməsi |
| 29. | 050405 | İqtisadiyyat |
| 30. | 050406 | Maliyyə |
| 31. | 050407 | Marketinq |
| 32. | 050408 | Menecment |
| 33. | 050408 | Menecment (Alman proqramı) |
| 34. | 050409 | Mühasibat |
| 35. | 050501 | Biologiya |

| | | |
|---|---|---|
| 36. | 050501 | Biologiya* |
| 37. | 050504 | Ekologiya |
| 38. | 050508 | Kimya |
| 39. | 050509 | Kompüter elmləri |
| 40. | 050606 | Ekologiya mühəndisliyi |
| 41. | 050618 | Kimya mühəndisliyi |
| 42. | 050805 | Məşqçilik |
| 43. | 050807 | Sosial iş |
| 44. | 050809 | Turizm bələdçiliyi |
| 45. | 050810 | Turizm işinin təşkili |

Qeyd: * işarə edilən ikili diplom proqramı çərçivəsində mütəxəssis hazırlığı aparılan ixtisası bildirir.

AR NK-nin 2011-ci il 14 iyun tarixli 95 saylı Qərarı ilə təsdiq edilmiş "Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı"na uyğun olaraq universitetdə magistratura səviyyəsində aşağıdakı 36 ixtisas (69 ixtisaslaşma) üzrə magistr hazırlığı aparılır:

| № | İxtisasın şifri | İxtisaslaşma və ixtisasın adı |
|---|---|---|
| **1.** | **060101** | **Azərbaycan dili və ədəbiyyatı müəllimliyi** |
| | | Azərbaycan dili və ədəbiyyatının tədrisi metodikası və metodologiyası |
| **2.** | **060103** | **Xarici dil müəllimliyi (dillər üzrə)** |
| | | Rus dilinin tədrisi metodikası və metodologiyası |
| | | İngilis dilinin tədrisi metodikası və metodologiyası |
| | | Fransız dilinin tədrisi metodikası və metodologiyası |
| | | Alman dilinin tədrisi metodikası və metodologiyası |
| **3.** | **060104** | **Fizika müəllimliyi** |
| | | Fizika fənninin tədrisi metodikası və metodologiyası |

| | | |
|---|---|---|
| **4.** | **060105** | **Riyaziyyat müəllimliyi** |
| | | Riyaziyyat fənninin tədrisi metodikası və metodologiyası |
| **5.** | **060106** | **Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq müəllimliyi (qızlar üçün fiziki tərbiyə)** |
| | | Fiziki tərbiyə və çağrışaqədərki hazırlıq fənninin tədrisi metodikası və metodologiyası |
| **6.** | **060107** | **Texnologiya müəllimliyi** |
| | | Texnologiya fənninin tədrisi metodikası və metodologiyası |
| **7.** | **060108** | **Musiqi müəllimliyi** |
| | | Musiqi fənninin tədrisi metodikası və metodologiyası |
| **8.** | **060108** | **Biologiya müəllimliyi** |
| | | Biologiya fənninin tədrisi metodikası və metodologiyası |
| **9.** | **060110** | **Kimya müəllimliyi** |
| | | Kimya fənninin tədrisi metodikası və metodologiyası |
| **10.** | **060111** | **Tarix müəllimliyi** |
| | | Tarix fənninin tədrisi metodikası və metodologiyası |
| **11.** | **060112** | **Coğrafiya müəllimliyi** |
| | | Coğrafiya fənnin tədrisi metodikası və metodologiyası |
| **12.** | **060114** | **Təsviri incəsənət müəllimliyi** |
| | | Təsviri incəsənət fənnin tədrisi metodikası və metodologiyası |
| **13.** | **060115** | **İbtidai sinif müəllimliyi** |
| | | İbtidai sinifdə tədrisin metodika və metodologiyası |
| **14.** | **060117** | **Məktəbəqədər təlim və tərbiyə** |
| | | Məktəbəqədər təlim və tərbiyənin metodika və metodologiyası |
| **15.** | **060119** | **Pedaqogika** |
| | | Pedaqogika nəzəriyyəsi və tarixi |

| | | |
|---|---|---|
| | | Sosial pedaqogika |
| **16.** | **060201** | **Filologiya** |
| | | Azərbaycan ədəbiyyatı |
| | | Azərbaycan dili |
| | | Dilşünaslıq (İngilis dili) |
| | | Dilşünaslıq (Müqayisəli dilçilk) |
| **17.** | **060203** | **Tərcümə** |
| | | Tərcümə (İngilis dili) |
| **18.** | **060206** | **Tarix** |
| | | Azərbaycanın qədim və orta əsrlər tarixi |
| | | Avropa və Amerikanın yeni və ən yeni tarixi |
| | | Türk dünyası tarixi |
| | | Azərbaycanın yeni və ən yeni tarixi |
| **19.** | **060209** | **Psixologiya** |
| | | Pedaqoji psixologiya |
| | | Uşaq və yaş psixologiyası |
| **20.** | **060402** | **Mühasibat uçotu və audit** |
| | | İstehsal sferasında mühasibat uçotu və audit |
| **21.** | **060404** | **İqtisadiyyat** |
| | | Turizmin iqtisadiyyatı |
| | | İqtisadiyyatın hüquqi tənzimlənməsi |
| **22.** | **060407** | **Menecment** |
| | | Menecment (sahələr üzrə) |
| **23.** | **060408** | **Marketinq** |
| | | Marketinq (sahələr üzrə) |

| | | |
|---|---|---|
| **24.** | **060409** | **Biznesin idarə edilməsi** |
| | | Biznesin təşkili və idarə edilməsi |
| **25.** | **060410** | **Dövlət və bələdiyyə idarəetməsi** |
| | | Dövlət qulluğunun təşkili və idarə edilməsi |
| **26.** | **060501** | **Riyaziyyat** |
| | | Riyazi analiz |
| | | Diferensial tənliklər |
| | | Həndəsə |
| | | Cəbr və topologiya |
| | | Hesablama riyaziyyatı |
| **27.** | **060503** | **Fizika** |
| | | Yarımkeçiricilər fizikası |
| | | Yarımkeçirici cihazlar və mikroelektronika |
| | | İstilik fizikası və molekulyar fizika |
| **28.** | **060504** | **Kimya** |
| | | Qeyri – üzvi kimya |
| | | Üzvi kimya |
| | | Analitik kimya |
| | | Yüksək molekullu birləşmələr kimyası |
| **29.** | **060505** | **Biologiya** |
| | | İnsan və heyvan fiziologiyası |
| | | Ekoloji biologiya |
| | | Botanika |
| | | Onurğalılar zoologiyası |
| | | Onurğasızlar zoologiyası |

| | | |
|---|---|---|
| | | Bitki fiziologiyası |
| | | Genetika |
| | | Mikologiya |
| | | Biokimya |
| **30.** | **060506** | **Coğrafiya** |
| | | Azərbaycanın fiziki coğrafiyası |
| **31.** | **060509** | **Kompüter elmləri** |
| | | İnformatika |
| | | Kompüter sistemlərinin və şəbəkələrinin proqram təminatı |
| **32.** | **060510** | **Ekologiya** |
| | | Ətraf mühitin mühafizə metodları və bərpası |
| **33.** | **060649** | **Ekologiya mühəndisliyi** |
| | | Ətraf mühitin mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə olunması |
| | | Təbii ehtiyatların qorunması və təkrar emalı |
| **34.** | **060802** | **Bədən tərbiyəsi və idman** |
| | | Fiziki tərbiyə nəzəriyyəsi və metodikası |
| **35.** | **060803** | **Turizm və otelçilik** |
| | | Otelçilik |
| | | Beynəlxalq turizm və ölkəşünaslıq |
| **36.** | **060805** | **Sosial iş** |
| | | Həyat fəaliyyətinin müxtəlif sahələrində sosial iş |
| | | Gənclərlə iş |
| | | **MBA ixtisasları** |
| **1.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Biznes inzibatçılığı) |

| | | |
|---|---|---|
| **2.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Biznesin idarə edilməsi) |
| **3.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Maliyyə) |
| **4.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Marketinq) |
| **5.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Menecment) |
| **6.** | **060409** | Biznesin təşkili və idarəedilməsi (Mühasibat) |

"Ali təhsilin doktorantura səviyyəsi üzrə ixtisasların Təsnifatı"nın təsdiq edilməsi haqqında AR NK-nin 15 mart 2012-ci il tarixli 65 saylı Qərarına əsasən doktorantura səviyyəsində 12 ixtisas üzrə elmi dərəcəli kadrlar hazırlanır:

| **№** | **İxtisasın şrifti** | **İxtisasın adı** |
|---|---|---|
| **1** | 1202.01 | Analiz və funksional analiz |
| **2** | 2426.01 | Ekologiya |
| **3** | 5308.01 | Ümumi iqtisadiyyat |
| **4** | 5502.01 | Ümumi tarix |
| **5** | 5503.02 | Vətən tarixi |
| **6** | 5704.01 | Dil nəzəriyyəsi |
| **7** | 5706.01 | Azərbaycan dili |
| **8** | 5714.01 | Müqayisəli tarixi və müqayisəli-tipoloji dilçilik |
| **9** | 5716.01 | Azərbaycan ədəbiyyatı |
| **10** | 5804.01 | Ümumi pedaqogika, pedaqogikanın və təhsilin tarixi |
| **11** | 5908.01 | Siyasi nəzəriyyə |
| **12** | 6107.01 | Ümumi psixologiya |

### 3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti

GDU-nun təqdim etdiyi Özünütəhlil Hesabatının müvafiq bölməsi tələb olunan indikatorlara uyğun olaraq tərtib edilməmişdir. Məzmun olaraq fərqli meyarlar üzrə təhlillər verilmiş, GDU-da tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğunun göstəriciləri təqdim edilməmişdir. Özünütəhlil Hesabatında GDU-da tədris olunan ixtisasların müvafiq illərə nəzərən təsdiq edilmiş Təhsil Proqramlarına uyğunluğunun təhlili verilmişdir.

Özünütəhlil Hesabatında və sahə baxışı zamanı kafedralar tərəfindən ixtisaslar üzrə tədris planlarında seçmə fənlərin formalaşmasında müasir tələblərə və əmək bazarının ehtiyaclarına cavab verən kompetensiya əsaslılıq və tələbəyönümlülük əsas meyar kimi qeyd olunsa da, bunun kafedra iclaslarında və fakültə elmi şuralarında müzakirə olunması protokollarda əksini tapmamış və bununla bağlı hər hansı rəsmi sənəd təqdim olunmamışdır. Təhsil proqramlarının hazırlanması zamanı işəgötürənlərin prosesə cəlb edilməsində dayanıqlı mexanizm mövcud deyildir. Sahə səfəri zamanı GDU-da tədris olunan bəzi təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun həyata keçirilmədiyi müşahidə olunmuşdur.

### 3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti

Özünütəhlil Hesabatında əmək bazarının tələbləri nəzərə alınmaqla ixtisasların təhsil proqramlarının və ayrı-ayrı fənlərin təlim nəticələrinin təhsilalanlardan tələb olunan minimum səviyyəni əks etdirməklə təsvir edildiyi qeyd edilir. Fakültələrin rəsmi internet səhifələrində və sahə baxışı zamanı təqdim edilən sənədlərdə (tədris planları, fənn proqramları, sillabuslar) GDU-da kadr hazırlığı həyata keçirilən ixtisasların peşə və kvalifikasiya standartlarına uyğun tərtib edilmədiyi aşkar edilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 12 dekabr tarixli 474 nömrəli Qərarı ilə təsdiq edilmiş peşə və kvalifikasiya standartlarına qoyulan tələblər tədris planlarında müəyyənləşdirilən seçmə fənlərdə öz əksini tapmamışdır. Sahə baxışı zamanı universitetdə bəzi təhsil səviyyələri üzrə ixtisasların tədris planlarının müvafiq dövlət standartlarına uyğun olaraq tərtib edilmədiyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq əmrləri ilə təsdiq edilmiş ali təhsilin dövlət standartlarının əsas tələbləri nəzərə alınaraq aidiyyəti ixtisas fənlərinin bu planlarda öz əksini tapmadığı müəyyənləşdirilmişdir. Sahə səfəri zamanı GDU-da tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluqla əlaqəli bir çox sənədləşmələrin 2023-cü təqvim ilində tərtib edildiyi, təsdiqsiz kafedraya geri qaytarıldığı (fənn proqramlarının) müşahidə edilmişdir. Fakültə və kafedralara yerində baxış zamanı 2018-2021-ci illərin müvafiq sənədlərində tədris planlarındakı fənlərin (xüsusilə seçmə fənlərin) mövzularında təkrarların olduğu müəyyən edilmişdir.

### 3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu

GDU-da Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli Qərarı ilə təsdiq edilmiş ”Azərbaycan Respulikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə uyğun olaraq, kvalifikasiyaların 6-cı (bakalavriat səviyyəsi), 7-ci (magistratura səviyyəsi) və 8-ci (fəlsəfə və elmlər doktoru proqramları üzrə doktorantura) səviyyələri çərçivəsində müvafiq ixtisaslar üzrə kadr hazırlığı həyata keçirilir. Bütün təhsil səviyyələri üzrə təhsilalanlar tərəfindən müvafiq bacarıqların əldə olunması təmin edilir və yekunda təhsilalanlara dövlət sənədi kimi müvafiq diplomlar verilir. Təhsil proqramları Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluq təşkil etsə də, bu, illərlə formalaşmış ənənəvi təcrübəyə əsasən təmin olunur. Hazırda universitetdə “Təhsil haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yalnız formal təhsil forması tətbiq edilir, qeyri-formal və informal təhsil formaları

isə hələ ki, nəzərdə tutulmamışdır.

### 3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiq edilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu

Sahə baxışı zamanı müəyyən edilmişdir ki, 2017-2021-ci illər arasında GDU-da həyata keçirilən təhsil proqramlarının ayrı-ayrı ixisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu istiqamətində bir sıra çatışmazlıqlar olsa da, 2023-cü ildən etibarən tərtib edilmiş sənədlərə görə, təhsil proqramları ayrı-ayrı ixisaslar üzrə təsdiq olunmuş təlim nəticələrinə və məzmun standartlarına uyğunluq təşkil edir. Sahə səfəri zamanı təqdim edilən sənədlərdə, xüsusilə, 2023-cü təqvim ilindən etibarən müvafiq ixtisaslar üzrə məzunların bilik və bacarıqlarına, tədrisin məzmununa, kompetensiyalara, təhsilin sonunda əldə olunması nəzərdə tutulan nəticələrə qoyulan tələblərin təmin edilməsi bir vəzifə kimi qarşıya qoyulmuşdur. Özünütəhlil Hesabatında mütəmadi olaraq kafedralar tərəfindən təlim nəticələrinin məzmununun müzakirə olunması və müvafiq yenilənmələrin aparılması qeyd olunsa da, kafedralardakı sənədlərə baxış zamanı təlim nəticələrinin müzakirə olunmadığı və müvafiq yenilənmələrin aparılmadığı müəyyənləşdirilmişdir.

### 3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu

GDU-da kadr hazırlığı həyata keçirilən təhsil proqramları üzrə tədris planları tərtib olunarkən Avropa Kredit Transfer və Toplanması Sisteminin (AKTTS) prinsipləri əsas kimi götürülür. Universitetdə tədris prosesinin həyata keçirilməsi üçün AzərbaycanRespublikası Nazirlər Kabinetinin müvafiq qərarları ilə təsdiq edilmiş “Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) Təsnifatı” və “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”na uyğun olaraq, müvafiq ixtisaslar üzrə tədris planları hazırlanmış və təsdiq edilmişdir.

Fakültələrdə sahə baxış zamanı seçmə üsulla 2018/2019-cu, 2020/2021-ci və 2021/2022-ci tədris illəri üçün sənədlər təhlil edildiyində GDU tərəfindən hazırlanmış bütün tədris planlarında fənlərin kreditlərinə uyğun ümumi saatların düzgün və vahid qaydaya əsasən hesablanmadığı müşahidə edilmişdir. Təqdim edilmiş bütün tədris planlarında ümumi (auditoriya və auditoriyadan kənar) saatların hesablanmasında 1 kreditin 30 saata bərabər tutulması prinsipinə əməl edilməmişdir. Müsahibələr zamanı və fakültələrə baxış zamanı aydın olmuşdur ki, universitetdə ümumi yükün hesablanmasında fərqli qayda tətbiq olunur: fənnin auditoriya saatının yarısı auditoriyadan kənar saat kimi müəyyən edilir və auditoriya saatının üzərinə əlavə olunaraq ümumi saatların miqdarı formalaşır (məsələn, Azərbaycan tarixi, Psixologiya fənlərinin (6 kredit) auditoriya saatı 75 saatdır, 37.5 saat auditoriyadan kənar saat kimi hesablanır və ümumi saat 112.5 saat kimi qeyd olunur. Halbuki 6 kreditlik fənnə ayrılan ümumi saatların miqdarı180 saat olmalıdır). Riyaziyyat müəllimliyi ixtisasının tədris planında isə qayda nisbətən fərqli formada (auditoriya saatı qədər auditoriyadan kənar saat hesablanması) hesablanır. Auditoriya saatları fərqli olduğu üçün krediti eyni olan müxtəlif fənlərin ümumi yükləri də fərqli hesablanmışdır. Belə ki, 4 kreditli müxtəlif fənlərin ümumi saatı bir halda 90, digər halda 67.5 saat kimi qeyd olunmuşdur. Kafedralar tərəfindən təqdim edilən qeyd edilən illərə aid olan bütün tədris

planlarında qanunauyğunsuzluqlar müəyyən edilmişdir.

### 3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu

Özünütəhlil Hesabatında tədris olunan fənlərin təhsil proqramlarında mövcudluğu təhlil edilir, lakin tələb olunan indikatorlara görə təhsil proqramındakı mexanizmlər (fənn proqramlarının və müvafiq olaraq fənn sillabuslarının uyğunluğu) təsvir olunmamışdır. Sahə səfəri zamanı, xüsusilə Tarix-Coğrafiya fakültəsindəki kafedralarda və ümumi tədris sənədlərinin cəmləşdiyi Tədris departamentindəki görüşlərdə və sənədlərə baxış zamanı, bir çox fənlərin fənn proqramlarının mövcud olmadığı, təqdim edilən fənn proqlamlarının cari tədris ilində hazırlandığı, təsdiqsiz olduğu və 2017-2023-cü illər arasında tərtib edilən sillabuslarda bəzi uyğunsuzluqların olduğu müəyyənləşdirilmişdir. Belə ki, sillabuslar təhlil edilərkən ayrı-ayrı fənlər arasında mövzuların təkrarlandığı, fənn proqramına əsaslanmadığı, sillabusların təsdiqlənmədiyi, ədəbiyyat siyahısında 20-30 ilin, bəzən daha əvvəlki dövrə aid ədəbiyyatların göstərildiyi, vahid sillabus formasının olmadığı aşkar edilmişdir. Komissiya tərəfindən tələbələrlə keçirilən anonim sorğuların nəticəsində bu fikri təqdiqləyən cavablar (“Öz dilimizdə olan ədəbiyyatlara üstünlük verilsin”, “Praktiki fəaliyyətə geniş yer verilsin”, “Əzbərçiliyə son qoymaq lazımdır”, “Keçmiş və qəliz dərsliklərdən istifadə olunur, daha anlayacağımız, səviyyəmizə uyğun kitablardan materiallardan istifadə olunmasını istərdim”) öz əksini tapmışdır. Kafedralara yerində baxış zamanı fənn proqramlarının son 3 ay ərzində tərtib etdirildiyi bildirilmişdir.

Özünütəhlil Hesabatında tədris planlarının bütün norma və tələblər gözlənilməklə tərtib edildiyi qeyd olunsa da, bəzi ixtisaslar üzrə hazırlanan tədris planlarında müəyyən nöqsanlar aşkar edilmişdir. Sahə səfəri zamanı magistratura səviyyəsində İqtisadiyyat və idarəetmə ixtisasları qrupuna aid olan ixtisaslaşmaların tədris planlarının müvafiq təhsil proqramlarına uyğun hazırlanmadığı müəyyənləşdirilmişdir. Fakültə və Tədris Departamenti tərəfindən təqdim edilən bəzi Tədris Planlarında tədrisin AR ETN-nin 30.09.2016-cı il tarixli 640 saylı əmri ilə təsdiq edilmiş Təhsil proqramının tələblərinə uyğun təşkil edilmədiyi, 2022-ci ilə qədər universitetdə 2012-ci ildə təsdiq olunmuş təhsil proqramları əsasında hazırlanmış tədris planlarından istifadə olunduğu və tələbələrin bu plan üzrə məzun olduğu müəyyənləşdirilmişdir. İqtisadiyyat və idarəetmə ixtisasları qrupuna aid olan ixtisaslaşmalarda 2016-2022-ci ilə qədərki tədris illərində tətbiq edilmiş Tədris Planlarındakı fənlər təhsil standartının və  qanunvericiliyinin tələblərinə uyğun deyildir.

GDU-da mütəxəssis hazırlığı aparılan ixtisaslar üzrə tədris planlarında nəzərdə tutulmuş fənlərin proqramlarının təlim nəticələri və tərtib forması kafedralar üzrə eynilik təşkil etmir. Əsasən, fənn proqramlarında ixtisaslar üzrə fənnə ayrılan saatların miqdarı, mühazirə və seminar saatlarının bölgüsü, mövzuların qısa icmalı, ədəbiyyat siyahısı əks olunmuşdur. Seçmə üsulu ilə nəzərdən keçirilən təsdiqli olan fənn proqramlarının çoxunda təlim nəticələri, qazanılacaq kompetensiyalar və s. kimi müasir proqramlara qoyulan tələblər gözlənilməmişdir.

### 3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu

Sahə baxışı zamanı fakültələrdə tədris planları ilə tanışlıq zamanı müəyyən edilmişdir ki, əksər fənlər üzrə auditoriya və auditoriyadankənar saatlar müvafiq şəkildə, mövcud qayda və tələblərə, təcrübədə rast gəlinən prinsiplərə uyğun planlaşdırılmışdır. Belə ki, universitetdə tədris planlarında fənlərin və dərs saatlarının semestrlər üzrə bölgüsü hər bir ixtisasın xüsusiyyəti nəzərə alınmaqla aparılmışdır. Tədris planlarında planlaşdırılan dərs saatlarının semestrlər üzrə bölgüsü, əsasən, 285-315 saat müəyyən edilmiş, həftəlik dərs yükü, demək olar ki 20-27 saat təşkil edir. Magistratura səviyyəsində orta həftəlik yük 15-16 auditoriya saatı təşkil edir. Tədris olunan fənlərə ayrılan saatların miqdarı tədris planlarına əsasən uyğundur.

### 3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı

GDU-da kadr hazırlığı həyata keçirilən ixtisasların təhsil proqramları üzrə əldə olunacaq təlim nəticələri əksər fakültələrin veb saytında yerləşdirilmiş (https://tcf.gdu.edu.az/?page_id=3517, https://xdf.gdu.edu.az/?page_id=14215) və əlçatanlığı təmin edilmişdir. Fakültələrin veb saytlarına yerləşdirilən təlim nəticələri müqayisəli təhlil edildiyi zaman, müvafiq qaydada təsdiq olunmadığı və eyni tarixlərdə, eyni ifadələrlə (Məsələn, “*"..." kafedrasının 24.01.2024-cü il tarixli iclasında müzakirə edilərək bəyənilmiş və qəbul edilmişdir.*”) tərtib edildiyi müşahidə edilmişdir. Tarix-Coğrafiya fakültəsinin iclas protokollarına baxış zamanı 2023-2024-cü tədris ilinə qədər protokollaşmanın aparılmadığı müəyyən olunmuş və tələb olunan protokollar təqdim edilməmişdir.

### 3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti

Özünütəlil Hesabatında, eləcə də sahə baxışı zamanı universitet əməkdaşları tərəfindən təhsil proqramlarının hazırlanması prosesinə işəgötürənlərin nümayəndələrinin cəlb oldunduğu qeyd olunsa da, işəgötürənlərin (maraqlı tərəflərin) nümayəndələrinin cəlb olunması, onlarla görüşlərin keçirilməsi və digər fəaliyyətləri təsdiq edən sənədlər təqdim edilməmişdir. Universitetdə ixtisasların tədris planlarındakı seçməfənlərin müəyyən edilməsi prosesinin təkmilləşdirilməsi üçün GDU rektorunun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə “Monitorinq və qiymətləndirmə Komissiyası” yaradılmışdır. 2023/2024-cü tədris ilindən etibarən, tədris planlarındakı seçmə fənlərin müəyyən edilməsi prosesində işəgötürən müəssisələrdən tədrisə mütəxəssilər cəlb olunmuşdur. Həmin mütəxəssislərin fikirləri, həmin müəssisələrlə təşkil olunan görüşlər nəticəsində əldə olunmuş məlumatlar nəzərə alınmışdır. Sənədlərə baxış və müsahibələr zamanı, 2017-2023-cü illər ərzində təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakının təmin olunmadığı qənaətinə gəlinmişdir.

## 3.3. Tədrisin təşkili

### 3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti

Sahə səfəri zamanı, bəzi ixtisaslarda, məsələn, "Ekologiya" ixtisasında Ali Təhsil Standartı 30.07.2020 F-354 nömrəli qərarla təsdiq edilmiş, Tədris Planı isə rektorun 29.09.2022-ci il tarixli qərarı ilə təsdiq olunmuşdur. Əlavə olaraq əksər tədris planlarının Elmi Şurada təsdiq olunma tarixinə qələmlə düzəliş edildiyi üçün Elmi Şura iclasının dəqiq tarixini müəyyənləşdirmək mümkün olmamışdır. Həmçinin tədris planları tərtib edilərkən bəzi ixtisas şifrlərindəki dəyişikliklər nəzərə alınmamışdır. Məsələn ATM tərəfindən təqdim edilmiş "Ekologiya" ixtisasına aid tədris planında ixtisas şifri 050510 qeyd edilmişdir, halbuki, AR Təhsil Nazirliyinin 2020-ci il 30/07/2020 il qəbul edilmiş F-354 nömrəli qərarla "Ekologiya" ixtisasında ixtisas şifri 050504 kimi qəbul edilmişdir, 050510 şifri isə yeni təsnifatda "Mexanika" ixtisasına aiddir. Özünütəhlil Hesabatında tədris planlarının ali ixtisas təhsilinin dövlət standartlarının tələbləri nəzərə alınmaqla, tədris işinin həcmi kredit vahidləri ilə müəyyən edildiyi qeyd edilmişdir. Lakin fakültələrdə yerində baxış zamanı, seçmə üsulla 2018/2019, 2020/2021 və 2021/2022-cü tədris illəri üçün sənədlər təhlil edilərkən GDU tərəfindən hazırlanmış bütün tədris planlarında fənlərin kreditlərinə uyğun ümumi saatların düzgün və vahid qaydaya əsasən hesablanmadığı müşahidə edilmişdir.

### 3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunduğu kimi, ixtisas və ixtisaslaşmaların tədris qrafikinin bir nüsxəsi Tədris departamentində, digər nüsxəsi isə fakültə dekanlıqlarında saxlanıldığı müşahidə edildi. Tədris qrafiki elektron formada bəzi fakültələrin internet səhifəsində yerləşdirilmişdir.

### 3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti

Tədris planında seçmə fənlərə ayrılan saatın həcmi ümumi saatın miqdarının 30%-ni təşkil edir. Elmi Şura qərarına əsasən (29 sentyabr 2020-ci il, 29 sentyabr 2022-ci il tarixli protokollar) təsdiq olunmuş ixtisaslar üzrə tədris planlarında məcburi və seçmə fənlərin bölgüsü təhsil standartlarına uyğundur. Tədris planlarında 30 kredit ümumi fənlərə, 120 kredit ixtisas fənlərinə, 60 kredit isə seçmə fənlərə ayrılmışdır.

Sahə baxışı zamanı, bəzi ixtisasların tədris planlarında ixtisas adı ilə seçmə fənnin adı eynilik təşkil edir. Məsələn, "Dövlət və bələdiyyə idarəetməsi" ixtisasında "Dövlət və bələdiyyə idarəçiliyi" adında seçmə fənn mövcuddur, "Ekologiya mühəndisliyi" ixtisasında məcburi fənn olaraq "Tullantısız istehsal prosesləri və tullantıların təkrar emalı" fənni mövcuddur (6 kredit) seçmə fənn blokunda isə "Sənaye və məişət tullantılarının təkrar emalı" fənni də (6 kredit) qeyd edilmişdir. Bu isə təlim nəticəsi olaraq eyni bilik və bacarıqların əldə ediləcəyinə, təkrarlanmaya və süni saat artımına gətirib çıxarır, təkrarlanan fənnin yerinə mühəndis istiqamətli "Meliorasiya işlərinin təşkili", "Hidrotexniki qurğular" fənlərinin seçmə fənn blokuna daxil edilməsi məqsədəuyğun olardı.

2017-2021-ci illər arasındakı tədris planlarının nəzərdən keçirilməsi zamanı müəyyən edilmişdir ki, bakalavriat səviyyəsi üzrə "050104 – Fizika müəllimliyi" ixtisasının tədris planında ixtisas fənlərinin bəzilərinə aid kreditlər müvafiq ixtisasın təhsil proqramı ilə uyğun deyil. Belə ki, fizika müəllimliyi ixtisasında tədris olunan mexanika, molekulyar fizika, elektrik

və maqnetizm, optika, atom fizikası və nüvə fizikası fənlərinin kreditləri tədris planında dəyişdirilmişdir (məsələn, standartda Molekulyar fizika fənni üçün 8 kredit nəzərdə tutulmasına baxmayaraq, tədris planında 10 kredit, Nüvə fizikası fənni üçün 8 kredit nəzərdə tutulmasına baxmayaraq, tədris planında 4 kredit verilmişdir). "050206 – Tarix" ixtisasının təhsil proqramında ixtisasın peşə hazırlığı fənləri bölümündə Arxeologiya fənni (4 kredit) məcburi fənn kimi nəzərdə tutulsa da, həmin ixtisasın tədris planında bu fənn məcburi fənn kimi verilməmişdir. Həmin fənnin krediti seçmə fənn qrupuna əlavə edilmişdir. Seçmə fənlər içərisində Azərbaycan arxeologiyası fənninin (Arxivşünaslıq fənni ilə birlikdə ikinci seçmə fənn kimi) tədrisi nəzərdə tutulmuşdur.

### 3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti

Tədris planlarında ümumi və ixtisas fənlər bloku arasında balans qorunmuşdur. 4 və 5 illik təhsil müddətində tədrisin təşkili müvafiq olaraq ümumi fənlərdə 30/30 AKTS, ixtisas fənlərdə 120/180 AKTS, ATM tərəfindən müəyyən edilən fənlərdə 60/60, pedaqoji internatura/təcrübə müddətində 30/30 AKTS əsasında aparılır. GDU-nun Elmi Şurasının 29 sentyabr 2022-ci il tarixli qərarına əsasən təsdiq olunmuş ixtisaslar üzrə tədris planlarında ümumi və ixtisas fənləri arasında balans gözlənilmişdir. Lakin əvvəlki illərin tədris planlarında bəzi magistratura ixtisaslaşmalarında (xüsusilə, İqtisadiyyat ixtisaslarında) ümumi və ixtisas fənləri arasında balansın qorunmadığı müəyyən edilmişdir.

### 3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Fənlər üzrə təlim nəticələri 2023-cü ildən sonra tərtib edilən sillabuslarda öz əksini tapmışdır. Sillabuslarda fənlərin təlim nəticələrinin (PTN) proqram nəticələrinə uyğunluğunu göstərən matrislər mövcuddur. 2023-cü ildən əvvəlki illər üçün tərtib olunan sillabuslarda uyğunsuzluqlar müşahidə edilmişdir. Yerində baxış zamanı fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsinə və uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsinə, nəzarət mexanizmlərinin mövcudluğuna dair hər hansı bir müzakirələrin aparılması barəsində məlumat təqdim edilməmişdir.

### 3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti

Təsdiqlənmiş yeni sillabus formalarına uyğun olaraq bütün fənlərin təlim nəticələri sillabuslarda öz əksini tapmışdır. Kafedra müdirləri ilə müsahibələr və sahə baxışı zamanı, əvvəlki tədris illərindən fərqli olaraq 2023-cü ildən başlayaraq fənlərin sillabuslarının yeniləndiyi bildirilmişdir. Sillabuslara nəzarətin kafedralar tərəfindən aparıldığına dair kafedra və fakültə iclaslarının protokolları mövcuddur. 2024-cü ildə GDU-da "Ali təhsil pilləsində fənn proqramları və fənlər üzrə işçi-tədris proqramlarının (sillabus) hazırlanması və təsdiq edilməsi Qaydaları"na riayət edilmişdir. Bu qaydalara əsasən, fənn sillabuslarının hazırlanmasına nəzarət "Dərs yüklərinin bölgüsünə, fənlər üzrə təlim nəticələrinin təhsil proqramlarının təlim nəticələrinə uyğunlaşdırılmasına və fənn sillabuslarının hazırlanmasına

nəzarət Komissiyası" tərəfindən ediləcəkdir. 2023-2024-cü tədris ilindən başlayaraq kafedralarda hər bir ixtisas üzrə fənn təlim nəticələrinin dərc olunduğu kitabçalar mövcuddur. Bütün bunlara baxmayaraq, sahə baxışı zamanı 2017-2021-ci illər arasındakı bir sıra sillabusların təsdiqsiz olduğu, standart qaydada hazırlanmadığı və təlim nəticələrinin fənnin xüsusiyyətinə uyğun tərtib edilmədiyi, fərqli fənlərdə təlim nəticələrində eyniliklərin mövcudluğu və sillabuslara nəzarət mexanizminin olmadığı müşahidə olunmuşdur.

**3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti**

Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi tələbi gözlənilmişdir. Belə ki, 5 günlük iş rejimində təhsil alan bakalavr tələbələrinin həftəlik auditoriya və auditoriyadankənar ümumi yükünün həcmi 45 saat olaraq təmin olunur, magistratura səviyyəsində 4 günlük iş rejimində həftəlik auditoriya saatları 16 saatdan çox deyildir. Bakalavriat səviyyəsində semestr üzrə ümumi auditoriya saatı 300 saat, magistratura səviyyəsində isə 225 saat nəzərdə tutulmuşdur.

**3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti**

Birinci tədris ilinə qəbul olunmuş bakalavr tələbələri və magistrantlara müfaviq olaraq fakültələr, Qiyabi və Magistratura şöbələri tərəfindən fərdi tədris planları tərtib olunmuşdur. Sonrakı tədris illərində isə tələbənin özü tərəfindən tyutorların köməkliyi ilə hazırlanılmış və imzalanmış fərdi tədris planlarının nüsxələri mövcuddur.

**3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planın mövcud olması vəziyyəti**

Sahə baxışı zamanı müvafiq strukturlarda hər bir ixtisas və ixtisaslaşmaların tədris planına və tədris qrafikinə əsasən illik işçi tədris planlarının mövcud olduğu müşahidə edilmişdir. 2023-2024-cü tədris ili üçün təqdim olunan illik işçi tədris planları tələbələrin fərdi tədris planları ilə uyğunluq təşkil edir. Tədris məsələləri üzrə prorektor tərəfindən təsdiq olunan illik işçi tədris planlarında fənlərin adları, mühazirə/məşğələ saat bölgüsü, tələbələrin sayı, auditoriya saatları və kreditləri öz əksini tapmışdır.

**3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planın mövcud olması vəziyyəti**

GDU tərəfindən təqdim edilən sənədlərə baxış keçirilərkən kafedra (məsələn, Ümumi

tarix kafedrası, Ekologiya və təbiətin mühafizəsi kafedrası), fakültə, Qiyabi və magistratura şöbələrində ixtisaslar üzrə tədris planı, tədris qrafiki və tələbələrin fərdi tədris planları əsasında müəllimlərin illik işçi tədris planlarının mövcud olması öz təsdiqini tapmışdır. Hesabat dövrünə aid işçi tədris planları kafedra müdirləri tərəfindən təsdiq edilib və ixtisas üzrə tədris olunacaq fənlərin adını, müvafiq qaydalara uyğun saat və kreditlərin bölgüsünü, tələbələrin sayını əks etdirir.

**3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)**

Mövcud tədris planlarında fənlərin tədrisində mühazirə, məşğələ və laboratoriya dərsləri nəzərdə tutulmuşdur. Laboratoriya dərsləri üçün ixtisaslaşmış laboratoriya və müasir işlək əyani vəsaitlərin mövcudluğu kifayət qədər deyil. Sahə səfəri zamanı laboratoriya işlərinin yerinə yetirilməsi üçün, tətbiqi sahədə kadr hazırlığının effektiv həyata keçirilməsi hər bir fənnin məqsəd və məzmununu özündə əks etdirən fənlər üçün daxili qriflə ayrı-ayrı metodik göstərişlərin kifayət qədər olmaması müşahidə edilmişdir. Eyni zamanda müsahibələr zamanı praktik biliklərin verilməsi məqsədilə virtual laboratoriya işlərinin yerinə yetirilməsi, virtual trenajorlardan istifadə etməklə seminar məşğələlərin aparılması və belə bir konseptual yanaşmanın olub-olmaması barədəki verilən suallara mövzuya uyğun cavablar alınmamışdır.

**3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti**

GDU EŞ-in 26.05.2022-ci il tarixli (Protokol № 13) qərarı və rektorluğun 31.05.2022-ci il tarixli 5/186 saylı əmri ilə universitet üzrə Akademik məsləhətçilər (tyutor) xidməti yaradılmışdır. GDU EŞ-nın 07.07.2022 tarixli iclasının qərarı ilə (Protokol № 14), 08.07.2022-ci ildə təsdiqlənmiş GDU-nun “Akademik məsləhətçilər (tyutor) xidməti”nin əsasnaməsi qəbul edilməsinə baxmayaraq, GDU-nun veb-səhifəsində yerləşdirilmiş GDU Təşkilati Struktur (https://gdu.edu.az/dig%c9%99r-s%c9%99n%c9%99dl%c9%99r/) barədə olan məlumatda Tyutor xidmətinin mövcudluğu, hansı struktura tabe olduğu barədə məlumata rast gəlinməmişdir.

Sahə baxışı zamanı və tyutorlarla müsahibədə bütün tyutorlarda eyni standart iş planlarının mövcud olduğu müşahidə edilmişdir. Lakin fakültələrin tələbə sayının çoxluğuna, əvvəlki tədris ilindən akademik borcu yaranmış tələbə sayına, əcnəbi tələbələrin sayına görə hər bir fakültədə tyutorun iş planı spesifik təşkil edilməsi tövsiyə olunur. Tyutorlarla görüş zamanı, əksər tyutorların ali təhsilinin fəaliyyət göstərdikləri fakültələrdəki ixtisaslarla uyğunluq təşkil etmədiyi müşahidə edilmişdir. Tələbələrə akademik məsləhət xidmətinin effektivliyi üçün tyutorların ixtisas uyğunluğunun təmin edilməsi tövsiyə olunur. Eyni zamanda “Tyutor xidməti”nin fakültənin daxili strukturunda təşkil olunması məqsədəuyğundur.

Müəllimlər tərəfindən məsləhət saatının təşkili, məlumatların əlçatanlığı baxımından yalnız Riyziyyat-informatika fakültəsinin veb-səhifəsində (https://rif.gdu.edu.az/?page_id=5044) yerləşdirilmiş, fənn sillabuslarında müəllimlərin məsləhət saatlarının günü və saatları qeyd edilmişdir.

### 3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti

Payız və yaz semestrlərində tələbələr 3 (üç) sərbəst iş əsasında qiymətləndirilirlər. Ümumilikdə sərbəst işlər əlyazısı ilə kağız daşıyıcıda təqdim edilir. Sahə baxışı zamanı bəzi fakültələrdə sərbəst işlərin təqdimat, araşdırma, tapşırıq nümunələri şəklində təqdim edildiyi müşahidə edilmişdir.

### 3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti

GDU-da təcrübə işləri Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali (orta ixtisas) təhsil müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında" Əsasnaməyə uyğun olaraq həyata keçirilir. Sahə səfəri zamanı proqramların qismən mövcud olması müəyyən edilmişdir. Tələbələrlə aparılan müsahibələr zamanı tələbələrin təcrübə keçdiyi müəssisələrin düzgün seçilmədiyi, daxili maraqlı tərəf olan tələbələrin narazılıqlarına baxmayaraq, hər il eyni kollecə göndərildiyi və Psixologiya istiqamətində kadr hazırlığında yalnız nəzəri biliklərə əsaslandıqlarını, həmçinin istehsalat təcrübəsi zamanı müvafiq istiqamətlərdə bacarıqların təkmilləşməsinə ehtiyac olduğu müəyyən olunmuşdur. Magistratura pilləsində magistrantların əldə etdikləri bilik və bacarıqların effektivliyinin artırılması üçün elmi-tədqiqat və elmi-pedaqoji təcrübə proqramlarının təkmilləşdirilməsinə ehtiyac vardır.

### 3.3.15 Stajkeçmənin təşkili vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında bu indikator ilə əlaqədar həyata keçirilmiş bir sıra fəaliyyətlərin adı çəkilmişdir. Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi və STEAM laboratoriyasının istifadəyə verilməsi, müəllimlərin təcrübəsinin və müasir təlim texnologiyalarından istifadə bacarıqlarının artırılması məqsədilə təcrübəli professor-müəllim heyəti tərəfindən nümunəvi dərslərin təşkil edildiyi, eyni zamanda beynəlxalq layihələr çərçivəsində xarici ekspertlər tərəfindən təlimlərin təşkilini buna misal gətirmək olar.

Akkreditasiya Komissiyasının 244 nəfər professor-müəllim heyəti ilə apardığı sorğu nəticələrinə əsasən müəllimlərin ödənişsiz dil kurslarına, kompüter biliklərinin təkmilləşməsi üçün kompüter kurslarının təşkilinə, elmmetrik bazalarda məqalə çap etdirmək üçün təlimlərin təşkil edilməsinə ehtiyac duyduqları müəyyən edilmişdir.

### 3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında kurs layihələrinin və referatların hazırlanması ilə əlaqəli fəaliyyətlərin "Tədris Planı"nda nəzərdə tutulmadığı qeyd edilir. Lakin tətbiqi elm sahələrində xüsusilə "050618 – Kimya mühəndisliyi", "050501 – Kimya", "050501 – Biologiya", "050504 – Ekologiya" və "050506 – Ekologiya mühəndisliyi" ixtisaslarının xüsusiyyəti və profili nəzərə alınmaqla tədris prosesində əldə edilən bilik və bacarıqların tətbiqinin gücləndirilməsi əsas prioritetlərdən biri olaraq diqqətdə saxlanılması məqsədəuyğundur. Bu kontekstdə bilik və

bacarıqların effektiv idarə olunması baxımından kurs layihələrinin və ya tədqiqat layihələrinin tədris planında nəzərdə tutulması və təşkili tövsiyə olunur.

### 3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti

Buraxılış işləri və magistr dissertasiyaların mövzularının seçilməsi universitet tərəfindən təsdiqlənmiş siyahıya əsasən aparılır. Akkreditasiya Komissiyası tərəfindən sənədlərin təhlili zamanı "*Dissertasiya mövzularının seçilməsində maraqlı tərəflərin rəylərinin nəzərə alınması*" müşahidə olunmuşdur, lakin sahə səfəri çərçivəsində baş tutmuş müsahibələr zamanı seçilmiş mövzuların hansı real problemlərin həllinə yönəlməsi barədə əsaslandırılmış məlumatlar verilməmişdir. Tələbələr mövzuları təklif etmək hüququna malikdirlər. Universitet tərəfindən "Magistrlik dissertasiyasının hazırlanması, təqdim olunması və müdafiəsi qaydaları haqqında Əsasnamə" hazırlanmış və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili fəaliyyəti bu əsasnaməyə uyğun olaraq təşkil olunur. Tələbələrin yekun dövlət attestasiyası yazılı qaydada və buraxılış işinin müdafiəsi formasında təşkil ounur.

### 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti

İmtahan sessiyası müvafiq qanunvericiliyə uyğun olaraq təşkil olunur. Təhsilalanların biliyinin qiymətləndirilməsi AKTS tələblərinə müvafiq olaraq 100 ballı sistemlə həyata keçirilir. İmtahanlar əsasən test üsulu (kompüter vasitəsilə), yazılı və şifahi, xüsusi qabiliyyət tələb edən fənlər üzrə qabiliyyət formasında keçirilir. Kompüter vasitəsilə təşkil olunan imtahanlar üçün proqram təminatı universitetə aid olduğu üçün sistemə kənar müdaxilələrin edilməsi qeyri-mümkündür.

Komissiya tərəfindən aparılan müsahibələr zamanı imtahan formalarını tədris ilinin əvvəlindən təyin edə bilmədiklərini, imtahan formasını təyin etmək üçün semestrin sonunda Keyfiyyətin təminatı mərkəzi tərəfindən tələbələr arasında sorğu keçirilərək tələbələrin rəylərinə əsasən imtahan formasının təyin edildiyi qeyd edildi. Lakin GDU tərəfindən Komissiyaya təqdim edilən sorğu materiallarında imtahan formasının müəyyənləşdirilməsi ilə bağlı sorğuya rast gəlinmədi. Tələbə nailiyyətlərinin effektivliyinin ölçülməsi, maraqlı tərəflərin prosesə effektiv töhfə verməsi üçün imtahan formalarının təyin edilməsində fənni tədris edən müəllimlərin də rəylərinin nəzərə alınması tövsiyə edilir.

Müsahibə zamanı, imtahan prosesinin Tədris departamenti tərəfindən test və yazılı formada keçirildiyi, nəticələrin isə Tədris departamenti tərəfindən fənni tədris edən müəllim olmadan başqa bir müəllim tərəfindən qiymətləndirildiyi qeyd edilmişdir.

Fakültələrə baxış zamanı və tələbələr və müəllimlərlə keçirilən müsahibə və sorğularda imtahan prosesinin şəffaf olmadığı və xüsusilə yazılı formada keçirilən imtahanlarda etibarlı qiymətləndirmənin olmadığı, mənfi halların mövcud olduğu məlum olmuşdur. Tələbələrlə keçirilən anonim sorğular təhlil edildiyi zaman qiymətləndirmə mexanizmində təkmilləşməyə ehtiyacın olduğu müəyyən olunmuşdur.

### 3.3.19 Yay semestrinin təşkili vəziyyəti

Özünütəhlil Hesabatında ixtisaslar üzrə akademik borcu qalan tələbələr kəsrlərini alt qrupda ləğv etdikləri üçün yay semestrində iştirak edən tələbələrin sayının az olduğu qeyd edilir. Lakin əksər tələbələrin alt qrupda oturmaq üçün həftəlik dərs yüklərinin kifayət qədər çox olması və yay semestrində tələbə iştirakının azlıq təşkil etməsi nəzərə alındığında, Payız və Yaz imtahan sessiyasının təşkili mexanizmində təkmilləşməyə ehtiyac olduğu qənaəti formalaşır.

### 3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası

Özünütəhlil Hesabatında hesabat dövrünün əvvəlində akademik borcu olan tələbələrin sayının sonuncu ildə olanların sayından nisbətən az olmasının səbəbi kimi kənardan transfer yolu ilə tələbə köçürülməsi, imtahanlara nəzarətin getdikcə gücləndirilməsi, yazılı və qabiliyyət imtahanlarının sayının artırılması kimi məsələlər qeyd edilmişdir. Lakin təqdim olunmuş sənədlərin təhlili göstərir ki, hesabat dövründə - 2016-2024-cü illərdə ən çox kəsr sayı hesabat illərinin sonunda deyil, 2020-2021-ci və 2021-2022-ci illərə aiddir. Müvafiq olaraq 1341 tələbənin payız semestrində, 1498 tələbənin isə yaz semestrində akademik borcu yaranmışdır.

**Şəkil 3.3.20.1.** Bakalavr səviyyəsində təhsilalanların kredit borclarının tədris illəri üzrə dinamikası




| | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 |
|---|---|---|---|---|---|
| Payız | 696 | 1122 | 1341 | 747 | 878 |
| Yaz | 593 | 639 | 787 | 1498 | 887 |
| Ümumi kəsr sayı | 1289 | 1761 | 2128 | 2245 | 1765 |

**Şəkil 3.3.20.2.** Magistratura səviyyəsində təhsilalanların kredit borclarının tədris illəri üzrə dinamikası




| | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 |
|---|---|---|---|---|---|
| Payız | 20 | 23 | 6 | 17 | 9 |
| Yaz | 12 | 2 | 6 | 17 | 10 |
| Ümumi kəsr sayı | 32 | 25 | 12 | 34 | 19 |

Magistratura səviyyəsi üzrə kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası ilə bağlı nəticələr analoji olaraq bakalavr səviyyəsində olan tələbələrin nəticələri ilə demək olar ki, oxşar dəyişmə xarakterinə malikdir. Göstərilən dövrlər üzrə ən az kəsr sayı pandemiya dövrünə təsadüf etmişdir.

### 3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası

Özünütəhlil Hesabatında hesabat dövrünün əvvəlində kredit borcu yaranmış fənlərin sayının sonuncu ildə olanların sayından nisbətən az olmasının səbəbi kimi kənardan transfer yolu ilə tələbə köçürülməsi, imtahanlara nəzarətin getdikcə gücləndirilməsi, yazılı və qabiliyyət imtahanlarının sayının artırılması göstərilir. Lakin hesabat dövründə 2016-2024-cü illərdə ən çox kredit borcu yaranmış fənlərin sayı magistratura səviyyəsi üzrə hesabat illərinin sonunda deyil, 2021-2022-ci və 2022-2023-cü illərə şamil olunur. Özünütəhlil Hesabatında təqdim olunmuş qrafikdə müvafiq olaraq 32 və 52 kredit borcu yaranmış fənn sayı qeyd edilmişdir. Bu göstərici 2023-2024-cü tədris ilində azalaraq 24 olmuşdur.

**Şəkil 3.3.21.1.** Semestrlər üzrə bakalavr səviyyəsində akademik borcu yaranmış fənlərin dinamikası




| | 2018-2019 | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 |
|---|---|---|---|---|---|
| Payız | 661 | 1005 | 910 | 751 | 878 |
| Yaz | 627 | 603 | 594 | 777 | 887 |
| Ümumi kəsr sayı | 1288 | 1608 | 1504 | 1528 | 1765 |

**Şəkil 3.3.21.2.** Semestrlər üzrə magistratura səviyyəsində akademik borcu yaranmış fənlərin dinamikası




| | 2019-2020 | 2020-2021 | 2021-2022 | 2022-2023 | 2023-2024 |
|---|---|---|---|---|---|
| Payız | 8 | 2 | 11 | 41 | 12 |
| Yaz | 2 | 3 | 21 | 11 | 12 |
| Ümumi kəsr sayı | 10 | 5 | 32 | 52 | 24 |

### 3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında GDU-da tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi məqsədilə “Monitorinq qrupu yaradılması” haqqında əmr imzalandığı qeyd edilmişdir. Müsahibələr zamanı monitorinq qrupunun açıq dərslərdə iştirak etdiyi, yeni işə qəbul olan müəllimlərin açıq dərslərinin izlənildiyi qeyd edilmişdir. Komissiya belə qənaətə gəlmişdir ki, tədris prosesinin təşkili zamanı tədris prosesinə aid olan normativ-hüquqi sənədlərin və digər normaların tətbiqi vəziyyəti,

həmçinin bu istiqamətdə səmərəliliyin monitorinq olunması və təkmilləşdirilməsi istiqamətindəki görülən işlər barədə universitetin strukturlarında hər hansı fəaliyyətlərin mövcudluğu müşahidə olunmamış və belə müddəalar səsləndirilməmişdir.

### 3.4. Tədris metodları və üsulları

#### 3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti

Sahə baxışı zamanı, GDU-nun V tədris binası istisna olmaqla, digər tədris binalarında maddi-texniki bazasının müasir avadanlıq və texnologiyalarla yetərincə təchiz olunmadığı müşahidə edilmişdir. GDU-nun Özünütəhlil Hesabatında müəllimlərin tədris prosesində mövzulara uyğun əqli həmlə, müzakirə, müqayisə, müsahibə, müqayisəli təhlil, debat, qərarlar ağacı və s. kimi müxtəlif interaktiv təlim metodlarından istifadə etməsi qeyd edilmişdir. Lakin universitetə sahə səfəri zamanı tədris prosesində sözügedən metodların tətbiqinin müəyyən edilməsi üçün müxtəlif fakültələr üzrə seçmə dərs dinləmələri zamanı əsasən fərdi təqdimatlar (prezentasiyalar) və ənənəvi metodların (mühazirə diktə edilməsi) tətbiq olunduğu müşahidə edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən fənn sillabuslarına baxış keçirilərkən tədris prosesində elektron mühazirə konspektləri, internet resursları və s. mənbələrdən istifadənin nəzərdə tutulduğu aydın olmuşdur. Müəllimlərlə aparılan görüşdə sorğu zamanı universitetin maddi texniki bazasının təkmilləşdiriməsi, həmçinin texnoloji imkanların genişləndirilməsi zərurətinin olduğu qeyd edilmişdir.

#### 3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti

Komissiyanın kafedra müdirləri və müəllimlərlə görüşü zamanı tələbəyönümlü, praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından, tədris prosesində müasir üsul və metodlardan istifadə haqqında suallarına, onlar proyektorlardan istifadə etdiklərini və müxtəlif təqdimatlar (slaydlar) əsasında dərslərin keçirildiyini bildirilmişdir.

Eyni zamanda, tədris prosesində xüsusi proqram təminatlarının tətbiqinə əsaslanan tədris yanaşmalarının zəif olduğu müəyyənləşdirilmişdir. Məhz bu səbəbdən də müəllimlərin tədris metodlarını təkmilləşdirmək üçün dəstəyə ehtiyac duyduqları müəyyənləşdirilmişdir. Həmçinin tələbələrlə keçirilən anonim sorğu nəticələri təhlil edildiyində, tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə edilməsinin universitetdə təşkil edilməsinin, universiteti inkişaf etdirəcəyi fikri qeyd edilir.

GDU-nun Özünütəhlil Hesabatında, həmçinin dekanlarla müsahibə zamanı fakültə rəhbərliyi tərəfindən tələbələrin şikayətlərinə baxılması üçün gün ərzində qəbul prosesinin həyata keçirilməsi, fakültənin rəhbər işçiləri tərəfindən tələbələrin şikayətləri dinlənilərək yerindəcə həlli yolları axtarılması qeyd edilmişdir. Təlim-tədris prosesi zamanı yarana biləcək problemlərin həlli və bu şikayətlərə baxılması üçün müvafiq mexanizmin yaradılması və tətbiq edilməsi tövsiyə olunur.

#### 3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti

GDU-da tədris prosesi əyani və qiyabi təhsil formalarında həyata keçirilir. ATM-də ayrı-ayrı təhsil formalarına uyğun tədris metodlarının tətbiq olunması barədə hər hansı müddəalar, yeni yanaşmalar, maddi-texniki baza və təhsil formalarına uyğun metodologiya tətbiq edən kadrlar (akademik heyət) barədə faktlar aşkar edilmədi.

GDU-nun Özünütəhlil Hesabatında mühazirə və seminar məşğələlərində beyin həmləsi, akvarium, debat, dəyirmi masa, konkret situasiyanın təhlili ("case study"), diskussiya, disput, mövzuların qabaqcadan sərbəst öyrənilməsi, problemin öyrənilməsi, qərarlar ağacı, sual-cavab və s. kimi tədris metodlarının tətbiq olunduğu qeyd olunmuşdur.

Sahə səfəri zamanı bakalavriat səviyyəsində aparılan dərs müşahidələrində mühazirə dərslərində tələbələrin passiv dinləyici kimi yalnız mühazirə dinləməklə (müəllimyönümlü mühazirə) müəyyən qeydlər götürməsi, praktiki məşğələ və seminarlarda isə qismən də olsa problemin öyrənilməsi, sual- cavab, təqdimatlar, müzakirələr və s. tədris metodlarının tətbiqinə yer verilmişdir. Magistratura səviyyəsində isə tədris olunan ixtisas fənlərinin və mövzuların tədqiqat yönümlü olduğunu, təhsilin bütün səviyyələrində tədris və tədqiqat arasında əlaqələndirməni nəzərə alaraq tədris prosesini müvafiq tədris binaları ilə yanaşı uyğun müəssisələrdə həyata keçirilməsi tövsiyə olunur.

### 3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti

GDU-ya sahə səfəri çərçivəsində fənn sillabuslarına baxış keçirilərkən təlim nəticələri müəyyən olunan zaman yalnız son illərdə bir sıra fənn sillabuslarında Blum taksanomiyasının mərhələlərinin nəzərə alınması müşahidə edilmişdir. Təlim nəticələri əsasında seçilmiş təlim metodlarının təhsilalanlarda maraqlanma və motivasiya olunma kimi yanaşmaların təmin etməsi göstəricisi olmasına baxmayaraq, universitetdə dərs dinləmələri (müşahidələri) zamanı mövcud zaman və resurslar çərçivəsində təlim nəticələrinin əldə olunması üçün qeyd olunan yanaşmaların zəif tətbiq olunduğu müşahidə edilmişdir.

### 3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında universitetdə tədris prosesi tələbəyönümlülük prinsipinə əsaslandığı, təhsilalanlara sərbəst iş mövzularının və seçmə fənlərin seçimi zamanı sərbəstlik verilməsi, eləcə də imtahan formalarının tətbiqi zamanı tələbələrin fikir və rəylərinin nəzərə alındığı bildirilmişdir. Lakin müsahibələr və sahə baxışı zamanı tələbələrin fərdi xüsusiyyətləri nəzərə alınmaqla hər hansı tədris metodları və üsullarının tətbiqi barədə əsaslandırılmış fikirlər bildirilməmişdir. Fakültə və kafedralarda yerində baxış zamanı bu barədə hər hansı müddəalar səsləndirilməmişdir.

GDU-da Avropa İttifaqının TEMPUS proqramının ESFIDIP layihəsi (2014-2017) çərçivəsində GDU EŞ-nin 30.11.2015-ci il tarixli (pr. № 12) Qərarı və rektorluğun 29.12.2015-ci il tarixli 1/523 saylı əmri ilə sağlamlıq imkanları məhdud şəxslər üçün nəzərdə tutulan "Əlilliyi olan şəxslər üçün Mərkəz" yaradılmışdır. Fakültə dekanları ilə görüş zamanı cari tədris ilində sağlamlıq imkanlarında məhdudiyyət olan tələbələrin olmadığı, lakin tələbələrin sağlamlıq imkanlarında müvəqqəti və ya daimi məhdudiyyət yarandığı halda onlara fərdi yanaşıldığı və dərslərin planlaşdırılmasında (məsələn, dərs cədvəllərinin uyğunlaşdırılması) nəzərə alındığı bildirilmişdir.

### 3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında GDU-da tədris prosesində aktiv öyrənməni təşviq etmək məqsədi ilə dərs zamanı internetə qoşulmuş kompüterlər vasitəsilə ağıllı lövhənin təqdim etdiyi imkanlardan geniş istifadə edildiyi, VR eynəyin köməkliyi ilə tətbiq edilən texnologiyalardan, simulyasiya və video oyunlardan yararlanmaq üçün tələbələrin şəxsi telefonlarından istifadə edildiyi bildirilmişdir.

Komissiyanın GDU-ya sahə səfərində müsahibələr, dərs dinləmələri zamanı təhsilalanların tədris prosesində aktiv öyrənmələrini təmin edən yeni texnoloji imkanlar və yanaşmaların inkişaf etdirilməsinə zərurətin olduğu müəyyənləşdirilmişdir.

### 3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti

GDU-da ixtisaslar üzrə kadr hazırlığı prosesi zamanı yeni təlim-tədris metodları və interaktiv öyrənməni təşviq etmək məqsədi ilə GDU EŞ-nin 09.12.2022-ci il tarixli (pr. № 03) qərarına əsasən və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "Tədris prosesində təlim metodlarının tətbiqinə dair metodik tövsiyələr" hazırlanmışdır. GDU-ya sahə səfəri zamanı professor-müəllim heyəti ilə görüşdə təlim metodlarının təkmilləşdirilməsi üzərində çalışdıqlarını bildirsələr də, bu sahadə onlara təlimlərin təşkil olunmasına ehtiyaclarının olduğu bildirilmişdir.

### 3.4.8. Tədris metod və üsullarının dövrü olaraq monitorinqi və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd olunur ki, GDU-da tədris metod və üsullarının dövri monitorinqi "Monitorinq Qrupu" tərəfindən aparılır. Universitetə sahə səfəri zamanı proses haqqında məlumatların "Monitorinq Qrupu"nun hazırladığı protokollarda qeyd olunduğu müşahidə edilmişdir. Lakin aparılan monitorinqlərin nəticələrinin təhlili, mövcud çatışmazlıqlar və onlara qarşı yönəlmiş prosedurların icrası haqqında heç bir sənəd təqdim edilməmişdir. Professor-müəllim heyətinin peşəkar inkişafı istiqamətində 20.12.2019-cu il tarixində GDU-nun Kimya-biologiya fakültəsinin əməkdaşları üçün "Tələbələrin biliyinin qiymətləndirilməsi, yeni qiymətləndirmə üsulları, tələbələrin tədris proseslərində iştirakı" adlı təlim keçirilmişdir. Sənədlərə baxış və kafedra müdirləri ilə görüş zamanı, tədris metod və üsullarının dövrü olaraq monitorinqi, preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi ilə əlaqəli ardıcıl və sistemli fəaliyyətin olması barədə fikirlər səsləndirilməmişdir.

Həmçinin sahə səfəri çərçivəsində Komissiyanın professor-müəllim heyəti arasında təşkil etdiyi anket sorğusunun nəticəsinə əsasən akademik heyətin təlim metodlarının təkmilləşdirməsi istiqamətində dəstəyə ehtiyac duyduqları, bu istiqamətdə xüsusi təlimlərin və xarici universitetlərin mütəxəssisləri ilə təcrübə mübadiləsinin zəruri olduğu müəyyən edilmişdir.

### 3.5 Təlim və tədris resursları

#### 3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti

GDU-da 2024-cü ilin yaz semestrindən etibarən fakültələr üzrə "Pilot Layihə" kimi qəbul edilmiş bəzi ixtisaslarda tədrisin elektron idarəetmə sistemi olan "EDUMAN" proqramı tətbiq edilir. Proqram təminatının 2024/2025-ci tədris ilindən etibarən bütün ixtisaslar üzrə tətbiq edilməsi nəzərdə tutulmuşdur. Universitetdə növbəti tədris ilindən etibarən "Yazılı və test imtahan modulu"nun və "Elektron sənəd dövriyyəsi modulu"nun alınaraq tətbiq edilməsi nəzərdə tutulmuşdur. GDU-da elektron idarəetmə sistemi mövcud olsa da, idarəetmə prosesində demək olar ki, tətbiq olunmur. Müəllim və tələbələrlə keçirilən sorğu zamanı, müəllimlərin bir qisminin elektron sistemdən istifadə etməyi bacarmadıqları və auditoriyaların elektron sistemin tələblərinə cavab vermədiyi müşahidə edilmişdir. GDU-da elektron universitet modelinə keçidlə əlaqədar fəaliyyət planının hazırlanması və sürətli keçidin təmin olunması tövsiyə olunur.

#### 3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti

GDU tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında, universitetdə müasir təlim prosesinin təşkili məqsədi ilə tədrisin elektron idarəetməsistemindən istifadə etmək üçün avadanlıqlarla tam təchiz edilmiş auditoriyaların mövcud olduğu, auditoriyaların internetə qoşulmuş kompüter, proyektor, ağıllı lövhə, VR eynək və digər texniki vasitələrlə təmin olunduğu qeyd edilir. Lakin GDU-ya sahə səfəri zamanı müəyyənləşdirilmişdir ki, tədris auditoriyalarının internetə qoşulması üçün xüsusi routerlərdən istifadə edilməlidir. Eyni zamanda tələbələrlə sorğu zamanı internetə sərbəst çıxışlarının olmadığı, universitetdə wi-fi siteminin olmasının faydalı olacağı bildirilmişdir. Auditoriyalara baxış zamanı GDU-da lokal internet şəbəkəsinin yetərsiz olduğu və tədris prosesində auditoriyaların texnika ilə (ağıllı lövhələr mövcud deyildi) qeyd olunduğu kimi tam təchiz olunmadığı müşahidə edilmişdir.

Akkreditasiya Komissiyasının GDU-da təşkil etdiyi sorğunun nəticələrinə və müşahidələrə əsasən, universitetin auditoryaları internetlə tam təchiz olunmadığı və müəllimlərin müasir təlim prosesini aparmaq üçün kompüterlərə, notbuklara ehtiyac duyduqları müəyyənləşdirilmişdir.

#### 3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti.

GDU-da 2016-2023-cü illəri əhatə edən dövrdə elektron tədris sistemindən istifadə edilməmişdir. Özünütəhlil Hesabatında bildirilir ki, universitetdə 2024-cü ilin yaz semestrindən etibarən "Pilot Layihə" kimi qəbul edilmiş ixtisaslarda "Elektron jurnal" modulunun tətbiqinə başlanılmışdır. "Elektron jurnal" modulunun 2024/2025-ci tədris ilindən etibarən bütün ixtisaslarda da tətbiq edilməsi nəzərdə tutulmuşdur. Lakin digər ixtisaslarda

(pilot olmayan) isə tələbələrin təlim prosesində iştirakı (davamiyyəti) və qiymətləndirilməsi ənənəvi kağız jurnallarda qeydə alınır.

Sahə baxışı zamanı, bir sıra ixtisaslarda pilot olaraq elektron tədris platforması və elektron jurnal tətbiq edilsə də, ümumilikdə, GDU-da tələbələrin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platforması və elektron jurnalın mövcud olmadığı müşahidə edilmişdir.

### 3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu

GDU-da İT xidmətinin göstərilməsi üçün rektorluğun müvafiq əmri ilə 2007-ci ildə İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) şöbəsi yaradılmışdır. İxtisas proqramları üzrə professor-müəllim və tələbə heyətinə müvafiq strukturlar tərəfindən distant təlimlərin keçirilməsi üçün xüsusi (Telycam qurğusu, Epson DC-13/DC-21 Document Camera, xüsusi işıqlandırma qurğuları, distant mikrofon sistemi, təqdimat lövhələri, xüsusi təyinatlı scaner qurğusu, kompüterlər və s.) avadanlıqlar mövcuddur. Bundan başqa V tədris binasında yerləşən Müasir Təlim Mərkəzi, E-öyrənmə Mərkəzi yaradılmışdır. Həmçinin onlayn və hibrid formatda keçirilən bəzi tədbirlər zamanı (vebinarlar, konfrans və seminarlar) “Microsoft Teams” və “Zoom” kimi rəqəmsal xidmətlərdən istifadə olunur.

Özünütəhlil Hesabatında STEAM laboratoriyalarının yaradıldığı və istifadəyə verildiyi qeyd edilmişdir. Lakin universitetdə tədris aparılan ixtisasların çoxşaxəliliyini və ixtisaslara aid olan spesifik proqramların zəruriliyini nəzərə aldıqda, GDU-da tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin müasir dövrün tələbləri səviyyəsində olmadığı müşahidə edilmişdir. GDU-da rəqəmsal xidmətlərin əsas göstəricilərindən olan elektron kitabxana-informasiya sistemi mövcud deyil. Bununla bağlı GDU tərəfindən müvafiq tədbirlərin görülməsi tövsiyə edilir.

### 3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı, Akkreditasiya Komissiyası tərəfindən GDU-da 11 kompüter laboratoriyasının mövcud olduğu müşahidə edilmişdir. Bu laboratoriyalarda internetə çıxışı təmin olunmuş kompüterlərin sayı 120-dir. Ümumilikdə isə universitetdə 573 kompüter vardır ki, bunlardan 468-i auditoriya və tədris laboratoriyalarındadır. İstifadə olunan internet şəbəkəsinin sürəti 100 mbit/san-dir. Yerində baxış zamanı III və IV tədris binalarının bəzi mərtəbələrində (sahələrində) internet sürətinin zəifləməsi nəticəsində şəbəkəyə qoşulmaq istiqamətində problemlər aşkarlanmışdır.

### 3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu

GDU-da tədris prosesi ümumi sahəsi 32058 $m^2$ olmaqla 5 tədris binasında həyata keçirilir. Tədris üçün faydalı olan sahəyə 30 mühazirə, 132 məşğələ, 24 tədris laboratoriyaları, 2 elmi-tədqiqat laboratoriyası aiddir. Universitetin faydalı sahə fondunun 23195,7 $m^2$, ümumi tələbə sayının isə 7875 nəfər olduğunu nəzərə alsaq, bir tələbəyə

düşən faydalı sahənin 2,9 m$^2$ bərabər olması müəyyən olur. Əyani təhsilalma formasında bakalavriat səviyyəsi üzrə dərslər 2 növbəli, magistratura səviyyəsi üzrə isə dərslər saat 17:00 da (V tədris binasında) təşkil edilir. Sahə səfəri zamanı müxtəlif tədris binalarındakı (II,III,IV tədris binalarında) auditoriyaların mövcud sahəsinin tələbə sayına olan nisbətində həddindən artıq sıxlıq müşahidə edilmişdir.

### 3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun inkişaf dinamikası

GDU-ya sahə səfəri zamanı akademik heyətin fəaliyyəti üçün sahəsi cəmi 3753,6 m$^2$ olan 125 otaq, inzibati heyətin fəaliyyəti üçün 7654,9 m$^2$ sahəsi olan 139 otağın olduğu müşahidə edilmişdir. Akkreditasiya Komissiyasının müxtəlif tədris binalarına yerində baxış zamanı bəzi dekanlıqların və kafedraların fəaliyyət sahəsinin heyətin sayına uyğun olmadığı və zəruri otaq fondu ilə əlaqəli ciddi sıxlığın olduğu müşahidə edilmişdir.

**Şəkil 3.5.7.1** Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun dinamikası (*Qeyd: Özünütəhlil Hesabatına istinad edilmişdir.)*




Diaqramdan göründüyü kimi akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondunun 2016-cı ildən cari ilə qədər say dinamikasında (hesabat dövrünü əhatə edən) cüzi artım müşahidə olunsa da, ATM-ə sahə səfəri zamanı müəllimlərin və inzibati heyətin istifadəsində olan otaqlarda sıxlıq müşahidə edilmişdir.

### 3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbə və akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası

Universitet üzrə kitabxana fondunun ümumi sahəsi 1518,8 m$^2$, tələbə sayının isə 7875 nəfər olduğunu nəzərə alsaq bir tələbəyə düşən faydalı sahə 0,2 m$^2$-dir. Bu isə tələb olunan normadan azdır. Kitabxanada xidmət sahəsinin bir tələbəyə 0,6 m$^2$ hesablanmaqla müəyyən edilməsi tövsiyə olunur.

**Şəkil 3.5.8.1** Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə tələbə sayına olan nisbəti *(Qeyd: Özünütəhlil Hesabatına istinad edilmişdir.)*




Diaqramda kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə tələbə sayına olan nisbəti verilmişdir. Belə ki, 2016/2017-ci tədris ilində 57,3, 2017/2018-ci ildə 62,1, 2018/2019-cu ildə 53,8, 2019/2020-ci ildə 50,0, 2020/2021-ci ildə 46,7, 2021/2022-ci ildə 45,6, 2022/2023-cü ildə 45,3, 2023/2024-cü ildə isə 44,5 ədəd kitab sayısı qeyd edilmişdir. Diaqrama əsasən hər təhsilalana düşən kitab sayı dinamikasında azalma müşahidə olunur.

**Şəkil 3.5.8.2** Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə akademik heyət sayına olan nisbəti




Kitabxananın (elektron və bilavasitə) ixtisas proqramları üzrə akademik heyət sayına olan nisbəti 2016/2017-ci tədris ilində 562,4, 2017/2018-ci tədris ilində 621,6, 2018/2019-cu ildə 562, 2019/2020-ci ildə 548,8, 2020/2021-ci ildə 553,5, 2021/2022-ci ildə 557,3, 2022/2023-cü ildə 565,1, 2023/2024-cü ildə isə 584,1 ədəd kitab təşkil etmişdir. Akademik heyət üçün son beş ildə kitabxananın xidmət imkanlarının artım dinamikasında müsbət dinamika müşahidə edilir.

Tədris resurslarının təhsilalanlar üçün əlçatanlığını təmin etmək məqsədilə “Kapital Bank” ASC-nin maliyyə dəstəyi ilə elektron kitabxana sisteminin qurulması üçün ilkin razılıq əldə edildiyi bildirilmişdir.

### 3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası

GDU-nun kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikasına nəzər yetirdikdə aydın olur ki, son illərdə elektron resurslara olan tələbatın artmasına görə, elektron formada olan kitabxana fondunda artım olduğu qeyd edilir. Lakin kitabxana müdiri ilə aparılan müsahibə zamanı, fənn proqramlarında qeyd olunan ədəbiyyatlar üzrə kitabxana fondunun zənginləşdirilməsi istiqamətində planlı fəaliyyətin olmadığı müəyyənləşdirilmişdir. Akkreditasiya Komissiyasının tələbələrlə keçirdiyi sorğunun nəticələri təhlil edildiyində, tələbələrin bəzən imtahanlara hazırlaşarkən kiril əlifbasında olan ədəbiyyatlardan istifadə etdikləri bildirilmişdir.

**Şəkil 3.5.9** GDU-nun kitabxana fondu üzrə son səkkiz ildə nəşr olunmuş dərslik və dərs vəsaitlərinin (elektron və çap şəklində) dinamikası.




### 3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası

GDU-ya sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən müəyyən edilmişdir ki, kitabxana fonduna daxil olan Azərbaycan dilində olan tədris resurslarının ingilis və rus dillərində olanlara nisbətən dinamikasında artım müşahidə olunur. Kimya və biologiya müəllimliyi ixtisasında 2022/2023-cü tədris ilindən etibarən tədrisi ingilis dilində aparılan qrupların istifadəsi üçün nəzərdə tutulan ədəbiyyatlar kitabxanada yalnız elektron formada mövcuddur. Kitabxananın beynəlxalq kitab bazalarına çıxışının olmadığı müşahidə olunmuşdur. Akkreditasiya Komissiyasının tələbələrlə keçirdiyi sorğunun nəticələrinə əsasən, Azərbaycan dilində keçirilən dərslərin bəzilərində onlara kiril əlifbası ilə kitabların müəllimlər tərəfindən təklif edildiyi və bunun da fənnin öyrənilməsinə çətinlik yaratdığı

müəyyənləşdirilmişdir. Akkreditasiya Komissiyası tərəfindən kitabxanada tədris dillərinə uyğun elektron dərslik, dərs vəsaitləri resurslarının artırılması üçün müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

### 3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası

Hesabat dövründə GDU-da dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsait 83850 AZN təşkil edir. Lakin bu dövrdə ayrılmış vəsaitdən 55250 AZN (ayrılmış məbləğin təqribi 66%-i) xərclənmişdir. Universitet üzrə dərslik və elmi ədəbiyyatlardan istifadə üçün ayrılan vəsaitin dinamikasına nəzər yetirdikdə aydın olur ki, 2021/2022-ci tədris ilində bu sahədə icra edilən xərclər azalmışdır.

**Şəkil 3.5.11.1** ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası




### 3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti

GDU tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında universitetdə təlim və tədris resurslarının istifadəsinin və yenilənməsi prosesinin monitorinqi rektorluğun 30.12.2022-ci il tarixli 5/469 saylı əmri ilə yaradılmış "Yoxlama Komissiyası" tərəfindən aparılması göstərilmişdir. Universitetə sahə səfəri zamanı Akkreditasiya Komissiyası GDU tərəfindən təqdim olunmuş əmrə əsasən "Yoxlama Komissiyası"nın tərkibi ilə tanış olsa da, Komissiyaya monitorinq prosesinin təşkilinin hansı meyarlar əsasında aparılmasının mexanizmi təqdim edilməmişdir. "Yoxlama Komissiyası"nın tərkibi sədr Elm və innovasiyalar üzrə prorektor olmaqla 33 üzvdən ibarətdir.

### 3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti

Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı qismən təmin edilir. Buna tam nail olmaq üçün tələbələrin elektron kabinetləri vasitəsilə müvafiq təlim və tədris resurslarına əlçatanlığı təmin

edilməlidir.

Təhsilalanlar fakültələrin veb səhifəsinə (www.gdu.edu.az) daxil olaraq “Mühazirə” bölməsindən yararlana bilirlər. Universitetin rəsmi internet saytında fakültələrin veb-səhifəsində tədris olunan fənlər üzrə tədris materiallarının (sillabus, mühazirə mətnləri, təqdimatlar, dərslik və dərs vəsaitləri ) yerləşdirilməsi tam icra olunmayıb.

Kafedra müdirləri ilə görüş zamanı səsləndirilən fikirlərə əsasən, tədris və elmi laboratoriyaların təkmilləşdirilməsinə ehtiyac duyulduğu xüsusilə vurğulanmışdır. Tədris materiallarının aktuallığını və əlçatanlığını təmin etmək istiqamətində təkmilləşdirmə işlərinin aparılması məqsədəuyğundur.

### 3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti

GDU EŞ-nin 20.09.2020-ci il tarixli (pr. № 05) Qərarı və rektorluğun 04.11.2020-ci il tarixli 5/229 saylı əmrinə əsasən sağlamlıq imkanları məhdud tələbələrin yararlana biləcəyi “Əlilliyi olan şəxslər üçün Mərkəz” yaradılmışdır.

Mərkəz Avropa və Amerika Birləşmiş Ştatlarının istehsalı olan tədris resursları- Braille printer (Braille embosser), audio-vizual tədris materialları, brayl əlifbası ilə çap edilmiş bəzi dərsliklər və s. ilə təchiz olunmuşdur.

Mərkəzin yerləşdiyi binada (V tədris binası) sağlamlıq imkanları məhdud şəxslərin tam sərbəst hərəkəti üçün lazımi şərait (pandusla təmin edilmiş xüsusi giriş yaradılmış, binada yerləşən kitabxanadan, tələbə yeməkxanasından, sanitar qovşaqlardan istifadə üçün bütün şərait) yaradılmışdır. Universitetdə sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış şəraitin digər tədris binalarında mövcud olmadığı müşahidə edilmişdir.

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının bütün tədris binalarında təchiz edilməsi tösiyə olunur.

### 3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti

GDU-da təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi hər semestrin əvvəlində kafedralarda təşkil edilmiş iclaslarda aparılan müzakirələrə əsasən icra edilir. GDU-ya sahə səfərində kafedra iclaslarının protokollarına baxış zamanı təlim və tədris resurslarının təkmilləşdirilməsi mexanizmi və hansı meyarlar əsasında aparılması istiqamətində işlər müəyyən edilməmişdir. Müxtəlif fakültələrdə sahə baxışı zamanı ixtisas laboratoriyalarının (xüsusilə Kimya-biologiya və Fizika fakültələrində) müasir avadanlıqlarla təchizatı zərurətinin olduğu müəyyənləşdirilmişdir. Kafedra müəllimləri ilə kafedralara yerində baxış zamanı fənn proqramlarının son 3 ay ərzində tərtib etdirildiyi müəyyənləşdirilmişdir. Kafedra müdirləri ilə müsahibə zamanı, bəzi kafedra müdirlərinin “sillabus” adlı sənədi izah edə bilmədiyi, belə bir sənədləşmədən xəbəri olmadığı, sillabusların təkmilləşdirmə mexanizminin mövcud olmadığı müşahidə edilmişdir.

### 3.5.16 Tələbə klublarınn, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu

GDU-da Tələbə Gənclər Təşkilatı (TGT), Tələbə Həmkarlar İttifaqı Komitəsi (THİK), Tələbə Elmi Cəmiyyəti (TEC) və İdman Klubu mövcuddur. Bu qurumların fəaliyyəti üçün zəruri avadanlıqlarla təchiz edilmiş otaqlar ayrılmışdır. Universitetdə fəaliyyət göstərən digər tələbə klublarına TGT-nin nəzdində "Tarix", "Xarici dillər", "Psixologiya", "Vətənpərvərlik", "İdman və sağlamlıq", "ART", "İntelektual Oyunlar" kimi klubları misal göstərmək olar. THİK-in nəzdində (THİK) isə "Gənc yazarlar", "Gənc intellektlər", "Tarix" və "Əyləncə" kimi klublar mövcuddur. Universitetdə tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resursları), dəstək planlarının mövcudluq vəziyyəti qənaətbəxşdir.

### 3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti

GDU-da 18.04.2022-ci il tarixli 5/123 saylı əmrlə bütün fakültələrdə, Qiyabi və Magistratura şöbələrində "Psixoloji məsləhətçilər" otağı yaradılmışdır. Bu otaqlara cədvəl üzrə təyin olunmuş Psixologiya kafedrasının müəllimləri könüllülük prinsipi əsasında "psixoloji məsləhətçi" olaraq təhkim edilmişdir. Psixoloji məsləhətçilərin fəaliyyətlərinin həftəlik cədvəlinə əsasən müvafiq fakültələrdə yalnız həftənin iki günü bu xidmətin mövcud olduğu müəyyən edilmişdir. Psixologiya kafedrasının müdiri ilə görüş zamanı, psixoloji məsləhətlə əlaqəli qeydiyyat dəftəri və müvafiq sənədləşmələrin aparılmadığı müşahidə olunmuşdur. Tələbələrlə keçirilən anonim sorğu nəticələri təhlil edildiyində, psixoloji xidmət və Psixologiya kafedrası ilə əlaqəli şikayətlərinə əsasən psixoloji məsləhət xidmətinin məqsədə müvafiq təşkil olunmadığı anlaşılır. GDU-da sahə baxışı zamanı müşahidə edilmişdir ki, universitetin strukturunda psixoloji məsləhət xidməti mövcud deyildir.

GDU-nun strukturunda psixoloji məsləhət xidmətlərinin yaradılması ("psixoloji məsləhətçi"lərin könüllülük prinsipi əsasında deyil, konkret psixoloq ştatı ilə təmin olunması) tövsiyə olunur.

## 3.6. Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi

### 3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti

GDU-da bilik və bacarıqların qiymətləndirilməsi sistemi cari və aralıq qiymətləndirmə metodları ilə həyata keçirilir. Cari qiymətləndirmə aparılarkən tələbələrin semestr daxilində keçirilən kollokviumlarda aldığı qiymətlər və təhsilalanların sərbəst işindən aldığı ballar nəzərə alınır. Semestr daxilindəki aralıq qiymətləndirmə isə əsasən test və yazılı formada semestr sonunda keçirilən imtahanların nəticəsinə əsasən formalaşır. GDU-da təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənir. 100 ballıq sistem ilə toplanmış balların müvafiq normalar üzə bölgüsündən tələbənin biliyi hərflərlə (A (əla), B (çox yaxşı), C (yaxşı), D (kafi), E (qənaətbəxş), F (qeyri-kafi)) qiymətləndirilir.

GDU-da bilik və bacarıqların qiymətləndirmə sistemi ilə bağlı prosedur və qaydalar mövcuddur. Lakin sahə səfəri zamanı, tələbələrlə müsahibələr və rəy sorğularının nəticəsi

olaraq qaydaların yetərincə şəffaf olmadığı və təhsilalanlar arasında qiymətləmdirmədə ədalətsiz yanaşmaların olduğu qeyd edilmişdir. Komissiya tərəfindən tələbələrlə keçirilən anonim sorğu nəticələri təhlil edildiyi zaman bilik və bacarıqların qiymətləndirmə sistemində bəzi nöqsanların olduğu da müəyyən edilmişdir. *Məsələn: "Haqqı olan tələbələr təqaüd ala bilmirlər, buna səbəb də bəzi imkanlı tələbələrin olması, müəllimlərin düzgün qiymət verməməsi; tələbələr arasında fərq qoyulması; hər bir tələbə kimliyindən asılı olmayaraq düzgün qiymətləndirilməlidir, oxumayan tələbə ilə oxuyan tələbənin qiyməti bəzən eyni olur; bəzi tələbələrin qəlbi bəzi müəllimlərə qarşı doludur, lakin heç nə deyə bilmirlər, çünki qorxurlar; müəllimlərin dərindən yoxlanılması xahiş olunur; "qiymətləndirmə prosesi" ədalətli olarsa gələcəyin çox yaxşı ixtisasli kadrları yetişər"* kimi fikirlər bildirilmişdir.

#### 3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti

Özünütəhlil Hesabatında GDU-da təhsilalanların biliyinin qiymətləndirilməsi prosesinin ölçüləbilən və etibarlı olması GDU EŞ-nin 28.12.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorluğun 19.01.2024-cüil tarixli 5/19 saylı əmri ilə təsdiq edilmiş "GDU üzrə ali təhsil sistemində qiymətləndirmə Konsepsiyası" əsasında tənzimləndiyi qeyd edilmişdir. GDU-da sahə səfəri zamanı 2017-2023-cü illər ərzində qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti ilə əlaqəli tənzimləmələrin aparılmadığı müəyyən edilmiş və bu istiqamətdə dekanlıqlardan yerində baxış zamanı tələb olunan sənədlər Komissiyaya təqdim edilməmişdir. Müsahibələr zamanı, imtahan prosesinin Tədris Departamenti tərəfindən test və yazılı formada keçirildiyi, nəticələrin isə Tədris Departamenti tərəfindən fənni tədris edən müəllim olmadan başqa bir müəllim tərəfindən qiymətləndirildiyi qeyd edilmişdir. Tələbələrlə keçirilən anonim sorğular təhlil edildiyində də qiymətləndirmə meyarlarında nöqsanlar barədə fikirlərin olduğu öz əksini tapmışdır.

#### 3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti

İxtisasların xüsusiyyətindən asılı olaraq tədris prosesində müxtəlif qiymətləndirmə metodlarından və formalarından istifadə olunur. Tələbələrlə keçirilən sorğu nəticələrinə və kafedra müdirlərindən bəzilərinin fikirlərinə görə, GDU-da ali təhsilin səmərəliliyinin artırılması üçün tələbəyönümlü öyrənmə (SİP-də yer alsa da), tədris və qiymətləndirmə üsullarının tətbiqi istiqamətində yeni yanaşmalara, fənnlərin xüsusiyyətlərindən asılı olaraq fərqli qiymətləndirmə üsullarından yararlanmağa ehtiyacın olduğu bildirilmişdir.

#### 3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti

Özünütəhlil Hesabatında ixtisas proqramları üzrə dərslərin keçirilməsinə nəzarət və təhsilalanların biliyinin cari qiymətləndirilməsi zamanı ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması  və tələbənin qiymətinin əsaslandırılması vəziyyətinin müəyyən edilməsi məqsədi ilə 27.10.2023-cü il tarixli 5/294 saylı "Tədris binalarına rektorun  səlahiyyətli nümayəndələrinin təyin edilməsi" barədə əmri ilə tədris binaları üzrə məsul şəxslər təyin edildiyi bildirilir. 2023-cü ildən əvvəlki tədris illərinin müvafiq tədbirlərin görülməsi barədə fəaliyyətlər və ya müvafiq sənədlər müəyyən olunmamışdır. Təhsilalanların biliyinin aralıq

qiymətləndirilməsi zamanı AR ETN-nin "İmtahan sessiyasının təşkili Qaydaları" haqqında müvafiq əmri və müvafiq olaraq rektor tərəfindən "İmtahan sessiyasının təşkili və keçirilməsi" barədə əmr əsas götürülür. Əmrin icrasını həyata keçirmək üçün müxtəlif komissiyalar yaradılmışdır. Özünütəhlil Hesabatında qeyd olunur ki, kafedralarda imtahan suallarının hazırlanmasına nəzarət etmək üçün "Ekspert Komissiyaları" yaradılmışdır. Ancaq fakültələrdə sahə baxışı zamanı, "Ekspert komissiyalarının" fəaliyyəti ilə əlaqəli fikirlər və sənədləşmə müəyyən edilməmişdir. Akkreditasiya Komissiyası tərəfindən qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması ilə əlaqəli təkmilləşdirmə istiqamətində əməli işlərin aparılması tövsiyə olunur.

### 3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti

Özünütəhlil Hesabatında fakültələr üzrə rektorluğun 30.12.2023-cü il tarixli 5/445 saylı əmri ilə yaradılmış "Monitorinq və qiymətləndirmə Komissiyası"nda yer alan Maraqlı Tərəflərin tərkibinə tələbələr və məzunlar (cari və öncəki illərin) da daxil edildiyi və bunun öz növbəsində qiymətləndirmədə (xüsusilə sillabuslarda "təlim nəticələri" hissəsinin təkmilləşdirilməsi)təhsilalanların özünü qiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsi ilə bağlı təklif verməsinə şərait yaratdığı qeyd olunur. Sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən tələbələrlə keçirilmiş müsahibələrdə tələbələrin sillabusun məzmunu ilə tanış olmadıqları müşahidə edilmişdir. AK tərəfindən tələbələrə keçirilən anonim sorğu nəticələri təhlil edildiyində, GDU-da özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması istiqamətində çatışmazlıqların mövcudluğu nəzərə çarpır.

### 3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti

Qiymətləndirmə prosesində test üsulu ilə keçirilən imtahanlar informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə etməklə təşkil edilir. Özünütəhlil Hesabatında pandemiya dövründə bütün imtahanlar Microsoft Teams platformasının "İmtahan modulu" ilə həyata keçirildiyi, pandemiya sonrası ilk dövrdə isə test formasında keçirilən imtahanların xüsusi formada təşkil edildiyi qeyd edilir. Cari tədris ilinin payız imtahan sessiyası mövcud proqram təminatı vasitəsilə təşkil edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən test üsülü ilə keçirilən imtahanlarla yanaşı digər imtahan növlərinin tətbiqi zamanı da qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə əhatəsinin genişləndirilməsi tövsiyə olunur.

### 3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti

ÖH-da GDU-da təhsil alanlar arasında sağlamlıq imkanları məhdud şəxslərin az olduğu və bu səbəbdən onlar üçün xüsusi qiymətləndirmə üsullarından istifadə edilmədiyi

qeyd edilmişdir. Universitetin illik fəaliyyət planlarında sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə ilə bağlı tədbirlər planı mövcuddur. Eyni zamanda SİP-də vurğulanan tələbəyönümlülük də nəzərə alınaraq sağlamlıq imkanları məhdud şəxlər üçün xüsusi qiymətləndirmə üsullarının işlənib hazırlanması tövsiyə edilir.

### 3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti

Sahə baxışı zamanı ixtisaslar üzrə cari və aralıq qiymətləndirmə aparılan zaman müvafiq fənlərin xüsusiyyətindən asılı olaraq test, yazılı, şifahi, sorğu, təqdimat, qabiliyyət və s. qiymətləndirmə formalarının tətbiq edildiyi bildirilmişdir. Özünütəhlil Hesabatında ixtisaslar üzrə təhsilalanların qabiliyyətinin eyni olmadığını nəzərə alaraq xüsusi qabiliyyət tələb edən fənlərdə cari qiymətləndirmə zamanı onların qabiliyyət bacarıqları deyil (musiqi, təsviri incəsənət, fiziki tərbiyə, texnologiya) nəzəri biliklərinin yoxlanılmasına üstünlük verildiyi qeyd edilir. Lakin, xüsusi qabiliyyət tələb edən fənlərdə qabiliyyət bacarıqlarının da eyni nisbətdə yoxlanılması şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinin təmin olunması baxımından məqsədəuyğundur. Komissiya tərəfindən tələbələrlə keçirilən anonim sorğu nəticələri təhlil edildiyində, GDU-da onların ən çox narahat olduqları mövzuların cari və aralıq qiymətləndirmə zamanı şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsiplərinin tətbiqindəki çatışmazlıqların olduğu müəyyənləşdirilmişdir.

### 3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)

İxtisaslar üzrə Yekun Dövlət Qiymətləndirilməsi test üsulu ilə yekun dövlət imtahanı və ya buraxılış işi formasında təşkil olunur. Yekun Dövlət Qiymətləndirməsi mövcud qanunvericiyə istinad edilərək, GDU EŞ-nin 09.12.2022- ci il tarixli (pr. № 03) Qərarı və rektorluğun 28.12.2022-ci il tarixli 5/468 saylı əmri ilə təsdiq edilmiş "GDU-da bakalavriat səviyyəsində tələbələrin Dövlət Attestasiyası haqqında Qaydalar"ı və "GDU-da magistratura təhsilinin məzmunu, təşkili, "magistr" dərəcələrinin verilməsi Qaydaları"na uyğun prosedurlar əsasında həyata keçirilir.

### 3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti

GDU-da sahə səfəri zamanı, xüsusilə, 2017-2022-ci illər arasında hər imtahan sessiyasının sonunda bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə fakültələrdə nəticələr üzrə təhlillər aparılmadığı və iclas protokollarında öz əksini tapmadığı müşahidə edilmişdir. AR ETN-nin müvafiq formaları üzrə imtahan nəticələri ümumiləşdirilmək üçün Tədris departamentinə təqdim olunur. Tədris məsələləri üzrə prorektor tərəfindən universitet EŞ-ə təqdim edilir. Əldə edilmiş nəticələrə dair genişləndirilmiş nəticə hesabatında müvafiq təhlillər mövcud deyildir.

### 3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydın və başa düşülən formada olması və tələbələr üçün əlçatan olması

GDU-da tədrisin təşkili Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş qaydalar əsasında kredit sistemi ilə həyata keçirilir. Tələbələrin fənlər üzrə attestasiyası (biliyinin qiymətləndirilməsi) Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən müəyyənləşdirilmiş qaydada çoxballı (100 ballı) sistemlə həyata keçirilir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə gorə toplanır. Təhsil səviyyəsinin bitirilməsi qaydaları Azərbycan Respublikası Elm və Təhsil Nazirliyinin müvafiq sərəncam və əmrlərinə uyğun olaraq sadə, aydın və başa düşülən şəkildə tələbələrə əlçatan formada universitetin veb səhifəsinə (https://gdu.edu.az/tovsiyələr/) yerləşdirilmişdir.

### 3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müvafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu

GDU-nu bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil pilləsinin bakalavr və magistr səviyyələrində təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi qaydaları"na əsasən diplom və diploma əlavə verilir.

Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, ixtisaslar üzrə təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə arayışların verilməsi AR NK-nin 21.01.2010-cu il tarixli 12 saylı Qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası"na uyğun həyata keçirilməsi nəzərdə tutulsa da, normativ müddətdən artıq təhsil alan tələbələr universitetdən xaric edilərək başqa ali təhsil müəssisəsinə bərpa edilmədiyinə görə arayışların verilməsi halı müəyyən edilməmişdir.

## 3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər

### 3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti

Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu ilə bağlı "İşə qəbul meyarlarının" işlək mexanizmə çevrilməsi üçün təkmilləşdirməyə ehtiyac vardır. Sahə səfəri zamanı işə qəbul prosesində müsabiqə yolu ilə seçkili vəzifələrin tutulması ilə əlaqədar qanunvericiliyin tələblərinin nəzərə alınmadığı müşahidə edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 52-ci maddəsinə əsasən, müsabiqə yolu ilə tutulan vəzifələrə sınaq müddəti müəyyən edilmir. Buna baxmayaraq, 2018-2020-ci illər arasındakı sənədlərə baxış zamanı, GDU-da müsabiqə yolu ilə seçkili vəzifələrə seçilmiş dekan və kafedra müdirlərinin bəziləri 6 aylıq sınaq müddəti ilə təyin olunmuşlar (GDU-nun 13.02.2019-cu il tarixli 1/66 saylı əmrindən çıxarışda "İqtisadiyyat və idarəetmə fakültə Elmi Şurasının 11 fevral 2019-cu il tarixli (01 fevral protokol) qərarına əsasən müsabiqədən keçdiyi üçün müddətli əmək müqaviləsi ilə 13.02.2019-cu il tarixindən 13.08.2019-cu il tarixinədək 6 aylıq sınaq müddəti ilə İqtisadiyyat və idarəetmə fakültəsinin dekan vəzifəsinə seçilmiş hesab edilsin"). Qeyd edilən illərdə "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması

qaydaları"nın 2.4-cü maddəsinin tələbləri də gözlənilməmişdir. Həmin maddəyə əsasən "Kafedra müdiri fakültə Elmi Şurasının, fakültə dekanı isə fakültə əməkdaşlarının (ştatda olan müəllimlər, o cümlədən əsas iş yeri həmin ali təhsil müəssisəsində olmaqla 0,5 ştatla çalışanlar və elmi işçilər) ümumi iclasında iştirakçıların 2/3 hissəsinin iştirakı ilə gizli səsvermə yolu ilə seçilirlər". Lakin İqtisadiyyat və idarəetmə fakültəsinin dekanının fakültə Elmi Şurasında seçildiyi müəyyən edilmişdir.

Sahə səfəri zamanı bəzi vəzifələrə seçilənlərin təhslinin ixtisas profilinə uyğun olmadığı müşahidə edilmişdir. Məsələn, "Pedaqoji" fakültənin dekanı "Bədən tərbiyəsi və idman" üzrə mütəxəssis, "İqtisadiyyat-idarəetmə" fakültəsinin dekanı biologiya üzrə fəlsəfə doktorudur.

Özünütəhlil Hesabatında hər tədris ilinin əvvəlində yeni işə qəbul edilən akademik heyətin bilik və bacarıqları maraqlı tərəflərin iştirak etdiyi rektorun əmrləri ilə yaradılmış Komissiyalar tərəfindən açıq dərs formasında dinlənilərək qiymətləndirildiyi qeyd edilir. Lakin sahə baxışı zamanı istər fakültə və kafedralarda, istərsə də insan resursları şöbəsində prosesin rəsmiləşdirmə sənədlərinə rast gəlinmədi. İşə qəbul prosesinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün "İşə Qəbul Siyasəti" və "Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün "İşə Qəbul Meyarları" (https://gdu.edu.az/siyasət/) universitetin internet səhifəsində yerləşdirilsə də, bu siyasət və qəbul meyarlarının davamlılığının təsdiqedici sənədlərinə rast gəlinməmişdir.

Akademik heyətin işə qəbulu sahəsində mövcud prosedurlar işə qəbul prosesinin şəffaflığını və obyektivliyini təmin etmək üçün kifayət etmir. Xüsusilə, universitet xaricindən müraciət etmiş şəxslərin müraciətlərinə baxılması və namizədlərin uyğunluğunun qiymətləndirilməsi ilə bağlı aydın meyarlar mövcud deyil. Müsahibə zamanı bu suala cavab olaraq *"müvafiq sahə üzrə tədris etmək istəyən namizədin ilk öncə səriştələri yoxlanılır, məqbul hesab olunduğu halda ona universitet rəhbərliyinə ərizə ilə müraciət etməsi tövsiyə olunur"* kimi fikir bildirilmişdir. Ərizə qəbul olunduqdan sonra müvafiq komissiya yaradılır, təsadüfi seçilmiş mövzu əsasında namizədin "açıq dərs"i təşkil olunur və onun uyğunluğu barəsində qərar verilir. Sahə baxışı zamanı, təsvir edilən prosedurun bütün mərhələlərini təsvir edən müvafiq yazılı təlimatlar və sənədlər komissiyaya təqdim edilməmişdir. Eyni zamanda GDU tərəfindən komissiyaya təqdim edilən sənədlərdə bir çox kafedralarda elmi dərəcəsi olan və baş müəllim kimi fəaliyyət göstərən əməkdaşların fəaliyyət göstərdiyi müəyyənləşdirilmişdir. AR Prezidentinin 11 iyun 2019-cu il "Elmi adların verilməsi qaydası haqqında Əsasnaməyə (https://president.az/az/articles/view/33499) uyğun olaraq elmi dərəcəsi olan əməkdaşlara dosent əvəzi və ya dosent (attestatsız) vəzifəsinin verilməsi, dosent adının alınması üçün təşviq edilməsi tövsiyə edilir.

### 3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti

Sahə baxışı zamanı, GDU-nun akademik heyətinin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran hər hansı bir daxili siyasəti və differensiallaşmanı əks etdirən sənəd aşkar olunmamışdır. Sadəcə 2023-cü ildə qəbul edilmiş akademik heyətin pedaqoji səriştələrinin yüksəldilməsini stimullaşdırılması GDU EŞ- nin 19.01.2023-cü il tarixli (pr. №

04) Qərarı və rektorluğun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və Mükafatlandırma Siyasəti" adlı sənədə əsasən bəzi müəllimlərə ("Fəxri Fərman", "Təşəkkürnamə" və "Pul mükafatı") müəyyən mükafatlar verilir. Akademik heyətlə müsahibələr zamanı, universitetdə pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsinə ehtiyac olduğu bildirilmişdir.

Özünütəhlil Hesabatında "Kimya və biologiya müəllimliyi" ixtisasında pedaqoji fəaliyyətlə məşğul olan, xüsusi bacarıq və səriştələri olan müəllimlərin əmək haqlarına əlavələr edildiyi qeyd edilmişdir. Lakin GDU tərəfindən komissiyaya əlavələrin hansı kriteriyalara əsasən "Kimya və biologiya müəllimliyi" ixtisasında pedaqoji fəaliyyətə görə təyin edildiyini təsdiq edən sənədə rast gəlinmədi.

Komissiyanın professor-müəllim heyəti ilə (respondentlərin sayı 245 nəfər) keçirilən sorğu nəticələrində beynəlxalq dil sertifikatlarına (Aptis, IELTS və digər) malik olan müəllimlərin stimullaşdırıcı vəsait almadıqları, konfrans və digər elmi tədbirlərə gedərkən ezamiyyələrin verilməməsi və s. bağlı fikirlər qeyd edilmişdir. GDU EŞ-nın 30 yanvar 2023-cü il tarixli (Protokol №4) Qərarı və rektorun 5/20 saylı əmri ilə təsdiq edilmiş "Motivasiya və mükafatlandırma siyasətindən irəli gələn məqsədlərin tətbiq mexanizmi"nin təkmilləşdirilməsi tövsiyə olunur.

Sahə səfəri zamanı müəllimlərlə müsahibədə əmək haqlarının azlığından narazılıqlarının olduğu bildirilmişdir. Özünütəhlil Hesabatında GDU EŞ-nin 24.09.2019-cu il tarixli (pr. No 06) Qərarı və rektorluğun 25.09.2019-cu il tarixli 5/228 saylı əmri ilə əmək haqlarının minimum aylıq əmək haqqı səviyyəsinə çatdırılması stimullaşma olaraq qeyd olunmuşdur. Bununla bağlı olaraq universitetdəki əmək haqqı sisteminə yenidən baxılması, differensial əmək haqqı sisteminə keçid istiqamətində mexanizmin yaradılması və tətbiq edilməsi tövsiyə olunur.

Sahə səfəri zamanı GDU-da professor-müəllim heyətinin informasiya və kommunikasiya texnologiyaları ilə işləməsi, onlardan düzgün istifadə edə bilməsi bacarığı üzrə bu istiqamətdə ayrı-ayrı formalarda təlimlərin keçirildiyi müəyyən olunmuşdur. Akkreditasiya Komissiyası tərəfindən keçirilən sorğu nəticələrinə əsasən professor-müəllim heyətinin bəzi təklifləri *"Əvvəla, dərs üçün vacib olan avadanlıqların köhnələri yeniləri ilə əvəz edilməli və müasir texnologiya ilə işləyə bilən kadrların sayı da artırılmalıdır. Beləliklə, tədris keyfiyyəti artırıla bilər deyə düşünürəm."* kimi fikirlər qeyd edilmişdir. Professor-müəllim heyətinin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsi üçün GDU-nun təlim ehtiyaclarını əks etdirən vahid təlim inkişaf planının yaradılması tövsiyə edilir.

### 3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti

Sahə səfəri zamanı 2016-2020-ci illəri əhatə edən Strateji İnkişaf Planında Məqsəd 2-də təhsilverənlərin peşəkarlıq səviyyəsini yüksəltmək üçün təlimlərin verilməsi barədə müddəaların nəzərdə tutulmasına baxmayaraq, 2017-2023-cü illər arasında akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər planının mövcud olmadığı müşahidə edilmişdir. 2023-cü ildə qəbul edilən "Təlim və Tədris Siyasəti" sənədində təhsildə yeni texnologiyaların geniş tətbiqi üçün

universitet infrastrukturunu inkişaf etdirmək, distant təhsil proqramlarını yaratmaq və ömüboyu təhsili gücləndirmək 1-ci məqsəd olaraq qoyulmuşdur. Müsahibələr zamanı bu istiqamətdə təlimlərin keçiriləcəyi, xüsusilə "Eduman" platformasından istifadə bacarıqlarının formalaşdırılması və təkmilləşdirilməsi üçün İnformasiya resurslarının formalaşması şöbəsi tərəfindən tədbirlər planı hazırlandığı bildirilmişdir. Sahə baxışı zamanı dərs dinləmələrində müəllimlərin interaktiv və aktiv tədris metodlarından lazımi səviyyədə istifadə etmədikləri müşahidə edilmişdir. Kafedralara yerində baxış zamanı interaktiv və aktiv tədris metodların tətbiqi ilə bağlı təlimlərin keçirilməsinə ehtiyac olduğu müəyyənləşdirilmişdir. "Təlim və Tədris Siyasəti" adlı sənədin müddəalarından ("Təhsildə yeni texnologiyaların geniş tətbiqi üçün universitet infrastrukturunu inkişaf etdirmək, distant təhsil proqramlarını yaratmaq və ömürboyu təhsili gücləndirmək") məlumatsız olduqları bildirilmişdir.

### 3.7.4 Akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma və digər təlim kurslarında iştirakı vəziyyəti

GDU-da akademik heyətin öz ixtisas sahələrinə aid ixtisasartırma kurslarında iştirakı üçün hər hansı konseptual yanaşmanın mövcud olmadığı müşahidə edilmişdir. Akademik heyətdən bəzi müəllimlərin öz şəxsi təşəbbüsləri nəticəsində ölkə daxilində müxtəlif təlimlərdə iştirakını təsdiqləyən sənədlər təqdim edilmişdir. Sahə səfəri zamanı 2017-2023-cü illər arasında akademik heyətin öz ixtisasas sahələrində inkişafı ilə əlaqəli sənədləşmə və fəaliyyət planı müəyyən edilməmişdir. 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"da ixtisasartırma ilə bağlı "Professor-müəllim heyətinin ixtisasartırma işini qurmaq və təkmilləşdirmək" adlı fəaliyyət müəyyən edilsə də, kafedralara yerində baxış zamanı müəllimlərin bu təlimlərdən və Strateji Plandan xəbərsiz olduqları müəyyənləşdirilmişdir. 2023-cü ildən başlayaraq İnnovasiyalar departamenti tərəfindən akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və digər mövzularda bir sıra təlim kurslarının keçirildiyi və gələcəkdə bu istiqamətdəki fəaliyyətlərin intensivləşəcəyi bildirilmişdir. Komissiya belə qənaətə gəlmişdir ki, professor-müəllim heyətinin ixtisas sahələrinə uyğun qabaqcıl elm-tədris və ya istehsalat sahələrində ixtisasartırma və təlim kurslarında iştirak etmələri üçün sistemli fəaliyyətlərin həyata keçirilməsi məqsədəuyğundur.

### 3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti

GDU-nun bəzi Avropa universitetləri ilə Erasmus+KA1 mübadilə proqramı çərçivəsində əməkdaşlıq müqaviləsi mövcud olsa da, akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında inkişafına yönəlik fəaliyyət planı və bu istiqamətdə şəffaf mexanizm mövcud deyildir.

Müsahibələr zamanı ixtisaslar üzrə akademik heyətin ingilis dili biliyinin zəif olması səbəbilə mübadilə proqramlarında iştirak edə bilmədikləri nəzərə çatdırılmışdır.

Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakının arzuolunan səviyyədə olmadığı müşahidə olunur. Komissiyaya təqdim olunan sənədlərdən aydın olur ki, 2016-2023-cü illər ərzində Erasmus+KA2 proqramları çərçivəsində 20 nəfərə

yaxın əməkdaş xarici universitetlərdə təlimlərdə iştirak etmişdir. Professor-müəllim heyətinin xarici dil biliklərinin artırılması, aidiyyəti ixtisas üzrə akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakının təmin edilməsi istiqamətində mexanizmin formalaşdırılması tövsiyə olunur.

### 3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti

2017-2023-cü illər arasında GDU-da akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sistemi mövcud olmamışdır. Eləcə də, kafedralara yerində baxış zamanı belə bir sistemin mövcud olmadığı bildirilmişdir. Özünütəhlil Hesabatında GDU üzrə akademik heyətin dərs zamanı yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi 2023-cü ildə ümumi siyasət olaraq qəbul edilmiş “Təlim və Tədris Siyasəti” sənədinə istinad olunduğu qeyd olunur. Həmin sənədin “Missiya” bölməsində universitet tərəfindən tələbələrin məmnunluq səviyyəsinə “nəzarət etmək və təkmilləşdirmək” üçün araşdırmalar aparıldığı və bu araşdırmalara uyğun qərarlar qəbul etdiyi vurğulanır. Özünütəhlil Hesabatında 03.11.2022-ci il tarixli 5/352 saylı əmri ilə yaradılmış “Monitorinq Qrupu”nun professor-müəllim heyətinin dərsində iştirak edərək nəticələrinin müzakirəsi haqqında rektora məlumat verdiyi qeyd edilmişdir. Sahə baxışı zamanı bildirilmişdir ki, hazırda akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mexanizmi yoxdur və yaxın zamanlarda hazırlanması nəzərdə tutulur.

### 3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti

GDU-da ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsü mövcud qanunvericiliyə (“Ali təhsil pilləsinin dövlət standartı və proqramı” na, “Təhsil, təlim-tərbiyə müəssisələrini rəhbər, inzibati-təsərrüfat, tədris-köməkçi və digər işçilərinin tutduqları vəzifə ilə yanaşı ixtisasları üzrə dərs yükü (pedaqoji iş) aparmaları haqqında normalar”a, “Professor-müəllim heyətinin tədris yükünün planlaşdırılması və hesablanması haqqında Əsasnamə”yə, “Professor-müəllim heyətinin tədris işi üçün vaxt normasının müəyyənləşdirilməsi, elmi-tədqiqat, elmi-metodiki və digər işlərin əsas növləri barədə” və “Təhsil müəssisələrinin pedaqoji işçilərin dərs yükü normalarının müəyyən edilməsi haqqında”) əsasən aparıldığı qeyd olunur. Sahə səfəri zamanı kafedralardan, fakültələrdən, Tədris departamentindən 2022-2023-cü və 2023-2024-cü tədris ilinin vaxt normaları haqqındakı daxili tənzimləmə sənədləri (“Dərs yüklərinin planlaşdırılması Qaydaları” ilə əlaqəli) Komissiyaya təqdim edilməmişdir. Kafedra müdirləri ilə müsahibələrdə dərs yükü bölgüsü zamanı illərlə davam edən təcrübələrin nəzərə alındığı bildirilmişdir. GDU-da bir ştat müəllimin tədris yükünün minimum 500 saat (ən az 60% auditoriya saatı, 40% isə auditoriyadan kənar saatlar olmaqla) nəzərdə tutulduğu qeyd olunmuşdur. Sahə səfəri zamanı, universitet üzrə bəzi müəllimlərin Forma 3 sənədlərində tədris yüklərinin bölgüsündə auditoriya saatının 60%-dən az olduğu müəyyənləşdirilmişdir. Professor-müəllim heyəti ilə sorğular aparan zaman müəllimlər tərəfindən istehsalat təcrübələrinin, qiyabi təhsil formasına verilən dərslərin bölgüsünün şəffaf olmadığı barədə fikirlər bildirilmişdir.

### 3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti (1/15)

GDU tərəfindən təqdim edilən məlumatlara görə, universitetdə mütəxəssis hazırlığına cəlb olunmuş akademik heyətin (əsas iş yeri) ümumi sayı 595 nəfərdən ibarətdir. Tələbələrin hər iki təhsil səviyyəsi üzrə sayı, qiyabi təhsilalanlar da daxil olmaqla 8454 nəfərdir. Ümumi olaraq universitetdə professor-müəllim heyətinin tələbə sayına nisbəti 1/14 kimidir. GDU üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti fakültələr üzrə fərqlidir. Aşağıdakı cədvəldə fakültələr üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti əks olunmuşdur. Yerində baxış zamanı, xüsusilə İqtisadiyyat və idarəetmə fakültəsində ixtisas üzrə kadr çatışmazlığının olduğu müəyyən edilmişdir.

Aşağıda verilən cədvəldən göründüyü kimi, İqtisadiyyat və idarəetmə fakültəsi tələbə sayına görə 2-ci yerdədir, lakin həmin fakültədə müvafiq olaraq professor-müəllim heyətinin sayının tələbə sayına nisbəti 1/21-dir.

**Cədvəl 3.7.8.1** Professor-müəllim heyətinin sayının tələbə sayına nisbəti

| Fakültə | Akademik heyətin sayı (əsas iş yeri GDU olanlar) | Tələbələrin sayı | Professor-müəllim heyətinin sayının tələbə sayına nisbəti |
|---|---|---|---|
| Fizika və texniki fənlər | 58 | 608 | 1/10 |
| Kimya-biologiya | 72 | 698 | 1/10 |
| Filologiya | 47 | 587 | 1/12 |
| Xarici dillər | 99 | 705 | 1/7 |
| Tarix-coğrafiya | 81 | 1169 | 1/14 |
| Pedaqoji | 105 | 1339 | 1/13 |
| İqtisadiyyat və idarəetmə | 63 | 1305 | 1/21 |
| Riyaziyyat- informatika | 70 | 768 | 1/11 |
| Magistratura | | 572 | |
| Qiyabi | | 703 | |
| **Universitet üzrə cəmi:** | **595** | **8454** | **1/14** |

### 3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti

GDU-da tədris prosesində iştirak edən professor-müəllim heyətinin ayrı-ayrılıqda payı ixtisaslara və kafedralara görə dəyişir. Mövcud təhlillər əsasında məlum olmuşdur ki, tədris prosesində iştirak edən və əsas iş yeri GDU olan akademik heyətin ümumi akademik heyətdə payı 2016-ci ildə 93,3%, 2023-cü ildə isə 97,3% olmaqla artan istiqamətdə dəyişmişdir. Özünütəhlil Hesabatında cari tədris ilində əsas iş yeri universitet olmayan akademik heyət ümumi heyətin 2,7%-i təşkil etdiyi qeyd edilir. GDU tərəfindən Komissiyaya təqdim edilən fakültələrə dair cari məlumatda "Fizika" (54%), "Ümumi pedaqogika" (61%), "Tədrisin pedaqogikası və metodikası" (50%), "Bədən tərbiyəsi və idman" (46%), "İqtisadiyyat (70%), İdarəetmə" (37%), "Anatomiya, fiziologiya və zoologiya" (37%), "Praktik xarici dillər" (60%) kafedralarında əvəzçilik və saathesabı qaydada cəlb edilmiş akademik heyətin ümumi akademik heyətdə payının həddindən çox olduğu müəyyənləşdirilmişdir. 2017-ci ildən etibarən GDU-da aparılan islahatlar (yeni ixtisaslara qəbulun aparılması, dərs yüklərinin artması və s.) nəzərə alındığı zaman professor-müəllim heyətinin və inzibatı heyətin sayında dəyişmə dinamikası çox aşağıdır. Bütün qeyd olunanları nəzərə alaraq GDU-da kadr potensialının optimallaşdırılması üçün zəruri tədbirlərin görülməsi tövsiyə olunur.

### 3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi

Müsahibələr zamanı GDU-da bakalavriat səviyyəsindəki tədris dili ingilis dili olan qruplarda xarici dil tələbi, iqtisadiyyat istiqamətli ixtisaslarda kadr hazırlığında elmi dərəcəli akademik heyətin az olması səbəbilə tədris prosesinə kənardan professor-müəllim heyətinin cəlb edilməsi zərurətinin yarandığı qeyd edilmişdir. İqtisadiyyat və idarəetmə, Musiqi müəllimliyi ixtisaslarında, eləcə də MBA ixtisaslarında da kadr çatışmazlığı mövcud olduğundan kənardan kadrların cəlb edilməsi prosesi zəruri xarakter daşımışdır. Fakültələrdə yerində baxış zamanı ixtisasa uyğun kadrların işə cəlb olunmasının çətinliyi qeyd edilmişdir. Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi müasir dövrün tələblərinə və əmək bazarının ehtiyaclarına uyğun tədris prosesinin praktik yönümlü təşkil olunması ilə əsaslandırılmışdır. Sahə səfəri zamanı ştatda olan professor-müəllim heyətinin xarici dil biliklərinin zəif olmasının və bu istiqamətdə qısamüddətli təlimlər və ixtisasartırma işinin qurulmaması kənardan professor-müəllim heyətinin cəlb edilməsini zəruri hala gətirdiyi müşahidə edilmişdir.

### 3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti

Sahə baxışı zamanı GDU-da "Motivasiya və Mükafatlandırma Siyasəti" adlı sənədin olmasına baxmayaraq, akademik heyətin əməyinin konkret indikator və meyarlar əsasında differensial qiymətləndirilməsi mexanizminin mövcud olmadığı müəyyən olunmuş və bununla bağlı Akkreditasiya Komissiyasının üzvlərinə heç bir sənəd təqdim olunmamışdır. Sahə baxışı zamanı bildirilmişdir ki, hazırda differensiallaşdırılmış əmək haqqı sistemi tətbiq olunmasa da, GDU-nun 2023-2028-ci illər üzrə təsdiq edilmiş "Strateji Planı"nda alt məqsəd olan bu istiqamətdə işlər aparılır və əməkhaqqının təyin olunması zamanı differensiallaşma

mexanizminin tətbiq olunması üçün planlaşdırmalar aparılır.

### 3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti

GDU-da "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsil almasına dair Dövlət Proqramı" çərçivəsində 1 nəfər məzun olaraq universitetdə işə cəlb olunmuşdur. "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı" çərçivəsində 1 nəfər "Ekologiya" ixtisası üzrə təhsilini davam etdirir. Özünütəhlil Hesabatında xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş xeyli sayda professor-müəllim heyətinin universitetdə əmək fəaliyyətinə cəlb edildiyi qeyd edilmişdir.

GDU tərəfindən təqdim edilmiş 8 Peşəkar inkişaf cədvəlində hesabat dövrü üzrə ATM-də sadəcə 2 fakültə üzrə - Filologiya və Riyaziyyat-informatika fakültələrində Xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən, eləcə də Dövlət Proqramından məzun olmuş professor-müəllim ümumi akademik heyətdə payı müvafiq olaraq 2% və 11% olmuşdur. Digər fakültələr üzrə Dövlət proqramı çərçivəsindən nüfuzlu ATM-dən məzun olmuş professor-müəllim heyəti həmin cədvəldə "0" olaraq göstərilmişdir.

## 3.8. Tələbəyönümlü tədris

### 3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi

Müsahibələr zamanı tələbələrin fərdi tədris planlarının tərtib edilməsində iştirak etdikləri, tələbəyönümlü təhsil nöqteyi-nəzərindən tələbələrin fikirlərinin nəzərə alındığı bildirilmişdir. Hər il aprel-may aylarında bu prosesin həyata keçirildiyi və tədris planında nəzərdə tutulmuş 3 seçmə fənnlə əlaqədar 3 müəllim dəvət olunaraq onların fikirlərinin nəzərə alındığı, sonra isə tələbə tərəfindən seçildiyi vurğulanır. Təhsilin birinci ilində bu prosesin, əsasən, tyutorlar (akademik məsləhətçilər) tərəfindən hazırlandığı da qeyd olunur. Lakin "*Bu fənləri müəyyənləşdirərkən istifadə olunan mexanizmi necə izah edəcəksiniz*?" sualına, Tədris departamentinin müdiri cavab verməkdə çətinlik çəkir. Tələbələrin fərdi tədris planlarına baxış zamanı planların mövcudluğu və tərtibedilmə tarixlərinin uyğun olduğu müəyyən edilmişdir.

### 3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi

GDU-da tyutor xidməti ilə bağlı müvafiq təlimlərdən keçmiş akademik məsləhətçilərin (tyutor) fəaliyyət göstərdiyi müşahidə olunmuşdur. Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlər üçün tələbələrə sərbəst seçim hüququnun verildiyi AK tərəfindən təqdim olunan sorğunun nəticəsinə görə müşahidə edilmişdir ("*Seçmə fənlərin seçimi hüququndan sərbəst yararlanıram*"- Razıyam- 185 nəfər( 80%); Qismən razıyam- 15 nəfər (7.1%); Razı deyiləm- 3 nəfər (1.3%); Qətiyyən razı deyiləm-20 nəfər (9%); Fikrim yoxdur - 6 nəfər (2.6%)). Tələbələrlə müsahibə zamanı tyutorların və müəllimlərin bu istiqamətdə köməklik göstərdikləri ifadə edilmişdir. Belə ki, tələbələr seçmə fənlərin mövcudluğundan

xəbərdar olsalar da, seçmə fənlərin seçilməsi mexanizmi barədə hər hansı bir məlumatı verə bilmədilər.

### 3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi

Müsahibə zamanı bir sıra tyutorların müvafiq ixtisaslara uyğun olmadığı müşahidə olunmuşdur. Bir qisim tələbə ilə keçirilən görüşdə Bolonya prosesinin prinsipləri, akademik heyətin və tyutorların seçimində tələbələrin fikrinin nəzərə alınıb-alınmaması barədə suallara verdikləri cavablardan onların sərbəst seçim etdiklərini müəyyən etmək mümkün olmamışdır. Eyni zamanda tyutor xidməti üzrə məsul şəxs tərəfindən bu xidmətin tələbəyönümlü təhsil sistemini inkişaf etdirmək məqsədilə yeni (2022-ci ildə) yaradıldığı qeyd edilmişdir.

### 3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası

Tələbələrlə müsahibələr zamanı bəzi hallarda sorğuların keçirildiyi qeyd edilmişdir. Məzunlarla görüş zamanı sorğuların nəticələrindən irəli gələn çatışmazlıqların aradan qaldırılması üçün işlərin görülmədiyi müəyyən edilmişdir. Sorğuların təhlilinin analitik və statistik alətlərlə ölçülmədiyi müəyyən edilmişdir. Təhsilalanların sayı bakalavriat üzrə 7301 nəfər təşkil etdiyi halda, GDU-nun ümumi fəaliyyətinin qiymətləndirilməsi sorğusunda 1475 nəfər (20%) tələbə iştirak etmişdir. Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun intensivliyi və səmərəliliyinin inkişaf dinamikasına dair müvafiq hesabatların olmadığı müşahidə olunmuşdur. 17-ci sual - GDU ilə əlaqə saxlayırsınızmı?- sualına 84.4% “bəli” cavabının qeyd olunduğunu görürük. Lakin məzunlarla müsahibə zamanı bu fakt öz təsdiqini tapmamışdır. GDU-nun tələbələr tərəfindən qiymətləndirilməsi sorğusunda 9-cu və 20-ci açıq sual olaraq qoyulan “*Gəncə Dövlət Universitetində təhsil almaq istəyənlərə məsləhətiniz*; *inkişafı üçün nələri tövsiyə edərdiniz?”* sualına diqqəti çəkən, eləcə də bir neçə dəfə təkrarlanan ümumi fikirlər nəzərə çarpır. Cavablar təhlil edildiyində, “tələbələrə qayğı göstərilməsinə ehtiyacın olması; müəllimlərin öz mənafelərini deyil, tələbələrin mənafelərini qorumalarının vacibliyi; müəllimlərin motivasiya edilməsinin vacibliyi; müəllimlərin məvaciblərin artırılımasının vacibliyi; neqativ halların aradan qaldırılması; universitetdaxili qruplaşmaların olmaması üçün tədbirlərin görülməsi; köklü islahatlara ehtiyac; tanışlığın aradan qaldırılması; vəzifələrə seçki prosesinin təkmilləşdirilməsi; seçmə fənnlərin seçimində tələbələrin fikrinin nəzərə alınmasına ehtiyacın olması” kimi məsələlər qeyd edilmişdir.

### 3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası

Azad Tələbə Həmkarlar İttifaqı Komitəsi sədri ilə görüşdə tələbələrin rəy və təkliflərinin nəzərə alınması və müvafiq tədbirlərin həyata keçirilməsi qeyd edilmişdir. Lakin universitetdə tələbə və məzunların təklifləri əsasında həyata keçirilmiş yeniliklərin inkişaf dinamikasını əks etdirən sənədlərə rast gəlinməmişdir.

### 3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti

Sahə baxışı zamanı GDU-da tələbələrin fikirlərinin öyrənilməsi üçün sorğular keçirilmiş və müvafiq təhlillər təqdim olunmuşdur. Lakin sualların qoyuluşu ayrı-ayrı sahələrin fəaliyyətinin qiymətləndirilməsi istiqamətində olmadığı, ümumi xarakter daşıdığı, SİP-də əksini tapan məsələlərə rast gəlinmədiyi müşahidə olunmuşdur. Müsahibələr zamanı qərarvermə prosesində tələbə rəylərinin nəzərə alınması, rəylərin təhlillərindən istifadə edilməsi barədə fikirlər bildirilmişdir.

### 3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti

Tələbələrin şikayət və/və ya təklifləri üçün GDU-da müxtəlif vasitə və mexanizmlərin mövcudluğu müşahidə olunur. Belə ki, fakültələrdə Keyfiyyət Təminatı Mərkəzi tərəfindən tələbələr arasında keçirilmiş rəy sorğularını və Tələbə Ombudsman Mərkəzinin mövcudluğunu (https://gdu.edu.az/ombudsman/) qeyd etmək olar.

Tələbə Ombudsman Mərkəzi Gəncə Dövlət Universiteti Elmi Şurasının 07.02. 2018-ci il tarixli iclasında (Protokol № 1) təsdiqlənmiş və rektorun 12.02.2018-ci il tarixli, 1/127 saylı əmrinə əsasən təşkil olunmuşdur. Tələbə ombudsmanı ilə müsahibə zamanı aydın olur ki, qurumun 2018-ci ildən yaradılmasına baxmayaraq (https://gdu.edu.az/g%C9%99nc%C9%99-dovl%C9%99t-universitetind%C9%99-t%C9%99l%C9%99b%C9%99-ombudsman-m%C9%99rk%C9%99zi-f%C9%99aliyy%C9%99t%C9%99-baslayib/) onun fəaliyyətinin mahiyyəti diqqətdən kənarda qalır. Eyni zamanda Tələbə Ombudsmanına ünvanlanan müraciətlərə aid çıxarışlar Komissiyaya təqdim olunmamışdır. Tələbələrlə müsahibə zamanı onların bu mərkəzin mövcudluğu və fəaliyyəti ilə bağlı az məlumatlı olduqları müşahidə olunmuşdur.

GDU-nun təqdim etdiyi “Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi” excel sənədinə əsasən son 5 il ərzində keçirilmiş sorğular yalnız cari tədris ilinin (2023-2024) müəyyən dövründə həyata keçirilmişdir. GDU tərəfindən keçirilən rəy sorğularının nəticəyönümlü təhlil olunmadığı müəyyənləşdirilmişdir. Sorğularda iştirakçı sayının ümumi saya nisbəti aşağıdakı kimi olmuşdur:

- Təhsilalanlar arasında keçirilmiş sorğu - 20% tələbə arasında keçirilmişdir.
- Məzunlar arasında keçirilmiş sorğu - təqdim olunan sənəddə qeydlər yoxdur.
- Əmək bazarında keçirilmiş sorğu - təqdim olunan sənəddə qeydlər yoxdur.
- Akademik heyət arasında keçirilmiş sorğu - 58.3% heyət arasında keçirilmişdir.
- İnzibati və tədris-köməkçi heyət arasında keçirilmiş sorğu - %-lə ölçmək olmur.

Təhsilalanlar arasında keçirilən sorğular “ATM-in ümumi fəaliyyətinin qiymətləndirilməsi” və “Fənlər üzrə məmnunluq” istiqamətləri üzrə keçirilmişdir.

### 3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti

Təhsilalanlara akademik dəstək göstərmək məqsədilə strukturda tyutorluq xidməti yaradılmışdır. Fakültələr üzrə fəaliyyət göstərən tyutorlar Tyutor xidmətinin rəhbərinə tabedirlər. Komissiya belə qənaətə gəlmişdir ki, xidmətin bu şəkildə təşkili tələbələrlə iş istiqamətində və idarəetmə sistemində rentabelliyə mənfi təsir göstərir. Tyutorların imtahanla seçildiyi bildirilsə də, müsahibələr zamanı tyutorlardan bir çoxunun müvafiq kvalifikasiyalara sahib olmadıqları və tyutorluq etdiyi ixtisas üzrə məzun olmadığı müəyyənləşdirilmişdir. Belə ki, ATM tərəfindən təqdim edilmiş "Fakültə və kafedralara dair" excel cədvəlinə əsasən tyutorların tərkibinin təhlili zamanı menecment, ibtidai təhsilin pedaqogikası və metodikası ixtisaslarından məzun olan mütəxəssislərin Riyaziyyat və informatika fakültəsində; fizikadan məzun olan mütəxəssisin Filologiya fakültəsində; iqtisadiyyatdan məzun olan mütəxəssisin Kimya-biologiya fakültəsində; menecment ixtisasından məzun olan mütəxəssisin Xarici dillər fakültəsində və s. çalışdıqları müəyyən edilmişdir. Bununla bağlı olaraq akademik məsləhətçilərin ixtisas uyğunluğunun nəzərə alınaraq müvafiq tədbirlərin görülməsi tövsiyə edilir.

### 3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti

Tələbələr və təhsilverənlər arasında əlaqə, əsasən, üzbəüz həyata keçirilir. Tyutorlar tələbələrlə birbaşa üzbəüz, eləcə də təxirəsalınmaz məsələlərlə məlumatlandırmaq lazım gəldikdə isə əsasən Vatsap və onlayn formada elektron poçt vasitəsilə də əlaqə qururlar.

### 3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti

Özünütəhlil Hesabatında sağlamlıq imkanları məhdud şəxslərin digər tələbələrlə eyni zamanda təlim-tədris prosesində bərabərhüquqlu iştirakının təmin edildiyi qeyd olunmuşdur. Mərkəzin rəhbəri tərəfindən əlilliyi olan tələbələr üçün yaradılan mərkəzin Avropa İttifaqının dəstəyi ilə yaradıldığı bildirilmişdir. V korpusun I mərtəbəsində əlil arabalarının hərəkəti üçün pandusun olduğu, eləcə də görmə qabiliyyəti məhdud, eşitmə qabiliyyəti məhdud olanlar üçün də infrastrukturun olduğu müşahidə olunur. Lakin digər dörd korpusda sağlamlıq imkanları məhdud şəxslər üçün belə bir şərait mövcud deyildir.

### 3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti

Özünütəhlil Hesabatında sosial həssas qrupa aid edilən tələbələrin müvafiq sərəncamlara uyğun olaraq təhsil haqqından azad edildiyi, bir qisim tələbənin təhsil haqqının isə AR ETN-nin "Təhsil Tələbə Krediti" və "Yaşat Fondu" tərəfindən ödənildiyi, eləcə də Azad Tələbə Həmkarlar İttifaqı Komitəsinin bu sahədə fəaliyyətinin olduğu qeyd edilmişdir. Belə ki həmin nümayəndə bu proseslə bağlı sualın cavabında I kurslarla görüşdüklərini, həmin tələbələri müəyyən etdiklərini qeyd etmişdir. Tələbələr şəxsi ərizə ilə müraciət etdikləri təqdirdə maddi yardım olunduğu, il ərzində bu yardımın ümumi 3000-4000 azn təşkil etdiyi bildirilmişdir.

Müsahibə zamanı, *“Tələbələrin sosial vəziyyətinin izlənməsi, monitorinqi üçün alətləriniz nədən ibarətdir?”* sualına cavab olaraq GDU-nun 8000-ə yaxın tələbəsi olduğu, fərdi görüşlər keçirildiyi bildirilmişdir. Lakin tələbələrin sosial vəziyyətini izləmək üçün hər hansı bir üsul və ya mexanizm barədə məlumat verilməmişdir. Komissiya belə qənaətə gəlmişdir ki, sosial təminatı zəif olan tələbələrin təhsillərini sərbəst şəkildə həyata keçirmələri üçün universitetin müvafiq strukturları tərəfindən onların aşkarlanması, diqqətdə saxlanılması və lazımi dəstək verilməsi məqsədilə davamlı mexanizm qurulması məqsədəuyğundur.

### 3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti

Özünütəhlil Hesabatında *"Doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrinin, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsinin tələbələrinə təqaüdlərin təyin olunması və ödənilməsi Qaydası”na* əsasən təqaüdlərin verildiyi qeyd edilmişdir. Eyni zamanda mövcud qaydalara uyğun təqaüdlərin müəyyən edilməsi üçün müvafiq komissiyanın yaradıldığı öz əksini tapmışdır. Eyni hesabatda “*AR ETN-nin 17.09.2014-ci il tarixli 1002 saylı əmrinə uyğun olaraq ali təhsil müəssisələrinə qəbul imtahanlarında 500-dən çox bal toplayaraq ixtisas seçimində birinci və ya ikinci yerdə müəllimlik ixtisasını qeyd edən GDU tələbələrinin "Gələcəyin müəllimi təqaüdü” təqaüd almaq hüququ qazanmışdır*” qeydi nəzərə çarpır. Lakin universitetin daxili imkanlar hesabına hansısa adlı təqaüd təsis etməsi barədə məlumat verilməmişdir. Müsahibələr zamanı THİK sədri tərəfindən THİK-in adlı təqaüdünün olduğu hər semestr üzrə 3 nəfər tələbəyə verildiyi (THİK -da fəal, həm də əlaçı tələbə olmalıdır) bildirilmişdir. Akkreditasiya Komissiyası tərəfindən daxili imkanlar hesabına adlı təqaüdlər verilməsi sistemi qurulması üçün təkliflər zərfi hazırlanmasını tövsiyə edir.

## 3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi

### 3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu

GDU-nun “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnamə”sinin 11.1. maddəsinə uyğun olaraq keyfiyyət üzrə “Təhsil və təlimin keyfiyyətinə nəzarət Komissiyası”na “proqramları hər il müntəzəm olaraq nəzərdən keçirmək, qiymətləndirmək” öhdəliyi həvalə edilmişdir. 2023-cü ilin iyun ayında təsdiqlənmiş bu Əsasnaməyə görə, təhsil proqramlarının monitorinqinə dair hesabat hər il yanvar-mart aylarında təqdim olunan universitetin Özünütəhlil Hesabatında öz əksini tapmalıdır. Lakin Əsasnaməyə görə, daxili və xarici keyfiyyət təminatı sisteminin yaradılmasına məsul qurumlardan biri olan Keyfiyyət Təminatı Komissiyasının 2023-2024-cü illər üçün nəzərdə tutulmuş İş planının icrasına dair hesabatında qeyd edilir ki, “alt komissiyaların təşkili, təsdiqi və fəaliyyətinin təmin edilməsinə nail olunmamışdır”. Yuxarıda qeyd olunanlardan belə qənaətə gəlmək olar ki, təhsil proqramlarının monitorinq strategiyasının formalaşdırılması üçün təşəbbüsün olmasına baxmayaraq, hesabat dövründə monitorinq strategiyasını tam olaraq tərtib etmək və fəaliyyət planını hazırlamaq mümkün olmamışdır. Yerində müsahibə və sahə baxışları zamanı bu fakt öz təsdiqini tapmışdır.

### 3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu

Sahə baxış zamanı kafedralarda bütün ixtisaslar üzrə fənlərin təlim nəticələrinin dərc olunduğu kitabçaların mövcudluğu müşahidə olunmuşdur. 2023-2024-cü tədris illərinə aid sillabuslar və fənn proqramlarının təhlili zamanı təhsil proqramlarının icrası nəticəsində əldə ediləcək təlim nəticələrinin ixtisasın təlim nəticələri ilə uyğunluğu qeydə alınmışdır. Fakültə Elmi Şura (nümunə: Riyaziyyat - informatika fakültəsi, 30.09.2019 tarixli 1 saylı protokolu) və kafedra (nümunə: Ekologiya və təbiəti mühafizəsi kafedrası, 14.09.2020 tarixli 1 saylı protokolu) iclaslarının protokollarını təhlil edərkən bu qənaətə gəlinmişdir ki, fənlər üzrə sillabuslar tərtib edilərkən yoxlanılır, kafedralarda müzakirə edilir və təsdiqlənir.

Həmçinin, Keyfiyyət Təminatı Mərkəzinin 2022-2023 və 2023-2024-cü tədris illərinə aid hesabatlarında da fənn proqramları və sillabusların hazırlanmasında təlim nəticələrinə nəzarət edilməsinə dair fəaliyyətlərin icrası öz əksini tapmışdır.

### 3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti

Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin “Keyfiyyət Təminatı Siyasəti”, “Keyfiyyət təminatı sisteminin tətbiqi, monitorinqi və qiymətləndirilməsi Təlimatı” və “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” adlı sənədlərlə tənzimlənməsinə baxmayaraq, sahə səfəri və təqdim olunmuş sənədlərdə faktiki olaraq təşkil olunmuş qiymətləndirmənin nəticələrinə rast gəlinməmişdir. Ayrı-ayrı fənlərin mənimsəmə göstəricilərinin təhlili aparılmamış və təhsil proqramlarının keyfiyyət təminatı üzrə meyarları nəzərə alınmamışdır.

### 3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti

Hesabat dövründə təhsil proqramlarının sistematik olaraq illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması öz təsdiqini tapmamışdır. Sahə səfəri zamanı bəzi kafedra müdirləri və müvafiq struktur bölmələri (məsələn, Keyfiyyət Təminatı Mərkəzi) ilə keçirilmiş müsahibələr zamanı təhsil proqramları üzrə illik özünüqiymətləndirmə hesabatlarının hazırlanmasında iştirak etmədikləri bildirilmişdir. Təhsil proqramlarının illik özünüqiymətləndirməsi və hesabat nəticələrinə uyğun olaraq SWOT təhlil aparılmalı, müvafiq təkliflər verilməli, bu istiqamətdə hazırlanan fəaliyyət planına nəzarət mexanizmi həyata keçirilməlidir. Bu istiqamətdə müvafiq tədbirlərin görülməsi və hər tədris ilinin əvvəlində çatışmazlıqların aradan qaldırılması tövsiyə olunur.

### 3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti

Təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi bəzi hallarda müşahidə edilsə də, periodik və bütövlüklə (bütün ixtisas və ixtisaslaşmalarda hər bir fənn üzrə) aparılmasına dair müvafiq sənədlər müəyyən edilməmişdir. Akkreditasiya

Komissiyası əmək bazarını təmsil edən şirkət və müəssisələrlə qarşılıqlı əlaqələrin qurulmasını, sorğular keçirilməsini və buna uyğun olaraq monitorinq fəaliyyətlərinin təkmilləşdirilməsini tövsiyə edir.

## 3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi

### 3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatına əsasən universitetdə Təcrübə və karyera şöbəsinin mövcud olduğu qeyd edilmişdir. Belə ki, Təcrübə və karyera şöbəsi 20.04.2012-ci il tarixli 5/73 saylı əmrə əsasən yaradılmışdır. Şöbə, bakalvr və magistratura səviyyələri üzrə istehsalat, pedaqoji və s. təcrübələrin təşkili və məzunların işlə təmin olunması məqsədilə yaradılmışdır.

### 3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsi vəziyyəti

GDU-nun Təcrübə və karyera şöbəsi tərəfindən 2019-2023-ci illəri əhatə edən MİQ-in nəticələri və digər məlumatlar əsasında baza yaradılmışdır. Özünütəhlil Hesabatında bildirilir ki, pedaqoji ixtisasları bitirən məzunların əsas fəaliyyət sahəsi orta məktəblər olduğu üçün onlarla əlaqə yaratmaq məqsədi ilə Gəncə şəhəri və respublika ərazisində yerləşən orta ümumtəhsil müəssisələri ilə əlaqə saxlanılır və MİQ imtahanlarında iştirak etmiş məzunlar haqqında məlumatlar əldə etmək üçün AR ETN-ə müraciət edilir.

Müsahibələr zamanı digər ixtisasları bitirən məzunlar barəsində də məlumat almaq üçün DİM-lə və digər işəgötürənlərlə əlaqə yaradıldığı bildirilmişdir. Komissiya Karyera Mərkəzinin işinin daha səmərəli qurulması məqsədilə məzunlarla əks-əlaqə mexanizminin yaradılmasını tövsiyə edir.

### 3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti

Məzunlarla görüş zamanı, ATM tərəfindən vakansiyaların elan edilmədiyi üçün işlə təmin olunmadıqları bildirilmişdir. Universitetdə məzunların əmək bazarındakı iştirakının izlənilməsi üçün işlək mexanizm və məzunların əmək fəaliyyəti haqqında sistemli baza yaradılmamışdır. Yalnız 2019-2023-cü illəri əhatə edən ancaq MİQ-in nəticələrini əks etdirən bazanın yaradıldığı bildirilmişdir.

ATM tərəfindən təqdim edilmiş Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi excel cədvəlindəki “Əmək bazarında keçirilmiş sorğu” üzrə bölmədə “Qazanılmış peşə kompetensiyalarının əmək bazarının tələblərinə uyğunluğu sorğusu” və “Qazanılmış ümumi kompetensiyaların əmək bazarının tələblərinə uyğunluğu sorğusu” istiqamətində heç bir məlumat qeyd edilməmişdir.

Yuxarıda qeyd edilənləri nəzərə alaraq universitetdə məzunların əmək bazarında iştirakının izlənilməsi üçün işlək mexanizmin yaradılması tövsiyə olunur.

### 3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti

ATM tərəfindən təqdim edilmiş Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi excel cədvəlinə əsasən “Sorğuların nəticələrinin Elmi Şurada müzakirə olunma vəziyyəti və sorğuların təhlili nəticəsində atılmış addımlar” bölməsindəki qeydlərdən də məlum olur ki, sorğular son 5 ildə yalnız 2023-2024-cü tədris ilində təşkil olunmuşdur.

GDU tərəfindən “Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi” sənədində hesabat dövrü ərzində yalnız bir dəfə məzunlar arasında sorğu keçirilmişdir. Məzunlar arasında keçirilmiş sorğular “Karyera xidmətlərindən məmnunluq” və “Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq” istiqamətində təşkil edilmişdir. “Karyera xidmətlərindən məmnunluq” istiqamətində cədvəldə heç bir məlumat göstərilməmişdir (İstinad: Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi, 2 nömrəli excel cədvəl). “Təhsil müddəti ərzində qazanılmış səriştələrdən məmnunluq” istiqamətində, 237 nəfərin iştirak etdiyi qeyd olunmuşdur. Sorğu nəticələrinin təhlili zamanı, məzunlar tərəfindən qeyd edilmiş çatışmazlıqlar aşağıdakı kimi qeyd edilmişdir:

1. Tələbələrin dərslərə daha çox diqqət ayırmaması problemi
2. Gənclərin intellektual inkişafı üçün daha çox müsabiqələr və bilik yarışları təşkilinin azlığı
3 İkinci tədris binasının təmir olunması tələbi
4. İnternetin sürətinin az olması
5. Xarici dil bilən müəllimlərin azlıq təşkil etməsi
6. İngilis dilində dərslik və dərs vəsaitlərinin az olması

Sorğunun nəticələri GDU Elmi Şurasının 28.02.2024-cü il tarixli iclasında (pr.№06) müzakirə olunmuş rektorluğun göstərişi ilə EŞ-in qərarının icrası üçün müvafiq strukturlara göstəriş verilmiş və problemlərin çoxunun aradan qaldırıldığı göstərilmişdir (İstinad: ATM tərəfindən təqdim edilmiş Cədvəl 2: Sorğuların keçirilməsi və məmnunluq səviyyəsinin ölçülməsi).

#### 3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti

Özünütəhlil Hesabatında məzunlar və professor-müəllim heyəti ilə Təcrübə və karyera şöbəsinin təşkilatçılığı ilə görüşlərin təşkil edildiyi, universitetin məzunları ilə rəsmi sosial media hesabları vasitəsilə də əlaqə saxlanıldığı bildirilmişdir. Fəxri məzunlar haqqında məlumatlar toplanılaraq universitetin yubileyi münasibəti ilə məlumatlar çap edilmişdir. Məzunlarla müsahibə zamanı, universitetlə daim əlaqə üçün məzun platformasının olmasına ehtiyac olduğu bildirilmişdir. Bununla bağlı olaraq ümumilikdə universitetin məzunlarının universitet ilə daim əlaqədə olması üçün vahid məzun platformasının yaradılması məqsədəuyğundur.

## 4. ELMİ TƏDQİQAT

### 4.1. Elmi-tədqiqat strategiyası

#### 4.1.1. ATM-in elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti

GDU-nun Elmi-tədqiqat strategiyası əvəzinə “Elmi-tədqiqat Siyasəti” adlanan sənədi 19.01.2023-cü il tarixdə GDU-nun Elmi Şurasının müvafiq qərarı ilə təsdiqlənmişdir.

Sənəddə vizyon olaraq universitetin beynəlxalq və milli nüfuza malik “Tədqiqat universiteti” olması əsas strateji xətt kimi müəyyən olunmuşdur. Lakin bu sənəddə tədqiqat universiteti olmaq üçün hazırda mövcud olan tələblərin qarşılanmasına aid müddəalar əksini tapmamışdır. Sənəddə “Strategiyalar” adlanan bənddə GDU üçün fərqlilik yaradacaq hansı növ tədqiqatların yerinə yetiriləcəyi, hansı prioritet mövzular barədə tədqiqatların aparılacağı və s. barədə müddəalar nəzərdə tutulmamışdır. Sənədin təhlili zamanı onun ümumi müddəaları əks edən sənəd olduğu müəyyənləşdirilmişdir. Eyni zamanda “Universitetin məqsəd, missiya və strategiyaları” adlanan hissələri arasındakı fikirlərdə tam anlaşılmayan məqamlar mövcuddur. Məsələn, *“ etik dəyərlərə hörmət edən fənlərarası tədqiqatların aparılmasına dəstək, fərqliliklərə hörmət edən, təbiətə həssas, yaradıcı fərdlər yetişdirmək.”* kimi fikirlərin GDU-nun elmi-tədqiqatlarının inkişafındakı rolu tam aydın deyildir.

### 4.1.2. Elmi-tədqiqat strategiyasının ATM-in missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti

GDU-nun SİP-də ikinci məqsəd olaraq “Elmi tədqiqatları inkişaf etdirmək” nəzərdə tutulmuşdur. Bu sənəddə qlobal elmi məkana inteqrasiya, elmi, əqli potensialın gücləndirilməsi, təşviq mexanizminin yaradılması, elmi nəşrlərin beynəlxalq standartlara uyğunlaşdırılması kimi müddəalar əksini tapmışdır. Nə bu sənəddə, nə də “Elmi-tədqiqat Siyasəti” adlı strateji sənəddə hansı elmi-tədqiqatların inkişaf etdirilməsi və bu tədqiqatların universitetin missiya və hədəflərinə necə töhfə verəcəyi barədə fikirlər aydın şəkildə öz əksini tapmamışdır.

### 4.1.3. ATM-in elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti

GDU-nun “Elmi-tədqiqat siyasəti” adlı sənədində universitetin müvafiq prioritet tədqiqat sahələri və istiqamətləri öz əksini tapmamışdır. Aparılan müsahibələr zamanı məlum olmuşdur ki, universitetin ümumiləşdirilmiş konkret, prioritet elmi-tədqiqat istiqamətləri müəyyən olunmamışdır. Lakin ayrı-ayrı sahələr üzrə tədqiqat işlərinin aparılması həyata keçirilir. Universitetin apardığı tədqiqat işlərinin nəticələrinin təhlili zamanı müəyyən edilmişdir ki, beynəlxalq bazalara daxil olan jurnallarda GDU əməkdaşlarının dərc etdirdikləri məqalələrin böyük əksəriyyəti, əsasən, kimya və riyaziyyat istiqamətlərindədir. Beləliklə, elmi-tədqiqat siyasəti və məqsədləri “Elmi-tədqiqat siyasəti” sənədində qismən nəzərə alınmışdır. Lakin prioritet tədqiqat sahələri və istiqamətləri bu sənəddə müəyyən edilməmiş və nəzərə alınmamışdır. Qeyd edilən sənəddə eyni zamanda elmi-tədqiqatların təşviqi üçün mexanizmlər, tədqiqat fəaliyyətinin idarə olunması barədə müddəalar da nəzərə alınmamışdır. Sənəddə Vizyon, Missiya, Məqsəd, Strategiyalar adlı müddəalar öz əksini ümumi ifadələr şəklində tapmışdır.

### 4.1.4. Elmi-tədqiqat məqsədlərinin ATM-in uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu

GDU-nun “Elmi-tədqiqat siyasəti” adlı sənədində “*10 ən yaxşı universitetlər sırasında olmaq; araşdırma reytinqinə görə dünyanın ilk 500 universitetinə daxil olmaq; tədqiqatları dünya standartına çatdırmaq; sahibkarlıq və innovativ universitetlər indeksində ön sırada*

*olmaq"* kimi məqsədlər qoyulmuşdur. Universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında Məqsəd 2-də "Elmi tədqiqatları inkişaf etdirmək" hissəsində nəzərdə tutulmuş hədəflərdə "Elmi-tədqiqat siyasəti" sənədində qeyd edilən məqsədlər birbaşa göstərilməmişdir. Bir sıra istiqamətlərdə isə göstərilən müddəalar ümumi xarakterli ifadələrlə əks olunmuşdur. Məsələn, *"2.3.3 Elmi nəşrlərin stimullaşdırılması məqsədilə qabaqcıl ölkələrə səfərlər təşkil etmək. ", "2.4.1 Nüfuzlu yerli və xarici alimləri universitetin elmi junalına redaksiya heyətinə cəlb etmək ."* və s. kimi ifadələri nümunə göstərmək olar.

### 4.1.5. Strategiyada elmi-tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasiyasının nəzərə alınması vəziyyəti

GDU-nun elmi-tədqiqat fəaliyyəti üçün əsas strateji sənəd kimi nəzərdə tutulan "Elmi-tədqiqat siyasəti" sənədində elmi-tədqiqat fəaliyyətinin məzmunu barəsində hər hansı real müddəalar nəzərdə tutulmamışdır. Eyni zamanda aparılan tədqiqatların tədris prosesinə tətbiqi barədə fikir və ya mexanizmlər barədə müddəalar tam əksini tapmamışdır. Müsahibələr və sahə baxışı zamanı tədqiqatlar nəticəsində alınan hər hansı nəticələrin tədrisdə tətbiqi barədə fikirlər bildirilməmiş və müvafiq sənədlərə rast gəlinməmişdir.

### 4.1.6. Strategiyada professor-müəllim heyətinin performansının nəzərə alınması vəziyyəti

Universitetin "Elmi-tədqiqat siyasəti" sənədində Strategiyalar adlanan hissənin 17-ci bəndində *"... araşdırma və innovasiya layihələrinin tətbiqi üçün tədqiqatçılara dəstək verilməsi*" fikri əksini tapmışdır. Ümumilikdə isə qeyd edilən Siyasət sənədində professor-müəllim heyətinin performansının nəzərə alınması barədə fikirlərə yer verilməmişdir. SİP-də isə 2-ci Məqsədin 2.3 bəndində "Təşviq mexanizmlərinin formalaşdırlması" adlı hədəf nəzərdə tutulmuşdur. Burada da performansın nəzərə alınması barədə müddəalar yer almamışdır.

### 4.1.7. Elmi-tədqiqat strategiyasının müəssisədəki akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti

Universitetin "Elmi-tədqiqat siyasəti" sənədi GDU-nun saytında yerləşdirilmişdir. Beləliklə, qeyd edilən sənəd həm akademik heyət, həm də yerli və xarici tərəfdaşlar üçün əlçatandır (https://gdu.edu.az/siyas%c9%99t/).

### 4.1.8. Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti

Özünütəhlil Hesabatında "Elmi-tədqiqat siyasəti" adlı sənədin hazırlanmasında GDU EŞ-nin 26.05.2021-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Maraqlı Tərəflərin Xəritəsi (Stakeholder mapping)" adlı sənəd əsasında maraqlı tərəflərin iştirakı təmin edildiyi bildirilmişdir. Bununla belə, bir sıra dekanlıq və kafedralar, professor-müəllim heyəti ilə müsahibələr zamanı sənədin məzmunu barədə qismən məlumatlı olduqları müşahidə edilmişdir.

### 4.2. Tədqiqat resursları

#### 4.2.1. ATM-in infrastrukturunun, maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resursunun onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti

Akkreditasiya prosesində nəzərdən keçirilən son 8 il ərzində GDU-da universitetin özü tərəfindən maliyyələşdirilən 2 elmi-tədqiqat laboratoriyası (“Kimyəvi materialşünaslıq” elmi-tədqiqat laboratoriyası və “Yarımkeçiricilər fizikasının aktual problemləri” elmi-tədqiqat laboratoriyası) fəaliyyət göstərmişdir. Onların maddi və texnoloji resursları, eləcə də GDU-nun büdcəsindən ayrılan maliyyə resursları ümumilikdə GDU-nun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğun olaraq istifadə edilmişdir.

Hazırda “Kimyəvi materialşünaslıq” elmi-tədqiqat laboratoriyasında 3 istiqamətdə elmi-tədqiqatlar aparılır, o cümlədən AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə tədqiqat layihəsi həyata keçirilir. Özünütəhlil Hesabatında yeni laboratoriyaların yaradılmasının, müvafiq avadanlıqlarla təchiz olunmasının və buna maliyyə vəsaitinin ayrılmasının nəzərdə tutulduğu qeyd edilir.

Qeyd olunanlar GDU-nun elmi-tədqiqat məqsədlərinə və 2023-2028-ci illər üzrə təsdiq edilmiş “Strateji Planı”na uyğundur. Lakin Akkreditasiya Komissiyasına təqdim edilmiş ”GDU-nun elmi-tədqiqat fəaliyyətinə dair gəlir və xərclər ilə bağlı Hesabat” adlı sənəddən göründüyü kimi, elmi-tədqiqat fəaliyyətinə yalnız son 2019-cu ildən sonra maliyyə vəsaiti ayrılmağa başlanmışıdr. Smeta üzrə son 4 il ərzində (2019 – 2022-ci illər) hər il üçün 5000 manat, 2023-cü il üçün isə 10000 manat maliyyə vəsaiti ayrılsa da, faktiki olaraq, yalnız 2023-cü ildə 900 manat xərclənmişdir.

#### 4.2.2. Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olması vəziyyəti

Hazırda GDU-da 583 nəfərdən ibarət professor-müəllim heyəti çalışır. Akkreditasiya zamanı nəzərdən keçirilən son 8 il ərzində, eləcə də cari 2024-cü ildə GDU-da professor-müəllim heyətinin sayı 545 – 589 nəfər arasında, elmi dərəcəsi olan əməkdaşların sayı 92 – 187 nəfər arasında dəyişmişdir:

**Cədvəl 4.2.2.1** GDU-da akademik heyətin və elmi dərəcəsi olan əməkdaşların sayı

| **İllər** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **2024** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Akademik heyət | 559 | 545 | 560 | 576 | 589 | 586 | 580 | 584 | 583 |
| Elmlər doktorlarının sayı sayı | 14 | 15 | 15 | 14 | 15 | 16 | 17 | 19 | 19 |
| Fəlsəfə doktorlarının sayı | 114 | 138 | 161 | 171 | 172 | 170 | 137 | 104 | 73 |
| **CƏMİ** | **128** | **153** | **176** | **185** | **187** | **186** | **154** | **123** | **92** |

Cədvəl 4.2.2.1-dən göründüyü kimi, son 4 ildə elmi dərəcəsi olan professor-müəllim heyətinin ümumi sayında azalma dinamikası müşahidə olunur. Professor-müəllim heyətinin böyük əksəriyyəti öz kafedralarında aparılan üçillik planlanan elmi-tədqiqat işlərində (hazırda kafedralarda 2023-2025-ci illər üçün planlaşdırılmış ümumilikdə 40 problemə həsr olunmuş 99 mövzunu əhatə edən 320 elmi-tədqiqat işi yerinə yetirilir), elmi-tədqiqat xarakterli müxtəlif layihələrdə iştirak edirlər. Hazırda GDU-da doktorant kimi təhsil alan və öz dissertasiya mövzusu üzrə elmi-tədqiqat aparan 29 nəfərin 7 nəfəri və GDU-nun dissertantı olan 44 nəfərin 15 nəfəri GDU-nun kafedralarında, əsasən, müəllim kimi çalışırlar. Qeyd olunanlar deməyə əsas verir ki, GDU-da aktiv elmi-tədqiqatla məşğul olan professor-müəllim heyəti mövcuddur.

### 4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti

GDU-da aktiv elmi tədqiqatla məşğul olan gənc alimlərin təşkilatlanması məqsədilə rektorluğun 28.12.2022-ci il tarixli 5/472 saylı əmri ilə yaradılmış, öz Əsasnaməsi və iş planı olan Nizami Gəncəvi adına "Gənc Alimlər Şurası" fəaliyyət göstərir. Magistrantların fəaliyyəti bilavasitə Magistratura şöbəsi tərəfindən koordinasiya edilir. Tədqiqata meyli və potensialı olan tələbələr Tələbə Elmi Cəmiyyəti tərəfindən koordinasiya olunurlar. Lakin qeyd edək ki, gənc doktorant və dissertantların fəaliyyəti bilavasitə məşğul olacaq və onların təşkilatlanmasında əsas rol oynayan Doktorantura şöbəsinin yaradılması haqqında GDU-nun EŞ-nın 24.06.2023-cü il tarixli (pr. № 09) Qərarı və rektorluğun 25.06.2023-cü il tarixli 5/180 saylı əmri ilə olsa da, Doktorantura şöbəsinə hələ də müdir və işçilər təyin edilməmişdir.

### 4.2.4. Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti

GDU-da tədqiqatçıların "Clarivate Analitics" şirkətinə məxsus olan Web of Science beynəlxalq elmi məlumat bazasına çıxışı təmin olunmuşdur. Eyni zamanda professor-müəllim heyəti və gənc tədqiqatçılar "Google scholar" və s. kimi açıq beynəlxalq elmi məlumat bazalarından aktiv istifadə edirlər. Lakin tədqiqatçıların Elsevier, Springer, Scopus beynəlxalq elmi məlumat bazalarına çıxışı təmin edilməmişdir. Özünütəhlil Hesabatında bu istiqamətdə müvafiq texniki və təşkilati xarakterli işlərə başlanıldığı qeyd edilir.

### 4.2.5. Nəticə yönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti

GDU-da nəticəyönümlü elmi-tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizm kimi GDU EŞ-nin 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı əsasında rektorluğun 30.01.2023-cü il tarixli 5/20 nömrəli əmri ilə 2 sənəd təsdiq edilmişdir:

- "Motivasiya və mükafatlandırma siyasəti" (qeyd edək ki, ÖH-də bu Qərar 14.07.2022-ci il tarixli (pr. № 14) kimi qeyd edilib);
- "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün Əsasnamə".

Bununla yanaşı, rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı əsasında "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar" işlənib hazırlanmış və rektorluğun 13.04.2016-cı il tarixli 5/97 saylı əmri təsdiq edilmişdir. Tətbiq edilən bu "Qaydalar"a əsasən rektorun müvafiq əmri ilə hər təqvim ilinin sonunda elmi və metodik fəaliyyətə görə il ərzində ən yüksək bal toplayan 20 nəfərin (10 nəfər professor, 10 nəfər fəlsəfə doktoru və ya elmi dərəcəsi olmayan müəllim) əmək haqqına 200 AZN miqdarında əlavələr edilir. Həmçinin "Web of Science" elmmertik bazasına daxil olan jurnallarda dərc edilmiş hər bir məqaləyə görə "h" indeksindən asılı olaraq 300-800 manat, elmlər doktoru elmi dərəcəsi almış əməkdaşa 800 manat, fəlsəfə doktoru elmi dərəcəsi almış əməkdaşa isə 500 manat məbləğində birdəfəlik pul mükafatı verilir. GDU-dan Akkreditasiya Komissiyasına təqdim edilmiş "Professor-müəllim heyətinin elmi-metodiki fəaliyyətinə görə mükafatlandırılması ilə bağlı Hesabat" adlı sənəddən göründüyü kimi, hesabat dövrü ərzində bu "Qaydalar" əsasında rektorun müvafiq əmri ilə "Web of Science" bazasına daxil olan jurnallarda çap olunmuş məqalələrə görə ümumilikdə 77 nəfərə 16750 manat, elmlər doktoru diplomu alan 3 nəfərə ümumilikdə 1500 manat, fəlsəfə doktoru diplomu alan 61 nəfərə ümumilikdə 18300 manat pul mükafatı verilmişdir. Eyni zamanda, hesabat dövründə 25 nəfər professorun əmək haqqına ümumilikdə 49200 manat, 41 dosent, baş müəllim və müəllimin əmək haqqına ümumilikdə 40200 manat əlavə ödəniş edilmişdir (İstinad: "Professor-müəllim heyətinin elmi-metodiki nəticələrə görə mükafatlandırılması ilə bağlı hesabat").

### 4.2.6. Elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlərin artım dinamikası

GDU-dan Akkreditasiya Komissiyasına təqdim edilmiş" GDU-nun elmi-tədqiqat fəaliyyətinə dair gəlir və xərclər ilə bağlı Hesabat" adlı sənəddən göründüyü kimi, 2018-ci ildə "Kimyəvi materialşünaslıq" elmi-tədqiqat laboratoriyasının AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun (EİF) elan etdiyi birinci "Elm-Təhsil İnteqrasiyası" adlı qrant müsabiqəsində qalib gəlmiş "Mis və gümüşün çoxkomponentli xalkogenidləri əsasında yeni superion keçiricilərinin və termoelektrik materiallarının alınması və tədqiqi" adlı layihədən əldə edilən 60000 manat vəsaitdən əlavə, hesabat dövrü ərzində elmi-tədqiqat fəaliyyəti nəticəsində heç bir gəlir əldə edilməmişdir:

**Cədvəl 4.2.6.** GDU-da elmi-tədqiqat fəaliyyəti nəticəsində əldə olunan gəlirlər

| İllər | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2024 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Elmi-tədqiqat fəaliyyətindən (layihələrindən) əldə olunan gəlir (manat) | 0 | 0 | 60000 | 0 | 0 | 0 | 0 | 0 | 0 |

### 4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti

Akkreditasiya zamanı hesabat dövrü üzrə GDU aşağıda adları qeyd edilən 13 yerli və xarici elm-təhsil müəssisələri, təşkilatları ilə qarşılıqlı əməkdaşlıq müqavilələri imzalamışdır:

- Rusiya Federasiyasının Şimali Osetiya Dövlət Universiteti (20.01.2016-cı il tarixli müqavilə);
- Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (21.10.2016-cı il tarixli saziş);
- Rusiya Federasiyasının Moskva Dövlət Humanitar-İqtisad Universiteti (23.12.2016-cı il tarixli müqavilə);
- Özbəkistan Respublikasının Əlişir Nəvai adına Daşkənd Dövlət Rus dili və Ədəbiyyatı İnstitutu (2016-cı il tarixli anlaşma memorandumu);
- Rusiya Federasiyasının A.S.Puşkin adına Dövlət Rus dili İnstitutu (20.06.2017-ci il tarixli müqavilə);
- Türkiyə Respublikasının Manisa Cəlal Bayar Universiteti (20.02.2019-cu il tarixli akademik anlaşma protokolu);
- Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Mədəniyyət üzrə Elmi-Metodiki və İxtisasartırma Mərkəzi (17.04.2019-cu il tarixli anlaşma memorandumu);
- Azərbaycan İlahiyyat İnstitutu (16.05.2019-cu il tarixli müqavilə);
- İtaliyanın Urbino Carlo Bo Universiteti (10.01.2023-cü il tarixli anlaşma memorandumu);
- Türkiyə Respublikasının Atatürk Universiteti (01.06.2023-cü il tarixli anlaşma memorandumu);
- Belarus Respublikasının Belarus Dövlət İqtisad Universiteti (16.12.2023-cü il tarixli razılaşma);
- Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Nəbatət bağı (01.02.2024-cü il tarixli müqavilə);
- Türkiyə Respublikasının Qafqaz Universiteti (2024-cü il tarixli anlaşma protokolu).

Akkreditasiya Komissiyası tədqiqat sahəsində daha yüksək elmi göstəricilərə malik olan elm-təhsil mərkəzləri ilə əməkdaşlığın qurulmasının zəruri olduğu qənaətinə gəlmişdir. Hesabat dövründə GDU AMEA-nın bir sıra tədqiqat institutları, o cümlədən AMEA-nın Gəncə bölməsi və Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə elmi-tədqiqat sahəsində əməkdaşlıq etmiş, 2018-ci il ərzində bu institut ilə birgə layihə həyata keçirmişdir.

Özünütəhlil Hesabatı və aparılmış müsahibələrdə qeyd edildiyi kimi, hesabat dövründə GDU-da aparılan müvafiq elmi-tədqiqat işlərinin mövzularının həm təsdiqi, həm də icrası zamanı AMEA-nın uyğun elmi-tədqiqat institutları ilə müzakirə və məsləhətləşmələr aparılmışdır. Həmin institutlarda çalışan professorlar GDU-nun bir çox doktorant və dissertantlarına rəhbərlik etmiş və hazırda da etməkdədirlər. Doktorluq dissertasiyalarının müdafiəsi isə əksər hallarda AMEA-nın ixtisas üzrə müvafiq institutlarında fəaliyyət göstərən müdafiə şuralarında keçirilmişdir.

2023-cü ildə GDU-nun iki alim əməkdaşı ikili diplom çərçivəsində elmi tədqiqatlara

dair təcrübə mübadiləsi ilə bağlı Türkiyə Respublikasının İzmir Dokuz Eylül Univesitetində 2 həftəlik ezamiyyətdə olmuşdur. Onlar sözügedən universitetin Zoologiya, Botanika, Mikrobiologiya, Anatomiya və Histologiya üzrə Araşdırma laboratoriyaları və Herbari fondu ilə tanış olmuşdur.

AMEA və Türkiyə Elmi və Texnoloji Tədqiqat Şurası (TUBİTAK) arasında imzalanmış Əməkdaşlıq Sazişi üzrə Müştərək Proqram çərçivəsində GDU-nun və Bingöl Universitetinin əməkdaşları tərəfindən müştərək "Production of Hive by using Different Herbal Wastes with Hydrophobic Additives and Effects on Honey Quality (Hidrofob qatqılarla fərqli bitki mənşəli tullantılardan istifadə edərək pətək istehsalı və bal keyfiyyətinə təsir)" layihəsi hazırlanmış və sözügedən müsabiqəyə təqdim edilmişdir. Lakin layihə müsabiqədən keçməmişdir.

### 4.3.Elmi-tədqiqat fəaliyyəti

#### 4.3.1. Elmi-tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti

GDU-da da Elm və innovasiyalar üzrə prorektor universitetdə aparılan elmi-tədqiqat fəaliyyətinin ümumi koordinasiyasını həyata keçirir. Elmi-tədqiqat fəaliyyətinin bilavasitə idarə edilməsi elmi işlər üzrə prorektorun nəzarətində olan strukturlar - Magistratura şöbəsi, elmi-tədqiqat laboratoriyaları (hazırda iki laboratoriyalardan biri faktiki olaraq, fəaliyyət göstərməsə də), Tələbə Elmi Cəmiyyəti üzərindən həyata keçirilir.

Kafedralarda GDU-nun EŞ-i tərəfindən təsdiq edilmiş üçillik plan əsasında, mərhələli şəkildə elmi-tədqiqat işləri aparılır.

GDU-da elmi-tədqiqatın innovasiyalar ilə bağlı fəaliyyətləri isə İnnovasiyalar departamenti və onun nəzdində fəaliyyət göstərən aşağıdakı şöbələr tərəfindən həyata keçirilir:

- İnformasiya və kommunikasiya texnologiyaları şöbəsi;
- İnformasiya texnologiyalarının transferi və marketinqi şöbəsi;
- Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsi;
- İnformasiya resurslarının formalaşması şöbəsi;
- Beynəlxalq əlaqələr şöbəsi.

Özünütəhlil Hesabatında və müsahibələr zamanı yaxın gələcəkdə Elm şöbəsinin yaradılması nəzərdə tutulduğu bidirilmişdir. Elm və innovasiyalar üzrə prorektorluğun, o cümlədən İnnovasiyalar departamentinin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ına uyğun olan "Fəaliyyət Planı" mövcuddur.

Müsahibələr və sahə səfəri zamanı İnnovasiyalar departamentinin fəaliyyətinə aid olmayan və ya qismən aid olan şöbələrin də onun tərkibinə daxil edilməsi halı müəyyən edilmişdir. Komissiya tərəfindən belə hallar, bir çox hallarda paralel fəaliyyətlərin və ya maraqlar toqquşmasını yaradan amil kimi dəyərləndirilmişdir.

### 4.3.2. Elmi-tədqiqat xarakterli konfransların, seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti

Hesabat dövrü ərzində GDU-nun təşkilatçılığı ilə 22-si beynəlxalq səviyyəli, 29-u respublika səviyyəli, 15-i onlayn formada olmaqla ümumilikdə 66 konfrans, habelə 28 elmi və 4 onlayn seminar, 12 ustad dərsi keçirilmişdir.

**Cədvəl 4.3.2.1** Elmi-tədqiqat xarakterli konfranslar, seminarlar, görüşlər və s. tədbirlər

| **İllər** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **CƏMİ** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Beynəlxalq səviyyəli konfrans | 1 | 1 | 2 | 3 | 2 | 6 | 2 | 5 | 22 |
| Respublika səviyyəli konfrans | 8 | 3 | 2 | 2 | | 7 | 5 | 2 | 29 |
| Onlayn konfrans | | | | | 2 | 12 | 1 | | 15 |
| Elmi seminar | 6 | 2 | 3 | 2 | 1 | 4 | 7 | 3 | 28 |
| Onlayn seminar | | | | | 1 | 3 | | | 4 |
| Ustad dərsləri | | | | 1 | | 3 | 2 | 6 | 12 |
| **CƏMİ** | **15** | **6** | **7** | **8** | **6** | **35** | **17** | **16** | **110** |

Beynəlxalq konfransların və elmi seminarların bir qismi xarici ölkələrin - Türkiyənin, Rusiyanın, Böyük Britaniyanın, İtaliyanın, Macarıstanın və s. universitetləri və elmi müəssisələri ilə birgə keçirilmişdir.

2023-cü ildə Gəncə şəhərində “Heydər Əliyev İli” çərçivəsində “Milli ekoloji prioritetlər və qlobal iqtisadi təhdidlər: yeni çağırışlar, imkanlar və perspektivlər” mövzusunda keçirilmiş elmi-praktiki konfransın “Yaşıl enerji, yaşıl şəhərlər və yaşıl nəqliyyat” sessiyasında aparılmış müzakirələrin nəticəsi və GDU-nun təklifi nəzərə alınaraq, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dövlət Aqrar Universiteti, Mingəçevir Dövlət Universiteti və Azərbaycan Texnologiya Universiteti tərəfindən hər il Gəncə Yaşıl İqtisadiyyat Forumunun (GYİF) təşkil edilməsinə dair birgə təşəbbüs irəli sürülmüşdür. 06.03.2024-cü il tarixində beş universitet tərəfindən onlayn formada keçirilmiş görüşdə Gəncə Yaşıl İqtisadiyyat Forumunun keçirilməsi barədə Anlaşma Memorandumu imzalanmışdır. Həmçinin “Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində ilk Forumun GDU tərəfindən təşkil edilməsi və “Yaşıl inkişaf xəbərləri” bülleteninin nəşr edilməsi nəzərdə tutulur.

### 4.3.3. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti

Akkreditasiya qiymətləndirilməsi zamanı müəyyən edilmişdir ki, hesabat dövründə elmi-tədqiqat xarakterli beynəlxalq konfrans və seminarların bir qismi xarici ölkələrin

universitetləri və elmi müəssisələri ilə birgə təşkil edilmişdir. Bu konfrans və seminarlarda həmtəşkilatçı olan həmin universitet və elmi müəssisələrin tədqiqatçıları fəal iştirak etmişdir.

Keçirilmiş respublika səviyyəli elmi konfranslarda isə, bir qayda olaraq, ölkənin digər ali təhsil müəssisələrinin tədqiqatçıları aktiv iştirak etmişdir. Hesabat dövründə GDU-nun təşkilatçılığı ilə keçirilmiş konfranslarda, seminarlarda, ustad dərslərində və s. elmtutumlu tədbirlərdə digər müəssisə və xarici ölkələrdən ümumilikdə 12347 nəfər (təkrarlanma ilə) tədqiqatçı iştirak etmişdir:

**Cədvəl 4.3.3.1** Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəssisə və ölkələrin tədqiqatçılarının iştirakı *(Təkrarlanma ilə)*

| **İllər** | **2016** | **2017** | **2018** | **2019** | **2020** | **2021** | **2022** | **2023** | **CƏMİ** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Beynəlxalq konfransda | 1113 | 1202 | 1611 | 1343 | 708 | 730 | 1088 | 2338 | **10133** |
| Respublika konfransda | 130 | 170 | 74 | 190 | | 136 | 143 | 156 | **999** |
| Onlayn konfransda | | | | | 186 | 565 | 60 | | **811** |
| Seminarlarda | 25 | 36 | 15 | 42 | 8 | 28 | 66 | 16 | **236** |
| Onlayn seminarda | | | | | 40 | 46 | | 43 | **129** |
| Ustad dərslərində | | | | | | 6 | 15 | 18 | **39** |
| **CƏMİ** | **1268** | **1408** | **1700** | **1575** | **942** | **1511** | **1372** | **2571** | **12347** |

### 4.3.4. Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı vəziyyəti

Hesabat dövrü ərzində həm GDU-nun təşkilatçılığı ilə keçirilmiş (məsələn, 09-10 dekabr 2022-ci il tarixlərində keçirilmiş "Şuşa ili"nə həsr olunmuş Gənc Alimlərin Beynəlxalq Elmi Konfransı), həm də digər ali təhsil müəssisələrinin keçirdikləri elmi konfrans və simpoziumlarda GDU-nun doktorant və dissertantları fəal iştirak etmişdir. Bunu həmin konfransların materialları toplularındakı məqalə və tezislərdən görmək mümkündür.

Qeyd edək ki, tədris ili ərzində Tələbə Elmi Cəmiyyətinin xətti ilə hər fakültədə və ümumilikdə GDU-da tələbə və magistrantların elmi seminarları keçirilir. Bu seminarlarda müvafiq komissiya tərəfindən seçilmiş məqalə və tezislər tədris ilinin sonunda "Konfrans materialları" şəklində toplu kimi nəşr olunur.

Hesabat dövrü ərzində GDU-nun təşkilatçılığı ilə keçirilmiş konfranslarda, seminarlarda, ustad dərslərində və s. elmtutumlu tədbirlərdə ümumilikdə 20520 (təkrarlanma ilə) nəfər gənc-tələbə iştirak etmişdir:

**Cədvəl 4.3.4.1** Elmi-tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə gənc tələbə-tədqiqatçıların iştirakı *(Təkrarlanma ilə)*

| **İllər** | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | **CƏMİ** |
|---|---|---|---|---|---|---|---|---|---|
| Beynəlxalq səviyyəli | 75 | 81 | 71 | 69 | 23 | 43 | 91 | 127 | **580** |
| Respublika səviyyəli | 221 | 220 | 226 | 231 | 100 | 182 | 210 | 237 | **1627** |
| Onlayn konfransda | | | | | 78 | 365 | 67 | | **510** |
| Seminarda | 346 | 142 | 112 | 87 | 56 | 147 | 234 | 108 | **1232** |
| Onlayn seminarda | | | | | 23 | 93 | | 14 | **130** |
| Ustad dərslərində | | | | 16 | | 76 | 48 | 145 | **285** |
| **CƏMİ** | **2658** | **2460** | **2427** | **2422** | **2300** | **2927** | **2672** | **2654** | **20520** |

### 4.3.5. Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 8 il ərzində GDU əməkdaşları təhsil sahəsində bir çox qrant layihəsində iştirak etdikləri müşahidə edilir:

- Avropa Komissiyasının TEMPUS proqramı çərçivəsində “Beynəlxalq əlaqələr sahəsində universitet idarəçiliyinin inkişaf etdirilməsi və təkmilləşdirilməsi” (UNIVIA) layihəsi;
- “Əlilliyi olan şəxslərin Azərbaycanın ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” (ESFIDIP) layihəsi;
- Erasmus+KA2 proqramı çərçivəsində “Tələbələr üçün Ombudsman xidmətinin yaradılması” (AESOP, 2016-2018) layihəsi;
- “Azərbaycanın ali təhsil müəssisələrində tədris və təlimin təkmilləşdirilməsi” (PETRA, 2017-2019) layihəsi;
- “Azərbaycan universitetlərində Keyfiyyətə Təminat Mərkəzlərinin yaradılması və inkişaf etdirilməsi” (EQAC, 2018-2021) layihəsi;
- “Mediasiya: təlimin və cəmiyyətin transformasiyası” (MEDIATS, 2019-2022) layihəsi;
- “Azərbaycan ali təhsilində sahibkarlıq ekosisteminin gücləndirilməsi” (ENGAGE, 2023-2025) layihəsi;

- “Azərbaycan universitetlərində yaşıl və davamlı qlobal iqtisadi təkmilləşdirmə: bərpa olunan enerji mənbələrinin və iqlim dəyişikliyinin mitiqasiyası” (REFRESH, 2023-2025) layihəsi;

- “Azərbaycanda institusional repozitoriyalar şəbəkəsi vasitəsilə tədqiqat potensialının inkişafı” (DIRNA, 2023-2025) layihəsi.

Yuxarıda sadalanan layihələr Avropa Birliyi tərəfindən maliyyələşdirilən ali təhsil layihələridir. GDU hesabat dövründə hər hansı elmi-tədqiqat layihəsinin iştirakçısı olmamışdır. GDU eyni zamanda Alman Akademik Mübadilə Xidmətinin (DAAD), İsveçin, Litvanın, Latviyanın, Polşanın, Macarıstanın təqaüd proqramları, Asiya İnkişaf Bankının, Türkiyənin TİKA, YTB, Yunus Emre İnstitutu, MEVLANA, TUBİTAK və s. kimi bir çox müxtəlif beynəlxalq təşkilatlarla əməkdaşlıq təşəbbüsləri etməkdədir.

Avropa Komissiyasının Erasmus+ KA1 mübadilə proqramları çərçivəsində GDU-nun bir çox əməkdaşları Avropanın müxtəlif universitetlərində ezamiyyələrdə olmuşdur.

### 4.3.6. Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti

Hesabat dövrü ərzində GDU əməkdaşları tərəfindən ixtira və faydalı modellərə görə ümumilikdə 5 patent əldə olunmuşdur. Bunlardan 4-ü respublika, 1-i beynəlxalq dərəcəlidir (sahə səfəri zamanı bu patentlər Akkreditasiya Komissiyasına təqdim edilmişdir). Patentlərin hamısı 2020-ci ildən sonra alınmışdır:

- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2020 0048, “Spektral Analizator”, İddia sənədinin №-si a 2018 0022, Dövlət reyestrində qeyd olunma tarixi: 01.09.2020;
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2020 0049, “Yarımkeçirici Fotorezistor”, İddia sənədinin №-si a 2018 0048, Dövlət reyestrində qeyd olunma tarixi: 01.09.2020;
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, İxtira İ 2023 0002, “Fotorezistor”, İddia sənədinin № a 2021 0065, Dövlət reyestrində qeyd olunma tarixi: 14.06.2021;
- Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi, Patent, Faydalı Model F2022 0001, “Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu”, İddia sənədinin № u 2020 0024, Dövlət reyestrində qeyd olunma tarixi: 28.01.2022;
- Eurasian Patent Organization, Eurasian Patent Office, Patent, Faydalı Model, “Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu”, İddia sənədinin № 202391011, Dövlət reyestrində qeyd olunma tarixi: 27.10.2023.

Qeyd olunan patentlərdən son ikisi üzrə sifariş əsasında hazırlanmış 3 qurğu satılmışdır.

Qeyd edək ki, “Bal Arılarını Destructor Gənələrindən Təmizləmək Üçün Qurğu” adlı Patent (Faydalı Model) “Anti-Varroa” adlı startap layihəsi əsasında hazırlanmış qurğudur. “Anti-Varroa” layihəsi Kənd Təsərrüfatı Nazirliyinin dəstəyi ilə, Aqrar Elm və İnnovasiya

Mərkəzinin, “Startap Azərbaycan” və “İNNOLAND” Akselerasiya Mərkəzi tərəfindən 2021-ci ildə keçirilmiş “AgroX” startap müsabiqəsində 1-ci yerə layiq görülərək 6 min manat pul mükafatı, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) elm və dəstək sahələri üzrə layihələrin maliyyələşdirilməsi məqsədilə keçirdiyi müsabiqədə isə qalib olaraq 17300 manat məbləğində maliyyə dəstəyi qazanmışdır. Ona innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və gəlir vergisindən 3 il müddətinə azad edən “Startap” şəhadətnaməsi verilmişdir. Layihə XXV “Arximed” Beynəlxalq ixtiralar və innovasiya texnologiyaları sərgisində iştirak edən layihələr arasında beynəlxalq ekspert və münsiflər heyətinin iştirakı ilə keçirilən müsabiqə proqramında qalib gələrək, qızıl medal və fəxri fərmana, habelə Belqradda təşkil olunan “Belgrade Association of İnvertors – Nikola Tesla - 2022” və Rusiya Federasiyasında 2022-ci ildə təşkil edilmiş Biotexnologiyalar üzrə beynəlxalq müsabiqələrdə qızıl medala layiq görülmüşdür. Əlavə edək ki, həmin layihə ilə komandanın gənc üzvü 25 yaşa qədər gənclər arasında “Взгляд в будущее – Москва – 2022” beynəlxalq müsabiqənin qızıl medalı ilə təltif olunmuşdur.

### 4.3.7. İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səmərəli mexanizmlərin mövcudluğu vəziyyəti

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”ə uyğun olaraq GDU-nun nəzdində Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi fəaliyyət göstərir. Mərkəzin əsas məqsədlərindən biri dövlət, özəl sektor, universitetlər, qeyri-hökumət təşkilatları və xarici qurumlar arasında tərəfdaşlığı təşviq etmək və birgə tədqiqatlar aparmaqdır. Hazırda “Yaşıl şəhərlər” proqramı çərçivəsində Gəncə şəhərinin “Yaşıl Şəhər Fəaliyyət Planı”nın hazırlanması üzərində Mərkəzin yerli koordinatorluğu ilə Avropa Yenidənqurma və İnkişaf Bankının (AYİB), İngiltərənin Atkins şirkəti və Mərkəz birgə elmi-tədqiqat aparır. AYİB-in “Yaşıl şəhərlər” proqramı çərçivəsində icra olunacaq layihələri Gəncə şəhərinin ən aktual ekoloji problemlərinin, iqlim dəyişikliyi risklərininin müəyyən edilməsinə və prioritetləşdirilməsinə yönəlmişdir.

İnstitutsional əməkdaşlığa nümunə kimi aşağıda qeyd edilən birgə keçirilmiş elmi tədbirləri göstərmək olar:

- 15.11.2023-cü il tarixdə GDU və Türkiyənin İqtisadi İnkişaf və Sosial Araşdırmalar İnstitutunun (İKSAD) birgə təşkilatçılığı ilə “6-cı Piri rəis adına Beynəlxalq dil, Tarix, Coğrafiya” və “İSPEC 4-cü Beynəlxalq elmi araşdırmalar” mövzusunda beynəlxalq konfrans keçirilib.
- 15-16 aprel 2024-cü ildə Moskva Dövlət Mədəniyyət İnstitutu, Belarus Dövlət Mədəniyyət və İncəsənət Universiteti və GDU-nun birgə təşəbbüsü ilə “Pedaqogika və psixologiyanın aktual problemləri” adlı IX Beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

### 4.3.8. Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti

GDU-da həyata keçirilən birgə tədqiqat proqramı kimi “Kimyəvi materialşünaslıq”

elmi-tədqiqat laboratoriyasında GDU və AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu tərəfindən “Mis və gümüşün çoxkomponentli xalkogenidləri əsasında yeni superion keçiricilərinin və termoelektrik materiallarının alınması və tədqiqi” mövzusunda aparılan birgə elmi-tədqiqat işini qeyd etmək olar.

### 4.3.9. Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti

GDU-nun tədqiqatçılarının beynəlxalq elmi-tədqiqat şəbəkələrində iştirakı, əsasən, beynəlxalq səviyyəli nüfuzlu elmi jurnallarda məqalələr dərc etdirməklə həyata keçirilir. GDU-nun tədqiqatçıları “Web of Science”, “Researchgate”, “Academia” və s. kimi beynəlxalq elmi-tədqiqat şəbəkələrində fəal iştirak edir. Hazırda “Web of Science” elmmetrik bazasında GDU əməkdaşlarının 238 məqaləsi (onlardan 168-i akkreditasiya zamanı nəzərdən keçirilən son 8 ilə, 9-u isə 2024-cü ilə aiddir). “Scopus” elmmetrik bazasında 234 məqaləsi (onlardan 190-si akkreditasiya zamanı nəzərdən keçirilən son 8 ilə, 12-i isə 2024-cü ilə aiddir) vardır. Bununla yanaşı, GDU-nun tədqiqatçıları Azərbaycan Təhsil Şəbəkəsinə qoşularaq şəbəkənin resursları üzərindən GEANT beynəlxalq akademik şəbəkəsinə çıxış əldə edə və bu şəbəkənin elmi araşdırma potensialından yararlana bilirlər.

### 4.3.10. Yerinə yetirilən elmi- tədqiqat işlərinin tədris metodiki vasitələrdə istifadəsi vəziyyəti

GDU-da yerinə yetirilən elmi-tədqiqat işlərinin nəticələri tədris-metodiki vasitələrdə qismən istifadə olunur. Bu ilk növbədə doktorluq dissertasiyalarına aiddir. Dissertasiyanın nəticələrinin tədris prosesində istifadəsi uyğun fənni tədris edən kafedranın müvafiq mütəxəssislərinin tövsiyəsi ilə qəbul edilmiş qərar əsasında müəyyən edilir. Professor-müəllim heyəti tərəfindən aparılan elmi-tədqiqat işlərinin nəticələri, istifadə etdikləri tədqiqat metodları onlar tərəfindən hazırlanan tədris-metodiki vasitələrdə bu və ya digər formada öz əksini tapırlar.

### 4.3.11. Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti

GDU əməkdaşları öz elmi tədqiqatlarının nəticələrini məqalə və tezislər şəklində həm GDU-da, həm respublikada, həm də xaricdə nəşr olunan elmi jurnallarda dərc etdirirlər.

GDU-da “Elmi xəbərlər” jurnalı təsis edilmiş və hər il bir neçə clddə nəşr olunmaqdadır. 2023-cü ildən jurnalın dövri nəşri ilə bağlı çap “ISSN” və elektron beynəlxalq standart seriya nömrəsi “e-ISSN” alınmış olub, həmçinin jurnalda dərc edilən hər məqaləyə rəqəmsal obyekt identifikator (Digital Object Identifier-DOI) nömrəsi verilir. Jurnalın “Pedaqogika”, “Tarix” və “Filologiya” bölmələri Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının “Azərbaycan Respublikasında məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlər” siyahısına daxildir.

Jurnalda məqalə dərc etdirilməsi GDU əməkdaşları üçün ödənişsizdir. Hamı üçün əlçatanlığı təmin etmək məqsədilə jurnal GDU-nun rəsmi internet səhifəsində yerləşdirilir. Hesabat dövrü ərzində (2016-2023-cü illər) jurnalın ümumilikdə 17, 2024-cü ildə isə 1 buraxılışı olmuşdur. Eyni zamanda, qeyd etdiyimiz kimi, hər il tələbə və magistrantların elmi məqalə və tezisləri “Tələbə və magistrantların elmi konfransının materialları” şəklində toplu

kimi nəşr olunur. Jurnal və toplu GDU-nun nəşriyyat-mətbəəsində çap etdirilir. Lakin nəşriyyat-mətbəənin avadanlıqları və fəaliyyəti müasir tələblərə cavab vermir. GDU-nun professor-müəllim heyətinin hazırladığı tədris və elmi-metodiki vəsaitlər burada nəşr edilmir.

### 4.3.12. Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index"-in) artım dinamikası

Akkreditasiya zamanı nəzərdən keçirilən son 8 il ərzində GDU-da tədqiqatçılar tərəfindən 2016–2023-cü illərində nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksini ("citation index") əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, 2022-ci ilə qədər bu göstəricidə artım dinamikası, 2023-cü ildə isə azalma dinamikası müşahidə edilir. Cədvəldən göründüyü kimi, 2020-2022-ci illərdə sözügedən göstəricidə artım dinamikası müşahidə olunmuşdur.

**Cədvəl 4.3.12.1** Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index"-in) statistikası

| **İllər** | **Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin ("citation index") dinamikası** |
|---|---|
| 2016 | 19 |
| 2017 | 26 |
| 2018 | 42 |
| 2019 | 91 |
| 2020 | 96 |
| 2021 | 151 |
| 2022 | 164 |
| 2023 | 132 |

### 4.3.3. Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti

GDU-da magistratura səviyyəsində müəyyən ixtisaslarda tədris planlarında "Tədqiqat üsulları", "Genetikanın tədqiqat metodları", "Botanikanın tədqiqat üsulları", "Marketinq tədqiqatları və marketinq informasiya sistemləri", "Zoologiyanın tədqiqat üsulları", "Kimyanın tədrisi prosesində nəzəri və eksperimental tədqiqatların təşkili", "Elmi-tədqiqat işinin metodika və metodologiyası", "Müasir fiziki tədqiqat üsulları", "Üzvi kimyada fiziki tədqiqat üsulları", "Gənclərlə sosial işdə tədqiqat metodları", "Sosial işdə tədqiqat metodları", "Elmi tədqiqatın təşkili və qiymətləndirilməsi" və s. kimi tədqiqat yönümlü ümumilikdə 23 fənn nəzərdə tutulub və tədris olunur. Lakin doktorantura səviyyəsində tədqiqat yönümlü komponent müəyyən qədər nəzərə alınsa da, bilavasitə tədqiqat yönümlü fənlər tədris olunmur.

**4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarını inkişaf etdirmək üçün təlimlərin və seminarların və digər sistematik fəaliyyətlərin həyata keçirilməsi vəziyyəti**

Hesabat dövrü ərzində GDU-da akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün aşağıdakı mövzularda təlimlər keçirilmişdir:

- Azərbaycanlı tədqiqatçılara Avropada olan tədqiqatlarda iştirak etmək üçün yaradılan imkanlar;
- Beynəlxalq jurnallarda məqalə dərc etmək üçün əsas tələblər;
- Yeni qəbul olunmuş doktorant tələbələr üçün fəaliyyət planı;
- Dissertasiyanın tamamlanması üçün tələblər;
- İnkişaf etməkdə olan tədqiqat sahələri və xaricdə tədqiqat aparılması;
- Tədqiqat və İnnovasiya. İnnovasiya növləri;
- Tədqiqatları biznes imkanlarına çevirmək. Startaplar;
- Startaplar üçün biznes modeli və minimal işlək məhsul;
- Tədqiqat və Startapların maliyyələşməsi.

**4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi siyasətinin mövcudluğu**

Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilməsi məsələsi GDU-nun mövcud "Elmi Tədqiqat Siyasəti" adlı sənədində öz əksini tapmışdır. Təşviqedici vasitələrdən biri rektorluğun 22.02.2016-cı il tarixli 5/34 saylı əmri ilə yaradılmış İşçi Qrupun 02.03.2016-cı il tarixli (pr. № 01) Qərarı əsasında müəyyən edilmiş "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar"ın tətbiq edilməsidir.

Hazırda GDU-da doktorantura səviyyəsində müxtəlif elm sahələrini əhatə edən elmi kadr hazırlığı aparılır: 28 ixtisas üzrə 29 nəfər fəlsəfə doktorluğu proqramı üzrə doktorant kimi (17 nəfəri əyani, 9 nəfəri qiyabi olmaqla), 31 ixtisas üzrə 44 nəfər dissertant olmaqla ümumilikdə 73 nəfər müxtəlif kafedralarda təhsil alırlar (eyni zamanda 18 nəfər elmlər doktorluğu proqramı üzərində çalışır). Qiyabi formada təhsil alan doktorantlardan 7 nəfəri, dissertantlardan isə 15 nəfəri bilavasitə GDU-nun müxtəlif kafedralarında və struktur bölmələrində işlə təmin olunmuşdur.

**4.3.16. Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5 %-dən az olmamaqla) dəyişməsi vəziyyəti**

Hesabat dövrü ərzində GDU-da ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların xüsusi çəkisini əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, bu göstərici 2.50 – 3.25 % arasında dəyişməklə, ümumilikdə artım dinamikası müşahidə edilsə də, tələb olunan 5 %-dən aşağı olmuşdur.

**Cədvəl 4.3.16.1** Ali təhsilin səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayı

| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Professor-müəllim heyətinin ümumi sayı | 559 | 545 | 560 | 576 | 589 | 586 | 580 | 584 |
| Elmlər doktoru, professor | 11 | 11 | 11 | 11 | 11 | 11 | 10 | 11 |
| Elmlər doktoru, dosent | 3 | 4 | 3 | 3 | 4 | 5 | 6 | 7 |
| Elmlər doktoru, elmi adsız | | | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| Elmlər doktorlarının cəmi | 14 | 15 | 15 | 15 | 16 | 17 | 17 | 19 |
| Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların xüsusi çəkisi (faizlə) | 2,50 | 2,75 | 2,68 | 2,60 | 2,72 | 2,90 | 2,93 | 3,25 |

### 4.3.17. Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti

Akkreditasiya zamanı nəzərdən keçirilən son 8 il ərzində GDU-da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətini əks etdirən aşağıdakı cədvəldən göründüyü kimi, bu göstərici 0.36–0.41 arasında dəyişmişdir. Bu göstəricidə 2020/2021-ci tədris ilindən sonra artım dinamikası müşahidə olunur:

**Cədvəl 4.3.17.** GDU-da elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti

| Tədris illəri | 2016/2017 | 2017/2018 | 2018/2019 | 2019/2020 | 2020/2021 | 2021/2022 | 2022/2023 | 2023/2024 |
|---|---|---|---|---|---|---|---|---|
| Akademik heyətin ümumi sayı | 559 | 545 | 560 | 576 | 589 | 586 | 580 | 584 |
| Elmi dərəcəsi olan əməkdaşların sayı | 202 | 224 | 228 | 225 | 219 | 225 | 225 | 236 |
| Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbəti | 0,36 | 0,41 | 0,41 | 0,39 | 0,37 | 0,38 | 0,39 | 0,40 |

### 4.3.18. Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi-tədqiqat hədəflərinə uyğunluğu

GDU-da heç bir ixtisas üzrə Dissertasiya Şurası fəaliyyət göstərmir. Doktorant və dissertantlar elmi dərəcə almaq üçün öz dissertasiyalarını kənar müəssisələrdə - AMEA-nın institutlarında, Elm və Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələrində müdafiə edirlər.

GDU-da təhsil alan doktorant və dissertantların ixtisasları, eləcə də AMEA-nın institutlarında, Elm və Təhsil Nazirliyinin tabeliyindəki ali təhsil müəssisələrində qiyabi doktorant və dissertant kimi təhsil alan GDU əməkdaşlarıninn ixtisasları və aldıqları elmi dərəcələrin istiqamətlərinin böyük əksəriyyəti GDU-nun elmi-tədqiqat hədəflərinə uyğun olaraq təşkil edilir. Bu, GDU-nun 2016-2020-ci il və 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında öz əksini tapmışdır.

### 4.3.19. Elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

Özünütəhlil Hesabatında qeyd edilir ki, *"GDU-da elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi prosesi GDU "Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi" və "Keyfiyyət Təminatı Sisteminin Tətbiqi, Monitorinqi və Qiymətləndirilməsi Təlimatı" adlı sənədləri əsasında tənzimlənir."* Lakin "Keyfiyyət Təminatı Sisteminin Tətbiqi, Monitorinqi və Qiymətləndirilməsi Təlimatı"nın təhlili zamanı müəyyən edilmişdir ki, 5 hissədən ibarət olan bu sənəddə elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizmi haqqında heç bir maddə və ya bənd yoxdur.

Hər təqvim ilinin sonunda GDU-da yerinə yetirilmiş elmi-tədqiqat işləri haqqında illik hesabat hazırlanır və Elmi Şurada təsdiq olunaraq, Elm və Təhsil Nazirliyinə təqdim edilir. Professor-müəllim heyətinin hər bir üzvünün illik elmi-tədqiqat fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi isə "Motivasiya və mükafatlandırma Siyasəti", "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün Əsasnamə" və "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün qaydalar" əsasında həyata keçirilir.

Müsahibələr və sahə səfəri zamanı nəticə əsaslı tədqiqat fəaliyyətinin zəif olduğu, aparılan tədqiqat işlərinin sənaye və əmək bazarının problemlərinə deyil, müvafiq strukturun kadrlarının elmi istiqamətinə uyğun olaraq qurulduğu halları müşahidə edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən elmi-tədqiqat fəliyyətinin monitorinqi və qiymətləndirilməsinin daha çox formal monitorinq və statistik məlumatlar yönümündə olduğu müəyyənləşdirilmişdir.

### 4.3.20. Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili

GDU-da doktorluq dissertasiyalarının hazırlanması prosesi Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası Rəyasət Heyətinin 29 oktyabr 2019-cu il tarixli qərarı ilə təsdiq edilmiş (07 may 2021-ci il, 09 dekabr 2022-ci il tarixli qərarı ilə edilmiş əlavə və dəyişikliklər nəzərə alınmaqla) "Dissertasiyanın tərtibi qaydası"na uyğun təşkil edilir. Belə ki, doktorluq dissertasiyalarının hazırlanması, əsas etibarilə, GDU-nun kafedralarında çalışan alimlərin elmi rəhbərliyi və məsləhətçiliyi ilə həyata keçirilir (zəruri olan hallarda ikinci rəhbər digər müəssisələrdən təyin olunur).

Dissertasiya işini tamamlayan doktorant və dissertantların ilkin müdafiəsi ixtisas kafedralarında həyata keçirilir. GDU-da Disssertasiya Şuraları olmadığına görə doktorant və dissertantlar öz dissertasiyalarını yuxarıda qeyd edilən kənar müəssisələrdə müdafiə edirlər.

### 4.4. Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti

#### 4.4.1. Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu

Hesabat dövrü 2016-2023-cü illəri ərzində, ATM-də antiplagiat və akademik dürüstlük barədə siyasət sənədi mövcud olmamışdır. 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"-da "2.4.3. Plaqiarizmlə sistemli mübarizəyə imkan verən əlçatan proqram təminatını təkmilləşdirmək və antiplagiat proqramından istifadə olunmaqla plagiata qarşı mübarizə aparmaq" adlı fəaliyyət nəzərdə tutulmuşdur. GDU-nun EŞ-nın 19.01.2023-cü il tarixli (pr. № 04) Qərarı və rektorun 30.01.2023-cü il tarixli 5/20 saylı əmri ilə tədfiq edilmiş "Antiplagiat və akademik dürüstlük siyasəti" sənədi mövcuddur, bu sənəd GDU-nun rəsmi internet səhifəsində yerləşdirilmişdir.

#### 4.4.2. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu

GDU-da 2016-cı ildə Polşanın "Plagiat.pl" MMC şirkətinin Azərbaycan Respublikasındakı nümayəndəliyi ilə əməkdaşlıq müqaviləsi imzalanmışdır. "Tədris vəsaitlərində plagiat hallarının qarşısının alınması sahəsində tədbirlər planı" əsas götürülərək GDU tərəfindən antiplagiat sisteminin istifadəsinə başlanılması ilə əlaqədar rektorluğun 30.12.2016-cı il tarixli 5/381 nömrəli əmri ilə "Antiplagiat Komissiyası" yaradılmışdır.

Sözügedən müqavilə hər il yenilənir. "Strikeplagiarism" proqramı vasitəsilə GDU-da professor-müəllim heyəti tərəfindən hazırlanmış hər bir işin – elmi-tədqiqat əsərinin və tədris metodiki vasitənin orijinallığı daxili məlumatlar bazasında (GDU-nun öz bazasında), məlumat bazalarının mübadilə proqramlarında ("Strikeplagiarism" proqramından istifadə edən digər müəssisələrin bazalarında) və internetdə olan işlər (əsərlər) əsasında yoxlanılır.

Müsahibələr zamanı "Antiplagiat və akademik dürüstlük siyasəti" adlı sənədin olması qeyd edilsə də, akademik dürüstlük və elmi etika qaydalarının qorunması üçün belə hallar aşkarlandıqda görüləcək tədbirlər haqqında universitetdaxili yazılı prosedurların müəyyən edilməsi barədə hər hansı məlumat əldə edilməmişdir.

#### 4.4.3. GDU-nun antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor-müəllim heyətini əhatə etmə səviyyəsi

"Plagiat.pl" MMC şirkəti ilə müqaviləyə əsasən GDU-da limitsiz sayda sənədin il ərzində mövcud proqramla yoxlanılması nəzərdə tutulmuşdur *(belə ki, sistemdə sənədin yoxlanması sənədin müəllifinin maliyyə vəsaiti hesabına aparılır).* Burada, dissertasiyaların, monoqrafiyaların, dərsliklərin, dərs vəsaitlərinin və digər tədris-metodiki vəsaitlərin, habelə elmi jurnallara və konfranslara təqdim edilən məqalə və tezislərin orijinallıq səviyyəsi və s. yoxlanılması həyata keçirilir.

Yoxlama ilə bağlı bütün proseslər elektron şəkildə, internet üzərindən aparılır. COVID-19 pandemiyası dövründə də bu proses tətbiq edilmişdir. Buna görə də Özünütəhlil

Hesabatında və aparılmış müsahibələrdə qeyd edildiyi kimi, 2020/2021, 2021/2022-ci tədris illərində GDU-da buraxılış və magistrlik dissertasiya işlərinin antiplagiat sistemi ilə yoxlanılmaması və buna COVID-19 pandemiyasının səbəb kimi göstərilməsi başa düşülən deyil.

Aparılmış müsahibələr zamanı bildirildi ki, 2023/2024-cü tədris ilindən bütün magistr dissertasiyalarının və təhsil proqramları ilə nəzərdə tutulmuş müvafiq ixtisaslar üzrə bakalavr buraxılış işlərinin antiplagiat sistemi ilə yoxlanılması planlaşdırılmışdır.

# 5. İDARƏETMƏ SİSTEMİ

## 5.1 İdarəetmə orqanları

### 5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət planlarının mövcudluğu vəziyyəti

GDU-da əsas kollegial idarəetmə orqanı olan Elmi Şura, eləcə də elmi, tədris, tədris-metodiki (monoqrafiya, dərslik, dərs vəsaiti, metodiki vəsaitlərə, tədris proqramlarına qrif verilməsi) və digər məsələlərin kollegial müzakirəsi məqsədilə Tədris-metodiki şura (TMŞ) fəaliyyət göstərir. Elmi Şuraya (EŞ) GDU-nun rektoru, Tədris-metodiki şuraya isə Botanika kafedrasının müdiri rəhbərlik edir. Eyni zamanda bütün fakültələrdə də müvafiq olaraq EŞ və TMŞ fəaliyyət göstərir. Bununla yanaşı universitetdə son illər, xüsusilə, 2023-2024-cü tədris ilində müxtəlif xarakterli ictimai qurumlar ("İdarəedici Şura", "Əmək İntizamı ilə əlaqədar Daimi Komissiyası", "Etika Komissiyası", "Müsabiqə Komissiyası", "İctimai Nəzarət Şurası", "Tender Komissiyası", "Attestasiya Komissiyası" və s.) yaradılmışdır. Məsələn, universitetdə idarəetmə işinin müasir tələblərə uyğun səviyyədə qurulması və şəffaflığın artırılması məqsədilə, həmçinin kadr islahatları ilə əlaqədar rektorun 16.11.2023-cü il tarixli 5/330 saylı əmri ilə yeni tərkibdə "İdarəedici Şura" yaradılmışdır. Komissiya sənədləri araşdırarkən belə qənaətə gəlmişdir ki, "İdarəedici Şura", "Əmək İntizamı ilə əlaqədar Daimi Komissiyası", "Etika Komissiyası", "Müsabiqə Komissiyası" adlandırılan və bu kimi digər qurumlar əsasən 2023-2024-cü cü il ərəfəsində təşkil olunmuşdur. Əvvəlki illərdə bu qəbildən olan strukturlara diqqət yetirilməmişdir.

GDU-da Azad Həmkarlar İttifaqı Komitəsi, Azad Tələbə Həmkarlar İttifaqı Komitəsi, Tələbə Gənclər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti və Tələbə Ombudsmanı fəaliyyət göstərir. Bu qurumların hər biri öz səlahiyyətləri, hüquq və vəzifələri çərçivəsində əməkdaşların və tələbələrin elmi, tədris, sosial fəaliyyətlərinin dəstəklənməsi və koordinasiya məsələləri ilə məşğul olur. Tələbə Ombudsmanının universitetin veb-saytında platforması yaradılmış və tələbələrin həmin platforma üzərində müraciət etdikləri bildirilmişdir (https://gdu.edu.az/ombudsman/). Lakin həmin müraciətlərin mövzuları tələb olunsa da, tələbələrdən gələn suallar Komissiyaya təqdim edilməmişdir. Özünütəhlil Hesabatında bütün bu şuraların qərarlarının maraqlı tərəflərə göndərildiyi qeyd olunur, lakin fakültələrdə və kafedralarda görüş zamanı bu şuraların fəaliyyəti ilə əlaqəli hər hansı məlumatların olmadığı müşahidə edilmişdir.

Fakültənin və kafedraların əsasnamələrinə, iş planlarına baxış keçirən zaman 2017-2024-cü illər ərzində eyni fəaliyyəti əks etdirən stabil, spesifikliyi müşahidə olunmayan iş planlarının olduğu müşahidə olunmuşdur. Eləcə də sənədlər kafedralarda müxtəlif formalarda hazırlanır. Rus dili kafedrasında 2019-cu ilə qədər olan sənədləşmələr rus dilində aparılmışdır.

Strateji hədəflərin qoyulmasına, eləcə də ümumi idarəetmə prinsiplərinə uyğun fəaliyyət planlarının mövcudluğu müşahidə olunmamışdır.

Müsahibələr zamanı "*Rasional idarəetmə sisteminin qurulması üçün hesabat dövründə hansı islahatlar aparılmışdır?*" sualına cavab olaraq "*əsasən tender və kotirovka məsələlərinə baxırlar*" bildirilmiş, suala mahiyyətinə uyğun cavab verilməmiş, təsərrüfat (neçə kompyuter və s.) işləri barədə məlumatlar verilmişdir.

Baş müşavir tərəfindən icra olunan fəaliyyətlərin bilavasitə rektorun tapşırıqları əsasında yerinə yetirildiyi bildirilmiş, göstərişlərin isə şifahi olduğu qeyd edilmişdir.

Akkreditasiya Komissiyası tərəfindən idarəetmə strukturunda bir-birini təkrar edən vəzifələrin mövcud olduğu və bu vəziyyətin idarəetmə sisteminin optimallığına mənfi təsir göstərdiyi müşahidə edilmişdir.

GDU-da ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının fəaliyyəti GDU-nun 17.01.2013-cü ildə təsdiq olunmuş Nizamnaməsinə əsasən uyğunluq təşkil edir.

### 5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti

GDU-da EŞ-in tərkibi tutduğu vəzifəyə görə 23, gizli səsvermə yolu ilə 17 və rektorun təqdimatı ilə 3 nəfər olmaqla, cəmi 43 nəfərdən ibarətdir. EŞ-in sədri universitetin rektoru, sədr müavini isə Tədris məsələləri üzrə prorektordur. Universitet Elmi Şurasında işə götürənlərin nümayəndələri təmsil olunmurlar. Digər qurumlar universitet daxili olduğu üçün onların tərkibinə öz fəaliyyət istiqamətlərinə uyğun olaraq, yalnız universitet daxilindən üzvlər seçilir. Tələbə Həmkarlar İttifaqı Komitəsinin, Tələbə Gənclər Təşkilatının və Tələbə Elmi Cəmiyyətinin sədrləri GDU-nun Elmi Şurasında səsvermə hüququ olan üzv kimi iştirak edirlər. Adı çəkilən qurumların bütün fakültələr üzrə bölmələri də mövcuddur.

Sahə səfəri zamanı göstərilən qurumlarla müsahibələr keçirilmiş və hər bir qurum sədri ilə görüşdə fəaliyyət sahələrinə uyğun mütəmadi tədbirlərin keçirildiyi bildirilsə də, dövrü fəaliyyət planı ilə əlaqəli, xüsusilə 2016-2022-ci illəri əhatə edən hesabat formalarına rast gəlinməmişdir.

### 5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti

GDU-nun Elmi Şurasının iclası İş planına müvafiq olaraq ayda bir dəfə təşkil olunur. Bu plan hər il üçün hazırlanır və Elmi Şuranın iclasında növbəti il üçün təsdiq olunur. Elmi Şuranın iclaslarının nəticələri haqqında yekun hesabat və qərarlar yazılı şəkildə tərtib olunaraq rektor tərəfindən imzalanır. GDU strukturunda digər idarəetmə orqanları kimi yaradılan Tədris metodiki şuranın və müxtəlif adlarla fəaliyyət göstərən komissiyaların hər tədris ilinə müvafiq (seçmə üsulla 2019, 2021 və 2022-ci illərin protokolları) iclas protokolları Komissiyaya təqdim edilməmişdir. Sahə səfəri zamanı fakültə və kafedralara baxış zamanı hər ay iclasların keçirildiyi müşahidə edilmişdir. Ancaq bəzi fakültələrdə (məsələn, Tarix-Coğrafiya fakültəsi) qeyd edilən təqvim illərinin Elmi Şura protokolları tələb olunduqda - Komissiyaya "bir az sonra tapıb tədqim edərik" cavabı verilmişdir. Həmin fakültədəki kafedralarla görüşdükdən sonra təkrar fakültə dekanlığına müraciət edildiyində, tələb olunan

illərin Elmi Şura protokollarının dekan müavininin otağındakı kompüterdə Komissiya tərəfindən sahə baxışı aparılan zaman cari tədris ilinin protokollarındakı tarixlər dəyişdirilərək hazırlanıb çap edildiyi, imzalandığı Komissiya tərəfindən müşahidə edilmişdir. Sənədləşmədə müvafiq pozuntu ilə əlaqəli faktlar Komissiya üzvləri tərəfindən qeyd edilmişdir.

Komissiya belə qənaətə gəlir ki, 2023-cü ildən başlayaraq müvafiq tənzimləmələr aparılsa da, GDU-da 2017-2022-ci illər arasında idarəetmə orqanlarının iclasları, yığıncaqları və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi barədə təsdiqedici sənədlər qismən mövcud olmaqla birlikdə formal xarakter daşıyır.

### 5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti

GDU-nun bütün idarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru daha çox 2023-cü ildən etibarən əsasən mövcuddur və bu prosedurlara riayət olunur.

GDU-nun ali idarəetmə orqanı olan Elmi Şuranın tərkibinin seçilməsi və təsdiq edilməsi qaydaları, onun hüquq və vəzifələri, fəaliyyəti Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 10 noyabr 1997-ci il tarixli, 792 nömrəli əmri ilə təsdiq edilmiş "Ali təhsil müəssisəsinin Elmi Şurası haqqında Əsasnamə"yə, GDU-nun Nizamnaməsinə və digər normativ hüquqi aktlara müvafiq olaraq həyata keçirilir. Elmi Şuranın tərkibi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin əmri ilə təsdiq edilir. Elmi Şuraya rektor rəhbərlik edir. Bəzi xüsusi məsələlər rekorun əmri ilə yaradılmış Tədris-Metodiki Şurada və müvafiq olaraq, digər komissiyalarda müzakirə edilib Elmi Şuraya tövsiyələr hazırlanır.

Müşahidələr göstərir ki, müzakirə olunan məsələlərin və qərarların verilməsinin reqlamentləşdirilməsi proseduru mexanizminin işlənilməsinə, təkmilləşdirilməsinə ehtiyac çoxdur.

### 5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti

Elmi Şurada qəbul edilmiş qərarlar ancaq Elmi Şura protokolu rektor tərəfindən imzalandıqdan sonra qüvvəyə minir. İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu gözlənilir. Zəruri hallarda Elmi Şurada qəbul edilən qərarlar məsələlərin icrasını təmin etmək məqsədi ilə əmrləşdirilir və icra üçün aidiyyatı strukturlara göndərilir. Şuranın iclaslarında göstərilən məsələlərin müzakirəsi, qərarların verilməsi və qərarlara daxil edilmiş məsələlərin icrasına və yerinə yetirilməsi vəziyyətinə nəzarət mexanizminin (daxili audit) olması, idarəetmə sisteminin effektivliyi baxımından məqsədəuyğundur. Komissiya belə qənaətə gəlir ki, GDU-da idarəetmə strukturları arasında qərarların əlçatanlığı təmin olunmamış və qərarların icrasına nəzarət mexanizmi formalaşdırılmamışdır.

### 5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti

Özünütəhlil Hesabatında Elmi Şura üzvləri arasında əlaqənin qurulması məqsədilə Vatsapdan istifadə edildiyi qeyd olunmuşdur. Müəllimlərlə müsahibələr zamanı universitetin rəsmi korporativ e-mail ünvanlarından istifadə etmədiklərini bildirdilər. Daxili kommunikasiyada bəzən, müəyyən məsələlərdə (məsələn, qəbul edilmiş qərarların aidiyyəti struktur bölmələrə çatdırılması, SİP-in struktur bölmələrə paylanması və s.) dəqiq mexanizmin olmadığı müşahidə edilmişdir. Sahə səfərində müsahibələr və yerində baxış zamanı tədris prosesinin təşkili strukturları ilə tədrisə nəzarət edən strukturlar arasında qarşılıqlı əlaqənin zəif olması müşahidə edilmişdir. Komissiya universitetin korporativ e-mail ünvanları üzərindən yazışmaların aparılması vərdişlərinin formalaşmasına ehtiyacın olduğu qənaətinə gəlmişdir.

### 5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti

İdarəetmə orqanlarının səlahiyyət və vəzifə bölgüsü GDU Nizamnaməsi, daxili əsasnamələr, struktur sxemi və iş öhdəlikləri ilə müəyyən olunmuşdur. Onların fəaliyyət planının təsdiqi, qərarların verilməsi reqlamenti və s. məsələlər daxili əsasnamələr ilə müəyyən edilmişdir. Sahə baxışı zamanı həm akademik, həm də inzibati strukturların paralel fəaliyyətinin mövcud olması və kadrların effektiv idarə edilmədiyi müşahidə edilmişdir. İnzibati-idarəetmə qurumlarının fəaliyyətinin təşkili zamanı izafi struktur vahidlərinin yaradılması hallarına rast gəlinmişdir.

### 5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti

GDU-da idarəetmə orqanlarının fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi Strateji təhlil, qiymətləndirmə və monitorinq şöbəsi tərəfindən həyata keçirilir. Özünütəhlil Hesabatında, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların müvafiq strukturlar tərəfindən hazırlanaraq aidiyəti üzrə təqdim edilib hasabatlar hazırlandığı və Elmi Şurada müzakirə edildiyi bildirilmişdir. Lakin sahə səfəri zamanı Komissiya tərəfindən idarəetmə orqanlarının davamlı olaraq fəaliyyətlərinin monitorinq olunması, qiymətləndilməsi və yeni fəaliyyətlərin müəyyən edilməsi barədə işlək mexanizmin olması (məsələn, 2019, 2020, 2022-ci illər üzrə) faktları müşahidə edilməmişdir. Məsələn, baş mühasiblə görüş zamanı, hər hansı bir hesabatın hazırlanmadığı, AR Maliyyə Nazirliyi tərəfindən mütəmadi olaraq yoxlanılaraq, vəsiqə verildiyi və Elmi Şurada hesabat verilmədiyi bildirilmişdir.

### 5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında GDU-da idarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi barədəki vəziyyət, əsasən, müəllim seçkilərinin keçirilməsi mexanizmi barədə məlumatın verilməsi ilə məhdudlaşmışdır. Komissiya tərəfindən sənədlərin təhlili zamanı tyutorların işə götürülməsi ilə bağlı hazırlıq və işəgötürmə mexanizminin olduğu müşahidə edilmişdir. Lakin müsahibələr və sahə baxışı zamanı idarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi istiqamətində fəaliyyət planının və hesabatlılığın olması barədə

faktlar aşkarlanmamışdır. Kafedralara yerində baxış zamanı, Tədris departamenti və İnnovasiyalar departamenti rəhbərlərinin universitetdə idarəetmə orqanları arasında mərkəzi mövqede yerləşdiyi və bütün qərarlarda və icra/nəzarət mexanizmlərində əsas rol oynadığı qeyd edilmişdir. Eyni zamanda, bu sistemin şəffaflığın təmin edilməsi (mərkəzi imtahan sisteminin yaradılması və xüsusilə yazılı imtahanlarda şikayətlərin mövcud olması) istiqamətində əngəl olduğu bildirilmişdir.

Akkreditasiya Komissiyası tərəfindən idarəetmə sistemindəki struktur bölmələrin bir-birini təkrarlaması məsələsi istiqamətində müvafiq tədbirlərin görülməsi, şəffaf və nəticəyönümlü fəaliyyətin təmin edilməsi və davamlı təkmilləşdirilməsi tövsiyə olunur.

### 5.2 İnsan resurslarının idarə edilməsi

#### 5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti

Özünütəhlil hesabatında GDU-da işə qəbulun Azərbaycan Respublikasının mövcud qanunvericiliyi əsasında həyata keçirildiyi, bununla bağlı “İşə Qəbul Siyasəti” adlı çərçivə sənədinə istinad edildiyi qeyd olunur. Özünütəhlil Hesabatında, eyni zamanda, "Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”na, "Ali təhsil müəssisələrində professor-müəlim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında Əsasnamə”sinə istinad edildiyi qeyd olunur. Lakin İnsan resursları şöbəsinə yerində baxış zamanı, hər hansı daxili işə qəbul prosedurunun olmadığı bildirilmişdir. CV və ərizə müraciətlərinin çox az sayda daxil olduğu, daxil olan CV-lərin əksəriyyətinin inzibati heyətə aid olduğu bildirilmişdir. Professor-müəllim vəzifələrinə namizədlər, bir qayda olaraq, kafedralar və ya dekanlıqlar tərəfindən, rektorun tapşırığı ilə (insan resursları şöbəsindən) təqdim olunur. Müəllim vəzifələrinə namizədlərin CV-lərinin dekanlıq və kafedra tərəfindən nəzərdən keçirildiyi, onların işə qəbul üçün təsdiqlənməsi dekanlıq, yaxud kafedralar tərəfindən müəyyənləşdirildiyi bildirilmişdir. İnsan resursları şöbəsinin işinin sənədlərin rəsmiləşdirilməsindən ibarət olduğu bildirilmişdir. Şöbə əməkdaşları ilə müsahibə zamanı əldə edilən məlumatlara əsaslanaraq, universitetdə insan resurslarının idarə edilməsi üçün strateji fəaliyyət mexanizminin qurulmadığı müəyyən edilmişdir.

#### 5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması

GDU-nun akademik və inzibati heyətinin onun Strateji İnkişaf Proqramına (SİP) və maliyyə resurslarına uyğunluğunun müəyyən edilməsi üçün müsahibələrdə və sahə baxışı zamanı kafedralardakı köməkçi heyətin müəllimlərə nisbətinin həddindən artıq çox olduğu müəyyənləşdirilmişdir (Coğrafiya kafedrasında 9 laborant, Sosial iş kafedrasında 6 laborant, Azərbaycan tarixi kafedrasında 8 laborant, Ümumi tarix kafedrasında 7 laborant və s.). Komissiyanın qənaətinə görə inzibati və tədris-köməkçi heyətin sayının həddindən artıq olması, GDU-nun SİP-inə və maliyyə resurslarına uyğun deyildir. Aşağıdakı cədvəldə, tyutorlar xaric, fakültələrdə mövcud olan akademik və inzibati heyətin sayı verilmişdir.

Cədvəldən də göründüyü kimi, fakültələrdəki inzibati işçilərin (tədris köməkçi heyətin) akademik heyətə nisbəti 37% təşkil edir.

**Cədvəl 5.2.2.1** Cari (2023-2024) tədris ilində fakültələr üzrə akademik və inzibati işçilərin sayı

| Fakültə | Akademik heyətin sayı (əsas iş yeri GDU olanlar) | İnzibati işçilərin sayı |
|---|---|---|
| Fizika və texniki fənlər | 58 | 36 |
| Kimya-biologiya | 72 | 39 |
| Filologiya | 47 | 17 |
| Xarici dillər | 99 | 32 |
| Tarix-coğrafiya | 81 | 28 |
| Pedaqoji | 105 | 42 |
| İqtisadiyyat və idarəetmə | 63 | 11 |
| Riyaziyyat- informatika | 70 | 14 |
| **Universitet üzrə cəmi:** | **595** | **219** |

### 5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması

GDU-da işçilərin əmək haqqı əsasən təsdiq olunmuş ştat cədvəlinə uyğun ödənilir. Universitetdə professor-müəllim heyəti üçün differensial əmək haqqı sistemi mövcud deyil. GDU-da işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq tətbiq edilən əmək haqqı sistemi mövcud deyil. 2023-2028-ci illəri əhatə edən “Strateji Plan”da bununla bağlı - “2.3.2. Universitetin diferensial əmək haqqı sisteminə keçməsi ilə bağlı təkliflər hazırlamaq və həyata keçirmək”, nəzərdə tutulmuşdur. Səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sistemi istiqamətində sənədləşmələr və planlamalar 2023-cü ildən başlayaraq nəzərə alınmış, 2017-2023-cü illər arasında bu istiqamətdə əsaslı fəaliyyətlər görülməmişdir.

“Motivasiya və Mükafatlandırma Siyasəti” adlı sənədə istinadən rektorluq və AHİK tərəfindən “Fəxri Fərman”, “Təşəkkürnamə” və “Pul mükafatı”, yay tətilinin səmərəli təşkili məqsədi ilə sanatoriyalara göndərişlər, bayram günləri ilə əlaqədar mükafatlar verildiyi qeyd olunmuşdur. Müəllimlərlə müsahibə zamanı bu istiqamətdə də ölçüləbilən meyarların və

şəffaf mexanizmin mövcud olmadığı bildirilmişdir.

### 5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması

GDU-da 2023-cü idən etibarən “Motivasiya və Mükafatlandırma Siyasəti” adlı sənəd qəbul edilmişdir. Lakin sahə səfəri və müsahibələr zamanı müəyyən edilmişdir ki, işçilərin səmərəli fəaliyyətini əks etdirən meyarlar əsasında motivasiya və mükafatlandırma sistemi qurulmamışdır. Ayrı-ayrı hallarda professor-müəllim heyətinin beynəlxalq bazalara daxil olan jurnallarda dərc edilən məqaləyə görə 100-400 manat miqdarında mükafatlandırılması həyata keçirilmişdir.

### 5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti

GDU-nun 2017-2023-ci illər arasında işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi sisteminin, planlamanın mövcud olmadığı aşkar edilmişdir. Sahə səfəri zamanı sənədləşmələrdə, eləcə də Keyfiyyət təminatı şöbəsinin əməkdaşı ilə müsahibələr zamanı qeyd edilən illər ərzində bu istiqamətdə fəaliyyətin yer almadığı bildirilmişdir. GDU-nun 2023-2028-ci illəri əhatə edən “Strateji Planı”nda tələbə və müəllimlərin inkişafı, uğurları, razılıq dərəcəsi və s. ilə bağlı mütəmadi sorğuların keçirilməsi nəzərdə tutulmuşdur. Həmin fəaliyyət ilə bağlı KTM tərəfindən müəyyən sorğular təşkil edilsə də, müvafiq şöbələrdə və fakültələrdə sorğuların təhlili aparılmamışdır. Müsahibələr zamanı, işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılmadığı bildirilmişdir.

### 5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti

Akkreditasiya Komissiyasının apardığı müsahibələr zamanı İnsan resursları şöbəsi tərəfindən GDU-da işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi ilə əlaqəli planlamanın və fəaliyyətin olmadığı, şöbədə sadəcə sənədləşmənin aparıldığı qeyd edilmişdir. Kafedralarda müəllimlərlə və kafedra müdirləri ilə görüş zamanı GDU-da işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönəlik təlimlərə cəlb edilməsi ilə əlaqəli prosesin olmadığı qeyd edilmişdir. Bununla əlaqəli sənədləşmə də mövcud deyildir. İşçilərin fərdi şəkildə peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərdə iştirak etdiyi bildirilmişdir. Sahə baxışı zamanı, ixtisasartırma və peşəkarlıq səviyyəsinin planlı şəkildə yüksəldilməsinə dair tədbirlər planının olmadığı müəyyənləşdirilmişdir.

### 5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsi vəziyyəti

GDU-da işçilərə münasibətdə sosial və mədəni tədbirlərin təşkilinin İnsan resursları şöbəsi tərəfindən icra olunmadığı bildirilmişdir. Humanitar məsələlər üzrə prorektorluq və digər ictimai təşkilatlar tərəfindən əməkdaşların ictimai fəallıqlarının artırılması məqsədilə şəhərmiqyaslı və ölkəmiqyaslı müxtəlif sosial mövzularda layihələr, konfranslar, dəyirmi masalar, seminarlar, görüşlər, müsabiqələr, ağacəkmə aksiyaları, iməciliklər və s. keçirilir. Bayram və əlamətdar günlərdə professor-müəllim heyəti, əməkdaşlar və tələbələr üçün

mədəni-kütləvi tədbirlər təşkil edilir. Sosial və mədəni tədbirlərin keçirilməsinə dair məlumatlar "Mətbuat və ictimaiyyətlə əlaqələr xidməti" tərəfindən mütəmadi olaraq universitetin rəsmi internet səhifəsində və sosial şəbəkə hesablarında paylaşılır.

### 5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti

Özünütəhlil Hesabatında bildirilir ki, "*Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbul prosesinin ictimaiyyət üçün əlçatanlığını təmin etmək üçün "İşə Qəbul Siyasəti" və "Bakalavriat və ya daha yüksək dərəcəsi olan namizədlər üçün İşə Qəbul Meyarları" universitetin internet səhifəsində yerləşdirilmişdir".* Sənədlərin təhlili zamanı Komissiya tərəfindən müəyyən edilmişdir ki, 2016-2021-ci illər ərzində qeyd edilən istiqamətdə sənədlər mövcud olmamışdır. GDU EŞ-i tərəfindən 04.10.2021-ci ildə təsdiq olunan "İşə Qəbul Siyasəti" sənədində isə əsasən müraciətin prosedurları barədə məlumatlar yer almışdır. Sənəddə qeyri-akademik heyətin işə qəbulu üçün şəffaflığın təmin olunması məqsədilə mexanizm və ya müddəalar əks olunmamışdır.

Kafedra müdirləri və tyutorlarla görüş zamanı, qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbul prosesində elanların verilmədiyi və şəffaflıq istiqamətində mexanizmin mövcud olmadığı müəyyən edilmişdir. Yerində baxış zamanı çox az sayda (müxtəlif illəri əhatə edən 3 elan) vakansiya elanı komissiyaya təqdim olunmuşdur.

### 5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti

Müsahibələr və struktur bölmə rəhbərləri ilə görüşlər zamanı qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi sisteminin mövcudluğu barədə hər hansı fikir və müddəaların mövcudluğu barədə faktlar bildirilmədi. GDU-nun struktur bölmələrinin tabe olduğu rəhbər şəxslər tərəfindən mütəmadi olaraq qeyri-akademik heyətin fəaliyyəti ilə bağlı təhlil işlərinin aparılması və işçilərin fəaliyyətinin qiymətləndirilməsi hər hansı bir müəyyənedici sənəd və hesabat formaları ilə müşayiət olunmur. Sahə səfəri zamanı bütün bu fəaliyyəti təsdiqedən yazılı sənədlər müəyyən edilməmişdir.

### 5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti

GDU-da əmək münasibətlərinin tənzimlənməsi qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. Əməkdaşlar işə qəbul edilərkən müvafiq sənədləşmələr aparılır, işçi ilə müqavilə bağlanılır, işəgötürmə və xitamla bağlı müvafiq əmrləşmələr aparılır.

## 5.3 Maliyyə resurslarının idarə edilməsi

### 5.3.1 ATM-in maliyyə resurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu

GDU-nun maliyyə resurslarının mənbələrinin təşkili AR ETN tərəfindən 17.01.2013-cü il tarixdə təsdiq edilmiş və Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin 15.03.2013-cü il tarixli 53 saylı qeydiyyat nömrəsi ilə dövlət qeydiyyatına alınmış "GDU-nun Nizamnaməsi"

və rektorluq tərəfindən 09.01.2014-cü ildə təsdiq edilmiş "Mühasibatlıq şöbəsinin Əsasnaməsi"nə uyğun həyata keçirilir.

### 5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırma səviyyəsi

GDU-da maliyyə resursları, illik büdcə smetası üzrə planlaşdırılır və həyata keçirilir. Hər il üçün büdcə tərtib olunarkən daxil olan bütün illik maliyyə resurslarının mənbələri nəzərə alınaraq hər təqvim ili üçün maliyyə resurslarının cəlb edilməsi və istifadəsi ilə büdcə smetası tərtib olunur, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi ilə razılaşdırıldıqdan sonra icra olunur. Sahə səfəri zamanı Akkreditasiya Komissiyası tərəfindən daxili gəlir və xərclərin icrasına cari nəzarət mexanizminin mövcud olmadığı müəyyən olunmuşdur. Baş mühasiblə müsahibə zamanı universitetdə qısa və orta müddətli dövr üçün planlaşdırma və hesabatlılığın mövcud olmadığı bildirilmişdir.

### 5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti

Özünütəhlil Hesabatında Mühasibatlıq şöbəsinin "Fəaliyyət Planı" əsasında, universitetin 2023-2028-ci illəri əhatə "Strateji Plan"ı nəzərə alınaraq, maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin icra olunduğu qeyd olunmuşdur. Baş mühasiblə müsahibə zamanı 2023-2028-ci illər üzrə hazırlanmış SİP sənədindən xəbərsiz olduğu, hesabat verilmədiyi bildirilmişdir. GDU-da sahə baxışı zamanı 2017-ci ildən 2023-cü ilə qədərki dövrdə maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin 2016-2020-ci illərin SİP-nə uyğunlaşdırılmadığı müşahidə olunmuşdur. Baş mühasiblə müsahibə zamanı, mütəmadi olaraq Maliyyə Nazirliyi tərəfindən yoxlamalar aparıldığı və "hər şeyin uyğun olduğu" bildirilmişdir. 2016/2020-2020/2023-cü tədris illəri üzrə SİP-in və dövri fəaliyyət planının hazırlanmasında, hədəflərinin müəyyən edilməsində maliyyə planlamasının nəzərə alınmadığı müəyyən edilmişdir. Hər fəaliyyət ilinin büdcə smetasında təmin edildiyi, gəlir və xərclərin icrasına nəzarət mexanizminin (daxili audit) olmadığı müəyyənləşdirilmişdir.

### 5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti

GDU-nun maliyyə resursları əsasən təhsil haqqından formalaşır. Bu baxımdan GDU-da təhsilin müasir tələblər səviyyəsində, şəffaf və keyfiyyətli şəkildə təşkili tələbələrin sayının artmasına, bu da öz növbəsində daxil olan maliyyə resurslarının çoxalmasına gətirib çıxara bilər.

GDU-da əlavə maliyyə resurslarının əldə edilməsi üçün imkanlar mövcuddur. Universitet büdcəsinə əlavə maliyyə əsasən beynəlxalq qrant və layihələrdən, icarədən, konfransların təşkilindən, reklamdan, yataqxanadan və "Yüksəliş" qəzetinin satışından daxil olur.

GDU-da elmi-tədqiqatlardan, onların nəticələrinin sənayedə tətbiqi, maddi-texniki bazanın imkanlarının reallaşdırılması yolu ilə əlavə gəlirlərin əldə edilməsi istiqamətində işlər aparılmamışdır. Bu baxımdan əlavə maliyyə resurslarının əldə edilməsi üçün GDU maddi-texniki bazasından, eləcə də kafedralarda qrant layihələrində iştirak, sənaye

əhəmiyyətli elmi-tədqiqat işlərinin aparılması və tətbiqi imkanlarından istifadə edilməsi tövsiyə olunur.

### 5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi

Sahə səfəri zamanı müsahibələrdə aidiyyəti üzrə prorektor və baş mühasib tərəfindən 2024-cü ilin yanvar ayında və hər hesabat dövründə Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən müvafiq yoxlamaların həyata keçirildiyi və vəsiqələrin təqdim edildiyi bildirilmişdir. Maliyyə hesabatlılığına dair məlumatların vaxtaşırı olaraq rektora təqdim edildiyi və maliyyə məsələlərinə birbaşa rektorun nəzarət etdiyi bildirilmişdir. Universitet tərəfindən əldə olunan maliyyə resurslarının universitetin əməkdaşları tərəfindən əlçatanlıq səviyyəsi və ya şəffaflığını təsdiq edən fikirlər bildirilməmişdir.

### 5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu

GDU-da maliyyə resurslarının istifadəsinin əsasən universitetin Nizamnaməsinə uyğun olaraq xərclənməsi həyata keçirilmişdir. Nizamnamənin 7.2-ci bəndinə görə, universitetin əldə etdiyi mənfəət yalnız təhsilin inkişafına, təhsilalanların və təhsilverənlərin sosial müdafiəsinə yönəldilə bilər. Özünütəhlil Hesabatında bildirilir ki, AR ETN-nin müvafiq əmrinə əsasən hər il üzrə müəyyən edilmiş məbləğdə vəsaitin Təhsilin İnkişafı Fonduna yönəldilməsi (sonuncu əmr: 20.04.2023-cü il 3-29/3-2-183F/2023) nəzərdə tutulmuşdur. Akkreditasiya Komissiyası tərəfindən müəllimlərlə keçirilən müsahibələr zamanı əmək haqqının az olduğu bildirilmişdir. Bununla bağlı olaraq Komissiya tərəfindən maliyyə resurslarının daha səmərəli istifadə olunması, xüsusilə tədqiqatların aparılmasının dəstəklənməsi, differensial əmək haqqı sisteminin qurulması, məvaciblərin yüksəldilməsi üçün davamlı tədbirlərin görülməsi tövsiyə edilir.

### 5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu

GDU-da sahə baxışı zamanı, görüşlərdə maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru Komissiyaya ətraflı izah edilməmişdir. Özünütəhlil Hesabatında GDU Nizamnaməsinin 7.1. bəndinə əsasən universitetə ayrılan büdcə vəsaitindən, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunması barədə fikirlər əksini tapmışdır. Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi proseduru GDU-nun nizamnaməsinə əsasən uyğunluq təşkil edir.

### 5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istidafəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi

Özünütəhlil Hesabatında bildirlir ki, *“GDU-da rektor universitetin fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı qəbul olunmuş aktların icrasını təşkil edir, yoxlayır və buna nəzarəti həyata keçirir”.* Sahə səfəri zamanı Komissiya tərəfindən maliyyə resurslarından təyinatı üzrə istifadəsinə cari nəzarətin universitetin rektoru tərəfindən həyata

keçirildiyi və daxili audit mexanizminin mövcud olmadığı müəyyən edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən il ərzində sərf edilmiş vəsaitlərin təyinatı üzrə istifadə olunmasına cari nəzarətin müvafiq hesabatlar formasında təşkil olunması və ümumi nəzarətin “Daxili audit şöbəsi” tərəfindən həyata keçirilməsi tövsiyə olunur.

### 5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

GDU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurları müvafiq qanunvericiliyin tələblərinə uyğun şəkildə təşkili vəziyyəti müəyyən edilərkən aşkar olmuşdur ki, bu fəaliyyətlər “Tender komissiyası” tərəfindən təşkil olunur. Baş mühasib bildirmişdir ki, malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi Azərbaycan Respublikasının Prezidentinin 14 iyul 2023-cü il tarixli 988-VIQ saylı Sərəncamı əsasında təsdiq edilmiş “Dövlət satınalmaları haqqında Azərbaycan Respublikasının Qanunu”nun tələbləri gözlənilməklə təsdiq edilmiş müqavilə əsasında və müqavilədə göstərilmiş “Qiymətlərin razılaşdırılması protokolu”na uyğun həyata keçirilir. GDU-da satınalma proseduru əsasən iki yolla aparılır: açıq tender keçirməklə və kotirovka yolu ilə. Satınalma prosedurları rektorun əmri ilə yaradılan “Tender komissiyası” tərəfindən təşkil olunur.

### 5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti

GDU-da malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə maliyyə və mühasibat əməliyyatları qanunvericiliyin tələblərinə uyğun şəkildə icra olunur, sonradan müvafiq qaydada hesabatlar hazırlanır və müvafiq icra strukturlarına təqdim olunur.

### 5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti

Özünütəhlil Hesabatında universitet üzrə maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və vergi, statistika, nazirliklər və s. kimi aidiyyəti orqanlara təqdim olunması Mühasibatlıq şöbəsinin illik iş planı əsasında həyata keçirildiyi qeyd edilmişdir. Akkreditasiya Komissiyası tərəfindən maliyyə və mühasibat hesabatlarının müvafiq qurumlara təqdim olunduğu müşahidə olunmuşdur.

### 5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması vəziyyəti

GDU-da maliyyə və mühasibat hesabatları Mühasibatlıq şöbəsi tərəfindən hazırlanaraq rektorluğa təqdim edilir. Rektorluq tərəfindən hesabatlar təhlil edildikdən sonra təsdiq edilərək AR ETN-yə göndərilir. Maliyyə və mühasibat hesabatlarının universitetin ali orqanı olan Elmi Şurada müzakirə edilərək təsdiqlənməsi məqsədəuyğun olardı. Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun dərc olunması həyata keçirilməmiş və hesabatlar nə maraqlı tərəflərə, nə də universitetin veb-saytında dərc edilməmişdir.

### 5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu

GDU-nun Özünütəhlil Hesabatında “*.maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili auditin aparılmasına “Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının Əsasnaməsi” adlı sənəddə nəzərdə tutulan “İdarəetmə və xidmət keyfiyyətinə nəzarət Komissiyası” tərəfindən həyata keçirilməsi nəzərdə tutulmuşdur*” qeydi göstərilir. Eyni zamanda universitet EŞ-nin 28.12.2023-cü il tarixli qərarı ilə EŞ-in tərkibində “Maliyyə-Təsərrüfat Komissiyası” yaradılmışdır. Akkreditasiya Komissiyası müəyyən etmişdir ki, 2016-2023-cü illəri əhatə edən dövrdə qeyd edilən istiqamətdə fəaliyyətləri təsdiq edən sənədlər olmamışdır. Qeyd edilən “Maliyyə-Təsərrüfat Komissiyası” inzibati struktur olmadığından maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə daxili audit fəaliyyətlərini yerinə yetirmək səlahiyyətlərinə malik deyildir. Bu baxımdan maliyyə resurslarının əldə olunması və istifadəsi istiqamətində nəzarət tədbirləri və hər hansı bir mexanizm nəzərə alınmamışdır.

### 5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu

ATM tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında hesabat dövründə iki dəfə Azərbaycan Respublikası Maliyyə Nazirliyi tərəfindən yoxlamaların aparıldığı qeyd edilmişdir. Lakin maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə kənar audit nəzərdə tutulmadığından, müvafiq olaraq bu istiqamətdə nəzarət tədbirləri mövcud deyildir.

### 5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti

GDU-da 2023-cü ilə qədər maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi çərçivəsində heç bir fəaliyyət və sənədləşmə mövcud deyildir. Sadəcə, 2023-2028-ci illər üzrə GDU-nun “Strateji Plan”ında bu istiqamətdə gələcəkdə işlərin görülməsi planlaşdırılmışdır.

## 5.4 İnformasiya idarəetmə sistemi

### 5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu

Özünütəhlil Hesabatında da qeyd edildiyi kimi, universitetdə məlumatların idarə edilməsi sisteminə dair əsas fəaliyyətlərin “EduMan” proqramı üzərindən keçirilməsi planlandırılmışdır. Bununla əlaqədar “ULTRA MMC” ilə müqavilə bağlanmış, texniki tapşırıq sənədi hazırlanmış və tərəflər arasında razılaşdırılaraq imzalanmışdır. Sistemin qurulmasına və fəaliyyətinin səmərəli təşkilinə nəzarət edilməsi üçün 2020-ci ildə İnnovasiyalar departamentinin nəzdində İnformasiya resurslarının formalaşması (İRF) şöbəsi yaradılmış, əsasnaməsi qəbul edilmiş və vəzifələr təsis edilərək ştat cədvəlinə əlavə edilmişdir. Sahə səfəri zamanı şöbənin reqlamentinin illər üzrə hazırlanmış illik iş planları, həmçinin 2023-2028-ci illəri əhatə edən “Strateji Plan” əsasında tərtib olunmuş “Fəaliyyət Planı” üzrə tənzimlənməsi öz təsdiqini tapmışdır. “EduMan” proqramının tətbiqi pilot olaraq

2023/2024-cü tədris ilinin yaz semestrindən etibarən həyata keçirilir. Proqramın sistemli şəkildə inteqrasiyası hesabat dövrünün yekununa şamil olunur, daha əvvəlki illərə aid məlumat təqdim edilməmişdir.

Ali təhsil müəssisəsində test imtahanlarının təşkili ilə əlaqədar daxili resurslardan istifadə edilməklə yaradılmış e-proqram təminatı mövcuddur. Eyni zamanda COVİD-19 pandemiyası dövründə istifadə edilmiş MS Teams və ZOOM platformalarından da məsafədən keçirilən görüşlərin təşkilində istifadə edilmişdir.

### 5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı, məlumatların yenilənməsi vəziyyəti

GDU-da tədricən tətbiq edilən "EduMan" platforması informasiya idarəetmə sistemində tədris işinin təşkili funksiyasını asanlaşdırmaq imkanına malikdir. Universitetdə informasiya idarəçiliyinə kompleks yanaşmanın formalaşmadığı və bir sıra idarəetmə funksiyalarının rəqəmsallaşma imkanlarından tam olaraq yararlanmadığı müşahidə edilmişdir. Sənəd dövriyyəsi, kitabxana resurslarının idarəedilməsi, elmi-tədqiqat nəticələrinə dair stimullaşdırmanın təşkili, keyfiyyət təminatında informasiyanın idarə edilməsi kimi ali təhsil müəssisələri üçün mühüm olan funksiyaları yerinə yetirəcək elektron informasiya idarəetmə sistemləri mövcud deyil. Həmçinin informasiyanın idarə edilməsində ilkin mərhələlərindən birini təşkil edən datanın toplanılması üçün zəruri olan əhatəli mexanizmin tətbiq edilmədiyi aşkar edilmişdir. Misal olaraq, maraqlı tərəflərlə eyni məqsədli sorğular bərabər hüquqlu strukturlar tərəfindən bəzi hallarda şifahi, digər hallarda çap edilmiş vərəqlər və ya onlayn sorğu alətlərindən istifadə edilməklə təşkil edilir, nəticələr qismən təhlil olunaraq hesabatlarda bəzi hallarda əks olunur, məlumat-əsaslı qərarların formalaşmasında tam olaraq istifadə edilmir.

### 5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu

İnformasiya idarəetmə sistemində "EduMan"-la əlaqədar idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü mövcuddur. Belə ki, sistemin fərqli modullara uyğun olaraq istifadəçi tipləri müəyyənləşdirilərək səlahiyyətlərindən asılı olaraq əməkdaşların çıxışı təmin olunmuş, fakültələrdə məsul şəxslər müəyyənləşdirilmişdir.

### 5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti

Universitetdə hazırda qismən tətbiq olunan "EduMan" sistemi 2024-cü ilin yaz semestrindən etibarən universitet rəhbərliyinin əmri ilə hər fakültədə pilot olaraq bir ixtisas üzrə fəaliyyət göstərir, gələcəkdə bütün ixtisaslarda tətbiq olunması və digər modulların də istifadəyə verilməsi nəzərdə tutulur.

Sahə səfərində akademik heyətin iştirakı ilə baş tutmuş müsahibələr zamanı professor-müəllim heyətinin əksər hallarda tədris etdikləri fənlərə uyğun müasir proqram təminatları və rəqəmsal həllərindən xəbərsiz olduqları və zəruri olan proqramların tətbiq olunmaması halları müəyyən edilmişdir. Maraqlı tərəflərin (o cümlədən, sənaye

nümayəndələri, akademik heyət) fəal iştirakı ilə fənlərin innovativ rəqəmsal təlim mühitində tədrisi üçün vacib olan proqram təminatlara ehtiyacın planlı şəkildə müəyyənləşdirilməsi və həmin proqram təminatlarının istifadə edilməsi ehtiyacı müəyyən edilmişdir. Bundan əlavə, sahə səfəri müddətində Komissiya üzvlərinin dərs dinləmələrində iştirakı və auditoriyalara ümumi baxışı zamanı sabit internet bağlantısının olmadığı müəyyənləşdirilmişdir.

### 5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi

"EduMan”-da əlçatanlığın təmin edilməsi üçün pilot ixtisaslarda akademik heyət, inzibati heyət və təhsilalanlar üçün fərdi kabinetlər istifadəyə verilmişdir. Təhsilalanlar "EduMan”-dan səmərəli istifadə edilməsi üçün tyutorlar tərəfindən təlimatlandırılır. “Pilot layihə” kimi qəbul edilmiş ixtisaslarda tam olaraq "EduMan”-ın tətbiqinə başlanıldığını nəzərə alaraq həmin ixtisaslar üzrə tədris aparan professor-müəllim heyətinə şöbə tərəfindən təlimlər təşkil edilmişdir. Bu haqda məlumat ictimaiyyətin məlumatlandırılması məqsədilə universitetin veb-saytında da öz əksini tapmışdır. Sahə səfərində Akkreditasiya Komissiyasının təhsilalanlarla müsahibələri zamanı tələbələr "EduMan”dan istifadə etdiklərini təsdiqləmişdir.

### 5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi

İnformasiyanın idarəedilməsi sisteminin ayrı-ayrı komponentlərinin tədris prosesinin keyfiyyətinin idarə olunmasına töhfəsi əsasən "EduMan”-la əlaqədar fəaliyyətlərində müşahidə edilir. Məsələn, informasiya idarəetmə sisteminə aid proqram kimi istifadə edilən "EduMan”-ın tətbiqinə dair hesabatlar Elmi Şura iclaslarında təqdim edilir. Buna baxmayaraq, Akkreditasiya Komissiyası tərəfindən GDU-da vahid informasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına məqsədyönlü töhfə kimi "EduMan” üçün informasiya idarəetməsinə dair spesifik proses, proseduralar və alətlərin müəyyənləşdirilməsi, həmçinin bu istiqamətdə monitorinqlərin təşkili ilə əlaqədar boşluqların aradan qaldırılması tövsiyə edilir.

### 5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi

Elm və Təhsil Nazirliyi, Dövlət İmtahan Mərkəzi və digər dövlət qurumlarından gələn tapşırıqlara əsasən Gəncə Dövlət Universiteti tərəfindən ATİS, TMMS, e-gov.az, portal.edu.az kimi informasiya sistemlərində məlumatların yerləşdirilməsi və əlaqələndirilməsi həyata keçirilir. Lakin hesabat dövründə universitet tərəfindən istifadə edilən "EduMan” proqramı və adları qeyd olunmuş informasiya sistemləri arasında əlaqənin təmin edilməsi həyata keçirilməmişdir. Özünütəhlil Hesabatında da qeyd olunduğu kimi, maliyyə xərci tələb edən bu proqram inteqrasiyasının gələcək illərdə pilləli şəkildə həyata keçirilməsi nəzərdə tutulur.

### 5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti

İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi İnnovasiyalar departamentinin nəzdində fəaliyyət göstərən İnformasiya kommunikasiyaları şöbəsinin öhdəliyindədir. Kiber təhlükəsizliyin təmin olunması baxımından universitetdə Palo Alto təhlükəsizlik divarı (ing., firewall) tətbiq olunur. Buna baxmayaraq, sahə səfəri zamanı təhsilalanlar arasında aparılmış sorğu nəticələrinə əsasən müəyyənləşdirilmişdir ki, universitetdə ümumi istifadədə olan kompüterlərdə təhlükəsizliyin təmin olunması üçün antivirus proqramlarının tətbiqinə ehtiyac var. Akkreditasiya Komissiyası tərəfindən 2023-2028-ci illəri əhatə edən "Strateji Plan" sənədində qeyd olunmuş "5.4.5. Mövcud olan elektron xidmətlərin təhlükəsizliyini və keyfiyyətini yüksəltmək" adlı fəaliyyətinin icrası zamanı informasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi istiqamətində müvafiq tədbirlərin görülməsi tövsiyə olunur.

**5.5. İctimaiyyətlə əlaqələr**

**5.5.1. ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti**

GDU-nun 2014-cü ildən fəaliyyət göstərən rəsmi internet saytı (www.gdu.edu.az) yalnız Azərbaycan dillndə mövcuddur. Saytda müvafiq panellərdə (qəbul, elanlar, xəbərlər, beynəlxalq əlaqələr və s.) GDU-nun strukturu, qəbul qaydaları, yeni xəbərlər və s. haqqında məlumatlar yerləşdirilmişdir. İKT şöbəsi tərəfindən universitetin rəsmi internet səhifəsi ilə yanaşı həm də hər bir fakültə üçün ayrıca internet səhifəsi də yaradılmış və fakültə adminləri tərəfindən fakültəyə aid məlumatları yenilənir. Sayta baxış zamanı professor-müəllim heyətinin vahid CV formalarının olmadığı, fakültələr üzrə məlumalatların vahid standart üzrə yerləşdirilmədiyi müşahidə olunmuşdur. Səhifəyə daxil olan istifadəçilər, xüsusən də abituriyentlər, magistratura, doktorantura səviyyəsi üzrə təhsil almaq istəyən potensial şəxslər, tələbələr, məzunlar, valideynlər və GDU-dakı imkanlar barədə məlumat almaq istəyən xarici şəxslər üçün funksionallığının artırılması istiqamətində işlərinin aparılması tövsiyə olunur.

**5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadi yenilənməsi vəziyyəti**

GDU-ya sahə səfəri zamanı və həmçinin Özünütəhlil Hesabatında universitetin rəsmi internet saytında məlumatların mütəmadi olaraq yeniləndiyi bildirilmişdir. Sayta baxış zamanı ictimaiyyətin məlumatlandırılmasının təmin edilməsi məqsədilə GDU-da keçirilən konfranslar və elmi seminarlar, açıq dərslər, müxtəlif tədbirlər haqqında xəbərlər yerləşdirildiyi müşahidə olunur. Eyni zamanda elanlar bölməsində də müvafiq məlumatların yerləşdirildiyini qeyd edə bilərik.

Universitetin rəsmi internet səhifəsində bütün məlumatların yalnız Azərbaycan dili versiyasında mövcudluğu əlçatanlıq üçün maneə hesab edilə bilər. Saytda fakültələrin dərs cədvəlləri bölməsində keçmiş illərin cədvəllərinin hələ də qalması (saxlanılması) yenilənmə prosesinin icrasının monitorinqini zəruri edir. Akkreditasiya Komissiyası tərəfindən GDU-nun rəsmi saytında məlumatların mütəmadi olaraq yenilənməsi tövsiyə edilir.

**5.5.3 ATM-in ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti**

GDU rəsmi veb-saytı ilə yanaşı YouTube sosial şəbəkəsində “Department of Innovations at Ganja State University” adlı kanal və hər tədris ilində 10 nömrə olmaqla, ayda bir dəfə nəşr olunan “Yüksəliş” adlı qəzet vasitəsilə universitet haqqında məlumatlar ictimaiyyətlə bölüşülür. Eyni zamanda rəsmi dövlət qəzetlərində müvafiq müqavilələr əsasındauniversitetə dair müxtəlif dövrlərə aid məlumatlar dərc olunur.

Sahə baxışı zamanı GDU-nun ictimaiyyəti məlumatlandırması məqsədi ilə digər əlaqə üsullarından daha az istifadə edildiyi müşahidə edilmişdir. Tələbələr və müəllimlərlə müsahibə zamanı, korporativ e-poçtdan əsasən istifadə etmədikləri müəyyən edilmişdir. ATM-də vatsap platformasının daxili xəbərləşmə vasitəsi kimi daha geniş istifadəsi müşahidə edilmişdir. Digər sosial şəbəkələrin (”LinkedIn”, “Instagram”, ”X” və s.) ictimaiyyətin məlumatlandırması məqsədilə istifadəsinin zəif olduğu müşahidə olunmuşdur. Bu istiqamətdə fəaliyyət planının hazırlanması, sorğuların keçirilməsi və müvafiq təhlillərin aparılaraq təkliflərin hazırlanıb tətbiq edilməsi universitetin ölkə daxilində və xaricində tanıdılması, tələbələrin universitetə cəlb olunması baxımından mühüm əhəmiyyətə malikdir. Akkreditasiya Komissiyası tərəfindən bu istiqamətdə məqsədyönlü fəaliyyətlərin həyata keçirilməsi tövsiyə edilir.

### 5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planının olması vəziyyəti

GDU-nun Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinin fəaliyyəti illik “İş planı” əsasında həyata keçirilir. “İş planı” üzrə 7 istiqamətdə fəaliyyətlərin icrası nəzərdə tutulmuşdur:

- GDU-nun fəaliyyəti ilə bağlı məlumatların ictimailəşdirilməsi
- GDU-ya yönəldilmiş ittihamların, sorğuların və məlumatların aydınlaşdırılması
- KİV-lə əlaqələrin qurulması işinin təşkili
- Arxivləşdirmə işininin təşkil edilməsi
- Beynəlmiləlləşmə prosesində iştirak
- Universiteti təmsil etmək
- İctimai rəy sorğularının keçirilməsi

Sadalanan istiqamətlərdə fəaliyyət planının icra və nəzarət mexanizmi mətbuat katibi tərəfindən Komissiya üzvlərinə təsvir edilməmişdir.

### 5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti

Sahə səfərində Mətbuat və ictimaiyyətlə əlaqələr xidmətinə yerində baxış zamanı GDU-nun məlumatlandırma fəaliyyətinin qiymətləndirilməsi üçün maraqlı tərəflərlə sorğuların keçirildiyi bildirilmişdir. Bu məqsədlə sonuncu dəfə 25.12.2023-27.12.2023-cü il tarixlərində sorğular keçirilsə də, sorğuların nəticələrinin hesabatlılığı təmin olunmadığı müşahidə olunmuşdur. Sorğuların nəticələrinin yalnız fakültərələrə kağız daşıyıcılarda çatdırıldığını nəzərə alaraq digər müvafiq maraqlı tərəflərə (məzunlar, akademik heyət, inzibati və tədris-köməkçi heyət və s.) əlçatanlığının təmin olunması məqsədəuyğundur.

Müsahibələr zamanı bu istiqamətdə işlərin 2023-2028-ci illər üçün SİP-də nəzərdə tutulduğu və planlamalar aparılacağı bildirilmişdir.

### 5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi vəziyyəti

GDU-da məlumatlandırma fəaliyyətinin monitorinqinin aparılması və təkmilləşdirilməsi ilə bağlı xüsusi bir mexanizm olmasa da, rəsmi veb-sayt, eləcə də sosial şəbəkələrdən maraqlı tərəflər qeyd olunan əlaqə vasitələrilə fikirlərini ifadə edə bilərlər. Məlumat və təkliflərin aidiyyəti şəxslərə yönləndirilməsinin təmin olunduğu müşahidə edilsə də, universitetdə bu fəaliyyət istiqamətində monitorinqlər və təkmilləşdirmələr aparılmamışdır. ATM-də məlumatlandırma fəaliyyətinin monitorinqi istiqamətində müəyyən sorğular aparılsa da, bu sorğuların nəticələri maraqlı tərəflər üçün əlçatan deyil, bu istiqamətdə əlçatanlığın təmin olunması tövsiyə olunur. Eyni zamanda məlumatlandırma fəaliyyəti ilə bağlı GDU-da təhsilalanlar, məzunlar, akademik heyət, inzibati, tədris-köməkçi heyət və əmək bazarı nümayəndələri arasında məmnunluq səviyyəsinin ölçülməsi məqsədilə müxtəlif tipli sorğuların mütəmadi keçirilməsi, onların təhlil edilərək qiymətləndirilməsi və müvafiq tədbirlər planının hazırlanması tövsiyə olunur.

## 6. İNFRASTRUKTUR

### 6.1 Tədris infrastrukturu

#### 6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti

Universitetdə tədris prosesi beş tədris binasında (32058 m²) aparılır. Ümumi olaraq tədris binalarında 30 mühazirə və 132 məşğələ auditoriyaları mövcuddur. Bundan başqa, 3 akt zalı (601,6 m²), mini futbol meydançaları, qaçış zolaqları, uzununa tullanma yerləri, voleybol və basketbol meydançaları, 2 idman zalı (939,2 m²) və 1 fitnes zalı (64,6 m²) mövcuddur.

Tədris prosesinin müasir təlim və tədris tələblərinə uyğun olaraq interaktiv formada təşkil edilməsi, həmçinin tələbələr tərəfindən qrup işlərinin birgə hazırlanması və müzakirələrinin aparılması, yaradıcı prosesin təşviq edilməsi məqsədilə auditoriyalarda partaların fərqli formada (klaster, qrup, teatr, konfrans və s.) düzülüşünə imkan yaradılması tövsiyə edilir.

Yerində baxış zamanı II, III və IV tədris binalarında əsaslı təmirə ehtiyac olduğu müşahidə edilmişdir. Onlayn sorğuda iştirak etmiş tələbələrin fikirlərini nəzərə alaraq havalandırma şəraitinin yaxşılaşdırılması və bəzi otaqlarda sıxlığın tənzimlənməsi məqsədəuyğundur.

#### 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti

GDU-nun kitabxanası 1518,8 $m^2$ sahəni əhatə edir və burada 350485 kitabdan ibarət fond mövcuddur. TİKA-nın dəstəyi ilə Nuru Paşa adına kitabxana fəaliyyət göstərir. GDU kitabxanasında üç şöbə var: Komplektləşdirmə, Biblioqrafiya və Xidmət. Universitetdə 647,6 $m^2$ sahəni əhatə edən qiraət zalları mövcuddur. Kitabxananın elektron sistemdə fəaliyyəti planlaşdırılır. Sahə səfəri zamanı və kitabxanaya məsul şəxslərlə müsahibə zamanı kitabxanada internet sürətinin çox zəif olduğu müəyyən olunmuşdur. Bununla yanaşı, kitabxanada elektron sistemi müəyyən qədər əvəz etmək üçün istifadə edilən Excel proqramından sistemli şəkildə istifadə edilmir. Sahə səfəri zamanı kitabxananın tanınmış qlobal kitabxana informasiya mərkəzlərinə (məsələn, JSTOR, EBSCO, WorldCat) çıxışının mövcud olmadığı, xarici vəsaitlərin Google axtarış sistemi vasitəsilə aparıldığı müşahidə edilmişdir.

#### 6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti

GDU-da kadr hazırlığı müxtəlif ixtisaslar üzrə 5 tədris binasında həyata keçirilir. I tədris binasında “Kimya-biologiya”, II tədris binasında “Fizika və texniki fənlər”, “Riyaziyyat-informatika” və “Pedaqoji”, III tədris binasında “Tarix-coğrafiya”, IV tədris binasında “İqtisadiyyat və idarəetmə”, V tədris binasında isə “Filologiya” və “Xarici dillər” fakültələri fəaliyyət göstərir. Tədris binalarında mövcud olan otaqların təyinata görə təsnifatı aşağıdakı cədvəldə öz əksini tapmışdır:

**Şəkil 6.1.3.1** Tədris binalarında mövcud olan otaqların təyinata görə təsnifatı (GDU tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatından götürülmüşdür.)




| | I tədris binası | II tədris binası | III tədris binası | IV tədris binası | V tədris binası | Tələbə Evi |
|---|---|---|---|---|---|---|
| Mühazirə otağı | 2 | 7 | 5 | 4 | 12 | 0 |
| Seminar/praktik məşğələ otağı | 6 | 38 | 18 | 14 | 56 | 0 |
| Tədris laboratoriyası | 11 | 15 | 0 | 0 | 3 | 0 |
| Elmi-tədqiqat laboratoriyası | 1 | 1 | 0 | 0 | 0 | 0 |
| Emalatxana | 0 | 3 | 0 | 0 | 0 | 0 |
| Qiraət zalı | 1 | 2 | 1 | 1 | 1 | 13 |
| İdman zalı | 0 | 1 | 0 | 0 | 1 | 0 |
| Mərkəz | 4 | 0 | 0 | 0 | 6 | 0 |

Sahə səfəri zamanı I tədris binasının əsasən laboratoriyalar və mərkəzlərlə təchiz olunduğu, II tədris binasında daha çox seminar otaqları və laboratoriyaların üstünlük təşkil etdiyi, III və IV tədris binaları isə resurslar baxımından daha məhdud imkanlara malik olduğu məlum olmuşdur. Seminar və mərkəz otaqları ən çox V tədris binasında yerləşmişdir. Həmin binada həmçinin müasir standartlara cavab verən təmirli idman zalı və qiraət zalı da mövcuddur.

Komissiya sahə baxışı zamanı belə qənaətə gəlmişdir ki, kadr hazırlığı aparılan fakültələrin ayrı-ayrı binalarda mövcudluğu müsbət haldır. Eyni zamanda bir sıra tədris binalarında ixtisasların xüsusiyyətlərinə uyğun maddi-texniki, tədris bazasının, əsasən də tədris otaqlarının və laboratoriyalarının müasir interaktiv tədris mühitini təmin etmək üçün təkmilləşdirilməsinə ehtiyac vardır.

### 6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti

Sahə səfəri zamanı 24 tədris laboratoriyasına (Rəsm və boyakarlıq laboratoriyası, Məktəb bədii tərtibatı və heykəltəraşlıq laboratoriyası, Təbiət materiallarının bədii tərtibatı laboratoriyası, Rəsm və rəngkarlıq, Tətbiqi fizika laboratoriyası, Mexanika və molekulyar fiziki laboratoriyası, Fizikanın tədrisi metodikası laboratoriyası, Materiallar müqaviməti və maşın hissələri laboratoriyası, Tikiş texnologiyası laboratoriyası, Ümumi fizika laboratoriyası, Tətbiqi fizika və avtomatikanın əsasları laboratoriyası, Optika atom laboratoriyası, Elektrik və maqnetizm laboratoriyası, Avtomobil və kənd təsərrüfatı laboratoriyası, Üzvi və bioloji kimya laboratoriyası, Fiziki və kolloid kimya laboratoriyası, Qeyri üzvi kimya laboratoriyası, Zoologiya laboratoriyası, Anatomiya laboratoriyası, Fiziologiya laboratoriyası, Bitki anatomiyası və morfologiyası laboratoriyası, Bitki sistematikası laboratoriyası, Bitki fiziologiya laboratoriyası, Qeyri-üzvi və analitik kimya laboratoriyası) baxış keçirilərək qeyd olunmuş məkanlarda müvafiq fakültələr tərəfindən

dərslərin keçirilməsi öz təsdiqini tapmışdır. Dərslər zamanı istifadə olunan avadanlıqların əksəriyyətinin fiziki və faydalılıq baxımından köhnəlmiş, yararsız və ya günün tələbatına tam uyğun olmadığı müəyyənləşdirilmişdir. 11 kompüter laboratoriyasında kompüter avadanlıqlarının mövcüd olmasına baxmayaraq, internetə çıxış mümkün deyil və ya sürəti zəifdir.

### 6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti

Təcrübə və karyera şöbəsi məzunların işlə təmin olunması ilə yanaşı tələbələrin təcrübəsinin (istehsalat, pedaqoji və d.) təşkil edilməsini təmin etmək məqsədilə yaradılmışdır. Həmin şöbənin dəstəyi ilə tələbələrin pedaqoji və istehsalat təcrübələri təşkil olunur. İstehsalat təcrübələri 30-a yaxın orta ümumtəhsil məktəbi, qeyri-pedaqoji ixtisaslar üzrə Gəncə şəhərində yerləşən 60-a yaxın təşkilat və müəssisələrdə təşkil edilir.

### 6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti

Universitetdə distant təhsillə bağlı 2023-2028-ci il SİP-də xüsusi başlıq (*7.5.3. Distant təhsil üçün öyrənmə və tədris imkanlarını gücləndirmək)* mövcuddur. Bu məqsədlə V tədris binasında yerləşən Müasir Təlim Mərkəzi və E-öyrənmə Mərkəzləri fəaliyyət göstərir. Lakin orada əsasən akademik heyət üçün məsafədən tədrisin təşkili və video dərslərin yaradılması təmin olunur. Universitet distant təlimlərin keçirilməsilə əlaqədar Telycam qurğusu, Epson DC-13/DC-21 Document Camera, xüsusi işıqlandırma qurğuları, distant mikrofon sistemi, təqdimat lövhələri, xüsusi təyinatlı skaner qurğusu, kompüter və s. kimi xüsusi avadanlıqlar almışdır. Sahəyə baxış və müsahibələr zamanı universitetdə məsafədən tədrisin təşkilinə dair müvafiq işlərin görüldüyü əsasən müşahidə edilmişdir.

### 6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti

Yerində baxış zamanı GDU tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında qeyd olunmuş 10 ədəd nəqliyyat vasitəsinin mövcudluğu öz təsdiqini tapmışdır. Ali təhsil müəssisəsində 1 ədəd Nissan Maxima, 1 Nissan Teana, 1 Kia Sportage, 2 Hyundai Sonata, 1 Toyota Camry, 1 Chevrolet Malibu və 1 Naz Lifan minik avtomobillərlə yanaşı yük daşımaları üçün 1 ədəd istismara yararlı Qazel markalı yük maşını istifadədir. Əlavə olaraq öncədən razılaşdırılmaq şərti ilə balansda olan 1 ədəd Hyundai markalı avtobus kütləvi tədbirlərə əməkdaş və təhsilalanların daşınması üçün istifadəyə verilir. Tədris binaları ictimai nəqliyyatdan istifadə edilməklə əlçatan olduğundan təhsilalanlar üçün xüsusi nəqliyyat servisi təklif olunmur.

### 6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti

Universitetdə kitabxanadan istifadə ilə bağlı rektorun əmri ilə təsdiqlənmiş “Kitabxana İnformasiya Mərkəzinin Əsasnaməsi” və “Kitabxana İnformasiya Mərkəzindən istifadə Qaydaları” mövcuddur. Universitet tələbələri və digər universitetlərin tələbələri, digər universitetlərdən dəvət edilən professor-müəllim heyətinin yataqxanadan istifadə etməsi, rektorun əmri ilə təsdiq edilmiş “Tələbə Evinin Əsasnaməsi” və “Tələbə Evinin Daxili Qaydaları” əsasında həyata keçirilir.

Sahə səfəri zamanı Akkreditasiya Komissiyasının GDU tələbələri arasında keçirilmiş sorğunun nəticələri göstərir ki, tələbələr tədris infrastrukturu ilə əlaqədar aşağıdakı ehtiyacların qarşılanmasının zəruri olduğunu bildirirlər:

**Şəkil 6.1.8.1** Tədris infrastrukturu ilə əlaqədar tələbələrin təklifləri




Professor-müəllim heyəti ilə keçirilmiş sorğu nəticələrinə əsasən, universitetin maddi-texniki bazasının təkmilləşdirilməsi ilə əlaqədar əlavə kompüter otaqlarının təşkili, tədris laboratoriyalarının texniki təchizatının yaxşılaşdırılması, kafedralara kifayət qədər sayda noutbukların təqdim edilməsi və s. kimi təkliflər irəli sürülmüşdür.

### 6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti

Sağlamlıq imkanları məhdud tələbələr üçün 2014-2017-ci illərdə Avropa İttifaqının TEMPUS proqramının ESFIDIP layihəsi çərçivəsində rektorun əmri ilə V tədris binasında "Əlilliyi olan şəxslər üçün Mərkəz" yaradılmışdır. Mərkəzin Əsasnaməsi, Strateji Planı və İllik Fəaliyyət Planı mövcuddur. Layihə çərçivəsində bu mərkəz təyinat üzrə bir sıra xaricdə istehsal olunmuş avadanlıq və tədris materialları ilə təchiz edilmişdir. Mərkəzin fəaliyyət göstərdiyi V tədris binası sağlamlıq imkanları məhdud tələbələrin istifadəsi üçün tam yararlıdır. Belə ki, pilləkənlərdə panduslar təchiz olunmuş, sanitar qovşaqları uyğunlaşdırılmışdır. Yerində baxış zamanı digər tədris binalarında bu şəraitin mövcud olmadığı müşahidə edilmişdir. Sahə səfəri zamanı GDU-nun bu tədris binalarında (V tədris binası istisna olmaqla) sağlamlıq imkanları məhdud şəxslərin təhsil almaması səbəbindən, sağlamlıq imkanları məhdud olan təhsilalanların onlara yaradılmış şəraitlə əlaqədar fikirlərini öyrənmək və təhsilalanlar nöqteyi nəzərindən bu şəraitin keyfiyyətinin qiymətləndirilməsi mümkün olmamışdır.

### 6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti

Universitetdə ümumi sahəsi 485,4 m² olan "bufet" tipli kafelər mövcuddur. Bu kafelərin əksəriyyəti müasir avadanlıqlarla təchiz edilməmişdir. Yerində baxış zamanı “Tələbə evi” və V tədris binasında mövcud olan yeməkxanalardan başqa, digər tədris binalarında fəaliyyət göstərən yeməkxanalarda sıxlıq müşahidə edilmişdir.

### 6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti

2019-2020-ci illərdə 5 mərtəbəli 3 yataqxana binası əsaslı təmir olunmuşdur. Hazırda bu şəhərcik “Tələbə evi” adı altında fəaliyyət göstərir və ümumi sahəsi 16609 m²-dir. Burada ümumilikdə 706 tələbənin yaşaması mümkündür. “Tələbə evi”ndə digər ali təhsil müəssisələrindən gələn yüksək ixtisaslı professor-müəllim heyəti üçün hər biri 19 m² olan 4 xüsusi qonaq otağı ayrılmışdır.

Universitetin V tədris binasında ümumi sahəsi 5536,3 m² olan 5 mərtəbəli yataqxana binası məcburi köçkünlərin köçürülməsindən sonra yararsız hala düşmüşdür. Bu binanın əsaslı təmiri üçün layihə hazırlanaraq TİKA-ya təqdim edilmiş və dəyərləndirilmişdir.

Bundan başqa, universitetin Bayan 143 A ünvanında yerləşən, 5 mərtəbəli daha bir yataqxana binası (ümumi sahəsi 6125,7 m²) mövcuddur və məcburi köçkünlərin hələ də köçürülməməsi səbəbindən bina tələbələrin istifadəsinə verilməmişdir.

### 6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti

Universitetin hər tədris binasında və "Tələbə evi" kompleksində daxili maraqlı tərəflərə tibbi xidmət göstərmək məqsədilə hər biri 10 m² sahəsi olan "İlkin tibbi yardım mərkəzi" qurulmuşdur. Bu mərkəzlərdə ilkin tibbi yardımın göstərilməsi üçün həkim və ya tibb işçisi təmin edilmişdir. Tibbi xidmətin fəaliyyəti ilə əlaqəli İdman klubunun rəhbərliyi məsuliyyət daşıyır. Lakin bu xidmətin daha üst struktur bölməyə hesabatlılığının olması məqsədə müvafiqdir. Yerində baxış zamanı tibbi xidməti göstərən tibb işçiləri və İdman klubunun rəhbərliyi tərəfindən bildirilmişdir ki, yerli poliklinikaya müraciət edilməsinə baxmayaraq həmin qurum tərəfindən müraciətə hələki cavab verilməmişdir.

### 6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti

2007-ci ildə universitetdə İT xidmətləri göstərmək məqsədi ilə rektorun əmri ilə İnformasiya və Kommunikasiya Texnologiyaları (İKT) bölməsi yaradılmışdır. 2017-ci ildən etibarən İKT şöbəsi İnnovasiyalar departamentinin tərkibində rektor tərəfindən təsdiqlənmiş "İKT şöbəsinin yeni Əsasnaməsi" əsasında fəaliyyət göstərir.

Özünütəhlil Hesabatında qeyd olunmuş “*İKT şöbəsi tərəfindən universitetin bütün tədris binaları yüksək sürətli internetlə təmin edilməsi*” məsələsi yerində baxış zamanı öz təsdiqini tam olaraq tapmamışdır. Belə ki, bir çox auditoriyalarda internetin sürətinin aşağı olduğu qeydə alınmışdır, mühazirələrin dinlənilməsi zamanı isə auditoriyaların bəzilərində internet təminatının ümumiyyətlə olmadığı müşahidə edilmişdir. Həmçinin, təhsilalanlar və akademik heyət arasında keçirilmiş sorğu nəticələrinə görə, internet sürətinin gücləndirilməsi təklif olunmuşdur. Müasir simsiz (Wi-Fi) şəbəkənin qurulması ilə təhsil prosesinin bütün iştirakçılarına internetə çıxışın təmin edilməsi tövsiyə edilir.

### 6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparılması vəziyyəti

Universitetin tədris infrastrukturu ilə bağlı vəziyyəti prorektorluq tərəfindən yaradılan İşçi Qrup monitorinq edir. Fakültə dekanı və müvafiq struktur bölmə rəhbərləri tərəfindən İnzibati təsərrüfat işləri üzrə prorektora göndərilən müraciət əsasında işçi qrupu tərəfindən aparılan infrastrukturun monitorinqinin nəticələri rektora təkliflərin də əks olunduğu hesabat formasında təqdim edilir. Lakin müsahibə və yerində baxış zamanı aparılan monitorinqlərin periodik olmadığı, nəticələrin müqayisəli və sistemli şəkildə təhlil olunmadığı müəyyən olunmuşdur.

## 6.2 Elmi-tədqiqat infrastrukturu

### 6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti

GDU EŞ-nın 06.03.2017-ci tarixli (pr. № 02) Qərarı və rektorun 09.03.2017-ci il tarixli 5/55 nömrəli əmri ilə yaradılmış İnnovasiyalar departamenti fəaliyyət göstərir. Departamentin nəzdində 5 şöbə fəaliyyət göstərir. Bunlar “İnnovasiya texnologiyalarının transferi və marketinqi”, “Strateji təhlil, monitorinq və qiymətləndirmə”, “İnformasiya resurslarının formalaşması”, “İnformasiya və kommunikasiya texnologiyaları”, “Beynəlxalq əlaqələr” şöbələridir. Müsahibələr və sahə baxışı zamanı departamentin daha çox universitetin İT xidmətlərini həyata keçirdiyi, eyni zamanda imtahan prosesini idarə etdiyi müəyyən edilmişdir.

Bununlarla yanaşı, İnnovasiyalar departamentinin nəzdində aşağıdakı mərkəzlər də fəaliyyət göstərir:

- Nizami Gəncəvi adına Dayanıqlı Ağıllı Şəhərlər və Regionlar Mərkəzi (və Mərkəzin nəzdində “Resurs səmərəliliyi və daha təmiz istehsal klubu” – Klubun nəzdində Qərb regionundan 20-yə yaxın KOB təmsil olunur;
- Müasir Təlim Mərkəzi;
- “E-öyrənmə” Mərkəzi;
- Əlilliyi olan tələbələr üçün Mərkəz;
- Mediasiya Mərkəzi;
- Tələbə Ombudsmanı;
- Dil resursları Mərkəzi.

Komissiya belə qənaətə gəlmişdir ki, departament inzibati, əlaqələndirici struktur vahidindən daha çox icraçı fəaliyyətləri yerinə yetirən struktur vahidi xarakteri daşıyır. Departamentin fəaliyyətində elmi-tədqiqat fəaliyyətlərindən daha çox beynəlxalq əlaqələr, İT xidmətləri sahəsinin üstünlük təşkil etməsi, bir sıra mərkəzlərin fəaliyyətinin də departamentə bağlı olması səbəbilə, həmin departament elmi-tədqiqat infrastrukturu kimi xüsusi əhəmiyyətə malik deyil.

Özünütəhlil Hesabatında *“... İnnovasiyalar Departamenti GDU-nun professor-müəllim heyətinə və tələbələrinə innovativ layihələr (o cümlədən Startaplar), innovativ məhsul və xidmətlər üzrə əqli mülkiyyət hüquqlarının qorunması sahəsində müvafiq köməklik edir: biznes potensialına malik ideyaların kommersiallaşmasına dəstək verir, ali təhsil*

*müəssisələri və biznes qurumları arasında əməkdaşlığı genişləndirir..."* fikri qeyd edilir. Müxtəlif kafedralara baxış və professor-müəllim heyəti ilə müsahibələrdə bu qəbildən olan fəaliyyətlərin zəif təşkil olunduğu bildirilmişdir.

### 6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti

GDU-da elmi-tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş, ümumi sahəsi 50 m² olan 13 qurğu-cihaz, 1 kompüter və digər avadanlıqlar "Kimyəvi materialşünaslıq" adlı bir elmi-tədqiqat laboratoriyası fəaliyyət göstərir. Laboratoriyada 3 istiqamətdə elmi-tədqiqatlar aparılır, o cümlədən AMEA-nın Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə tədqiqat layihəsi həyata keçirilir.

Özünütəhlil Hesabatında qeyd edilən, 70 m²-ə yaxın sahəsi, böyük əksəriyyəti fiziki cəhətdən köhnəlmiş, bəziləri sıradan çıxmış 10-dan çox qurğu, cihaz və avadanlığı olan "Yarımkeçiricilər fizikasının aktual problemləri" elmi-tədqiqat laboratoriyası isə faktiki olaraq fəaliyyət göstərmir, COVİD-19 pandemiyasından sonra burada heç bir elmi-tədqiqat işi aparılmır.

Qeyd edək ki, GDU-da fəaliyyət göstərən, 25 m² sahəsi, 3 ədəd 3D printeri, 1 kompüteri və digər avadanlıqları ilə təchiz olunan "STEAM laboratoriyası"nda müasir mövzularda aparılan elmi-tədqiqatlar zamanı "dizayn, prototipləmə və test" kimi ehtiyacların qarşılanması, eyni zamanda elmi-innovativ layihələrin həyata keçirilməsi, müasir texnologiyaların və texnoloji həllərin əldə olunması və onların transferinin təşkil edilməsi, rəqəmsal transformasiya məqsədli məhsul və xidmətlərin müəyyənləşdirilməsi, robot və bulud texnologiyalarına, irihəcmli məlumatların emalına, süni intellektə əsaslanan həllərin dəstəklənməsi məqsədilə tədqiqatçılara münasib şərait yaradılmışdır.

Özünütəhlil Hesabatında kafedralarda çoxsaylı mövzular ətrafında hər bir müəllimin tədqiqat fəaliyyəti ilə məşğul olması qeyd edilsə də, aktiv tədqiqat fəaliyyəti yerinə yetirmək üçün müasir avadanlıq, proqram təminatı və s. təchiz olunmuş laboratoriyaların yaradılmasına ehtiyac vardır. Elmi-tədqiqat işlərini koordinasiya edən strukturun yaradılması, kafedraların tədqiqat işlərini dəstəkləyən infrastrukturun gücləndirilməsi tövsiyə edilir.

# 7. BEYNƏLMİLƏLLƏŞMƏ

## 7.1 Beynəlmiləlləşmə siyasəti

### 7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti

Sahə baxışı zamanı və müsahibələrdə universitetin 2016-2020-ci illər üçün ayrıca beynəlmiləlləşmə siyasəti adlı sənədi müşahidə edilməmişdir. Eyni zamanda, 2016-2020-ci illər üçün SİP-də GDU-nun beynəlmiləlləşmə siyasəti barədə məlumatlar əksini tapmamışdır. Universitetin strukturunda Beynəlxalq əlaqələr üzrə prorektorluq nəzərdə tutulmamışdır.

GDU-nun Beynəlmiləlləşmə Siyasəti ötən il (EŞ-in 28.12.2023-cü il tarixli qərarı) qəbul edilmişdir. 2023-2028-ci illər üçün SİP-də "Beynəlmiləl Universitet"ə çevrilmək hədəfi 4-cü məqsəd olaraq qoyulmuşdur. Beynəlmiləlləşmə siyasəti SİP-də nəzərdə tutulan müddəalara uyğundur. Burada 7 bənddən ibarət hədəflər və uyğun strateji fəaliyyətlər müəyyən edilmişdir. Beynəlmiləlləşmə siyasətinin əsas prioritetləri sırasına əcnəbi təhsilalanların sayının artırılması, beynəlxalq mübadilə proqramlarında tələbə, müəllim və inzibati heyətin iştirakının təmin edilməsi, xarici dillərdə proqramların təsis edilməsi və beynəlxalq ikili diplom proqramlarının inkişaf etdirilməsi daxildir. Qeyd olunmalıdır ki, universitetin təşkilati strukturunda olduğu kimi beynəlmiləlləşmə siyasətinin icrasına məsul əsas struktur vahidlər, onların məsuliyyət və səlahiyyətləri siyasət sənədində öz əksini tapmamışdır. Akkreditasiya Komissiyası yalnız yerində müsahibə zamanı alt strukturların iş və səlahiyyət bölgüsü barədə daha dəqiq təsəvvür yaratmaq mümkün olmuşdur. 2016-2023-cü illəri əhatə edən beynəlmiləlləşmə siyasəti sənədi mövcud olmadığından bu fəaliyyətin SİP-ə uyğunluğunu müəyyən etmək mümkün olmamışdır.

### 7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti

Qeyd olunduğu kimi GDU-nun 2016-2023-cü illəri əhatə edən Beynəlmiləlləşmə Siyasəti sənədi mövcud olmadığından mübadilə proqramlarının təşviq olunma vəziyyətini həmin illər üçün müəyyən etmək mümkün olmamışdır. Müsahibə və sənədlərə baxış zamanı GDU-nun 2023-cü ildə qəbul olunmuş Beynəlmiləlləşmə Siyasəti sənədində əsas istiqamətlərdən biri mübadilə proqramlarının universitetdə təşviq edilməsi olduğu aydın olmuşdur. Özünütəhlil Hesabatında qeyd olunduğu kimi beynəlmiləlləşmə siyasəti ilə yanaşı universitetin 2023-2028-ci illəri əhatə edən Strateji Planın 4.2. bəndi "Beynəlxalq mübadilə proqramlarında iştirakın təmin edilməsi" adlı hədəfin "4.2.2. Müvafiq beynəlxalq proqramlar çərçivəsində professor-müəllim heyətinin və tələbələrin mobilliyini artırmaq və təlimlərdə iştirakını gücləndirmək" fəaliyyəti müəyyən edilib. Siyasət sənədində və SİP-də "Beynəlxalq

mübadilə proqramlarında iştirakın təmin olunması“ barədə müddəalar qeyd olunsa da, onun hansı alətlərlə və yollarla yerinə yetiriləcəyi barədə fikirlər əksini tapmamışdır.

Akkreditasiya Komissiyası tərəfindən keçirilən müsahibələr, yerində sənədlərə baxış və müşahidələr zamanı aydın olunmuşdur ki, GDU dünyanın 27 ölkəsindən olan universitetlər ilə ikitərəfli əməkdaşlıq, Erasmus+ mübadilə proqramı çərçivəsində 10 Avropa universiteti və Mövlanə mübadilə proqramı çərçivəsində 27 Türkiyə Respublikası universiteti ilə əməkdaşlıq edir. Qeyd olunmalıdır ki, 2020-ci ildən Mövlanə mübadilə proqramı aktiv deyildir.




**Şəkil 7.1.2.1.** Mübadilədə iştirak etmiş akademik heyət və digər əməkdaşların illər üzrə statistikası

Diaqramdan da göründüyü kimi, Akkreditasiya Komissiyasına təqdim olunan sənədlərə əsasən beynəlxalq mübadilə proqramları və layihələr çərçivəsində 2016-2023-cü illərdə professor, müəllim heyəti və digər əməkdaşlardan ibarət 111 mübadilə (nəfər) həyata keçirilib. Lakin, sənədlərin təhlili zamanı mübadilədə eyni əməkdaşların bir neçə dəfə təkrar iştirakı halları müəyyən olunmuşdur.

### 7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların cəlb olunmasının təşviq olunması vəziyyəti

GDU-nun SİP və eyni zamanda 2023-cü ildə təsdiq edilmiş Beynəlmiləlləşmə Siyasəti sənədində prioritet istiqamətlərindən biri əcnəbi təhsilalanların cəlb olunmasıdır. Şəkil 7.1.3.1-dən göründüyü kimi 2017/2018-ci tədris ilindən başlayaraq əcnəbi təhsilalanların sayında 2019/2020-ci tədris ilinə qədər artım müşahidə olunsa da, sonradan bu göstəricilərdə azalma müşahidə olunmuşdur. Müsahibə zamanı əcnəbi təhsilalanların sayında olan azalmaların əsas səbəbi kimi, pandemiya və eyni zamanda xarici dildə proqramların az olması qeyd edilmişdir. Əcnəbi təhsilalanların sayının artırılması məqsədilə GDU-nun əsasən Azərbaycanda “Study in Azerbaijan” platformasından, təhsil

yarmarkalarından və  eyni zamanda beynəlxalq vasitəçi təhsil şirkətləri ilə effektiv və səmərəli əlaqələrindən istifadə etdiyi bildirilmişdir.

Əcnəbi tələbələrin universitetə cəlb olunması strateji sənədlərdə əksini tapsa da, müsahibələr zamanı müvafiq strukturlar tərəfindən əcnəbi tələbələrin təhsilə cəlb olunması üçün cəlbedici təşviq mexanzimi barədə müddəalar bildirilməmişdir. Siyasət sənədində də yalnız nəticələr bildirilir, amma cəlb olunma mexanizmi mövcud deyil.




**Şəkil 7.1.3.1.** Əcnəbi təhsilalanların illər üzrə statistikası

### 7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti

GDU-nun Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, universitetin 2023-2028-ci illəri əhatə edən Strateji Planı əsasında hazırlanmış beynəlmiləlləşmə siyasətinin prioritet istiqamətlərindən biri beynəlxalq təcrübə əsasında akademik mübadilə imkanlarının gücləndirilməsidir. Akkreditasiya Komissiyasının yerində müsahibə və sənədlərin təhlili zamanı aydın olmuşdur ki, beynəlxalq əcnəbi professor-müəllim heyətini universitetdə əmək fəaliyyətinə cəlb etmək üçün müvafiq fəaliyyət və mexanizm mövcud deyildir. Eyni zamanda sənədlərin təhlili zamanı professor-müəllim heyətinin akademik mübadilə proqramları çərçivəsində xarici tərəfdaş universitetlərə göndərilməsi istiqamətində fəaliyyətlərin artırılmasına ehtiyac olduğu müəyyən edilmişdir.

### 7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti

GDU tərəfindən təqdim edilmiş Özünütəhlil Hesabatında qeyd olunduğu kimi Strateji Planı əsasında 2023-cü ildə hazırlanmış Beynəlmiləlləşmə Siyasəti və universitetin Tədqiqat Siyasəti sənədində beynəlxalq tədqiqatçılarla münasibətlərin qurulması və inkişaf etdirilməsi ilə bağlı məqamları özündə əks etdirmişdir. Həmin sənəddə “birgə tədqiqatlar aparmaq üçün beynəlxalq tədqiqatçılar ilə əlaqələrin qurulması”, “beynəlxalq tərəfdaşlarla birgə tədqiqatların aparılması üçün beynəlxalq əməkdaşlıqları genişləndirmək”, “birgə tədqiqat işlərinin aparılması və tədqiqat şəbəkəsinin genişləndirilməsi məqsədi ilə nüfuzlu xarici ali

təhsil və tədqiqat müəssisələri ilə əməkdaşlıqlar qurmaq üçün fakültələr və departamentlərə bu sahədə kömək etmək", "universitetdə birgə beynəlxalq elmi konfransların keçirilməsinə dəstək göstərmək" kimi fəaliyyətlər əksini tapmışdır. Akkreditasiya Komissiyası tərəfindən keçirilmiş müsahibə və sənədlərin təhlili zamanı aydın olmuşdur ki, Universitetin təhsil və tədqiqat sahələrdə beynəlmiləlləşmə elementlərinin inkişafı istiqamətində fəaliyyətləri mövcuddur. Buna misal olaraq ingilis dilində ixtisasların olması və bu sahədə ikili diplom proqramının inkişaf etdirilməsini, mübadilə proqramlarında akademik heyətin iştirak etməsini göstərmək olar. Mübadilədə iştirak statistikası 7.1.2-ci indikatorda göstərilmişdir. Lakin, universitetin mobillik və ya layihələr çərçivəsində beynəlxalq tədqiqatçıların tədris və tədqiqat prosesinə cəlb etmə fəaliyyəti qənaətbəxş deyildir. Həmçinin bunun üçün mexanizm də mövcud deyildir. Universitetin elmmetrik göstəricilərinin təhlili zamanı aydın olmuşdur ki, tədqiqat sahəsində xarici müəlliflərlə birgə tədqiqatlar, layihələr yerinə yetirilmir.

### 7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

Özünütəhlil Hesabatında qeyd olunmuşdur ki, Universitetin 2023-2028-ci illəri əhatə edən Strateji Planı əsasında hazırlanmış Beynəlmiləlləşmə siyasətinin əsas istiqamətlərindən biri beynəlxalq təhsil şəbəkələri, beynəlxalq təhsil təşkilatları və dünyanın qabaqcıl ali təhsil müəssisələri ilə əməkdaşlıq edərək təhsil proqramlarının beynəlxalq təcrübəyə uyğunlaşdırılmasıdır. Akkreditasiya komissiyasının yerində müsahibə və sənədlərin təhlili zamanı aydın olmuşdur ki, GDU beynəlxalq təhsil şəbəkələrinə və beynəlxalq təhsil təşkilatlarına üzv deyildir. Hazırda bu sahədə həyata keçirilən hər hansı fəaliyyət müəyyən olunmamışdır.

### 7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti

GDU-nun Beynəlmiləlləşmə siyasətində beynəlxalq ikili diplom proqramlarının təsis edilməsi ilə bağlı müəyyən fəaliyyətlər nəzərdə tutulmuşdur. Akkreditasiya Komissiyası tərəfindən keçirilmiş müsahibə və sənədlərin təhlili zamanı aydın olmuşdur ki, hal-hazırda 2023-ci ildən Universitetin Türkiyənin İzmir Doqquz Eylül Universiteti ilə Biologiya ixtisası üzrə icra olunan ikili diplom proqramı mövcuddur. Universitetin təşəbbüsü əsasında inkişaf etdirilmiş ikili diplom proqramı uğurla icra olunur. Müsahibələr zamanı 2024-cü ildən İzmir Doqquz Eylül Universiteti ilə Tarix ixtisası sahəsində də ikili diplom proqramının icrasına başlanılmasının nəzərdə tutulduğu qeyd edilsə də, iki universitet arasında 05.04.2023-cü il tarixində imzalanmış protokolda bununla bağlı məlumat əks olunmamışdır.

### 7.1.8 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti

Akkreditasiya Komissiyası tərəfindən sənədlərə baxış və müsahibələr zamanı 2016-2023-cü illər arasında Beynəlmiləlləşmə siyasəti sənədi mövcud olmadığı üçün dövrü yenilənmə vəziyyətini təhlil etmək mümkün olmamışdır. Müsahibələr zamanı 2023-cü ildə Universitetin strateji planı əsasında hazırlanmış beynəlmiləlləşmə siyasəti sənədinin 2028-ci ildən sonrakı müddətdə yenilənməsinin nəzərdə tutulduğu bildirilmişdir.

## 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu

### 7.2.1 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilati strukturun mövcud olması vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında 1995-ci ildən beynəlmiləlləşmə proseslərin idarə edilməsi üzrə əsas struktur bölmənin Beynəlxalq əlaqələr şöbəsinin olduğu qeyd edilmişdir. Lakin, Beynəlxalq əlaqələr şöbəsi EŞ-in 06.03.2017-ci il tarixli (pr. № 02) Qərarı və rektorluğun 09.03.2017-ci il tarixli 5/55 saylı əmri ilə İnnovasiyalar departamentinin tabeliyinə verilmişdir. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsinə dair dövrü hesabatlar şöbə tərəfindən hazırlanaraq aidiyyəti üzrə təqdim edilir. İnnovasiyalar departamenti tərəfindən hesabatlar təhlil edilir və EŞ-in müzakirəsinə təqdim olunur.

Akkreditasiya Komissiyası tərəfindən keçirilmiş müsahibələr və sənədlərin təhlili zamanı müvafiq sahənin rektorun ümumi idarəçiliyi altında, Elmi işlər üzrə prorektor tərəfindən idarə edildiyi və İnnovasiyalar departamentinin alt strukturunda fəaliyyət göstərdiyi müəyyən olunmuşdur. Akkreditasiya Komissiyası tərəfindən universitetin genişprofilli olduğunu nəzərə alaraq Beynəlxalq əlaqələr üzrə prorektorluğun yaradılması və sərbəst fəaliyyət göstərən şöbənin qurulması tövsiyə edilir.

### 7.2.2 Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti

ATM-də beynəlmiləlləşmə siyasətini həyata keçirən struktur bölmə Beynəlxalq əlaqələr şöbəsidir. Şöbə öz fəaliyyətlərini illik fəaliyyət planı əsasında SİP-də və 2023-cü ildə təsdiq edilmiş Beynəlmiləlləşmə Siyasətində öz əksini tapmış hədəflərin icrasına uyğun şəkildə həyata keçirir. Lakin 7.2.1 indikatorunda da qeyd olunduğu kimi Beynəlxalq əlaqələr üzrə prorektorluğun olmaması, şöbənin İnnovasiyalar departamentinin tərkibində alt struktur kimi fəaliyyət göstərdiyi müəyyən edilmişdir. Beynəlxalq əlaqələr şöbəsinin müstəqil struktur olmadığını nəzərə alaraq Akkreditasiya Komissiyası tərəfindən həmin strukturun beynəlmiləlləşmə siyasətini təmin etməsi üçün sərbəst şəkildə fəaliyyət göstərməsi tövsiyə edilir.

### 7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinin tanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, mübadilə proqramlarında iştirak edən tələbələrin kreditlərinin tanınması təlim-tədris siyasəti sənədinə istinad edilərək həyata keçirilir. Mübadilə proqramlarında iştirak edən tələbələrin bütün prosedur qaydaları haqqında məlumatlandırıldığı müsahibələr zamanı qeyd edilmişdir. Kreditlərin tanınması və ekvivalentliyin müəyyən edilməsi üçün tələbənin transkripti, universitet rəhbərliyi tərəfindən təsdiq edilmiş təhsil proqramının və fənlərin təlim nəticələri, fənlərin sillabusları zəruri sənədlər kimi təhlil olunur. Proses zamanı müvafiq sənədləşmə, əmrləşmələr aparıldığı təsdiq olunmuşdur.

Diaqramdan göründüyü kimi GDU-nun 25 tələbəsi mübadilə proqramlarında iştirak etmişdir. Ən yüksək iştirak 9 nəfər ilə 2023/2024-ci tədris ilində həyata keçirilmişdir. 2019/2020-ci tədris ilində 1 və 2020/2021-ci tədris ilində 5 tələbənin mübadiləsi həyata keçrilmişdir. Pandemiya dövründə həyata keçirilmiş bu mübadilələr təqdim olunan sənədlərdə öz əksini tapmışdır.

**Şəkil 7.2.3.1.** Mübadilədə iştirak etmiş tələbələrin illər üzrə statistikası




## 7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi vəziyyəti

Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsi universitetin Strateji Planında müəyyən olunmuş əsas fəaliyyət istiqamətlərindəndir. Özünütəhlil Hesabatında qeyd olunmuş əcnəbi professor-müəllim heyətinin Avropa İttifaqının Erasmus+KA1 və Türkiyə Respublikasının Mövlana mübadilə proqramları, əməkdaşlıq müqavilələri və ikili diplom proqramları əsasında universitetdə tədris prosesinə cəlb edilməsi Akkreditasiya komissiyasının yerində müsahibə və sənədlərin təhlili zamanı öz təsdiqini tapmışdır.

**Şəkil 7.2.4.1.** Təlim-tədris prosesinə cəlb olunan əcnəbi müəllimlərin statistikası



Diaqramdan da göründüyü kimi, ötən tədris illəri və cari tədris ilində universitetdə əcnəbi professor-müəllim heyətinin sayının az olması universitetin təlim-tədris və elmi-tədqiqat prosesinin beynəlmiləlləşməsi üçün aşağı göstərici hesab olunur.

### 7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarə edilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti

Özünütəhlil Hesabatına görə, universitetdə icra olunan beynəlxalq layihələrdəki fəaliyyətinin səmərəliliyi layihə çərçivəsində təyin edilmiş ekspert tərəfindən layihənin icra müddətində hesabatlılıq dövrləri nəzərə alınmaqla monitorinq edilir. Akkreditasiya Komissiyası tərəfindən keçirilmiş müsahibələr və sənədlərin təhlili zamanı SİP-lə əlaqəli formada inkişaf etdirilmiş 2023-cü ildə təsdiq edilmiş beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin və prosesin keyfiyyət və kəmiyyət baxımından daxili monitorinqi “Keyfiyyət təminatı və qiymətləndirmə komissiyasının əsasnaməsi” əsasında həyata keçirildiyi məlum olmuşdur. Akkreditasiya Komissiyası tərəfindən sənədlərin təhlili zamanı Keyfiyyət təminatı və Qiymətləndirmə Komissiyası tərəfindən həyata keçirilmiş qiymətləndirməni təsdiq edən sənədlər müəyyən olunmamışdır.

### 7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq tənzimlənməsi vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında ikili diplom proqramları üzrə təlim və tədris prosesinin AKTTS-in və yerli qanunvericilik tələblərinə uyğun formada aparıldığı əks olunmuşdur. Akkreditasiya Komissiyası tərəfindən aparılan müsahibələr və sənədlərin təhlili zamanı qeyd edilən prinsiplərin mövcudluğu öz əksini tapmışdır. Universitetdə Türkiyə Respublikasının Doqquz Eylül Universiteti ilə hal-hazırda icra olunan ikili diplom proqramı çərçivəsində təklif olunan tədris və öyrənmə prosesinin yerinə yetirilməsi iki universitet arasında 05.04.2023-cü il tarixdə imzalanmış protokolun 3-cü və 17-ci maddəsində də öz əksini tapmışdır.

### 7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası

GDU-nun Özünütəhlil Hesabatına görə, akademik heyətin mübadiləsi əsasən Erasmus+, Mövlanə və ikili diplom proqramı çərçivəsində həyata keçirilmişdir. 7.1.2.-ci indikatorda verilmiş statistikaya əsasən GDU-da 111 nəfər mübadilə prosesində iştirak etmişdir. Akkreditasiya Komissiyasına təqdim edilən sənədlərin təhlili zamanı aydın olmuşdur ki, mübadilədə əsasən struktur bölmə rəhbərləri iştirak etmişdir. Sənədlərin təhlili zamanı mübadilədə iştirak edən 111 nəfər heyətin yalnız 10 nəfərə qədərinin müəllimlərdən ibarət olduğu müəyyən olunmuşdur. Müsahibə zamanı müvafiq göstəricilərin aşağı olmasının əsas səbəbləri kimi dil baryeri və ingilis dilli proqramların sayının az olması qeyd edilmişdir.

### 7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında akademik heyətin və inzibati heyətin mübadilə proqramlarına seçim prosesi təfsilatı ilə təsvir olunmuşdur. Akkreditasiya Komissiyası tərəfindən keçirilmiş müsahibələr və sənədlərin təhlili zamanı müəllimlər tərəfindən mübadilə proqramlarında iştirak etmələri üçün lazımı şəraitin yaradılmasının vacibliyi bildirilmişdir. Mübadilə proqramlarından daha çox inzibati heyətin yararlandığı müsahibələr və sənədlərin təhlili zamanı müəyyən olunmuşdur. Bu haqda universitetdə hər hansı daxili prosedurun olmadığı məlum olmuşdur.

### 7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğun təşkili vəziyyəti

7.2.3-cü indikatorda verilmiş statistikadan da göründüyü kimi 2016-2023-cü illərdə GDU-nun 25 tələbəsi Erasmus+K1, Mövlana və digər proqramlar çərçivəsində mübadilədə iştirak etmişlər. Sənədlərin təhlili zamanı mübadilənin birtərəfli qaydada həyata keçirildiyi aydın olmuşdur. Yəni GDU tələbələri mübadilə proqramları çərçivəsində xarici universitetlərdə təhsil almış, lakin həmin universitetlərdən GDU-ya tələbələrin gəlmədiyi müşahidə olunmuşdur. Akkreditasiya Komissiyası mübadilə proqramlarında iştirakın artırılması məqsədilə universitet tərəfindən ciddi konsepsiya və fəaliyyət planının hazırlanmasını tövsiyə edir.

### 7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti

Sahə səfəri zamanı universitetin beynəlmiləl universitetə çevrilmək məqsədilə çox ciddi hədəfləri olsa da, nüfuzlu beynəlxalq reytinqlərdə (QS və THE) iştirak üçün indiyədək təşəbbüslər etmədiyi müəyyən edilmişdir. GDU, əsasən "Webometrics" (ölkə üzrə 11-ci, dünya üzrə 9225-ci mövqedə), "EduRank" (ölkə üzrə 9-cu, Asiya üzrə 2876-cı, dünya üzrə 7360-cı mövqedə), "Academic Influence" (dünya üzrə 1740-cı mövqedə və "UniRank" (ölkə üzrə 28-ci, dünya üzrə 10843-cü mövqedə) kimi reytinq platformalarında yer alır. Akkreditasiya Komissiyası tərəfindən beynəlxalq reytinqlərdə lazımi yer tutmaq üçün universitetdə ciddi yol xəritəsi və məqsədyönlü fəaliyyətlərin planlanması tövsiyə olunur.

## 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar

### 7.3.7 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti

Yerində müsahibələr zamanı GDU-nun bu istiqamətdə maliyyə resursu, Özünütəhlil Hesabatında qeyd edildiyi kimi, beynəlxalq konfransların təşkilinə, xarici tərəfdaş universitetlərə akademik və inzibati heyətin müxtəlif növ ezamiyyətləri, tədqiqatçıların beynəlxalq indeksli bazalardakı elmmetrik göstəricilərinə görə həvəsləndirici mükafatların verilməsi formasında istifadə olunur.

Sahə səfəri və sənədlərin təhlili zamanı beynəlmiləlləşmə siyasətində ciddi hədəflər qarşıya qoyulmasına baxmayaraq, istər əcnəbi tələbə cəlbinin təşviqi, istər xarici professorların cəlb olunması, beynəlxalq sərgilərdə təmsil olunma və s. kimi fəaliyyətlərə GDU büdcəsindən əsaslı maliyyə resurslarının ayrılmadığı müəyyən edilmişdir. Şöbə müdiri və baş mühasiblə aparılan müsahibələrdə belə ayrılmalar barədə məlumat verilməmişdir.

### 7.3.8 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti

GDU-nun beynəlmiləlləşmə siyasətini həyata keçirən əsas struktur bölmə Beynəlxalq əlaqələr şöbəsidir. Şöbə İnnovasiyalar departamentin tərkibində fəaliyyət göstərir. Qeyd olunan fəaliyyəti həyata keçirmək üçün 4 nəfər əməkdaş mövcuddur. Struktur bölmədə fəaliyyət göstərən həmin əməkdaşlar bir illik fəaliyyət planı əsasında işləri icra edirlər. Müvafiq struktur bölmə digər struktur bölmələr ilə qarşılıqlı əlaqə şəklində fəaliyyət göstərir. Komissiya belə qənaətə gəlmişdir ki, universitetin ciddi nəticələr əldə etməsi üçün GDU-nun müvafiq fakültələrində, kafedralarında olan akademik potensialdan istifadə edilməlidir. Akkreditasiya Komissiyası beynəlmiləlləşmə siyasəti ilə əlaqəli inzibati işləri yerinə yetirən əməkdaşların fakültələrlə sıx əməkdaşlıq etməsini və akademik heyətin potensialından faydalanma istiqamətində fəaliyyət göstərmələri tövsiyə olunur.

### 7.3.9 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti

Akkreditasiya Komissiyasının keçirdiyi müsahibələr və yerində baxış zamanı Universitetin "Beynəlmiləlləşmə Siyasəti"nə uyğun olaraq icrası nəzərdə tutulmuş fəaliyyətlər üçün tələb olunan infrastrukturun mövcudluğu təsdiq olunmuşdur. Xarici tələbələr üçün təlim-tədris və yataqxana imkanları mövcuddur. Özünütəhlil Hesabatında qeyd olunmuşdur ki, beynəlmiləlləşmə siyasətində nəzərdə tutulmuş fəaliyyətlərin icrasını səmərəli təşkil etmək üçün "Nizami Gəncəvi adına dayanıqlı ağıllı şəhərlər və regionlar mərkəzi", "STEAM" laboratoriyası, "RSDTİ Klubu", "Mediasiya Mərkəzi", "Tələbə Ombudsmanı Mərkəzi", "E-öyrənmə Mərkəzi", "Müasir Təlim Mərkəzi", "Dil Resursları Mərkəzi" və s. kimi resurslar da mövcuddur. Mərkəz və laboratoriyaların mövcudluğu sahə baxışı zamanı təsdiqini tapmışdır. Həmin mərkəzlərin bir çoxunun qrant layihələri əsasında yaradılması və müvafiq avadanlıqla təmin edilməsi qeyd edilmişdir.

### 7.3.10 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti

Özünütəhlil Hesabatında universitetin tərəfdaş olaraq iştirak etdiyi beynəlxalq layihələr çərçivəsində əldə etdiyi resursların monitorinqinin layihə çərçivəsində təyin edilmiş ekspert tərəfindən icra edildiyi qeyd edilmişdir. Sahə baxışı zamanı digər hər hansı monitorinq və qiymətləndirmə barədə fikirlər və ya təsdiqedici sənədlər müəyyən edilməmişdir.

## 7.4 Beynəlmiləlləşmə performansı

### 7.4.7 Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti

GDU-nun Özünütəhlil Hesabatında əks olunduğu kimi, əldə edilən nəticələrə dair hesabatlar Elm və innovasiyalar üzrə prorektor, İnnovasiyalar departamentinin direktoru və Beynəlxalq əlaqələr şöbəsinin müdiri tərəfindən müvafiq qaydada hazırlanaraq müzakirə edilməsi üçün EŞ-ə təqdim edildiyi yerində müsahibələr və sənədlərə baxış zamanı təsdiqini tapmışdır. Komissiya belə qənaətə gəlmişdir ki, ayrı-ayrı fakültə və kafedralarda bu sahədə

aparılan işlərin, fəaliyyətlərin yerinə yetirilməsi dinamikasını izləyən mexanizm yoxdur və bu istiqamətdə lazımi fəaliyyətlərin planlanması tövsiyə olunur.

### 7.4.8 Beynəlmiləlləşmə prosesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti

Akkreditasiya Komissiyası tərəfindən müvafiq struktur bölmələrlə aparılan müsahibələr zamanı qeyd edilmişdir ki, beynəlmiləlləşmə siyasətini həyata keçirmək üçün və beynəlmiləlləşmə prosesinin inkişafına dəstək ola biləcək müəyyən ehtiyac əsaslı fəaliyyətlər həyata keçirilir. Buna misal olaraq, ingilis dili kurslarının təşkili, təlimlər, seminarlar və s. qeyd etmək olar. Ehtiyac əsaslı fəaliyyətlərin həyata keçirildiyi qeyd edilsə də, Komissiyanın tələbə və müəllimlərlə müsahibəsi zamanı onların ehtiyaclarını öyrənmək üçün mexanizmin olmadığı müşahidə olunmuşdur.

## Komissiyanın istiqamətlər üzrə təhlili

| 1. Strateji inkişaf | |
|---|---|
| **Güclü tərəflər** | 1. Regionun tələblərinə uyğun mütəxəssis hazırlığında müvafiq imic və ehtiyacları qarşılamaq əzminin mövcud olması;<br>2. Universitetin missiya, məqsəd və hədəflərinin mövcudluğu;<br>3. Strateji İnkişaf Planında təhsil, tədqiqat və innovasiya üçlüyünün öz əksini tapması;<br>4. Davamlı inkişaf üzrə müəyyən olunmuş məqsəd və hədəflərin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. GDU-nun missiya, məqsəd və hədəflərinin olmasına baxmayaraq, qarşıya qoyulan hədəflərin reallaşması üçün konkret fəaliyyətlərin aydın olaraq Strateji Planda öz əksini tapmaması;<br>2. SİP-də tədqiqat potensialının inkişafına maliyyə resurslarının ayrılması üçün müddəaların nəzərə alınmaması;<br>3. SİP-də struktur və kadr potensialının optimallaşdırılması sahəsində fəaliyyətlərin öz əksini tapmaması;<br>4. Yeni SİP-in giriş hissəsində əvvəlki SİP-in icra vəziyyəti haqqında təhlilin olmaması;<br>5. SİP-in icrasında qarşıya çıxacaq risklərin və onların həlli yollarının əks olunmaması;<br>6. Tədqiqat və innovasiyalar üzrə müəyyən olunmuş hədəflərin reallaşdırılması ilə kadr potensialı arasında uyğunsuzluğun olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. GDU-nun SİP-də nəzərdə tutulan məqsəd və hədəflərə çatmaq məqsədilə hər bir sahə üzrə reallaşdırıla biləcək təfsilatlı fəaliyyət planının hazırlanması;<br>2. Tədqiqat potensialının inkişaf etdirilməsi məqsədilə maliyyə və digər resursların ayrılması üçün SİP-in Fəaliyyət Planında müvafiq müddəaların nəzərə alınması; |

| | |
|---|---|
| | 3. Hazırlanacaq fəaliyyət planında universitetin strukturunun, kadrların optimallaşdırılması və inkişaf etdirilməsi məqsədilə təkliflər zərfinin hazırlanması;<br>4. Əvvəlki dövrü əhatə edən SİP-in icra vəziyyətinin təhlilinin həyata keçirilməsi və nəticələrə uyğun SİP-ə yeni müddəaların əlavə olunması;<br>5. SİP-in yerinə yetirilməsi zamanı gözlənilən risk və təhdidlərin nəzərə alınması üçün təkliflər hazırlanması;<br>6. Tədqiqat və innovasiyalar sahəsində nəzərdə tutulan hədəflərin yenidən nəzərdən keçirilməsi, hədəflərin GDU-nun mövcud kadr potensialına uyğunlaşdırılması;<br>7. SİP-də fəaliyyətlərin icrasına nəzarət və monitorinq mexanizminin formalaşdırılması;<br>8. SİP-də göstərilmiş hədəflərə nail olunması üçün müvafiq sahələr üzrə iş planlarının tərtibi zamanı əsas strateji hədəflərlə əlaqənin təmin olunması. |

| **2. Keyfiyyət təminatı** | |
|---|---|
| **Güclü tərəflər** | 1. GDU-da Keyfiyyət Təminatı Mərkəzinin mövcudluğu və keyfiyyət təminatına aid lazımi sənədlərin əlçatan olması;<br>2. Universitetdə keyfiyyət təminatı siyasəti sənədinin mövcudluğu;<br>3. Universitetdə tələbə və müəllimlər arasında məmnunluq sorğularının keçirilməsi. |
| **Zəif tərəflər** | 1. Keyfiyyət Təminatı Mərkəzinin akademik, elmi tədqiqat və digər sahələri kompleks əhatə edən idarəetmə siteminə malik olmaması;<br>2. Akademik, elmi tədqiqat və keyfiyyət təminatı sahəsində fəaliyyət göstərən heyətin keyfiyyət təminatı ilə əlaqədar yetərincə məlumatlı olmaması;<br>3. Aparılan sorğuların suallarının universitet fəaliyyətini tam əhatə etməməsi və nəticələrin analitik və statistik alətlərlə müqayisəli şəkildə emal edilməməsi; |

| | |
|---|---|
| | 4. Keyfiyyət təminatı komissiyasının tərkibinin formalaşdırılmaması;<br>5. Keyfiyyət təminatı ilə bağlı sənədlərin hesabat dövrünün yalnız sonuncu ilində təsdiq edilməsi;<br>6. Daxili keyfiyyət təminatına dair monitorinq və qiymətləndirmənin davamlı şəkildə aparılmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Müvafiq qanunvericilik və beynəlxalq standartlara uyğun müasir idarəetmə modelləri əsasında akademik, elmi-tədqiqat və idarəetmə fəaliyyətlərini kompleks şəkildə əhatə edən Keyfiyyət Təminatı Mərkəzinin yaradılması;<br>2. Universitetin müvafiq sahələr üzrə idarəedici kadr heyətinə müasir keyfiyyət təminatına dair təlimlərin keçirilməsi;<br>3. Tələbə və akademik heyət arasında keçirilən sorğuların mövcud vəziyyətinin qiymətləndirilməsi, perspektivlər istiqamətində tərtib edilərək nəticələrin analitik və statistik alətlərdən istifadə etməklə müqayisəli təhlil edilməsi;<br>4. Mütəmadi monitorinq və əks-əlaqə mexanizminin yaradılması, Keyfiyyət Təminatı və Qiymətləndirmə Komissiyasının formalaşdırılaraq davamlı fəaliyyətinin təmin edilməsi;<br>5. Keyfiyyət təminatı sənədlərinin bütün sahələri və dövrləri əhatə edəcək səviyyədə davamlı təkmilləşdirilməsi;<br>6. Müasir informasiya texnologiyalarından istifadə etməklə effektiv daxili keyfiyyət təminatı monitorinq sisteminin yaradılması. |

| **3.Təlim və tədris** | |
|---|---|
| **Güclü tərəflər** | 1. Təlimlərdən keçmiş akademik məsləhətçilərin (tyutor) mövcudluğu;<br>2. Təlim və tədrisin elektron idarəedilməsi məqsədilə tətbiqi nəzərdə tutulan Eduman platformasının professor-müəllim heyəti, tyutor və tələbələr tərəfindən dəstəklənməsi;<br>3. Universitetlərarası ikili diplom proqramlarının yerinə yetirilməsi üçün təşəbbüslərin mövcudluğu; |

| | |
|---|---|
| | 4. Strateji Planda “Müasir təlim texnologiyalarının tətbiqi ilə müəllimlər və tələbələr üçün effektiv təlim və öyrənmə mühiti yaratmaq” prinsipinin əsas məqsəd olaraq seçilməsi;<br>5. 2023/2024-cü tədris ilində 6 MBA ixtisaslaşması üzrə tələbə qəbulunun həyata keçirilməsi;<br>6. Fənlər üzrə təlim nəticələri ilə ixtisasın təlim nəticələri arasında uyğunluğun təmin edilməsi. |
| **Zəif tərəflər** | 1. Tədrisin təşkili strukturları ilə tədris prosesinə nəzarət edən strukturlar arasında qarşılıqlı əlaqənin zəif olması;<br>2. Bir sıra kafedraların fəaliyyətində paralel tədqiqat və tədris fəaliyyətinin mövcudluğu;<br>3. Dərs yükünün bölgüsü zamanı bir sıra kafedralarda mövcud qanunvericiliyin tələblərinin gözlənilməməsi və daha effektiv tədris prosesinin qurulmaması;<br>4. 2022-ci ilə qədər olan tədris planlarında bəzi ixtisaslaşmaların tədris planlarının AR TN 30.09.2016-cı il tarixli 640 nömrəli əmri ilə təsdiq edilmiş dövlət standartlarının tələblərinə uyğun tərtib edilməməsi;<br>5. Bəzi tədris vəsaitlərinin məzmunca müasir çağırışlara uyğunlaşdırılmaması, ixtisaslar üzrə prioritet istiqamətlərdə tədris resurslarının sistemli şəkildə yenilənməməsi;<br>6. Magistratura səviyyəsi üzrə bəzi ixtisasların universitetin profilinə və əmək bazarının tələbələrinə uyğun olaraq seçilməməsi;<br>7. Təhsil proqramlarının hazırlanması zamanı işəgötürənlərin prosesə cəlb edilməsində dayanıqlı mexanizmin olmaması;<br>8. Professor-müəllim heyətinin xarici dil biliklərinin zəif olması, bu istiqamətdə qısamüddətli təlimlər və ixtisasartırma işinin qurulmaması;<br>9. Elektron universitet modelinə keçidlə əlaqədar fəaliyyət planının olmaması və elektron sistemin tətbiqinə sürətli keçidin planlaşdırılmaması;<br>10. Tədris prosesində yeni təlim texnologiyaları və metodlarının tətbiqinin zəif olması;<br>11. Məzunların əmək bazarındakı iştirakının izlənilməməsi və bununla əlaqədar karyera məsləhət xidmətinin qurulmaması; |

| | |
|---|---|
| | 12. Professor-müəllim heyətinin İKT biliklərinin zəif olması və müasir informasiya texnologiyalarının imkanlarından yararlanmaları məqsədilə təlimlərin təşkil olunmaması;<br>13. Təlim və tədrisin elektron idarəetmə sisteminin, tədris prosesində rəqəmsal həllərin (Digital University) tətbiqinin zəif olması;<br>14. ATM-də tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə üsullarının zəif tətbiq edilməsi;<br>15. Təhsil proqramlarının sistematik olaraq monitorinq edilməməsi, əmək bazarı və cəmiyyətin tələblərinə uyğun yenilənməməsi. |
| **Komissiyanın tövsiyəsi** | 1. Tədris işləri üzrə prorektorluq, fakültələr və kafedralar arasında səmərəli qarşılıqlı əlaqələrin qurulması üçün Tədris departamenti, İnnovasiyalar departamenti kimi mərkəzləşdirilmiş izafi strukturların yenidən formalaşdırılması;<br>2. Kafedralarda elmi-tədqiqat və tədris fəaliyyətinin təhlil edilməsi, paralel tədris və tədqiqat fəaliyyətlərinin aradan qaldırılması üçün müvafiq tədbirlərin görülməsi;<br>3. Professor-müəllim heyətinin dərs yüklərinin bölgüsü aparılarkən mövcud qanunvericiliyin tələblərinə ciddi əməl olunması;<br>4. Tədris planlarının mövcud qanunvericiliyin tələblərinə uyğun və vaxtında tərtib olunmasına ciddi nəzarət edilməsi;<br>5. Fənn proqramlarının, sillabusların və dərs vəsaitlərinin müasir standartlar və tələblər nəzərə alınmaqla hazırlanması, təsdiq edilməsi, bu istiqamətdə nəzarətin gücləndirilməsi;<br>6. Magistratura səviyyəsi üzrə ixtisasların universitetin profilinə, imkanlarına və əmək bazarının tələbələrinə uyğunlaşdırılması və təkmilləşdirilməsi;<br>7. Təhsil proqram və planlarının hazırlanması zamanı işəgötürənlərin prosesə cəlb edilməsi və bu prosesdə dayanıqlı mexanizmin yaradılması;<br>8. Professor-müəllim heyətinin xarici dil biliklərinin artırılması istiqamətində təşviq mexanizminin qurulması və müvafiq fəaliyyət planının hazırlanması;<br>9. Elektron universitet modelinə sürətli keçidlə əlaqədar işlək fəaliyyət planının hazırlanması və Eduman sisteminin universitetin bütün strukturlarını əhatə etməsi üçün tədbirlərin görülməsi; |

| | |
|---|---|
| | 10. Tədris prosesində yeni təlim texnologiyalarının və tədris metodlarının tətbiqinə nəzarət və monitorinq mexanizminin formalaşdırılması;<br>11. Məzunların əmək bazarında izlənilməsi məqsədilə müvafiq fəaliyyətin strukturda nəzərə alınması və Karyera məsləhət xidmətinin yaradılması;<br>12. Professor-müəllim heyətinin İKT biliklərinin artırılması istiqamətində fəaliyyət planının hazırlanması və təlimlərin təşkil olunması;<br>13. Təlim və tədris prosesində rəqəmsal həllərinin tətbiqi ilə əlaqəli tədbirlər zərfinin hazırlanması;<br>14. Beynəlxalq qabaqcıl təcrübələr öyrənilməklə tələbəyönümlü öyrənmə, tədris və qiymətləndirmə üsullarının tətbiq edilməsi;<br>15. Təhsil proqramlarının sistematik olaraq monitorinq edilməsi, vaxtaşırı əmək bazarı və cəmiyyətin tələblərinə uyğun yenilənməsinin təşkili;<br>16. Tədris planlarında ayrı-ayrı fənlərin ümumi yükü hesablanarkən bir kreditin tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq yükünə bərabər olması prinsipinin gözlənilməsi;<br>17. İxtisaslar üzrə qəbul planı layihəsi hazırlanarkən universitetin mövcud imkanları, habelə ixtisasın açılmasının maliyyə baxımından səmərəliliyinin təhlil olunması;<br>18. Tələbələrin biliyinin şəffaf qiymətləndirilməsi məqsədilə tələbəyönümlü imtahan və qiymətləndirmə mexanizminin formalaşdırılması;<br>19. Məzunların davamlı yenilənən informasiyalarından ibarət məlumat bazasının yaradılması və mövcud karyera imkanları haqqında onların məlumatlandırılması;<br>20. Dərs yüklərinin bölgüsü zamanı daxili əvəzçilər və daxili saathesabı üçün nəzərdə tutulan yüklərin optimallaşdırılması;<br>21. Təlim və tədris resurslarının tələbələr üçün  əlçatanlığının təmin olunması üçün rəqəmsal platformada nəzərə alınması. |

## 4. Elmi tədqiqat

| | |
|---|---|
| **Güclü tərəflər** | 1. SİP-də universitetin elmi-tədqiqat istiqamətində strateji məqsəd və hədəflərin əks olunması;<br>2. İnnovasiyaların inkişafı üçün yeni ekosistemin yaradılması istiqamətindəki fəaliyyətlərin olması;<br>3. Elmi-tədqiqatlar üçün mükafatlandırmanın mövcudluğu; ("Motivasiya və mükafatlandırma siyasəti" və "Professor-müəllim heyətinin elmi və metodik fəaliyyətinin stimullaşdırılması üçün əsasnamə")<br>4. Universitetin "Elmi xəbərlər" jurnalının nəşr olunması və jurnalın "Pedaqogika", "Tarix" və "Filologiya" bölmələrinin AAK-ın "Azərbaycan Respublikasında məqalələrin dərc olunmasi tövsiyə edilən dövri elmi nəşrlər" siyahısına daxil olması;<br>5. Tələbə Elmi Cəmiyyətinin fəaliyyətinin aktiv olması;<br>6. "Antiplagiat və akademik dürüstlük siyasəti" sənədinin təsdiq və tətbiq edilməsi. |
| **Zəif tərəflər** | 1. Elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi və inkişaf etdirilməsi üçün müvafiq struktur bölmənin mövcud olmaması;<br>2. Elmi-tədqiqat strategiyasının olmasına baxmayaraq, strategiyanın reallaşdırılması üçün işlək mexanizmin olmaması;<br>3. Elmi tədqiqatçılar üçün differensial əmək haqqı mexaniziminin yetərsiz olması;<br>4. Elmi-tədqiqat sahəsində xarici ali təhsil müəssisələri və elmi tədqiqat qurumları ilə əməkdaşlığın yetərli olmaması;<br>5. Beynəlxalq elmmetrik bazalarda göstəricilərin zəif olması;<br>6. Elmi-tədqiqat layihələrinin (qrantların) olmaması;<br>7. GDU tərəfindən elmi-tədqiqat üçün ayrılan maddi resursların qənaətbəxş miqdarda olmaması;<br>8. Təhsil proqramları üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının tələb olunan 5 %-dən az olması;<br>9. 2018-ci ildən sonra elmi-tədqiqat fəaliyyətindən heç bir gəlir əldə edilməməsi;<br>10. "Strikeplagiarism" antiplagiat proqramının tətbiqinin əhatəliliyinin geniş olmaması. |

| | |
|---|---|
| **Komissiyanın tövsiyəsi** | 1. Elmi-tədqiqat fəaliyyətin dəstəklənməsi və inkişaf etdirilməsi üçün müvafiq struktur bölmənin yaradılması, Doktorantura şöbəsinin yaradılması haqqında əmrin icra olunması, şöbəyə müdir və işçilərin təyin edilməsi və fəaliyyətə başlaması;<br>2. "Elmi-tədqiqat siyasəti" adlanan sənəddə müvafiq düzəliş və əlavələr etməklə və ya ayrıca direktiv bir sənəd vasitəsilə elmi-tədqiqat strategiyasının formalaşdırılması və tətbiq edilməsi;<br>3. Tədqiqatçılar üçün motivasiya mexaniziminin təkmilləşdirilməsi, beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil olan elmi nəşrlərdə dərc edilmiş məqalələrə görə mükafatlandırılmanın tətbiq edilməsi;<br>4. Elmi-tədqiqat sahəsində xarici ali təhsil müəssisələri və elmi-tədqiqat qurumları ilə əməkdaşlığın gücləndirilməsi üçün məqsədyönlü tədbirlərin görülməsi;<br>5. Beynəlxalq elmmetrik bazalarda göstəricilərin gücləndirilməsi məqsədilə tədqiqatçılar üçün motivasiya mexaniziminin qurulması;<br>6. GDU əməkdaşlarının elmi-tədqiqat layihələrində, o cümlədən qrant layihələrində aktiv iştirakının təmin edilməsi üçün müvafiq tədbirlərin görülməsi;<br>7. Elmi-tədqiqat üçün ayrılan maddi resursların artırılması və bu vəsaitlərin məqsədəuyğun şəkildə xərclənməsinin təmin edilməsi;<br>8. Tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının artırılması üçün məqsədyönlü tədbirlərin həyata keçirilməsi;<br>9. Elmi-tədqiqat fəaliyyətindən gəlir əldə edilməsi istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsi;<br>10. Dissertasiya işlərinin, dərslik və dərs vəsaitləri və digər tədris və tədqiqat fəaliyyətlərinin nəticələrinin antiplagiat proqramı - "Strikeplagiarism" vasitəsilə yoxlanılmasının əhatəliliyinin artırılması. |

## 5. İdarəetmə sistemi

| | |
|---|---|
| **Güclü tərəflər** | 1. İşəgötürənlər, maraqlı tərəflər, ictimayyətin nüfuzlu təmsilçiləri ilə qarşılıqlı əlaqələrin mövcudluğu;<br>2. Əlavə maliyyə resurslarının əldə edilməsi üçün imkanların mövcud olması;<br>3. Əlavə maliyyə resurslarının cəlb olunması və artırılması üzrə fəaliyyət istiqamətlərinin genişləndirilməsinin universitetin 2023-2028-ci illəri əhatə edən "Strateji Plan"ında da öz əksini tapması;<br>4. GDU-nun 2023-2028-ci illər üzrə "Strateji Plan"ında "Startaplara ilkin biznes fəaliyyətinin təşkili məqsədilə maliyyə dəstəyinin tapılması üçün köməklik göstərmək" və "Maliyyə mənbələrini diversifikasiya etmək və artırmaq" adlı fəaliyyətlərin nəzərə alınması; |
| **Zəif tərəflər** | 1. İdarəetmə strukturlarının fəaliyyətinin monitorinqi, qiymətləndirilməsi, optimallaşdırılması və dövri hesabatı üçün mexanizmin mövcud olmaması;<br>2. Bir sıra akademik, inzibati strukturların paralel fəaliyyətinin mövcud olması və kadrların effektiv idarə edilməməsi;<br>3. İnzibati və tədris-köməkçi heyətin sayının optimallaşdırılmaması və ixtisas uyğunluğunun təminatı istiqamətində zəruri tədbirlərin görülməməsi;<br>4. İşçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılmaması, ixtisasartırma və peşəkarlıq səviyyəsinin planlı şəkildə artırılmasına dair tədbirlər planının olmaması;<br>5. SİP-in icrasına nəzarət mexanizminin olmaması və hesabatlılığın zəif olması;<br>6. İdarəetmə strukturlarında (fakültələr, kafedralar və d.) sənədləşmə prosesinin formal xarakter daşıması və qanunvericiliyin tələblərinin gözlənilməməsi;<br>7. Universitetin marketinq strategiyasının mövcud olmaması;<br>8. Universitetin rəsmi veb saytının yalnız Azərbaycan dilində olması;<br>9. Sənəd dövriyyəsi, kitabxana resurslarının idarə edilməsi, elmi-tədqiqat nəticələrinə dair stimullaşdırmanın təşkili, keyfiyyət təminatında informasiyanın idarəedilməsi funksiyalarını yerinə yetirmək üçün elektron informasiya idarəetmə sisteminin mövcud olmaması;<br>10. GDU-da ictimaiyyətlə əlaqələr üzrə daxili və xarici maraqlı tərəflər üçün vahid kommunikasiya strategiyasının olmaması; |

| | |
|---|---|
| | 11. Kafedralarda fəaliyyət istiqamətlərinə uyğun olan təsdiqlənmiş əsasnamələrin mövcud olmaması və illər üzrə hazırlanmış iş planlarının məzmunca eyni olması;<br>12. Maliyyə resurslarının planlaşdırılması və istifadəsi zamanı universitetin bir sıra strukturlarının məlumatsızlığı və xərclər smetasında nəzərə alınmaması; |
| **Komissiyanın tövsiyəsi** | 1. Universitetdə idarəetmə strukturlarının fəaliyyətinin monitorinqi, qiymətləndirilməsi, optimallaşdırılması və dövri hesabatı üçün mexanizmin yaradılması;<br>2. Kadrların effektiv idarə olunması üçün bir sıra akademik, inzibati strukturların fəaliyyətində paralleliyin aradan qaldırılması və rentabelliyin təmin edilməsi;<br>3. İnzibati və tədris-köməkçi heyətin sayının optimallaşdırılması və ixtisas uyğunluğunun təmin olunması istiqamətində zəruri tədbirlərin görülməsi;<br>4. GDU-da əməkdaşların fəaliyyətinin qiymətləndirilməsi mexanizminin formalaşdırılması, ixtisasartırma və peşəkarlıq səviyyəsinin planlı şəkildə artırılması məqsədilə fəaliyyət planının hazırlanması;<br>5. SİP-in icrasına nəzarət mexanizminin formalaşdırılması və davamlı hesabatlılığın təmin olunması;<br>6. Universitetdə tədris prosesinə nəzarət funksiyasını icra edən müvafiq şöbələr tərəfindən tədrisin təşkil olunması üçün (fakültə, kafedralar) lazım olan müvafiq sənədləşmə prosesinə nəzarətin gücləndirilməsi, qanunvericiliyin tələblərinə ciddi əməl edilməsi;<br>7. GDU-nin hədəflərinə uyğun olan marketinq strategiyasının formalaşdırılması;<br>8. GDU-nun rəsmi internet saytının təkmilləşdirilməsi və Azərbaycan dili ilə yanaşı digər dillərdə (ingilis və s.) təqdim edilməsi;<br>9. Sənəd dövriyyəsi, kitabxana resurslarının idarəedilməsi, elmi-tədqiqat nəticələrinə dair stimullaşdırmanın təşkili, keyfiyyət təminatı fəaliyyətlərini əhatə edən elektron informasiya idarəetmə sistemlərinin tətbiq edilməsi və ya mövcud EduMan sisteminə inteqrasiyasının təmin edilməsi;<br>10. GDU-nun ictimaiyyətlə əlaqələr üzrə bütün maraqlı tərəflər nəzərə alınaraq vahid kommunikasiya strategiyasının formalaşdırılması;<br>11. Kafedraların fəaliyyət istiqamətlərinə uyğun olaraq əsasnamələrinin təsdiqlənməsi və illər üzrə hazırlanan iş planlarının praktik fəaliyyətlərə uyğunlaşdırılmasının təmin edilməsi; |

| | |
|---|---|
| | 12. Maliyyə resurslarının planlaşdırılması, istifadəsi zamanı universitetin bütün fəaliyyət sahələrinin nəzərə alınması;<br>13. Elmi dərəcəli professor-müəllim heyətinin orta yaş həddinin 50-dən yuxarı olması faktını nəzərə alaraq, gənc müəllimlərin elmi fəaliyyətə cəlb olunması üçün əlverişli və işlək təşviq mexanizminin formalaşdırılması; |

| **6. İnfrastruktur** | |
|---|---|
| **Güclü tərəflər** | 1. STEAM laboratoriyası və bənzər innovativ strukturların mövcudluğu;<br>2. “Kimyəvi materialşünaslıq” adlı elmi-tədqiqat laboratoriyasının fəaliyyət göstərməsi və Kataliz və Qeyri-üzvi Kimya İnstitutu ilə birgə tədqiqat layihəsinin həyata keçirilməsi;<br>3. “Dizayn, prototipləmə və test” kimi ehtiyacların qarşılanması, irihəcmli məlumatların emalına, süni intellektə əsaslanan həllərin dəstəklənməsi məqsədilə tədqiqatçılara “STEAM laboratoriyası”nda şəraitin yaradılması;<br>4. 350 mindən çox ümumi kitab fondunun və bütün tədris binalarında 13 oxu zalının mövcudluğu;<br>5. Eşitmə və görmə məhdudiyyəti olan təhsilalanlar üçün bəzi avadanlıqların (və tədris materialların) mövcudluğu;<br>6. Yeni təmir olunmuş, dövrün tələblərinə cavab verən yataqxana kompleksinin mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Təlim prosesini həyata keçirmək üçün auditoriyalarda və laboratoriyalarda proqram təminatı və müasir avadanlıqların çatışmazlığı, auditoriyalarda təhsilalanların internetə çıxışının məhdud olması;<br>2. Bəzi tədris binalarında kitabxana və oxu zallarında hər tələbəyə düşən faydalı sahənin normativə uyğun olmaması;<br>3. Tədris infrastrukturun monitorinqinin sistematik olaraq təşkil olunmaması, infrastrukturla əlaqədar ehtiyacların mütəmadi olaraq müəyyənləşdirilməməsi; |

| | |
|---|---|
| | 4. GDU-nun ixtisaslarının xüsusiyyətinə və strateji hədəflərinə görə elmi-tədqiqat laboratoriyalarının sayının olduqca az olması, həmçinin "Yarımkeçiricilər fizikasının aktual problemləri" elmi-tədqiqat laboratoriyasının fəaliyyətsiz olması;<br>5. Nəşriyyat fəaliyyətinin və avadanlıqlarının qənaətbəxş səviyyədə olmaması, professor-müəllim heyətinin hazırladığı tədris və elmi-metodiki vəsaitlərin GDU-nun öz nəşriyyatnda nəşr olunmaması;<br>6. Tibb xidmətinin təşkilinə dair hesabatlılığın qeyri-müəyyən olması. |
| **Komissiyanın tövsiyəsi** | 1. Tədris və elmi-tədqiqat laboratoriyalarında avadanlıqların müasirləşdirilməsi, fənlərin tədrisi üçün vacib olan proqram təminatları və sürətli internetə çıxışın təmin edilməsi;<br>2. Bəzi tədris binalarında kitabxana və oxu zallarında hər tələbəyə düşən faydalı sahənin normativlərə uyğunlaşdırılması, kitabxanaya dair məlumat sisteminin rəqəmsallaşdırılması, kitabxana resurslarının əlçatanlığının təmin edilməsi;<br>3. Tədris infrastrukturunun monitorinqinin sistematik olaraq təşkil edilməsi, infrastrukturla əlaqədar ehtiyacların hər tədris ilində dəyişən təhsilalan və təhsilverənlərin sayını nəzərə almaqla mütəmadi olaraq nəzərdə saxlanılması;<br>4. Yeni elmi-tədqiqat infrastrukturunun yaradılması və müasir tədqiqatların aparılması üçün maddi-texniki bazanın gücləndirilməsi;<br>5. Nəşriyyat işinin təkmilləşdirilərək zəruri avadanlıqlarla təchiz edilməsi və professor-müəllim heyətinin hazırladığı tədris və elmi-metodiki vəsaitlərin nəşrinə müvafiq şəraitin yaradılması;<br>6. Tibb xidmətinin göstərilməsi işində hesabatlılığın təmin edilməsi. |

| **7. Beynəlmiləlləşmə** | |
|---|---|
| **Güclü tərəflər** | 1. SIP-ə uyğun sənədləşdirilmiş 2023-2028-ci il üçün beynəlmiləlləşmə siyasət sənədinin mövcudluğu;<br>2. Xarici ali təhsil müəssisləri ilə əlaqələrin mövcudluğu;<br>3. Beynəlxalq təhsil layihələrində iştirak etməsi; |

| | |
|---|---|
| | 4. Mübadilə proqramlarında iştirak imkanlarının mövcudluğu;<br>5. İkili diplom proqramının mövcudluğu. |
| **Zəif tərəflər** | 1. Beynəlmiləlləşmə siyasətini həyata keçirən struktur bölmələrdəki uyğunsuzluq;<br>2. Son illərdə beynəlxalq tələbə qəbulunda azalmanın müşahidə olunması;<br>3. Əcnəbi professor-müəllim heyətinin təlim-tədris və tədqiqat prosesinə cəlb edilməməsi;<br>4. İngilis dilində tədris aparılan ixtisaslarda kadr portensialının kifayət qədər olmaması;<br>5. Mübadilə proqramlarında akademik heyətin iştirakı üçün lazımi imkanların olmaması;<br>6. Tələbə mobilliyində iştirak üçün təşviq mexanizminin olmaması. |
| **Komissiyanın tövsiyəsi** | 1. GDU-nun geniş profilli universitet olduğunu nəzərə alaraq beynəlmiləlləşmə siyasətinin yenidən formalaşdırılması, Beynəlxalq əlaqələr üzrə prorektorluğun və müstəqil Beynəlxalq əlaqələr şöbəsinin yaradılması;<br>2. GDU-nun əcnəbi təhsilalanların sayının artırılması üçün yeni konsepsiyanın hazırlanması və potensial əcnəbi tələblərin cəlbi üçün xarici və yerli təhsil platformaları ilə əməkdaşlıq edilməsi;<br>3. Yüksək akademik və tədqiqat göstəricilərə malik əcnəbi professor-müəllim heyətinin təlim-tədris və tədqiqat prosesinə cəlb olunması mexanizimin formalaşdırılması və sayının artırılması;<br>4. GDU-nun beynəlmiləlləşməsi üçün inglis dilində tədris olunan ixtisaslarda keyfiyyətli mütəxəssis hazırlığına diqqətin artırılması;<br>5. Universitetdə akademik heyətin inkişafı üçün mübadilə proqramlarında iştirak imkanlarının genişləndirilməsi və beynəlxalq təqaüdlərin alınması üçün dəstək mexanizminin yaradılması;<br>6. Tələbələrin tərəfdaş universitetlərdə təhsil almaları və fərqli mədəniyyətlərlə tanış olmaları üçün imkanların genişləndirilməsi məqsədilə təşviq mexanizminin qurulması, beynəlxalq tələbələrin universitetə cəlb olunması və tələbələr üçün müasir texnologiyalar vasitəsi ilə distant təhsil imkanlarının yaradılması;<br>7. Müxtəlif qrant və mobillik proqramlarında iştirak etmək üçün imkanların genişləndirilməsi ilə yanaşı akademik heyətin bu proqramlarda iştirakının motivasiya edilməsi; |

| | |
|---|---|
| | 8. Beynəlmiləlləşmə fəaliyyətinin monitorinq və qiymətləndirilməsi üçün mexanizimin formalaşdırılması. |

## Komissiyanın dövlət standartlarının yerinə yetirilməsinə dair qeydləri

GDU-nun fəaliyyətinin təhlili və qiymətləndirilməsi (güclü tərəflər, zəif tərəflər, tövsiyələr olmaqla) Komissiya tərəfindən institusional akkreditasiya meyarlarına uyğun olaraq müvafiq 7 istiqamət üzrə aparılmışdır. Qiymətləndirmənin yekunu olaraq ATM-də müşahidə edilmiş çatışmazlıqların aradan qaldırılması üçün Komissiya tərəfindən hər bir istiqamət üzrə tövsiyələr təqdim edilmişdir (Strateji inkişaf istiqaməti üzrə 8; Keyfiyyət təminatı istiqaməti üzrə 6; Təlim və tədris istiqaməti üzrə 21; Elmi-tədqiqat istiqaməti üzrə 10 ; İdarəetmə istiqaməti üzrə 13 ; İnfrastruktur istiqaməti üzrə 6; Beynəlmiləlləşmə istiqaməti üzrə 8 tövsiyə olmaqla, ümumilikdə 72 tövsiyə).

Yuxarıda qeyd olunanları nəzərə alaraq, növbəti institusional akkreditasiya qiymətləndirilməsinədək aşağıda qeyd olunan tədbirlərin GDU tərəfindən həyata keçirilməsi məqsədəuyğun hesab edilir:

- Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına nəzarəti təmin etmək məqsədilə Akkreditasiya Şurasının qərarından sonrakı 3 (üç) ay müddətində müvafiq fəaliyyət planının hazırlanaraq təsdiq olunması (TKTA ilə razılaşdırılmaqla);
- Agentlik tərəfindən fəaliyyət planının icrasına nəzarətin təmin edilməsi məqsədilə fəaliyyət planında qeyd edilmiş işlərin icrasına dair illik hesabatların TKTA-ya təqdim edilməsi.

## Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi

Təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə Komissiyanın yekun rəyi aşağıdakı kimidir:

- ATM-də keçirilmiş institusional akkreditasiya qiymətləndirilməsinin yekunu olaraq, Gəncə Dövlət Universitetinin müvafiq istiqamətlər üzrə fəaliyyətinin qəbul olunmuş dövlət təhsil standartlarına və digər normativ hüquqi aktların tələblərinə “qismən uyğundur” hesab edilməsi;
- Gəncə Dövlət Universitetinin qüvvədə olan akkreditasiya şəhadətnaməsinin müddətinin növbəti 2 (iki) il üçün uzadılması və Gəncə Dövlət Universitetinin 1 (bir) ildən sonra təkrar akkreditasiya olunması məqsədəuyğun hesab edilir.